AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

## SCIENTIFIC WORK

International Scientific Journal

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 19 Sayı: 12**

# SCIENTIFIC WORK

**International Scientific Journal**

**Volume: 19 Issue: 12**

**2025**

## Beynəlxalq indekslər / International Indices

ISSN: 2663-4619
e-ISSN: 2708-986X
DOI: 10.36719

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© elmmerkezi@aem.az
© info@aem.az
© aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Redaktor**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-8956-6892
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçiləri**

**Doktorant Nərgiz SƏLİMOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

**Doktorant Humay GÜLMƏLİYEVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
https://orcid.org/0009-0009-1042-4169
humayalibayova@gmail.com

**magistrant Elza İSGƏNDƏRLİ /** Ağdaş Dövlət Humanitar Kolleci / Azərbaycan
https://orcid.org/0009-0009-1177-331X
isgenderlielza@yahoo.com

**Tədqiqatçı Leylaxanım HACIYEVA,** Azərbaycan Elm Mərkəzi / Azərbaycan
https://orcid.org/0009-0005-4581-2269
lhaciyeva37@gmail.com

**Dillər üzrə redaktorlar**

**Assoc. Prof. Dr. Nəriman SEYİDƏLİYEV**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Könül ABDURƏHMANOVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan

**Elm sahələri üzrə redaktorlar**

**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Əli ZALOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yaşar MEHRƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc VƏLİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəfail HƏSƏNOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Elza ORUCOVA**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**PhD. Əzizə HÜSEYNOVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**REDAKSİYA HEYƏTİ**

**HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR**

**Prof. Dr. Möhsün NAĞISOYLU**, AMEA Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Aktolkın KULSARIYEVA**, Abay adına Qazax Milli Pedaqoji Universiteti / Qazaxıstan
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Bilal GÖKKIR**, İstanbul Universiteti / Türkiyə
**Prof. Dr. Juliboy ELTAZAROV**, "İpək Yolu" Beynəlxalq Turizm və Mədəni İrs Universiteti / Özbəkistan

**Prof. Dr. Mehmet YÜCE**, Bursa Uludağ Universiteti / Türkiyə
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Kərim ŞÜKÜROV**, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, İqtisadi Siyasət İnstitutu / Qazaxıstan
**Prof. Dr. İzzət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Boris KAYQORODOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Rüfət RÜSTƏMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Bakı Mühəndislik Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Dövlət Özbək dili və Ədəbiyyatı Universiteti / Özbəkistan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Məhərrəm MƏMMƏDLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Yelena ŞIŞKİNA**, Həştərxan Dövlət Memarlıq-İnşaat Mühəndisliyi Universiteti / Rusiya
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Aqil ŞİRİNOV**, Azərbaycan İlahiyyat İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Bisserka VELEVA**, Müqəddəs Kliment Oxridskiy adına Sofiya Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Sevda AXUNDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assos. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Xatirə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Valentin PETRUŞENKO**, Paisiy Xilendarskiy adına Plovdiv Universiteti / Bolqarıstan
**Assoc. Prof. Dr. Aydan XƏNDAN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin BAYRAMOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Rövşən VƏLİYEV**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Afaq İSMAYILOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Əbülfət PƏLƏNGOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Cavid İSMAYILOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Aqşin ƏLİYEV**, Pekin Xarici Dillər Universiteti / Çin
**Dr. Müjkan MƏMMƏDZADƏ**, Azərbaycan İdman Akademiyası / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Səlcuq Universiteti / Türkiyə

## TƏBİƏT ELMLƏRİ

**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Yasin BABAYEV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Georgi DUKA**, Moldova Elmlər Akademiyası / Moldova
**Prof. Dr. Məsud AŞİNA**, Kopenhagen Universiteti / Danimarka
**Prof. Dr. Turhan ÇETİN**, Qazi Universiteti / Türkiyə
**Prof. Dr. Bahadur GALANDAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Nikolay BRİKO**, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universiteti / Rusiya
**Prof. Dr. Mehmet KARATAŞ**, Necmettin Erbakan Universiteti / Türkiyə
**Prof. Dr. Mətanət ƏFƏNDİYEVA**, Milli İdman Tibbi və Reabilitasiya İnstitutu / Rusiya
**Prof. Dr. Duyğu KILIÇ**, Amasya Universiteti / Türkiyə
**Prof. Dr. Şahanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Mehmet ÜNLÜ**, Marmara Universiteti / Türkiyə
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. David MENABDE**, Kutaisi Dövlət Universiteti / Gürcüstan
**Prof. Ali AZQANİ**, Tayler Texas Universiteti / ABŞ
**Assoc. Prof. Dr Büşra BİLAL**, Ali Cinnah Universiteti / Pakistan İslam Respublikası
**Assoc. Prof. Dr. Fuad KƏRİMLİ**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Ramiz ƏHLİMANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Dr. Svetlana QORNOVSKAYA**, Beloserkovsk Milli Aqrar Universiteti / Ukrayna
**Dr. Asif MANAFOV**, ARETN Zoologiya İnstitutu / Azərbaycan
**Dr. Erdəyliem TÖLEQENOV**, Qızlar Universiteti / Qazaxıstan

**RİYAZİYYAT VƏ MEXANİKA ELMLƏRİ**

**Prof. Dr. Yusif MƏMMƏDOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Məsud ƏFƏNDİYEV**, “Helmholtz” Elmi-Tədqiqat Mərkəzi / Almaniya
**Prof. Dr. Arzu SƏRDARLI**, Kanada Birinci Millətlər Universiteti / Kanada
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Andrei VOLODIN**, Regina Universiteti / Kanada
**Prof. Dr. Qərib MÜRŞÜDOV**, Molekulyar Biologiya tədqiqat İnstitutu / Böyük Britaniya
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. Həmzəağa ORUCOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Anar KAZIMOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Yusif ŞÜKÜRLÜ**, AMEA Şəki Regional Elmi Mərkəzi / Azərbaycan
**Assoc. Prof. Dr. Oruc HÜSEYNOV**, Gəncə Dövlət Universiteti /Azərbaycan
**Dr. Billurə HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**TEXNİKA ELMLƏRİ**

**Prof. Dr. Elşən HƏŞİMOV**, Azərbaycan Texnologiya Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elçin CAVADOV**, Gəncə Dövlət Universiteti / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
https://orcid.org/0000-0002-5274-0356
tedqiqat1868@gmail.com

**Editor**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
https://orcid.org/0000-0001-8956-6892
huseynova.mahira@yandex.ru

**Assistant editors**

**PhD. Student Nargiz SALIMOVA**, Azerbaijan University of Languages / Azerbaijan
https://orcid.org/0000-0001-5499-7035
salimovanargiz.adu@gmail.com

**PhD. Student Humay GULMALIYEVA**, Baku State University / Azerbaijan
https://orcid.org/0009-0009-1042-4169
humayalibayova@gmail.com

**Master student Elza ISKANDARLI**, Aghdash State Humanitarian College / Azerbaijan
https://orcid.org/0009-0009-1177-331X
isgenderlielza@yahoo.com

**Researcher Leilakhanim HAJİYEVA**, Azerbaijan Science Center / Azerbaijan
https://orcid.org/0009-0005-4581-2269
lhaciyeva37@gmail.com

**Language editors**

**Assoc. Prof. Dr. Nariman SEYIDALIYEV**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Konul ABDURAHMANOVA**, Azerbaijan University of Languages / Azerbaijan

**Fields of science**

**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Ali ZALOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yashar MEHRALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinj VALIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature named after Nizami Ganjavi / Azerbaijan
**Assoc. Prof. Dr. Rafail HASANOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Elza ORUJOVA**, Azerbaijan Medical University / Azerbaijan
**PhD. Aziza HUSEYNOVA**, Nakhchivan State University / Azerbaijan

**EDITORIAL BOARD**

**HUMANITIES AND SOCIAL SCIENCES**

**Prof. Dr. Mohsun NAGHISOYLU**, ANAS Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Ahi Evran University / Turkey
**Prof. Dr. Aktolkyn KULSARIYEVA**, Kazakh National Pedagogical University / Kazakhstan
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Bilal Gokkir**, Istanbul University / Turkey
**Prof. Dr. Juliboy ELTAZAROV**, "Silk Road" International University of Tourism and Cultural heritage / Uzbekistan
**Prof. Dr. Mehmet YUJE**, Bursa Uludagh University / Turkey
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine "Igor Sikorsky Kyiv Polytechnic Institute" / Ukraine
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Karim SHUKUROV**, ANAS Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Prof. Dr. Kairbek ARISTANBEKOV**, Institute of Economic Policy / Kazakhstan
**Prof. Dr. Izzet RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine

**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Boris KAYGORODOV**, Astrakhan State University / Russia
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Rufat RUSTAMOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Baku Engineering University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent State University of Uzbek Language and Literature / Uzbekistan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Maharram MAMMADLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Yelena SHISHKINA**, Astrakhan State University of Architecture and Construction Engineering / Russia
**Prof. Dr. Yagub BABAYEV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Assoc. Prof. Dr. Azad NOVRUZOV**, Nakhchivan Teacher Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Agil SHIRINOV**, Azerbaijan Institute of Theology / Azerbaijan
**Assoc. Prof. Dr. Bisserka VELEVA**, Sofia University "St.Kliment Orhidski" / Bulgaria
**Assoc. Prof. Dr. Sevda AKHUNDOVA**, Baku Slavic University / Azerbaijan
**Assos. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Khatira HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Valentin PETROUSSENKO**, Plovdiv University "Paisii Hilendarski" / Bulgaria
**Assoc. Prof. Dr. Aydan KHANDAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin BAYRAMOV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Rovshan VALIYEV**, Nakhchivan Institute of Teachers / Azerbaijan
**Assoc. Prof. Dr. Afag ISMAYILOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Abulfat PALANGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Javid ISMAYILOV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Agshin ALIYEV**, Beijing Foreign Studies University / The Republic of Chine
**Dr. Müjkan MAMMADZADEH**, Azerbaijan Sport Academy / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Seljuk University / Turkey

**NATURAL SCIENCES**

**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Yasin BABAYEV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Georgi DUKA**, Moldova Academy of Sciences / Moldova
**Prof. Dr. Masud ASHINA**, University of Copenhagen / Denmark
**Prof. Dr. Turhan CHETIN**, Gazi University / Turkey
**Prof. Dr. Bahadur GALANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Nikolay BRIKO**, First Moscow State Medical University named after I.M.Sechenov / Russia
**Prof. Dr. Mehmet KARATASH**, Nejmettin Erbakan University / Turkey
**Prof. Dr. Matanat AFANDIYEVA**, National Institute of Sports Medicine and Rehabilitation / Russia
**Prof. Dr. Duyghu KILICH**, Amasya University / Turkey
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Mehmet UNLU**, Marmara University / Turkey
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. David MENABDE**, Kutaisi State University / Georgia
**Prof. Ali AZGANI**, University of Texas at Tayler / USA
**Assoc. Prof. Dr. Bushra BILAL**, Ali Jinnah University / The Islamic Republic of Pakistan
**Assoc. Prof. Dr. Fuad KERIMLI**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ramiz AHLIMANOV**, Baku State University / Azerbaijan
**Dr. Svetlana GORNOVSKAYA**, Beloserkovsk National Agrarian University / Ukraine
**Dr. Asif MANAFOV**, Institute of Zoology of MSERA / Azerbaijan
**Dr. Erdeyliem TOLEGENOV**, Girls' University / Kazakhstan

**MATHEMATICS AND MECHANICAL SCIENCES**

**Prof. Dr. Yusif MAMMADOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Masud AFANDIYEV**, "Helmholtz" Scientific Research Center / Germany
**Prof. Dr. Arzu SARDARLI**, First Nations University of Canada / Canada
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Andrei VOLODIN**, Regina University / Canada
**Prof. Dr. Garib MURSHUDOV**, Research Institute of Molecular Biology / Great Britain
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Hamzaagha ORUJOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Anar KAZIMOV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Yusif SHUKURLU**, Shaki Regional Scientific Center of ANAS / Azerbaijan
**Assoc. Prof. Dr. Oruj HUSEYNOV**, Ganja State University / Azerbaijan
**Dr. Billura HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

**TECHNICAL SCIENCES**

**Prof. Dr. Elshan HASHIMOV,** Azerbaijan University of Technology / Azerbaijan
**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Elchin JAVADOV**, Ganja State University / Azerbaijan

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 9-17 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 9-17 e-ISSN: 2708-986X

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/124/9-17

**Almara Nəbiyeva**
Bakı Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
http://orcid.org/0009-0005-3050-9056
almaranebiyeva@bsu.edu.az

## Kitabi-Dədə Qorqud” eposunda düşmən obrazlarının müqayisəli təhlili

### Xülasə

*Kitabi-Dədə Qorqud* dastanı düşmən obrazlarının mürəkkəb və çoxölçülü təsvirini təqdim edir. Nəql olunan hekayədə düşmənçilik yalnız xarici işğalçılar və ya kafirlərlə məhdudlaşmır; həmçinin daxili narazılıq, ailə və tayfa parçalanması, həmçinin mifoloji fəlakətləri də əhatə edir. Düşmənlər adətən iki əsas qrupa bölünür: xarici və daxili. Xarici düşmənlərə Trabzon və Düzmürd qalalarının hakimləri, qeyri-müsəlman düşmən tayfalar və Şöklı Melik kimi qəddar sərkərdələr daxildir; onlar qəfil hücumlarla oğuzlara qarşı çıxaraq onların torpağını və mədəniyyətini məhv etməyə çalışırlar. Daxili düşmənlər isə Oğuz toplumunun öz daxilindən yaranır. Üsyankar qırx nökər, qoca Aruz və xüsusilə də daxili fəlakət və mənəvi çürüməni simvolizə edən əjdaha-vari Təpəgöz kimi obrazlar bu qrupa daxildir. Dastan boyunca həm ailədaxili, həm də tayfalararası qarşıdurmalar, Dirse xanın oğlu Buğacla münasibətindəki gərginlik, eləcə də Qazan xan və Bəkil arasındakı münaqişələr düşmənçiliyin ideoloji və etik səviyyələrdə necə təzahür etdiyini nümayiş etdirərək mətnin məzmununu daha da zənginləşdirir. Daxili və Xarici Oğuz arasındakı parçalanma da tayfa birliyinin dağılmasını ifadə edir. Bununla belə, dastanın sonunda birlik bərpa olunur və əsas mesaj milli həmrəylik, ədalət və inamı vurğulayır. Nəticə etibarilə, daxili və xarici düşmənlər üzərində əldə edilən qələbələr oğuzların qətiyyətini, mənəvi dözümünü və kollektiv kimliklə ilahi ədalətə sarsılmaz bağlılığını əks etdirir.

***Açar sözlər:*** *Tanrı, Dədə Qorqud, Oğuz, xarici düşmənlər, daxili düşmənlər*

**Almara Nabiyeva**
Baku State University
PhD in Philology
http://orcid.org/0009-0005-3050-9056
almaranebiyeva@bsu.edu.az

## Comparative Analysis of Enemy Characters in the Epic *Kitabi-Dede Korkud*

### Abstract

The epic *Kitabi-Dede Korkud* presents a complex and multidimensional portrayal of enemy figures. Enmity in the narrative is not limited to external invaders or infidels; it also encompasses internal discord, familial and tribal fragmentation, and mythological catastrophes. The enemies are generally categorized into two main groups: external and internal. External foes include the rulers of the fortresses of Trabzon and Duzmurt, hostile non-Muslim tribes, and brutal commanders such as Shökli Melik, who launch sudden attacks on the Oghuz people, aiming to destroy their land and

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

culture. Internal enemies, on the other hand, arise from within the Oghuz society itself—characters like the forty rebellious servants, the old man Aruz, and the monstrous Tepegoz, who particularly symbolizes internal disaster and moral decay. Furthermore, the epic explores intra-family and inter-tribal conflicts—such as the tensions between Dirse Khan and his son Bugach, and between Qazan Khan and Bekil—which enrich the narrative's conception of enmity on ideological and ethical levels. The division between the Inner and Outer Oghuz also signifies the disintegration of tribal unity. Nevertheless, by the end of the epic, unity is restored, and the overarching message emphasizes national solidarity, justice, and faith. The ultimate victories over both internal and external enemies reflect the perseverance, spiritual resilience, and deep-rooted commitment of the Oghuz people to collective identity and divine justice.

***Keywords:*** *God, Dede Korkut, Oghuz, external enemies, internal enemies*

## Giriş

*Kitabi-Dədə Qorqud* eposunu araşdıran zaman məlum olur ki, bu zəhmətkeş xalq, tayfa birliyi məskunlaşdıqdan, yer üzündə öz dövlətini qurduqdan sonra həmişə qanlı düşmən əhatəsində olmuş, daim talanlara, basqınlara məruz qalmışdır. Daimi düşmən əhatəsində olan oğuzlar özlərini düşməndən qorumaq qayğısı ilə yaşamışlar. Onunla üz-üzə gəlib vuruşan, daim at üstündə olan oğuzlar elə məqamlar da olmuşdur ki, yaşadıqları əraziləri məcburiyyət qarşısında tərk etmişlər. Bəlkə də oğuzların uzun tarixi müddət ərzində köçəri həyatı davam etdirmələrinin səbəblərindən biri də məhz elə bu məkrli düşmənçilik olmuşdur. "Alman nəşrlərində *Dədə Qorqud* eposundakı düşmən anlayışı əsasən dini müstəvidə təqdim edilir. Xüsusilə 'kafir' anlayışı vasitəsilə Oğuz türklərinin mədəni və dini fərqliliyinə vurğu edilir" (Əlimirzəyeva, 1999).

**Tədqiqat**

Düşmən obrazı *Kitabi-Dədə Qorqud* eposunda özünəməxsus xüsusi yer tutur və onlar öz səciyyəsinə görə müxtəlifdir. Oğuz elinin düşmənləri ciddi, zəhmli, məkrlidir, qorxmaz və inadkar, döyüş sirlərinə yaxşı bələddirlər. Fürsət ələ düşən kimi hər cür imkandan istifadə edib oğuza zərər vurmaqda israrlıdır. Eposda düşmən obrazı məhz bu mənada qüvvətli və hiyləgərdir. O, bütün qütblərdə və cəbhələrdə oğuz elinə qənim kəsilən, qorxunc, əzazil bir qüvvədir və geniş mənada o, tək bir cəngavər, ulus başçısı deyildir. Dini baxışı, etiqadı, soykökü ilə oğuza düşmən olan əbədi qonşudur. Onun məramı təkcə oğuz elini talamaq, viran qoymaq deyildir. Bütövlükdə gücü çatmadığı, qəhrəmanlığı qarşısında aciz qaldığı oğuzu ümumiyyətlə yer üzündən silib onun torpağına, çoxəsrlik mədəniyyətinə, adət-ənənəsinə, milli sərvətinə şərik çıxmaq, onların yaratdığı mədəniyyəti öz adı ilə bağlamaq iddiasındadırlar. *Kitabi-Dədə Qorqud* eposunda düşmənin məkrli məqsədi açıq-aydın şəkildə öz əksini tapmış, kafir düşmənin qəzəbinin həddi-büluğu yoxdur. O, məqam tapanda hücumlar edir, oğuzun ən igid cəngavərlərini sıradan çıxarmaq istəyir.

Eposda düşmən təkcə xaricdən, oğuz elinin sərhədlərindən hücum edib oğuza bəlalar gətirməklə kifayətlənmir. O, qəbilə və tayfa birliklərinin içərisinə soxulur, onların arasına nifaq salır, daxildə özünə həmfikir tapır və bütün bu kimi vasitələrlə düşmənçiliyini davam etdirir. "Dədə Qorqud dastanında düşmən anlayışı yalnız fiziki qarşıdurma ilə məhdudlaşmır. O, həm də mənəvi, ideoloji və kimlik səviyyəsində xalqın özünütəsdiq savaşının rəmzidir. Düşmən – yad olan, yəni dilini, dinini, mədəniyyətini bölüşməyən, üstəlik onu öz dünyagörüşünə tabe etdirmək istəyən qüvvədir" (Abdulla, 1999).

Düşmən obrazı eposda iki başlıca qrupa bölünür və xarici və daxili düşmən kimi səciyyələnir. Adlarındakı fərqlər onları bir-birindən zahirən ayırsa da, mahiyyət etibarı ilə bu düşmənlər yaxın olub bir-birini tamamlayırlar. Bu fərqlər isə özünəməxsus düşmən modelini formalaşdırır. Folklorşünas Şamil Cəmşidov eposda xarici düşmənləri də iki yerə ayırır: "a) uzaq düşmənlər – Trabzon, Düzümürt qalası, Tumanın təkurları; b) yaxın qonşular. İstər uzaq, istərsə də yaxın düşmənlər – deyə adlandırdığımız bu mənfi tiplərlə Oğuz qəhrəmanları təsadüfi hallarda – bu və ya digər tərəfin təqsiri üzündən toqquşur və vuruşmalı olurlar" (Cəmşidov, 1969).

Bu ziddiyətlər çox zaman dostluq münasibətlərinin, qarşılıqlı əlaqə şərtlərinin pozulması nəticəsində olur. Eposda "Qazan xanın evinin yağmalanması" boyunda Şöklü Məlik bir qarətçi və quldur kimi Oğuza hücum edib, Qazanın var-dövlətini talayır və arvad-uşağı əsir aparırsa, "Uşun

Qoca oğlu Səgrəyin boyu"nda təqsir Oğuz qəhrəmanlarından Əgrəkdə olur. Yaxud "Qanlı Qoca oğlu Qanturalı boyu"nda vuruşmaya bais, öz sözünün üstündə durmayan, əhdi pozan Trabzon təkuru olursa, "Qazlıq Qoca oğlu Yegnəyin boyu"nda Uşun Qoca Düzümürt qalasına hücum edir. Yaxın qonşular ilə Oğuz qəhrəmanları arasında düşmənçilik demək olar ki, mövcud deyildir.

*Kitabi-Dədə Qorqud* eposunda düşmən obrazı həm qüvvətli, həm də məkrli verilmişdir. Eposda onlar ancaq döyüş zamanı, bir sıra hallarda isə döyüşdən sonrakı epizodlarda özünü göstərir. Bu obrazların hər biri qəbilə, tayfa başçısı, yaxud kafir düşmənin baş sərkərdəsi, nüfuzlu qəhrəmanıdır. Onlar boylarda bəzən öz adları ilə adlandırılır, bəzən də sadəcə olaraq "düşmən təkuru", yaxud "kafir düşmən" kimi təsvir olunurlar.

Eposda xarici düşmən dəstəsinin başında Şöklü Məlik dayanır. O, gah "qara donlu kafirlərin" başçısı, gah kafir düşmən sərkərdəsi kimi bir neçə boyda oğuz bəyləri ilə üz-üzə gəlir, böyük güc və qüvvə nümayiş etdirir. Onun özünəməxsus qəfil hücum və ağır talan taktikası vardır. Oğuz elinə ən ağır zərbələr vurur, sonra məğlub edilsə də, oğuza vurduğu zərbələr tarixin yaddaşından pozulmur.

Bundan əlavə, xarici düşmənlər içərisində düşmən elin təkuru – Əlincə qalasının təkuru Qara Təkur Arşun oğlu Dirək Təkur, ümumiləşmiş şəkildə "kafir", "qara donlu kafir" və düşmən qalalarının, ellərinin başçıları olan təkurlar vardır. Onlardan başqa, yuxarıda deyildiyi kimi, oğuza yaxın və uzaq ellərdə yaşayan qeyri-dinli kafirlər bütünlükdə oğuza qənim kəsilmişlər. Onlar Şöklü Məlik istisna olmaqla oğuz eli qəhrəmanlarından ehtiyatlanır.

"Açıq-açığa döyüşə girməkdən çəkinirlər. Ya fürsət tapıb qəfildən, xəbərsiz, xəyanətkarların köməyi ilə oğuz elinə hücum edir, ya oğuz qəhrəmanlarının ehtiyatsızlığı üzündən kafərlər pusqu qurub onları əsir götürür, ya da kiçik döyüşlərdə onları min-bir hiylə ilə qırıb aradan çıxarırlar" (Tanrıverdi, 2013).

Şöklü Məliklə oğuz elinin, xüsusilə Qazan bəyin ixtilafı eposda daha kəskindir. Qazanla üç döyüşdə üz-üzə gələn Şöklü Məlik hər dəfə məğlub olur. Eposda Şöklü Məlik–Qazan qarşıdurmasına diqqət yetirdikdə daha bir detalı sezmək mümkündür. Bu, Şöklü Məliyin Qazana qarşı şəxsi qəzəbinin mövcudluğudur.

Türk xalqlarının eposunda böyük talanların, qarşıdurmaların şahidi olmaq mümkündür. Dastanda Salur Qazan adlandırılan Qazan xan Oğuz elinin dayağıdır. Salur Qazan xan dastanda oxucuya: "...Ulaş oğlu, Tulu quşun yavrısı, bizə miskin umudla, Amit sayının aslanı, Qaracuğun qaplanı, qonur atın iyəsi, xan Uruzun ağası, Bayındır xanın güyəgisi, Qalın Oğuzun dövləti, qalmış yiğit arxası Salur Qazan" kimi təqdim olunur (Abdulla, 1999).

Lakin talanın, yağmalanmanın ən ağır formasına bizim eposda təsadüf olunur. Şöklü Məliyin Qazana düşmənçiliyi o həddə çatır ki, yağmalanma zamanı bəyin yurdu tamam dağıdılır, evi-mülkü talan edilir. Hətta həyat yoldaşı, qırx qaravaşı, oğlu və anası əsir edilib aparılır.

Qazanın ovda olma xəbərini casuslar Şöklü Məliyə xəbər verdikdən sonra:

"Yeddi bin qaftanının ardı yırtıxlu, yarımundan qara saçlu, sası dinlü. Din düşməni, alaca atlu kafər bindi yırğalandı, dün burcuğunda Qazan bəyin ordısına gəldi. Altın ban evlərin kafərlər çapdılar, qaza bənzər qızı-gəlini çığırışdırdılar. Tölə-tölə şahbaz atları bindilər. Qatar-qatar qızıl dəvələrini yetdilər. Ağır xəzinəsini, bol ağçasını yağmaladılar. Qırq incə bellü qız ilə Boyu uzun Burla xatun yesir getdi. Qazan bəgün qarıcıq olmuş anası qara dəvə boynunda asılu getdi. Xan Qazanın oğlı Uruz bəg üç yüz igidlən əlü bağlu, boynı bağlı getdi. İlək qoca oğlı Sarı Qalmaş Qazan bəgin evi üzərinə şəhid oldu" (Tanrıverdi, 2013).

Göründüyü kimi, qarət çox amansızdır. Qazanın bütün varını, pulu, qızılı, ilxısı, sürüsü, dəvələrini talan etməklə Şöklü Məlik kifayətlənmir. Onun xatununu qaravaşlarla, oğlunu isə üç yüz igidi ilə birlikdə əsir götürür. "Şöklü Məlik tərəfindən əsir alınıb aparılan Burla xatun əri Qazan xanın namusunun tapdanmasına yol verməmək, iyrənc dilli kafirin döşəyinə düşməmək xatirinə oğlu Uruzun ətinən bişiriləcək qovurmadan yeməyə razılıq verir" (Mahmudlu, 1999).

Bu, təbii ki, türk xaqan talanlarının ümumi prinsiplərinin pozulması idi. İgidin varı-dövləti, ilxısı, sürüsü talananda, oğlu dustaq edilib aparılanda xanın xatununa toxunmazdılar. Yurdunu dağıtmazdılar. Şöklü Məlik nəinki bu qaydaları nəzərə almır, hətta Qazan bəyin qoca anasını əli-qolu bağlı halda dəvənin boynuna keçirib aparır. Bu talanı Şöklü Məlik "Qazandan heyif almaq" kimi dəyərləndirir.

"Düşmənlərin qəfil hücumuna məruz qalan Qazan xan və oğlu Uruz vəziyyət dəyişdikcə, özlərini itirmir, düşmənlə layiqincə vuruşmağı bacarırlar" (Azərbaycan klassik ədəbiyyatı kitabxanası, 1985).

Hadisənin sonunda düşünmədən talanın bütün qaydalarını pozur. O, əməllərinə haqq qazandıraraq kafirlərə belə deyir:

"...Bəglər, Qazanın tölə-tölə Şahbaz atlarını binmüşüz, altun-axçasını yağmalamışuz, gırq yigidnən oğlı Uruzu tutsaq etmişüz. Qatar-qatar dəvələrini yetmişüz, qırq incə bellü qıznan Qazanın halalın tutmuşuz. Bu heyfləri biz Qazana etmişüz" dedi.

Kafərin biri aydır: "Qazan bəydə bir heyfimiz qaldı".
Şöklü Məlik aydır: "Mərə aznaur, ne heyfimiz qaldı?"

Kafər aydır: "Qazanın Qapulu Dərvənddə on bin qoyunı vardır. Şol qoyunları dəxi götürsək, Qazana ulu heyf edərdik-dedi. Şöklü Məlik aydır: "Altı yüz nəfər varsın, qoyun götürsün.-dedi.

Altı yüz nəfər atlandı, qoyunun üzərinə ağlar vardı" (Əlimirzəyeva, 1999).

"Qara donlu" kafirin Qazan bəylə qarşılaşması ilə bir neçə başqa məqamda rastlaşanda da Şöklü Məliyin həddən artıq güclü və məkrli olmasına baxmayaraq, Qazan bəy onu hər dəfə sındıra bilir. Bu isə oğuz eli çevrəsində yaranan, genişlənən düşmənçiliyin bəylərbəyinin başçılığı ilə sındırılması kimi başa düşülməsidir.

*Kitabi-Dədə Qorqud* eposunda düşmənçilik xronologiyası üzrə Oğuz əcdadlarımızın yadigarı olan növbəti dövrlərdə yaranmış örnəklərə diqqət yetirək. Əvvəlcə dastanın arxaik sayılan Duxa qoca oğlu Dəli Domrul boyu bu cümlələrlə başlayır: "Məgər xanım, oğuzda Duxa qoca oğlı Dəli Domrul deyərlərdi, bir ər var idi. Bir quru çayın üzərinə bir körpi yapdırmışdı. Keçənindən otuz üç aqça alurdı, keçməyənindən dögə-dögə qırq aqça alurdı. Bunu neçün bölə edərdi? Anunçun ki, "Məndən dəli, məndən gücli ər varmıdır ki, çıqa mənümlə savaşa, deyirdi; mənim ərligim, bəhadirligim, cılasunligim, yigitligim Ruma, Şama gedə çavlana", deyirdi" (Araslı, 1962).

Buradan bəlli olur ki, Dəli Domrul özündən təkəbbürlü, lovğa biri olduğunu göstərir. Əzrayıl tərəfindən bir igidin canını alana meydan oxuması və Qadir Allahın əmri ilə Dəli Domrulun gözünə görünüb onu qorxudan, sonra isə yerə yıxıb canını almaq istəyən Əzrayıldan öz canını qurtarmaq üçün başqa bir can verməli olur. Məlumdur ki, dastanlarımızın heç birində və İslamda belə bir əvəzləməyə rast gəlinmir. İlk olaraq valideynlərdən onun yolunda can vermədən imtina edən zaman Dəli Domrul xanımının yanına gəlir. Başına gələnləri xanımına söyləyir. Xanımı onun əvəzinə öz canını verməyi təklif edir.

Dəli Domrul onun razılığını qəbul etmir və birlikdə Allaha yalvarıb onları birlikdə öldürməyi, ya da bağışlamağı diləyirlər. Süjetin kulminasiyası Allahın onları bağışlayıb valideynlərinin canını alması, əslində, Dəli Domrula günahlarına görə verilən cəzadır. Süjetdə düyünün açılması, Dəli Domrulu Allahın qəzəbindən xilas edən, onun xanımı ilə arasında olan ülvi məhəbbət xoşbəxt sonluğa yol açır.

*Kitabi-Dədə Qorqud* eposunda adı xarici düşmən kimi hallanan obrazlar içərisində düşmən təkurları da vardır. Doğrudur, bu təkurlar müxtəlif xəyanətlər, təsadüflər yolu ilə oğuz bəylərini dustaq edir. İllər keçsə də, onları azad etmirlər. Oğuz elinin daxilində uzun müddət ərzində qaynaqlanan, onu içəridən zəiflədən ziddiyyət barədə XII boyda İç Oğuzla Daş Oğuz arasında aydınlaşır. Bu ziddiyyətləri doğurmuş səbəbləri müəyyənləşdirmək üçün dastanın digər boylarına səpələnmiş ayrı-ayrı epizodları ümumi canlandırır. İki Oğuz tayfasının münasibətlərini pozan hadisə dastanın mətnində belə təsvir edilir: "Üç oq, Boz oq yığnaq olsa, Qazan evin yağmaladardı. Qazan gerü evin yağmalatdı. Əmma Taş Oğuz bilə bulunmadı. Həmin İç Oğuz yağmaladı… Taş Oğuz bəgləri Qazana gəlmədilər, ədavət eylədilər" (Əlimirzəyeva, 1999).

Buradan məlum olur ki, ədavətə səbəb yağmalama mərasiminin Daş Oğuz orada olmadığı vaxtda icra edilməsidir. Yağmalama mərasiminin mahiyyətini araşdırdıqda Qazan xan Burla xatunun əlindən tutub evindən çıxar, bəylər isə onun var-dövlətini aralarında paylaşar. Bu ənənənin tayfaya məxsus olduğunu, dostluğun, sədaqətin qiymətinin əvəzsiz olduğunu diqqət önünə gətirir.

Qırx yoldaşı ilə birgə məclis quran, şənlənən Bamsı Beyrək Qazan bəyin oğlu Uruz bəy kimi kafirlərin qəfil hücumuna məruz qalır və əsir düşür. Beyrəyi əsir aparan təkur düz on altı il onu dustaqlıqda saxlayır. Əlincə Qalasının başçısı Qara Təkur, Arşun oğlu Dirək Təkur, Baysarı Təkuru və başqaları da oğuzun qanlı düşmənləridir. Onların düşmənçiliyi də barışmazdır. Bundan əlavə, eposda "kafər", "kinli kafər", "mərə kafər" adı ilə təsadüf olunan düşmənlər – yad dinlilər, oğuzun varidatını dağıdıb aparmağa, "Oğuz eli"nə hər cür yamanlıq etməyə hazırdırlar.

Yeri gəldikcə onlar ölkənin daxilinə nüfuz etməyə, burada Oğuz birliyini sarsıtmağa da cəhdlər göstərir və Oğuz həyatı üçün ciddi əngəl törədən daxili düşmənlərdir. Bunlar lap ilk boydan göründüyü kimi Oğuzu daxilən dağıtmaq, məhv etmək və ya parçalamaq istəyən Dirsə xanın qırx namərd nökərləri, saray adamları, Qazanın dayısı Aruz qoca və s., bu mənfi tiplər qrupuna daxildir. Ümumilikdə tədqiqatlar təsdiqləyir ki, "iki boydan başqa yerdə qalan boylardakı kafir adlanan düşmən tayfaları türk mənşəlidir və dastanda Əlincə qalasının gürcülərin əlinə keçməsi məsələsinə rast gəlmirik" (AMEA Folklor İnstitutu, 2022).

Qırx naibi Dirsə xanın əvvəl oğlunu, sonra isə özünü məhv etmək, onun bütün xəzinəsini qarət etmək istəyirlər. Ancaq onun vəfalı arvadının ağıllı tədbirləri ilə bu böyük düşmənçiliyin qarşısı alınır. Qırx nökər adicə istismar edilən aşağı kütlə nümayəndəsi deyil, saray əyanları, hərbi dəstə başçılarıdır. Onların cinayətkar hərəkətləri ata ilə oğulun möhkəm məhəbbət və həmrəyliklərinə qarşı paxıllıq və bədxahlıqdan doğur. Daxili düşmənlər arasında Təpəgözü də göstərmək olar. Oğuzun öz içərisindən törəyib baş qaldıran Təpəgöz Oğuz üçün daha qəddar bir varlıqdır.

Təpəgöz Şöklü Məlikdən də, bütün kafir düşmənlərdən, təkur və qara donlu kafirlərdən də məkirli, qorxunc bir düşməndir, ən mühüm cəhəti isə oğuzların içərisində doğulub, boya-başa çatmasıdır. Təpəgöz Oğuz elini içəridən yeyir, sırf daxildən zərbə vurur. O, oğuzların özünün yaratdığı və onu məhv etmək istəyən yarım insani bir bəladır. Ona nə ox batır, nə qılınc kəsir. Yığnaqdan çıxıb Aruz qocanın evinə gəldiyi gündən o, zərər vurmağa, elin ümumi qayda-qanunlarını pozmağa başlayır. Təpəgözün Aruzun çobanından törəməsi və dünyaya gəlməsi, Oğuzun öz içərisində kəskin daxili çarpışmalar olduğunu, Oğuz quruluşunun daxilən sarsıntılara məruz qaldığını göstərməkdədir.

Bu fikri Aruz qoca ilə Qazan başda olmaqla Oğuzun iki hissəyə parçalanıb üz-üzə çarpışması faktı da sübut edir. Bir yağma mərasimində iştirak etməməsi üzündən həmişə bir hakimiyyət daxilində birləşən Oğuz qəhrəmanları İç Oğuz və Daş Oğuz deyə iki yerə parçalanır, döyüşür, bəzi məşhur qəhrəmanlar aradan çıxır və nəticə etibarilə Oğuz öz varlığını qoruyub saxlaya bilir. Eposda məğlubedilməz kimi görünən Təpəgöz, nə də Oğuzun bəzi sərkərdələrini öz tərəfinə çəkən Aruz qoca onu dağıda bilmir. Çünki bu elin ümumi birlik qüdrətinə arxalanan, bütün qəhrəmanların ümumi səy və igidliyinə mövcud toplu xalq cəmiyyəti idi. Bu cəmiyyət xalq ədəbiyyatının bədii gücündən qüvvət alır, getdikcə daha da yüksəlir. Oğuz düşmən üzərində qələbə çalır, dağılıb parçalanmır. Qiymətli itkilər bahasına da olsa, dastanın sonunda Qazan xanın başçılığı altında Oğuz elinin vahid hakimiyyət birliyi daha da möhkəmlənir və sarsılmaz olur.

Dastanın "Basatın Təpəgözü öldürdüyü" boyda Təpəgözün taleyini izləyərkən ona acımaya bilmirsən. O, qeyri-qanuni əlaqədən, həm də zorlama nəticəsində dünyaya gəlmişdir. Təpəgözün zahiri eybəcərliyi və şər xisləti də məhz mayasında üçqat günahın durması ilə əlaqədardır. Pərinin Sarı Çobana dediyi sözləri xatırlayaq: "Çoban, yil təmam olıcaq məndə əmanətin var, gəl, al!... Əmma Oğuzun başına zəval gətürdin" (Zeynalov & Əlizadə, 1988).

Təpəgözün lap əvvəldən bu dünyaya intiqam almaq missiyası ilə gəldiyini göstərir. Süjetin qədimliyindən xəbər verən əlamətlər burada əcdadlarımızın fövqəltəbii və mifoloji obrazların iştirak etməsidir. Boyda oğuzların bir olan Allaha inamını ifadə edən məqamlardan verilən nümunələrdə "Dəpəgöz… Aydır: "Günbədə girdinmi?" Basat aydır: "Girdim". Dəpəgöz aydır: "Şöylə çalayım ki, günbədlə tartağan olasan", - dedi. Basatın dilinə bu gəldi kim, "La ilahə ilallah, Məhəmməd rəsulallah", dedi… həman dəm günbəd yarıldı, yedi yerdən qapı açıldı. Birindən taşra gəldi" (Araslı, 1962).

Dastanın bu boyunda su hamisi sayılan pərinin Sarı Çoban tərəfindən zor tətbiq edilərək alçaldılması yalnız pəri ilə Sarı Çoban arasında deyil, öz pəri anasını təmsil edən Təpəgözlə bütün oğuz eli arasında baş verir. Dastanda Təpəgöz məhz oğuzların qanına susamışdır. Baxmayaraq ki,

qonşuluqda qıpçaq, abxaz, gürcü və başqa tayfalar yaşadığı halda, Təpəgöz öz qurbanlarını yalnız oğuzları seçdiyi üçün onlar yeddi dəfə öz yurdlarını tərk edərkən Təpəgöz qarşılarını kəsib onları geri qaytarır və beləliklə oğuz tayfasından anasının intiqamını almağı özünə qərar verir. Bu tayfanın qanına susamış Təpəgözün öhdəsindən şir südü ilə bəslənib təbiətin qucağında tərbiyə almış Basat gələ bilir. Onun qardaşı Qıyan Selçük Təpəgöz tərəfindən öldürülmüşdü. Dastanda Basatın məqsədi qardaşının intiqamını almaqla yanaşı oğuzu onun bəlasından qurtarmaq düşündürürdü. Basat onu kor etdikdən sonra dilə gətirdiyi bəzi etiraflar Təpəgözün içində ziddiyyətli hisslərin çarpışdığını göstərir:

“Ağ saqallu qocaları çoq ağlatmışam.
Ağ saqallı qarışı tutdı ola, gözüm səni?
Ağ birçəklü qarıcıqları çoq ağlatmışam.
Gözi yaşı tutdı ola, gözüm, səni?
Bığçağı qararmış yigitcikləri çoq yemişəm.
Yigitlikləri tutdı ola, gözüm, səni?
Əlcügəzi qınalı qızcığazları çoq yemişəm.
Qarışcuları tutdı ola, gözüm, səni?” (KDQ.,1988).

Təpəgöz pis əməllərinin yolçusu olduğunu başa düşür və bəladan qurtulmağın yolunu özünə qəsd etməkdə görür:

“Qalın Oğuz bəgləri üzərimə yığılub gələ, derdim.
Qaçubanı Salaxana qayasına girəm, derdim.
Ağır mancılaq taşla atam, derdim.
Enüb taş, başuma düşibən öləm, derdim” (KDQ, 1988).

*Kitabi-Dədə Qorqud* eposunun bu boyunda Oğuz elinə qənim kəsilən, camaatın qorxduğu, nifrət etdiyi Təpəgöz obrazı çox bədbəxt, təhlükəli bir məxluqdur.

“Bəkil oğlu İmranın boy”unda tayfadaxili düşmənçiliyi Qazan xanla Bəkil arasında yarandığı dastanın süjetindən bəlli olur. Bərdə və Gəncə coğrafi ərazilərinə nəzarət edən, Gürcüstanla sərhədini qoruyan Bəkil Bayındır xandan dəvət alır. Bəkil məclisdən sonra təşkil olunan ovda qeyri-adi ovçuluq məharəti ilə həmişəki kimi hamıdan seçilir. “*Dədə Qorqud dastanı*nda Qamğan oğlu xan Bayındırı dastanda cərəyan edən hadisələrdə, o cümlədən döyüş meydanlarındakı fəaliyyəti hörmətlə çəkilir. Oğuz bəyləri onun bütün əmrlərini yerinə yetirirlər” (Vəliyev, 1985).

Tayfadaxili igidlər arasında başqaları kimi ovuna ox atmazdı, yayını ovunun boynuna atar, arıq olanın qulağına nişan qoyardı. Ov zamanı heyvan başqasının əlinə keçdikdə Bəkilin nişanəsini görən ovçu onu buraxardı. Ovçuluqda başqa igidlərin hünərini Qazan xan bəylərə deyir: “Bu hünər atınmıdır, ərinmidir?” “Xanım, ərindir”, - dedilər. Xan aydır: “Yoq, at işləməsə, ər ögünməz. Hünər atındır”, - dedi (Araslı, 1962).

Qazan xanın söylədiyi sözlərə pərt olan Bəkil xandan küsüb xanımının yanına gəlib ona bildirir ki, Oğuzdan üz döndərib Gürcüstana getmək istəyir. Lakin qadını onun bu fikri ilə razılaşmır və deyir: “Padşahlar Tənrinin kölgəsidir. Padşahına asi olanın işi rast gəlməz… Ava bingil, könlün açılsun!” (Araslı, 1962). Qadınının sözünə məhəl qoymayıb ova yollanan Bəkilin atı sahibinin ayağının sınması ilə nəticələnir. Bu olanlardan sonra Bəkil Qazan xanın onun barəsində söylədiyinin haqlı olduğunu anlayır. Bəkilin ayağını sındırdığından xəbər tutan düşmən onların üzərinə yürüş hazırlayır. Bəkilin kafirlər arasında olan casusu bunu ona yetirir.

Bəkil oğlu İmranı Bayındır xandan, Qazan xandan yardım istəməyə göndərmək fikrinə düşür. Lakin İmran etiraz edib düşmənin qarşısına özünün gedəcəyini söyləyir. Kafirlə döyüşdə az qala məğlub olan İmran uca Allahın köməyi ilə qalib gəlir. Atası oğlunu mükafatlandırıb evləndirir. Sonra isə Bayındır xanın əlini öpmək üçün İmranla birlikdə onun hüzuruna yollanır. Padşah gənc igidə Qazan xanın oğlu Uruzun sağ yanında yer göstərir. Padşahın divanında İmran Oğuz elinin

sərhədlərinə hücum edən yağının qarşısını ala bildiyinə görə ona layiq olduğu şərəfli bir yer göstərilir. Bununla da Bəkillə Qazan xan arasında olan düşmənçilik ortadan götürülür.

Dastanın "Qanlı Qoca oğlu Qanturalı boy"unda Qanturalı ilə Selcan xatun arasında yarandığının şahidi oluruq. Dastanın bu boyunda düşmənçilik müsəlman Oğuz eli ilə kafər Trabzon əhalisi arasında baş verir. Oğuz bəylərinin bəziləri dini fərqlərə baxmayaraq, kafir qızları ilə evlənmişdir. "Gözəl-göyçək təkur qızını almaq üçün Trabzonda hökmdarın şərtlərini yerinə yetirən Qanturalının qızı alıb evə qayıtdıqdan sonra yolda yuxusu gəlib yatır. Düşmənlər tərəfindən əsir alınır və yalnız cəngavər nişanlısının – Sarı donlu Selcan xatunun sayəsində xilas olur" (Əlimirzəyeva, 1999).

Dastanda bu faktlar müəyyən işarə və elementlərlə vurğulanır. Məsələn, "Duxa qoca oğlu Dəli Domrul boy"unda xanımının kafir qızı olduğu Dəli Domrulun özü söyləyir: "Yad qızı həlalım var", - deyir (Araslı, 1962).

Burada "yad" sözü məhz başqa tayfadan, kafir qövmdən mənasına uyğun gəlir. Folklorşünas Kamran Əliyevin dastan mətnində 6 rəqəminin işlənməsi həmin şəxsin kafərlərlə bağlı olduğunu yazır: "Altı" rəqəminə gəldikdə isə bu rəqəm və onun "törəmələri" Aruzu çıxmaq şərti ilə… bütün hallarda kafərlərə xasdır" (Araslı, 1962).

"Uşun qoca oğlu Səgrək" boyunda öz halalı ilə vidalaşarkən xanımın ona cavabında altı rəqəminin xüsusilə vurğulandığının şahidi oluruq. Səgrək övrətinin onu üç ildən çox bir zaman müddətində gözləməsini diləyir. Söylədiyi müddətə kimi qayıtmazsa, öldüyünə əmin olub başqası ilə ailə qurmasını tövsiyə edir. Xanımı cavabında Səgrəyə deyir:

"Yigidim, mən sana bir yil baqam.
Bir yildə gəlməzsən, iki yil baqam.
İki yildə gəlməzsən, üç-dört yil baqam.
Dört yildə gəlməzsən, beş yil, altı yil baqam.
Altı yol ayırdına çadır dikəm.
Gələndən-gedəndən xəbər soram" (Araslı, 1962).

Misralardan göründüyü kimi, Səgrəyin dilində üç, qızın dilində altı maksimal sərhəd və ya son həddir. Dastanın boylarında təkrarlanan bu elementlər kimin Oğuza, kimin isə kafir tayfalara mənsub olduğunu göstərir. Buradan da Səgrəyin xanımının ailə qurduqdan sonra ərinin dinini, yəni islamı qəbul etmiş kafir qızı olduğu məlum olur.

"Qanlı Qoca oğlu Qanturalı boy"unda isə Selcan xatunun Trabzonun kafir təkurunun qızı olduğu qeyd olunur. Dastanın məzmunundan da bəllidir ki, din ayrılığı ilə ailə quran Oğuz bəylərinin kafir qızları ilə evlənməsinə heç bir mane olmur. Əsas düşmənçilik oğuzlarla qonşu tayfalar arasındakı qarşıdurma, onlar arasında olan din ayrılıqları ilə bağlı olmasıdır.

Kafir qızlarını islama gətirmək, müsəlmanların sayını artırmaq savab hesab olunduğundan Oğuz eli belə evliliklərə qarşı çıxmır, hətta buna mane belə olmurlar. Selcan xatunun xəbərini Qanturalıya atasının çatdırması fikrimizi bir daha təsdiqləyir və digər səbəbin siyasi məqsədli nikahlarla bağlı olduğunu yəqin edirik. Bu qohumluq əlaqələri ərazi bütövlüyünün təhlükəsizliyini təmin etmək, sülhə nail olmaq üçün yaradılırdı.

"Qanlı Qoca oğlu Qanturalı boyu"nda Trabzon təkurunun qızı Selcan xatuna elçi düşən igidlərin üç heyvanla – buğa, aslan və buğra (dəvə) ilə vuruşaraq qalib gəlməli olduğu göz önündədir. Bu qoyulan şərtlərin öhdəsindən gələn Qanturalı Selcan xatunla birlikdə toy etmək üçün vətəninə yola düşür. Bu işdən peşiman olan Selcan xatunun atası Təkur qızını geri qaytarmaq üçün onların ardınca qoşun göndərir. Yuxuda olan Qanturalını təhlükədən xəbərdar edən Selcan xatun onunla birlikdə döyüşə girir. Hər tərəfdən düşməni məğlub etməyə başlayırlar.

Çadıra qayıdıb Qanturalını orada görmədikdə yenidən döyüş meydanına qayıdan Selcan xatun Qanturalını göz qapağından yaralanmış vəziyyətdə görür və atını kafirlərin üzərinə sürüb onları məğlub edir. Dastanda Qanturalı Selcan xatunun onu xilas etməsi ilə Oğuzda öyünəcəyindən qorxaraq onu öldürmək qərarına gəlir. Onun fikrini anlayan Selcan xatun Qanturalıya qarşı pis bir niyyəti olmadığını söyləyir:

"Bəg yigit, ögünərsə, ər ögünsün – aslandır!
Ögünməklig övrətlərə böhtandır.
Ögünməklə övrət ər olmaz" (Araslı, 1962).

Qanturalı ilə aralarında olan mübahisəyə görə özündən çıxan Selcan xatun deyir: "Mərə, qavat oğlı, qavat! Mən aşağı qulpa yapışuram, sən yuqarı qulpa yapışursan. Mərə, qavat oğlı, oxınlamı, qılıcınlamı? Gəl bərü, söyləşəlim!" (Cəmşidov, 1969).

Mübahisə zamanı bir-birlərinə ox atmaq məcburiyyətində Selcan xatun oxun dəmir ucluğunu çıxarır, qəzəblənsə də Qanturalıya qıymır. Oxu elə atır ki, ona zərər verməsin. Qanturalı isə ox atmayıb onu sınadığını söyləyir və yenidən barışırlar.

Ailədaxili düşmənçiliyin yer aldığı *Kitabi-Dədə Qorqud* eposunun qədim boylarında tarixə və sosial əsaslara malik, gerçəklikdən qaynaqlanan, nəsillər arasındakı fikir ayrılıqlarını ehtiva edən, ənənəvi süjeti üzərində qurulmuşdur. Lakin süjetin bu variantının orijinallığı Dirsə xanla Buğac arasındakı düşmənçilik, süni şəkildə yaradılmış ziddiyyətin tərəflərindən biri olan Buğacın düşmən tərəfdən yaralanana kimi heç nədən xəbəri olmur.

Bu düşmənçiliyi yaradan qırx namərdlər Dirsə xanın sahib olduğu hakimiyyəti ələ keçirmək üçün xanın varisi Buğac bu yolda onlara böyük maneə yaradırdı. Dirsə xanın namərd yoldaşları onun təfəkkürünü dərindən bildikləri üçün ona oğlu Buğacla bağlı yalanlar uydurub planlaşdırmışdılar. Bu elə bir yalan olmalı idi ki, illərlə varis arzusuyla alışıb yanan Dirsə xanın yaşlı vaxtında tapmış olduğu bircə övladından üz döndərməsinə nail olsunlar.

Beləliklə, namərdlər oğuz törəsinə zidd olan Buğacı şərləyərək onu atasının gözündən salırlar və ov zamanı xoş niyyətlərini onun özünə qarşı çevirirlər: "Oğlandır, nə bilsün? Keyiki qovardı, gətirərdi, babasının ögündə sinirlərdi": "Babam at səgirdişimə baqsun, qıvansun; ox atışıma baqsun, güvənsün; qılıc çalışıma baqsun, sevinsin!" (KDQ, 1988).

Düşmənlər bu olanları onun atasına belə açıqlayırlar: "Dərsə xan, görürmisin oğlanı? Yazıda – yabanda keyiki qoar, sənin ögünə gətürər. Keyikə atarkən oqla səni urar, öldürər. Oğlın səni öldürmədin sən oğlını öldüri görgilə!" (KDQ, 1988).

Xainlərin qurduğu hiyləyə inanıb Dirsə xan oğlunu oxla vurur, öldüyünü zənn edib çadırına dönür. Yaralanmış Buğacın gözünə görünən Xızır peyğəmbər ona yarasının ölümcül olmadığını deyir. Ovdan qayıtmadığını görən ana balasını axtarmağa çıxır və onu yaralı tapır. Oğlunun yarasını Xızır peyğəmbərin söylədiyi ana südü ilə dağ çiçəklərindən hazırlanmış məlhəmlə sağaldır və Buğacı atasından təhlükə sovuşana kimi gizlədir.

Düşmənlər ata ilə oğulu ayırdıqdan sonra təklənmiş Dirsə xanı asanlıqla öz hədəfinə çevrilirlər. Düşmənlər Buğacın ölmədiyini, artıq sağalıb ova çıxdığını bilirdilər. Onlar bilirdilər ki, bu sirrin üstü açılsa, Dirsə xan onları qıracağını bildikləri üçün öz başçılarının əl-qolunu sarıyıb onu kafirə təhvil verməyi qərara alırlar. Bundan xəbər tutan ana dağılmış ailəsinin birləşməsinin vaxtı çatdığını başa düşüb oğluna öyüd verir: "Baban sana qıydısa, sən babana qıymağıl! – dedi" (KDQ, 2004).

Anasının məsləhətini dinləyən Buğac qırx igidlə birlikdə düşmənlərlə vuruşub əməlindən peşman olmuş atasını xilas edir.

"Bayandur" boyu, Qazan xanın aid olduğu "Salur" boyu Üç oklardandır. Dastanın bu boyunda "Qalın Oğuz" anlayışı Üç ok və Boz ok (İç Oğuz və Daş Oğuz) (Rəşidədin, 1992) tayfalarının birliyini tamamlayır.

## Nəticə

Eposda təqdim olunan bu düşmən obrazlarının bir xalqın öz varlığını qoruma, birliyini saxlama və ədalət uğrunda mübarizə motivlərini əks etdirdiyi nəticəsinə gəlinir.

Həm xarici, həm də daxili düşmənlər üzərində əldə olunan qələbələr Oğuz elinin əzmkar ruhunu, xalqın birliyə və Allaha bağlılığını ifadə edir. Bununla da xeyir şər üzərində qələbə çalır və haqq-ədalət bərpa olunur.

## Ədəbiyyat

1. Abdulla, K. (1999). *Sirr içində dastan və yaxud Gizli Dədə Qorqud-2*. Yeni Nəşrlər Evi; Elm nəşriyyatı.
2. AMEA Folklor İnstitutu. (2022). *Dədə Qorqud* elmi-ədəbi toplu (IV(79)).
3. Araslı, H. (1962). *Kitabi-Dədə Qorqud*. Azərnəşr.
4. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. (1985). *20 cilddə* (I cild). Maarif.
5. Cəmşidov, S. (1969). *"Kitabi–Dədə Qorqud"u vərəqləyərkən*. Gənclik.
6. Əlimirzəyeva, F. (1999). Dədə Qorqud dastanının müqayisəli təhlili (Valter Rubenin tədqiqatı əsasında). İçində *Dədə Qorqud 1300*. Bakı Universiteti nəşriyyatı, 339.
7. "Kitabi-Dədə Qorqud". (2004). Öndər nəşriyyatı.
8. Mahmudlu, Y. (1999). "Kitabı-Dədə Qorqud" tarixi mənbədir. İçində *Dədə Qorqud 1300*. Bakı Universiteti nəşriyyatı, 339.
Semantik-üslubi və etimoloji təhlillər göstərir ki, şəxs adları yalnız müəyyən insanların göstəriciləri kimi çıxış etmir, həm də frazeoloji vahidlərə məcazi, mədəni və emosional çalarlar əlavə edir. Şəxs adları idiomların ifadəliliyini, təsvir qüvvəsini və kommunikativ təsirini artırır, mürəkkəb ideyaları qısa və canlı şəkildə çatdırmaq imkanı verir. Tərkibində şəxs adları olan atalar sözlərinin linqvistik xüsusiyyətləri onların maraqlı üslub vasitələri olduğunu göstərir.

Bundan başqa, tədqiqat göstərir ki, şəxs adlarının üslubi və semantik funksiyaları bir-biri ilə sıx bağlıdır. Müəyyən antroponimin seçimi çox vaxt tarixi, mədəni və sosial əlaqələri əks etdirir, idiomun təsiredici mənasını formalaşdırır və onun üslubunu, istifadəsini aydınlaşdırır. Antroponim tərkibli atalar sözlərinin öyrənilməsi dil, təfəkkür və mədəniyyətin qarşılıqlı əlaqəsini üzə çıxarır və bu sahənin dilçilik və üslubşünaslıq baxımından məhsuldar tədqiqat istiqaməti olduğunu təsdiqləyir.

Onomastika dilçilik elminin çox maraqlı sahəsidir. Mütəxəssislər belə hesab edirlər ki, onomastikanı müəyyən etmək üçün əvvəlcə "ad" termini izah olunmalıdır. Corc Redmonds adları belə müəyyən edir: "...bir insanı, heyvanı, yeri və ya əşyanı tanımaq üçün istifadə etdiyimiz xüsusi sözlərdir və onların hamısının müəyyən mənası var. Bir çox hallarda bu məna adın tarixində gizlənmiş olur, lakin digər hallarda isə hələ də açıq-aşkardır" (Redmonds, 2007, s. 9). Bu mənada, şəxs adları mənasına görə diqqəti çəkən onomastik vahidlərdir. "Adlar insan münasibətlərində o qədər mühüm rol oynayır ki, onlara tez-tez sehrli qüvvələr aid edilir və müxtəlif xurafatlar və tabu qaydaları ilə əhatə olunurlar" (Ullmann, 1962, s. 71). Şəxsi adların təsnifatı problemi ilə bir sıra tanınmış dilçilər məşğul olmuşlar. "Bu problem ümumdilçilik xarakteri daşıyır" (Vezhbitskaya, 1997, s. 5).

İngilis dilində tərkibində şəxs adları olan frazeoloji vahidlərin dil-mədəni aspektləri çoxşaxəli və maraqlıdır. Susan Ratcliffe tərəfindən redaktə olunmuş sitatlar, deyimlər və müdrikliklə bağlı ifadələr arasındakı əlaqələri öyrənən *Oxford Dictionary of Phrase, Saying and Quotation* (2006) adlı kitabda on mindən çox belə faktlar bir araya gətirilərək bədii dilin ümumi görünüşü işıqlandırılmışdır (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006).

Frazeoloji vahidlər həmişə subyektiv insan təcrübəsindən irəli gəlir. Onların tərkibində işlənən şəxs adları müxtəlif mənbələrə dayanır. Onlar içərisində İncildən qaynaqlanaraq frazeoloji vahidlərə keçmiş adlar maraq doğurur. Bu baxımdan, *Doubting Thomas* adı diqqəti çəkir. Bu antroponim bir şeyə mübahisəsiz, sübut olmadan inanmayan şəxs anlamında işlənir. *Doubting Thomas* ingilis dilində frazeoloji birləşmə kimi işlənir və "inanmayan, hər şeydən şübhələnən adam" mənasını verir. Bu ifadə Bibliyadakı Həvari Tomasın hekayəsinə əsaslanır. O, İsa Məsihin dirilməsinə yalnız öz gözləri ilə görüb, əlləri ilə toxunduqdan sonra inanacağını bildirmişdir. "O demişdi ki, Məsihin dirildiyinə onun yaralarını görüb toxunana qədər inanmayacaq" (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 40). İngilis dilindəki *Doubting Thomas* ifadəsinin Azərbaycan dilində birbaşa tərcümə ekvivalenti yoxdur, amma eyni mənanı ifadə edən frazeoloji qarşılıqlar mövcuddur. *Doubting Thomas* ("İnanmaz Tomaş") bəzən xalq arasında işlənsə də, çox yayğın deyil. Azərbaycan dilindəki aşağıdakı deyimlər şübhəcil, hər deyilənə dərhal inanmayan insanı bildirir və *Doubting Thomas* ifadəsinin semantikasına uyğundur: "Gözü ilə görməsə, inanmaz"; "Daşı atmadan səsini eşitməz"; "Od görməsə, tüstüyə inanmaz"; "Özü sınamasa, razı qalmaz". Araşdırmaçılar xüsusi adın dil səviyyəsində unikal bir varlığı bildirməsi və onu psixoloji cəhətdən nəzərəçarpan etməsini göstərirlər (Langendock, 2008).

İngilis dilinin frazemlərində işlənən *Judas kiss* xəyanətli hərəkəti bildirir. *Judas kiss* Bibliyadan gələn məşhur frazeoloji birləşmədir, "xəyanətkar öpüş" deməkdir. Bibliyada Yəhuda İskariot İsa Məsihi düşmənlərinə tanıtmaq üçün onu öpür və bununla da satqınlıq edir. "Və onu satacaq olan işarə verdi, dedi: 'Kimi öpərsəm, o odur; onu möhkəm tutun'" (Oxford Dictionary of Phrase, Saying and

Quotation, 2006, p. 465). Burada "Judas" Bibliyadakı Yəhuda İskariot adlı şəxsin adıdır, "kiss" isə "öpüş" deməkdir. Bu iki söz birləşərək *Judas kiss* frazeoloji ifadəsini yaradır. Yəni bu ifadə artıq konkret şəxsin adı yox, mənalı sabit bir birləşmə kimi məşhurlaşıb. *Judas* adı ən çox *kiss* sözü ilə yanaşı işlənir. Məsələn: *He smiled and offered help, but it was a Judas kiss* (O, gülümsəyərək kömək təklif etdi, amma bu xəyanətkar öpüş idi). Bu xüsusi ad ingilis dilinin frazeologiyasında başqa sözlərlə birlikdə də frazem yaradır: *like a Judas*, yəni "satqınlıq etmək", "arxadan vurmaq". Məsələn: *He betrayed his friends like a Judas* (O, dostlarına Yəhuda kimi xəyanət etdi). Ədəbi tarixi kontekstlərdə başqalarını təhlükəyə aparan və onları satqınlıqla yönləndirən şəxs, adətən sürünü tələyə aparan keçi metaforası kimi *Judas goat* ifadəsi də vardır. Məsələn: *The spy acted as a Judas goat, leading the soldiers into an ambush* (Casus əsgərləri pusquya aparan Judas keçisi kimi davrandı).

İngilis dilinin frazeologiyasında xəyanət nəticəsində əldə edilən pul, yəni əxlaqi baxımdan ləkələnmiş qazanc mənasında işlənən ifadəyə də rast gəlirik. Məsələn, *He took the bribe, but everyone called it Judas Money* (O, rüşvət aldı, amma hər kəs bunu "Yəhuda pulu" adlandırdı).

*The mark of Cain* qətl ləkəsi, şöhrətsizlik nişanı kimi işlənir. *Oxford Dictionary of Phrase, Saying and Quotation* kitabında bu ifadə haqqında yazılır: Abeli öldürdükdən sonra Kainin üzərinə qoyulmuş əlamət, əvvəllər müharibədə ilahi qorunmanın göstəricisi (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 301). *The mark of Cain* ifadəsi Bibliya mənşəli frazeoloji birləşmədir. Bu ifadənin mənşəyi qədim Əhdi-Cədiddə *Yaradılış* kitabına dayanır. Qabil (Cain) qardaşı Habili (Abel) öldürdükdən sonra Allah onu lənətləyir və onun üzərinə "Qabilin nişanı"nı (*mark of Cain*) qoyur ki, heç kim onu öldürməsin. İfadənin mənası cinayət və günahın daimi nişanıdır. O, bir insanın törətdiyi pislik, xəyanət və ya günahın görünən və ya simvolik izi kimi işlənir. Cəzalandırılmış və ya damğalanmış şəxs, insanlar tərəfindən qınanan, təcrid olunan, sosial və ya mənəvi baxımdan damğalanmış kimsə haqqında danışarkən həmin frazemə müraciət edilir. Məsələn: *After the scandal, he bore the mark of Cain in the eyes of the community* (Skandaldan sonra o, cəmiyyətin gözündə "Qabilin nişanı"nı daşıyırdı). Bu nümunələr göstərir ki, doğrudan da, şəxs adlarının tarixi qədimdir. "Şəxs adları insan cəmiyyəti yarandığı gündən meydana gəlmiş, cəmiyyətin ictimai, siyasi, sosial, iqtisadi və mədəni tərəqqisi ilə bağlı inkişaf yolu keçmiş, müxtəlif dövrlərdə və müxtəlif şəraitdə formalaşmış, nəhayət, dildə şəxs adlarının müasir və zəngin sistemi yaranmışdır" (Bağırov, 2010, s. 9). Mütəxəssislər haqlı olaraq şəxs adlarını ictimai və tarixi proseslə əlaqələndirirlər: "Antroponimik sistemlərin tərkibini təşkil edən hər bir ünsür sosioloji və tarixi işarədir" (Xuduyev, 2014, s. 4).

İngilis dilinin məşhur frazemlərindən olan *Abraham's bosom* ifadəsi də Bibliya mənşəli frazeoloji birləşmədir. Mənası cənnət, bərəkətli ruhların istirahət yeri, ölülərin ruhunun Allah tərəfindən qorunduğu və səadət içində olduğu məkan deməkdir. Bu məkan, xüsusilə xristianlıq kontekstində əxlaqi və dini baxımdan mükafatlandırılmışlar üçündür. İncildə varlı və yoxsul Lazarın hekayəsində Lazar öləndən sonra "*Abraham's bosom*"a (İbrahim qucağına), yəni cənnətin yaxın və qorunan bir yerinə, rahatlıq və səadət içində olan məkanına aparılır: İncil (Luka): "Və kasıb öldü, mələklər tərəfindən Abrahamın sinəsinə aparıldı" (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 208). *After a long life of piety, he finally rests in Abraham's bosom* (Uzun bir ibadət və saleh həyatın ardından o, nəhayət, İbrahimin qucağında dincəlir).

İngilis dilinin frazeologiyasında xalqın mədəniyyəti ilə bağlı adlar da az deyil. Bu baxımdan, *Darby and Joan* ifadəsi populyar mədəniyyət örnəyi kimi seçilir. Bu frazeoloji birləşmə ingilis mənşəli olub, evli, sədaqətli və sakit həyat sürən yaşlı cütlüyü təsvir edir. XVIII yüzillikdə məşhur ingilis şeirlərində tərənnüm edilən Darby və Joan adlı evli cütlüyün sadə, sakit, bir-birinə sədaqətli həyat tərzinin simvolu kimi işlənir.

*Pleased as Punch* frazemi uşaqlar üçün ənənəvi kukla şousu *Punch and Judy*dən Mr. Punch xarakterinə istinad sayılır (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 336). Bu frazeoloji birləşmə ingilis mənşəli olub, çox məmnun, sevinc və razılıq içində olmağı ifadə edir. Onun mənbəyi *Punch and Judy* kukla teatrı ilə bağlıdır. Punch, çox əyləncəli bir kukla personajıdır. Punch hər zaman öz xeyrinə və planına görə sevinir, buna görə də ifadə onun sevincini və məmnunluğunu simvollaşdırır. Mənası çox məmnun, sevincli, razı olmaq, əla əhval-ruhiyyədə olmaq, böyük sevinc hissi keçirmək deməkdir. Məsələn: *She was as pleased as Punch when she got the job* (O, işi aldıqda

çox məmnun oldu). Azərbaycan dilindəki "ürəyincə olmaq", "çox razı qalmaq" ifadələrinin anlamına uyğundur.

İngilis mədəniyyətinə bağlanan frazemlərdən biri də siyasi və sosial kontekstdə tipik bir obrazı simvollaşdıran *Colonel Blimp* ifadəsidir. *Colonel Blimp* – 1930-cu illərin sonlarında David Lowe tərəfindən qəzet karikaturalarında yaradılmış xarakterə istinad kimi qiymətləndirilir (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 136). Bu frazeoloji birləşmə ingilis mənşəli olaraq 1930-cu illərdə İngiltərədəki *Colonel Blimp* adlı karikatura personajından yaranıb. Blimp, köhnə düşüncəli, mühafizəkar, hərbi rütbəyə bağlı və dünya dəyişikliklərinə uyğunlaşmayan bir ingilis zabiti kimi təsvir olunur. Birləşmənin mənası müasirlikdən uzaq, köhnə qəliblərdə qalmış insan deməkdir. Məsələn: *He refuses to accept new technologies, acting like a real Colonel Blimp* (O, yeni texnologiyaları qəbul etmir, həqiqi *Colonel Blimp* kimi davranır).

*Morton's fork* frazeoloji birləşməsi də ingilis mənşəli olub, çətin seçim və ya hər iki variantın eyni nəticəyə gətirib çıxardığı vəziyyəti ifadə edir. Mənbələrdə belə qeyd edilir: *Morton's fork* – iki seçim və ya alternativin nəticələrinin bərabər dərəcədə xoşagəlməz olduğu vəziyyət; John Morton (təxminən 1420–1500), Canterbury Arxiyepiskopu və Henry VII-nin naziri tərəfindən istifadə edilən arqument; *Morton's fork* – açıq-aşkar varlıların mütləq pulları olmalı, qənaətcil olanların isə qənaətləri olmalı arqumenti (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 77). Bu ifadə XVI əsrdə İngiltərədə, Kral VII Henri dövründə maliyyə naziri olmuş John Morton ilə bağlıdır. Morton vergi siyasətində hər iki halda eyni nəticəyə gəlirdi: həm varlı, həm də kasıbdan vergi toplamaq üçün məntiqli səbəblər tapırdı. Mənası çıxılmaz vəziyyət, iki pisdən birinin seçimi deməkdir. Məsələn: *Facing Morton's fork, the company had to either cut jobs or increase prices* (Morton's fork qarşısında, şirkət ya işçiləri ixtisar etməli, ya da qiymətləri artırmalı idi).

İngilis dilinin frazeologiyasında işlənən şəxs adlarının tarixi müxtəlifdir. "Hər hansı bir onomastik vahidin yaranma tarixini bilmək isə bizi həmin dövrdə xalqımızın yaşayış tərzi, adət-ənənəsi, psixologiyası, dini mənsubluğu, milli təfəkkürü, müxtəlif xalqlarla əlaqəsi, əhalinin iqtisadi durumu və s. haqqında müəyyən təsəvvür yaradır" (Mikayılova, 2008, s. 6). Bu mənada, ingilis dilinin frazeologiyasında Yunan və qədim Roma ilə bağlı şəxs adlarının maraqlı üslub məqamları vardır. *Brave men lived before Agamemnon* ifadəsi qədim Yunan mifologiyasından götürülmüş frazeoloji birləşmədir. Bu ifadə Homerin *İliada* əsəri ilə bağlıdır. Aqamemnon Troya müharibəsinin baş komandanıdır. Frazeoloji mənada isə bu ifadə "indi mövcud olan qəhrəmanlardan əvvəl də igid insanlar olub" deməkdir, yəni o, keçmişdə də cəsur və əzəmətli insanların yaşadığını göstərir. *Brave men lived before Agamemnon* – bir qəhrəmanın qəhrəmanlıqları xatırlanmalıdır; ingilis atalar sözü, XIX əsrin əvvəlləri, Horatsdan götürülüb (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 380). *Brave men lived before Agamemnon* mövcud dövrün igidliyi və qəhrəmanlığı ilə keçmişi müqayisə etmək, qədim dövr qəhrəmanlarını yüksək qiymətləndirmək mənasında işlənir. Məsələn: *Brave men lived before Agamemnon; the warriors of old were fearless and mighty* (Aqamemnondan əvvəl də igid insanlar yaşayıb; qədim dövrün döyüşçüləri qorxmaz və qüdrətli idilər). "Adlar zaman keçdikcə kəmiyyətin inkişafı ilə yanaşı, zənginləşmiş, təkmilləşmiş, bəziləri sıradan çıxmış və həyatda baş verən ictimai-siyasi, iqtisadi, mədəni hadisələrlə əlaqədar olaraq yaranan adlarla əvəz olunmuşdur" (Paşayev&Bəşirova, 2011, s. 3).

"*Appeal to Caesar*" frazeoloji birləşməsi tarixi və hüquqi mənşəli ifadədir. *Appeal to Caesar* – mümkün olan ən yüksək səlahiyyətə müraciət etmək; xüsusilə İncilə (*Həvarilərin İşləri*) istinad edir, burada Paul Apostol Roma vətəndaşı olaraq işinin Romada dinlənilməsini tələb etmiş və demişdir: "Mən Sezara müraciət edirəm" (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 197). İfadə etimoloji cəhətdən Roma hüququ ilə bağlıdır. Roma imperiyasının vətəndaşı məhkəmədə öz işini yerli hakim qarşısında həll edə bilmədikdə, daha yüksək səlahiyyətli hakimə – Sezara müraciət edə bilərdi. Frazemin mənası yuxarı instansiyaya müraciət etmək, daha yüksək və ya nüfuzlu bir şəxsin müdaxiləsi ilə problemin həllini tapmaq, qərarı daha yüksək səlahiyyətli orqana buraxmaq, məsələnin və ya qərarın daha güclü və nüfuzlu şəxs tərəfindən həll olunmasına ümid etmək deməkdir. Məsələn: *When the local authorities refused to help, he made an appeal to Caesar* (Yerli hakimiyyətlər kömək etməyəndə, o, yuxarı instansiyaya müraciət etdi).

Mənbələrdən alınan frazemlər göstərir ki, onların tərkibindəki şəxs adları üslub keyfiyyətlərinə görə bir-birindən fərqlənir. "Antroponimlərin öyrənilməsi bu və ya başqa xalqların etnik mənzərəsinin açıqlanmasına, xalqlar arasındakı mədəni əlaqələrin müəyyənləşdirilməsinə, xalqların keçmiş və müasir adət-ənənələrinin üzə çıxarılmasına yardım edir. Dil tarixi, tarixi dialektologiya və semasiologiya baxımından bir sıra sözlərin aydınlaşdırılması şəxs adları, onların tarixi ilə bağlıdır" (Xuduyev, 2014, s. 5).

İngilis dilinin frazeoloji vahidləri içərisində real şəxs adlarına da rast gəlirik. *Pascal's wager* frazeoloji ifadəsi fransız filosofu, riyaziyyatçısı və fiziki Blez Paskalın (1623–1662) adı ilə bağlıdır və o, iman və Tanrıya inam mövzusunda rasionallığı əsas götürən arqumenti ifadə edir. Paskal bu arqumenti *Pensées* (*Düşüncələr*) əsərində irəli sürmüşdür. O, iddia edir ki, Tanrıya iman etməyin "qazancı" (mükafatı) böyükdür, inanmamağın isə potensial itkisi sonsuzdur. Ona görə də, əgər Tanrı varsa, iman edən qazanır, əgər yoxdursa, iman edən az itkiyə uğrayır. *Pascal's wager* – öz xeyirinə olaraq Tanrı mövcuddur kimi davranmaq arqumenti, çünki cəhənnəmdə əbədi cəzanın ehtimalı inanmanın digər üstünlüklərindən daha böyükdür; Blaise Pascal (1623–1662) (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 192). Mənası düşüncəli və ehtiyatlı seçim, mümkün böyük faydanı nəzərə alaraq risk alma üsulu deməkdir. Məsələn: *He decided to take Pascal's wager and invest in the project, hoping for the best outcome* (O, Paskalın mərci arqumentini qəbul etdi və ən yaxşı nəticəyə ümid edərək layihəyə sərmayə qoydu). Üslubi baxımdan antroponimlər əsasında formalaşmış frazeoloji vahidlər nitqi rəngarəngləşdirir, obrazlılıq və emosional dərinlik əlavə edir. Onlar danışan və yazan şəxslərə mənanı daha dərindən çatdırmaq, daha güclü praqmatik təsir yaratmaq və mədəni yaddaşla intertekstual əlaqələr qurmaq imkanı verir. Belə ifadələrin ədəbiyyat, publisistika və gündəlik ünsiyyətdə geniş şəkildə işlədilməsi onların üslubi potensialının genişliyini və həm rəsmi, həm də qeyri-rəsmi nitqi zənginləşdirmək gücünü təsdiqləyir.

*The Jersey Lily* frazeoloji ifadəsi ingilis mənşəli olub, bir qadının cazibədar, zərif və cəlbedici görünüşünü təsvir etmək üçün istifadə olunur. *The Jersey Lily* – aktrisa Lillie Langtry (1853–1929); Jersey adasında doğulmuş, gözəlliyi ilə seçilmiş və Millais tərəfindən çəkilmiş portretinin başlığından "*The Jersey Lily*" adı ilə tanınmışdır (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 5). Gözəlliyi ilə seçilən Lillie Langtry XIX yüzilliyin sonunda və XX yüzilliyin əvvəlində məşhur olub və "Jersey Lily" ləqəbi ilə tanınırdı, çünki o, Jersey adasından idi. Frazemin mənası zərif, cazibədar qadın, gözəl görünüşlü qadın obrazı deməkdir. Məsələn: *She entered the room like a true Jersey Lily, catching everyone's attention* (O, otağa həqiqi bir *Jersey Lily* kimi girdi və hər kəsin diqqətini çəkdi).

*The Corsican Ogre* frazeoloji birləşməsi ingilis mənşəli olub və müəyyən bir şəxsi və ya xarakteri zülmkar, qəddar və amansız biri kimi təsvir etmək üçün istifadə olunur. *The Corsican Ogre* – Napoleon I (1769–1821), Fransa imperatoru, Korsika doğumuna istinadla (Oxford Dictionary of Phrase, Saying and Quotation, 2006, p. 182). Bu ifadə tarixən Napoleon Bonapart ilə bağlı işlədilmişdir, çünki o, Korsika adasından idi və bəzən onun sərt və qətiyyətli xarakterini tənqid edən ingilis yazılarında belə adlandırılırdı. İfadənin mənası amansız lider və ya zorakılıq nümayiş etdirən insan deməkdir. Məsələn: *The new manager was nicknamed the Corsican Ogre because of his harsh rules* (Yeni menecer sərt qaydaları səbəbindən Korsikalı div ləqəbi ilə çağırıldı).

*Homeric laughter* frazeoloji birləşməsi Homerin epik əsərlərində təsvir olunan qəhqəhəli, yüksək səviyyədə təsiredici və bəzən həm güclü, həm də hədsiz gülüş mənasında işlənir. Bu ifadə yunan şairi Homerin *İliada* və *Odissey* əsərlərindəki qəhqəhəli səhnələrdən yaranıb. Homerin təsvir etdiyi gülüşlər çox vaxt güclü, sarsıdıcı, bəzən ironik və dramatik olur. Ona görə də ifadənin mənası böyük, sarsıdıcı və unudulmaz gülüş deməkdir. Məsələn: *The old man's story brought a Homeric laughter to everyone in the room* (Köhnə kişinin hekayəsi otaqdakı hər kəsdə Homer gülüşü yaratdı).

Örnəklər ingilis dili frazeologiyasının şəxs adları ilə zənginliyini və bunun onların üslub xüsusiyyətlərinə təsirini göstərir.

## Nəticə

İngilis dilində şəxs adları əsasında formalaşmış frazeoloji vahidlər dilin üslubi imkanlarının zənginliyini nümayiş etdirən mühüm leksik-semantik vahidlərdir. İngilis dilində şəxs adlarını ehtiva edən frazeoloji vahidlərin təhlili göstərir ki, bu ifadələr dilin üslubi sistemində mühüm yer tutur. Belə vahidlər yalnız məzmunun zahiri ifadəsi ilə məhdudlaşmır, həm də ifadəlilik, qiymətləndirmə və mədəni istinadların güclü vasitəsi kimi çıxış edir. Frazeoloji vahidlərdə şəxs adları tez-tez simvolik funksiya qazanaraq tipik obrazları, tarixi və ya ədəbi şəxsiyyətləri, həmçinin ümumiləşdirilmiş insan xüsusiyyətlərini təcəssüm etdirir. Belə ifadələr yalnız nominativ funksiyanı deyil, həm də emosional-ekspressiv, qiymətləndirici və üslubi funksiyaları yerinə yetirir. Şəxs adları frazeoloji vahidlərdə müxtəlif semantik transformasiyalara uğrayaraq ictimai-sosial münasibətləri simvollaşdırır.

Tərkibində antroponim olan atalar sözləri həm yazılı, həm də şifahi üslubda müəllifin niyyətini daha aydın və təsirli çatdırmasına xidmət edir. Xüsusilə bədii ədəbiyyatda, publisistikada və gündəlik ünsiyyətdə şəxs adları ilə bağlı frazeologizmlərin işlənməsi dilin ekspressiv potensialını artırır, nitqi daha yaddaqalan və emosional edir. Nəticə etibarilə, şəxs adları ilə bağlı frazeoloji vahidlər ingilis dilinin yalnız linqvistik zənginliyini deyil, həm də onun mədəni və tarixi inkişafını təcəssüm etdirir.

## Ədəbiyyat

1. Azərbaycan antroponimiyasının əsasları. (t.i.). http://zim.az
2. Bağırov, A. (2010). *Onomalogiya problemləri* (I c.). Elm və Təhsil.
3. Langendock, V. (2008, January 17). *Theory and Typology of Proper Names*. http://www.degruyter.de/cont/
4. Mikayılova, Ə. (2008). *Onomastik vahidlərin üslubi imkanları (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat)*. Memar Nəşriyyat–Poliqrafiya MMC.
5. Oxford Dictionary of Phrase, Saying and Quotation. (2006). https://archive.org/details/oxforddictionary0000unse_g5e8
6. Paşayev, A., & Bəşirova, A. (2011). *Azərbaycan şəxs adlarının izahlı lüğəti*. Mütərcim.
7. Qurbanov, A. (2019). *Azərbaycanlı şəxs adları ensiklopediyası*.
8. Redmonds, G. (2007). *Names and History: People, Places and Things*. Continuum International Publishing Group.
9. Superanskaya, A. V. (2009). *Obshchaya teoriya imeni sobstvennogo* (3-e izd.). Knizhnyy dom "LIBROKOM". *(Transliterasiya: Superanskaya, A. V.)*
10. Ullmann, S. (1962). *Semantics: An Introduction to the Science of Meaning*. Basil Blackwell.
11. Vezhbitskaya, A. (1997). *Yazyk. Kul'tura. Poznanie* (perevod s angliyskogo). Russkie Slovari. *(Transliterasiya: Vezhbitskaya, A.)*
12. Xuduyev, N. (2014). *Azərbaycan antroponimlərinin təşəkkülü və inkişafı*. Seçilmiş əsərləri, IX c. Elm və Təhsil, 4–150.

Daxil oldu: 04.09.2025
Qəbul edildi: 25.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/49-52

**Könül Şirvani**
Sumqayıt Dövlət Universiteti
https://orcid.org/0000-0003-4417-0493
konul.shirvani@sdu.edu.az

# Dayanıqlı innovasiyalar kontekstində ekoloji marketinq yanaşmalarının brend etibarı və müştəri dəyəri formalaşmasına təsirinin təcrübi araşdırılması

## Xülasə

Dayanıqlı innovasiyalar dövrün iqtisadi və ekoloji çağırışlarına cavab verən ən mühüm istiqamətlərdən biridir və bu kontekstdə ekoloji marketinq strategiyalarının əhəmiyyəti daha da artmışdır. Müasir bazar mühitində istehlakçıların ekoloji məsuliyyətə olan tələbləri gücləndikcə şirkətlər yaşıllaşdırılmış biznes modellərinə üstünlük verməyə başlayır. Brend etibarı ilə ekoloji məsuliyyət arasında yaranan əlaqə müəssisələr üçün strateji üstünlük yaradır. Ekoloji bazar tendensiyaları marketinqin məzmununu və məqsədini dəyişərək daha dayanıqlı yanaşmaların tətbiqinə şərait yaradır. Təcrübi araşdırmalar göstərir ki, ekoloji innovasiyaların tətbiqi həm brend imicinin güclənməsinə, həm də istehlakçılarda daha yüksək dəyər algısının formalaşmasına səbəb olur. Bu baxımdan, ekoloji marketinq yanaşmalarının təsir mexanizmlərinin araşdırılması həm nəzəri, həm də praktiki baxımdan aktualdır.

***Açar sözlər:*** *ekoloji marketinq, dayanıqlı innovasiyalar, brend etibarı, müştəri dəyəri, yaşıl istehlak, rəqəmsal ekoloji strategiyalar, təcrübi analiz*

**Konul Shirvani**
Sumgayit State University
https://orcid.org/0000-0003-4417-0493
konul.shirvani@sdu.edu.az

# An Empirical Study of the Impact of Ecological Marketing Approaches on Brand Trust and Customer Value Formation in the Context of Sustainable Innovations

## Abstract

Sustainable innovations have become one of the most important directions addressing contemporary economic and environmental challenges, and in this context, the significance of ecological marketing strategies has further increased. As consumer demand for environmental responsibility strengthens in the modern market environment, companies are increasingly adopting greener business models. The emerging relationship between brand trust and environmental responsibility creates strategic advantages for enterprises. Ecological market trends transform the content and purpose of marketing, fostering the application of more sustainable approaches. Empirical studies show that the implementation of ecological innovations strengthens brand image and leads to the formation of a higher value perception among consumers. In this regard, investigating the mechanisms through which ecological marketing approaches exert their influence is of both theoretical and practical importance.

***Keywords:*** *green marketing, sustainable innovations, brand trust, customer value, green consumption, ecological strategies, empirical analysis*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Dayanıqlı innovasiyalar müasir iqtisadi sistemlərin inkişafında əsas istiqamətlərdən birinə çevrilmişdir. Qlobal iqlim dəyişmələri, resurs çatışmazlığı və istehlakçıların ekoloji ayıqlığının artması müəssisələri daha məsuliyyətli marketinq strategiyalarına yönəltmişdir (Papadas et al., 2017). Ekoloji marketinq bu gün yalnız brend imicinin formalaşdırılmasına deyil, həm də istehlakçıların dəyər qavrayışının gücləndirilməsinə xidmət edən çoxşaxəli yanaşmadır. Müasir dövrdə istehlakçılar məhsulların xüsusiyyətləri ilə yanaşı, onların istehsal prosesində ekoloji məsuliyyətin hansı səviyyədə nəzərə alındığını da qiymətləndirirlər. Bu proses şirkətlərin ekoloji innovasiyalara daha böyük investisiya yatırmasına stimul verir (Kotler et al., 2021). Rəqəmsallaşma dövründə yaşıl marketinq strategiyalarının effektivliyi daha da yüksəlir, çünki informasiya axınının sürətlənməsi istehlakçıların ekoloji məlumatlara çıxışını genişləndirir və onların qərarvermə prosesinə bilavasitə təsir göstərir. Şirkətlər brend etibarını artırmaq üçün ekoloji şəffaflıq, karbon izinin azaldılması, təkrar emal proqramları və enerji səmərəliliyi layihələri kimi fəaliyyətlərə xüsusi diqqət ayırırlar (Peattie & Crane, 2005). Bu yanaşmalar yalnız ekoloji fayda yaratmır, eyni zamanda müştərilərin məhsula olan emosional bağlılığını gücləndirir.

### Tədqiqat

Ekoloji marketinq strategiyaları istehlakçı davranışlarını dəyişdirdiyi kimi, bazar rəqabətinin də strukturunu yenidən formalaşdırır. Şirkətlər arasında yaşıl innovasiya əsas rəqabət meyarlarından birinə çevrilir (Grimmer & Woolley, 2014). Gələcək iqtisadi trendlər göstərir ki, ekoloji məsuliyyət və dayanıqlı istehsal praktikasına malik brendlər bazarda daha üstün mövqe tutacaqdır. Buna görə ekoloji marketinq yanaşmalarının brend etibarına və müştəri dəyərinə təsirinin təcrübi araşdırılması aktuallıq kəsb edir.

**Cədvəl 1. Ekoloji marketinq strategiyalarının təsir mexanizmləri.**

| Təsir sahəsi | Müsbət təsir | Marketinq əhəmiyyəti |
|---|---|---|
| Brend etibarı | Şirkətin ekoloji şəffaflığının artması | Brendə ictimai etimadın güclənməsi |
| Müştəri dəyəri | Ekoloji dəyərlərə uyğun istehlakçı qavrayışı | Məhsula yüksək dəyər alqısının formalaşması |
| Rəqabət üstünlüyü | Yaşıl innovasiyalarla fərqlənmə | Bazar payının genişlənməsi |
| Loyallıq | Ekoloji məsuliyyət əsasında emosional bağlılıq | Uzunmüddətli müştəri münasibətlərinin möhkəmlənməsi |
| Sosial təsir | Cəmiyyətin ekoloji maariflənməsinə töhfə | Şirkətin sosial məsuliyyət imicinin artması |

Ekoloji marketinqin formalaşmasına təsir edən əsas amillərdən biri istehlakçıların ekoloji şüurunun yüksəlməsidir. Rəqəmsal informasiya məkanının genişlənməsi sayəsində istehlakçılar ekoloji problemlər, iqlim dəyişmələri və dayanıqlı istehsal barədə daha çox məlumat əldə edirlər. Bu məlumatlılıq onların davranış modellərini dəyişərək daha ekoloji təmiz məhsullara üstünlük verməsinə səbəb olur (Ottman, 2017). Şirkətlərin bu tendensiyaya uyğunlaşması ekoloji marketinq yanaşmalarının tətbiqini zəruri edir. Ekoloji innovasiyalar brendlərin rəqabət qabiliyyətini müəyyən edən əsas meyarlardan birinə çevrilmişdir. Bu innovasiyalar istehsal prosesində təbii resurslardan daha səmərəli istifadə, karbon emissiyalarının azaldılması və tullantıların minimumlaşdırılması kimi fəaliyyətləri əhatə edir. Belə addımlar istehlakçılarda şirkət haqqında müsbət imic formalaşdırır və brend etibarını artırır. Tədqiqatlar göstərir ki, ekoloji məsuliyyət nümayiş etdirən şirkətlərin məhsulları daha yüksək dəyər algısına malik olur (Leonidou et al., 2013).

Ekoloji marketinq yanaşmalarının ən mühüm elementlərindən biri məhsulun həyat dövrü boyunca ekoloji təsirlərin qiymətləndirilməsidir. Şirkətlər məhsulun istehsalı, daşınması, istifadəsi və utilizasiya mərhələlərində ekoloji məsuliyyət meyarlarını tətbiq etməklə həm brend imicini

gücləndirir, həm də bazarda fərqlənmə imkanı qazanırlar. Bu yanaşma istehlakçıların məhsula daha dərin emosional bağlılıq hissini artırır və müştəri dəyərinin uzunmüddətli formalaşmasına şərait yaradır (Chen, 2010). Müasir dövrdə ekoloji marketinq strategiyaları rəqəmsal platformalar vasitəsilə daha geniş auditoriyaya çatdırılır. Sosial media, mobil tətbiqlər və veb resurslar şirkətlərin yaşıl təşəbbüslərini təqdim etmək üçün ən effektiv vasitələrdir. Bu platformalarda ekoloji məsuliyyətlə bağlı paylaşımlar istehlakçılar arasında yüksək etimad yaradır və brend loyallığını artırır (Dangelico & Vocalelli, 2017).

Eyni zamanda, rəqəmsal marketinq analitikası şirkətlərə istehlakçıların davranışlarını daha dəqiq təhlil etmək imkanı verir. Brend etibarının formalaşması ekoloji marketinqin əsas hədəflərindən biridir. Etibarlı brendlər həm bazar payını artırır, həm də müştərilərin davamlı loyal davranışlarını təmin edir. Ekoloji məsuliyyət daşıyan şirkətlər müştərilər tərəfindən daha şəffaf və etibarlı qəbul edilir. Bu amil müştəri dəyərinin yüksəlməsinə və müştəri–məhsul münasibətlərinin güclənməsinə səbəb olur (Del Río-González, 2005). Ekoloji innovasiyalar müştəri dəyərinin formalaşmasında mühüm rol oynayır. İstehlakçılar yalnız məhsulun keyfiyyətini deyil, həm də onun arxasında dayanan ekoloji dəyərləri qiymətləndirirlər. Bu isə şirkətlərin bazarda daha güclü mövqelər qazanmasına imkan yaradır. Araşdırmalar göstərir ki, ekoloji məsuliyyət daşıyan brendlərin məhsulları üçün istehlakçılar daha yüksək ödəniş etməyə hazırdırlar.

Ekoloji marketinq yanaşmaları şirkətlərin uzunmüddətli dayanıqlı inkişaf strategiyalarının tərkib hissəsidir. Bu strategiyalar həm iqtisadi, həm sosial, həm də ekoloji fayda yaradır. Dayanıqlı biznes modellərinin qurulması şirkətlərin fəaliyyətində riskləri azaldır və innovativ potensialı artırır. Bu baxımdan, ekoloji marketinq yalnız reklam fəaliyyəti deyil, genişmiqyaslı idarəetmə strategiyası kimi çıxış edir. Təcrübi araşdırmalar göstərir ki, brend etibarının formalaşması üçün şirkətin ekoloji şəffaflığı həlledici rol oynayır. İstehlakçılar ekoloji iddiaların real olub-olmadığını qiymətləndirmək üçün məlumat mənbələrini müqayisə edir və şirkətin konkret fəaliyyətlərini izləyirlər.

Məsələn, karbon emissiyasının azalması, təkrar emal proqramlarının mövcudluğu və yaşıl istehsal sertifikatları brend etibarını birbaşa gücləndirir. Ekoloji marketinqin tətbiqində qarşıya çıxan əsas problemlərdən biri "greenwashing" adlanan yanlış ekoloji iddialardır. Bəzi şirkətlər öz məhsullarını ekoloji təmiz kimi təqdim etsələr də, əslində real ekoloji təsirləri minimum həddə endirmirlər. Bu isə istehlakçı etibarını zədələyir və ekoloji marketinq modellərinin effektivliyini aşağı salır. Buna görə ekoloji şəffaflıq və real fəaliyyətlərin göstərilməsi vacibdir. Yaşıl innovasiyalar şirkətlərin rəqabət üstünlüyünün formalaşmasında mühüm rol oynayır. Bu innovasiyalar enerji səmərəliliyinin artırılması, alternativ materiallardan istifadə, tullantıların minimumlaşdırılması kimi fəaliyyətləri əhatə edir. Şirkətlər ekoloji innovasiyalar tətbiq etməklə həm əməliyyat xərclərini azaldır, həm də brend etibarını gücləndirirlər. Bu isə müştəri dəyərinin uzunmüddətli artımına səbəb olur. Beynəlxalq təcrübə də göstərir ki, ekoloji innovasiyalara yatırım edən şirkətlər bazarda daha dayanıqlı mövqe qazanır. Avropa və ABŞ bazarlarında ekoloji sertifikat-lara malik məhsulların satışı son illərdə sürətlə artmışdır. Bu tendensiya inkişaf etməkdə olan ölkələrdə də genişlənir (FAO, 2022). Yaşıl innovasiyaların geniş tətbiqi həm də şirkətlərin ekoloji tələblərə uyğunluğunu artıraraq onların beynəlxalq bazarlara çıxış imkanlarını genişləndirir. Eyni zamanda, ekoloji məhsulların artan tələbi şirkətləri daha davamlı istehsal modellərinə keçməyə təşviq edir. Bu innovasiyalar istehlakçılar arasında brend haqqında müsbət emosional təsəvvür yaradır və onların satınalma qərarlarına bilavasitə təsir göstərir. Yaşıl innovasiyalara yönəlmiş investisiyalar şirkətlərin uzunmüddətli rəqabət strategiyalarının ayrılmaz hissəsinə çevrilir. Beləliklə, ekoloji innovasiyalar həm bazar payının genişlənməsinə, həm də şirkətlərin reputasiya dəyərinin yüksəlməsinə əhəmiyyətli töhfə verir.

Azərbaycanda da ekoloji marketinqə maraq artmaqdadır və bir çox şirkət ekoloji layihələrə sərmayə yatırır. Araşdırmalar təsdiq edir ki, müştəri dəyərinin formalaşmasında emosional və sosial faktorlar böyük rol oynayır. İstehlakçılar yalnız məhsulun funksional faydasına deyil, həm də şirkətin cəmiyyətə və ətraf mühitə töhfəsinə böyük önəm verirlər. Bu, ekoloji marketinq yanaşmalarının gələcəkdə daha geniş tətbiq olunacağını göstərir. Dayanıqlı innovasiyalar kontekstində ekoloji marketinq strategiyalarının brend etibarı və müştəri dəyəri formalaşmasına təsiri çoxşaxəli və dinamik bir prosesdir (Əliyev, 2022).

## Nəticə

Araşdırmalar göstərir ki, ekoloji məsuliyyət daşıyan şirkətlər bazarda daha yüksək etimad qazanır və istehlakçılar onların məhsullarına daha dəyərli yanaşır. Rəqəmsal platformalar vasitəsilə ekoloji mesajların geniş auditoriyaya çatdırılması brend imicinin güclənməsinə əhəmiyyətli təsir göstərir. Təcrübi nəticələr sübut edir ki, ekoloji innovasiyalar tətbiq edən şirkətlər həm əməliyyat səmərəliliyini artırır, həm də müştəri loyallığını möhkəmləndirir. Ekoloji marketinq yanaşmalarının tətbiqi yalnız ekoloji fayda yaratmır, həm də iqtisadi və sosial üstünlüklər formalaşdırır. Şirkətlərin ekoloji şəffaflığa üstünlük verməsi onların rəqabət qabiliyyətini artırır və bazarda diferensiasiya imkanlarını genişləndirir (Məmmədova, 2021). Ekoloji məsuliyyətin strateji səviyyədə inteqrasiyası şirkətlərin uzunmüddətli risklərini azaldır və onlara qeyri-müəyyən bazar şəraitində daha sabit fəaliyyət imkanı yaradır. Eyni zamanda, ekoloji innovasiyalar investorlara daha yüksək etibarlılıq siqnalı verir və şirkətlərin kapital cəlb etmə imkanlarını genişləndirir. Tədqiqatlar sübut edir ki, yaşıl təşəbbüslərin tətbiq olunduğu müəssisələrdə əməkdaşların motivasiyası və iş məmnuniyyəti də yüksəlir, çünki ekoloji dəyərlər təşkilati mədəniyyətin bir hissəsinə çevrilir. Bu proses şirkətin daxili idarəetmə keyfiyyətini artırır və əməliyyatların daha çevik şəkildə həyata keçirilməsinə şərait yaradır. Ekoloji innovasiyaların genişlənməsi həmçinin istehsal texnologiyalarının modernləşdirilməsini və resurslardan daha rasional istifadəni tələb edir. Bu isə nəticə etibarilə məhsulun maya dəyərinin azalmasına və rəqabət gücünün artmasına səbəb olur.

Yaşıl innovasiyaların tətbiqi şirkətləri yeni bazarlara çıxış imkanı ilə təmin edir, çünki qlobal ticarət şəbəkələri ekoloji meyarlara uyğun məhsullara üstünlük verir. Eyni zamanda, ekoloji standartlara uyğunluq şirkətlərin beynəlxalq sertifikatlar əldə etməsinə şərait yaradır və belə sertifikatlar brendin reputasiya dəyərini artırır. Nəticə olaraq, ekoloji innovasiyalar yalnız ekoloji fayda yaratmaqla kifayətlənmir, həm də şirkətlərin uzunmüddətli strateji mövqelərinin güclənməsinə mühüm töhfə verir.

## Ədəbiyyat

1. Chen, Y. S. (2010). The drivers of green brand equity. *Journal of Business Ethics, 93*(2), 307–319.
2. Dangelico, R. M., & Vocalelli, D. (2017). "Green marketing": An analysis of definitions, dimensions, and relationships. *Journal of Cleaner Production, 165*, 1263–1279.
3. Del Río-González, P. (2005). The drivers of eco-innovation. *Business Strategy and the Environment, 14*(5), 289–301.
4. Əliyev, V. M. (2022). *Aqrar sahədə logistika və təchizat zənciri idarəetməsinin inkişaf istiqamətləri*. Elm və Təhsil.
5. FAO. (2022). *The State of Food Security and Nutrition in the World 2022*. Food and Agriculture Organization of the United Nations.
6. Grimmer, M., & Woolley, M. (2014). Green marketing messages and consumers' purchase intentions. *European Journal of Marketing, 48*(1/2), 127–146.
7. Kotler, P., Kartajaya, H., & Setiawan, I. (2021). *Marketing 5.0: Technology for humanity*. John Wiley & Sons.
8. Leonidou, C. N., Katsikeas, C. S., & Morgan, N. A. (2013). Greening the marketing mix. *Journal of Marketing, 77*(3), 1–25.
9. Məmmədova, Ş. R. (2021). *Qida təhlükəsizliyi və kənd təsərrüfatı siyasətinin iqtisadi əsasları*. SDU Nəşriyyatı.
10. Ottman, J. A. (2017). *The new rules of green marketing*. Routledge.
11. Papadas, K. K., Avlonitis, G. J., & Carrigan, M. (2017). Eco-based marketing strategies. *Industrial Marketing Management, 76*, 123–139.
12. Peattie, K., & Crane, A. (2005). Green marketing: Legend, myth, farce or prophesy? *Qualitative Market Research, 8*(4), 357–370.

Daxil oldu: 05.09.2025
Qəbul edildi: 26.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/53-56

**Shalala Bunyadzade**
Baku State University
https://orcid.org/0009-0007-7854-6352
shalalabunyadzadeh@gmail.com

# The Impact of Metacognitive Strategies on English Language Learning


## Abstact

This article explores the role of metacognitive strategies in English language learning and their theoretical grounding within major SLA frameworks. Drawing on Flavell, Brown, Oxford, Wenden, Anderson, and Zimmerman, the study shows that metacognitive knowledge and regulation enhance learners' ability to plan, monitor, and evaluate their learning. Integrating insights from information processing, self-regulated learning, schema theory, and sociocultural theory, the article demonstrates that metacognitive strategy use improves comprehension, autonomy, problem-solving, and long-term retention across listening, speaking, reading, and writing. The findings highlight the importance of incorporating metacognitive training into English language teaching to support independent and strategic learners.

***Keywords:*** *metacognitive strategies***,** *english language learning***,** *Self-regulated learning***,** *SLA theories, learner autonomy*

**Şəlalə Bünyadzadə**
Bakı Dövlət Universiteti
https://orcid.org/0009-0007-7854-6352
shalalabunyadzadeh@gmail.com

# Metakoqnitiv strategiyaların ingilis dili öyrənməsinə təsiri


## Xülasə

Bu məqalə ingilis dili öyrənməsində metakoqnitiv strategiyaların rolunu və onların əsas SLA (İkinci Dil Qazanılması) çərçivələrindəki nəzəri əsaslarını araşdırır. Flavell, Brown, Oxford, Wenden, Anderson və Zimmerman kimi tədqiqatçıların işlərinə əsaslanaraq, araşdırma göstərir ki, metakoqnitiv bilik və tənzimləmə öyrənənlərin planlaşdırma, monitorinq və öz fəaliyyətlərini qiymətləndirmə bacarıqlarını gücləndirir. İnformasiya emalı, özünü-tənzimləyən öyrənmə, sxem nəzəriyyəsi və sosiomədəni nəzəriyyənin prinsiplərini birləşdirən məqalə, metakoqnitiv strategiyaların dinləmə, danışıq, oxu və yazı kimi dil bacarıqları üzrə anlama, müstəqillik, problem həlli və uzunmüddətli yaddaşa müsbət təsir etdiyini göstərir. Nəticələr ingilis dili tədrisində metakoqnitiv hazırlığın tətbiq edilməsinin müstəqil və strateji öyrənənlərin formalaşması baxımından əhəmiyyətini vurğulayır.

***Açar sözlər:*** *metakoqnitiv strategiyalar, ingilis dili öyrənməsi, özünü-tənzimləyən öyrənmə, SLA nəzəriyyələri, öyrənən müstəqilliyi*

## Introduction

In modern language education, achieving success in foreign language learning depends not only on mastering linguistic forms but also on learners' capacity to consciously manage their cognitive processes. Metacognition—often described as "the ability to think about one's own thinking"—has become a key theoretical concept within second language acquisition (SLA). As Flavell (1979)

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

explains, metacognition consists of both awareness of cognitive processes and the ability to regulate them, placing it at the heart of effective learning.

Scholars such as Brown (1987), Baker and Brown (1984), Oxford (1990), Wenden (1998), Anderson (2002), and Zimmerman (2000) have shown that metacognitive strategies help learners plan, observe, and assess their own learning performance, which strengthens autonomy, deeper comprehension, and long-term improvement. As English language learners increasingly interact with digital environments, multimodal materials, and global communication networks, the development of metacognitive competence becomes even more crucial. The purpose of this article is to analyze the theoretical basis of metacognitive strategies, their place within major SLA theories, and their contribution to the development of English language skills.

**Research**

**Theoretical foundations of metacognition**

Flavell's (1976, 1979) influential work laid the groundwork for subsequent approaches to metacognition. He differentiates between metacognitive knowledge—information learners possess about themselves, tasks, and strategies—and metacognitive regulation, which includes planning, monitoring, and evaluating cognitive activity. Nelson and Narens (1990) elaborated on this by introducing a two-level model of cognition: the *object-level*, where cognitive processes occur, and the *meta-level*, which supervises, evaluates, and directs those processes. Together, these theories help explain how learners manage language-related tasks.

**Metacognition within SLA theories**

**a) Information Processing Theory**

Atkinson and Shiffrin (1968) propose that learning involves the movement of information through sensory registers, short-term memory, and long-term memory. Metacognitive strategies play an important facilitating role in this system by helping learners focus attention, structure input, and consciously regulate how information is processed.

**b) Self-Regulated Learning Theory**

Zimmerman (2000) emphasizes that successful learners actively participate in setting goals, monitoring their progress, and adjusting their learning behaviors. In the context of language learning, this means using strategies deliberately, reflecting on performance, and maintaining persistence—all core elements of metacognitive functioning.

**c) Schema Theory**

Rumelhart (1980) argues that new information becomes meaningful when it connects with prior knowledge stored in cognitive structures known as schemata. Metacognitive strategies assist learners in activating relevant background knowledge, linking ideas, and refining their mental representations during comprehension.

**d) Sociocultural Theory**

Vygotsky (1978) stresses that cognitive development is shaped by social interaction. Metacognitive abilities develop through scaffolding provided by teachers or peers, enabling learners to internalize strategies for planning, controlling, and evaluating cognitive tasks.

**Metacognitive strategies in language learning**

Oxford's (1990, 2011) classification highlights the central role of metacognitive strategies among learning strategies. These include the ability to:

- plan learning activities,
- concentrate attention,
- observe comprehension processes,
- identify and analyze errors,
- assess learning progress.

Wenden (1998) argues that metacognitive knowledge is essential for learner autonomy, noting that proficient learners consistently reflect on their learning experiences and consciously select effective strategies, while less successful learners often lack such awareness.

Anderson (2002) proposes a five-stage metacognitive model—preparation, planning, monitoring, problem-solving, and evaluation—which provides a structured basis for incorporating strategy instruction in English language teaching.

**Listening**

Listening is recognized as one of the most cognitively demanding language skills, and metacognition is indispensable for effective listening performance. Vandergrift (2003) describes listening as a deliberate, strategic activity rather than a passive process. Skilled listeners use a range of metacognitive strategies:

- **Planning:** activating relevant background knowledge, predicting themes, defining listening goals, and deciding which cues to attend to.
- **Monitoring:** checking comprehension, adjusting listening focus, and detecting points of confusion.
- **Problem-solving:** using inferencing, identifying key words, and reconstructing meaning when misunderstandings occur.
- **Evaluation:** reflecting on the strategies used, analyzing mistakes, and considering improvements for future listening tasks.

These processes enable listeners to cope with rapid speech, diverse accents, and incomplete information, reinforcing the essential role of metacognitive awareness.

**Speaking**

Oral communication requires constant cognitive regulation, and metacognitive strategies help learners manage their speaking performance. Metacognition in speaking involves:

- **Planning speech:** organizing ideas, choosing suitable linguistic forms, and anticipating communicative needs.
- **Monitoring fluency and accuracy:** ensuring clarity, checking pronunciation, and correcting grammatical errors in real time.
- **Adjusting communicative strategies:** adapting to listeners' reactions, cultural norms, and the flow of interaction.
- **Evaluating performance:** reviewing what was successful, identifying challenges, and refining future speaking strategies.

Through such regulation, metacognition enhances communicative efficiency and accuracy.

**Reading**

Reading comprehension depends heavily on metacognitive control. Effective readers engage in deliberate, reflective cognitive activity:

- **Predicting content:** drawing on prior knowledge to anticipate the text's structure, vocabulary, and purpose.
- **Recognizing text organization:** understanding text structures such as comparison, cause-effect, or problem-solution patterns.
- **Monitoring understanding:** adjusting reading speed, rereading difficult segments, and switching strategies when necessary.
- **Evaluating comprehension:** checking the accuracy of interpretations, identifying misunderstandings, and determining whether additional reading is needed.

Metacognition enables readers to develop flexibility, strategic awareness, and high-level comprehension skills.

**Writing**

Writing is often viewed as the most metacognitively intensive skill because it involves extensive planning, real-time monitoring, and detailed revision. Metacognition contributes to writing through:

- **Planning:** generating ideas, outlining structure, defining purpose and audience, and selecting appropriate language.
- **Monitoring:** ensuring coherence, clarity, grammatical accuracy, and alignment with intended meaning.
- **Revising:** making content-level adjustments and surface-level edits.

• **Evaluating:** reviewing the completed text, analyzing its strengths and weaknesses, and deciding which strategies were effective.

Learners with strong metacognitive abilities produce more coherent, accurate, and well-organized written texts.

## Conclusion

Metacognitive strategies are among the most powerful contributors to successful English language learning. Research across multiple theoretical perspectives—including information processing, self-regulated learning, schema theory, and sociocultural theory—shows that metacognition enables learners to manage, control, and evaluate their learning processes more effectively. These strategies improve comprehension, strengthen learner autonomy, enhance motivation, and support long-term retention of language skills.

Incorporating metacognitive training into English language instruction is therefore essential. Learners who possess metacognitive awareness become more strategic, independent, and efficient language users—qualities that align with the cognitive and communicative demands of 21st-century learning environments.

## References

1. Anderson, N. J. (2002). *The role of metacognition in second language teaching and learning.* ERIC Digest.
2. Atkinson, R. C., & Shiffrin, R. M. (1968). Human memory: A proposed system and its control processes. In K. Spence (Ed.), *Psychology of Learning and Motivation*. Academic Press, 89–195.
3. Baker, L., & Brown, A. L. (1984). Metacognitive skills and reading. In P. Pearson (Ed.), *Handbook of Reading Research*. Longman, 353–394.
4. Brown, A. L. (1987). Metacognition and self-regulated learning. *Educational Psychologist*, 22(2), 1–16.
5. Flavell, J. H. (1976). Metacognitive aspects of problem solving. In L. Resnick (Ed.), *The Nature of Intelligence*. Lawrence Erlbaum, 231–236.
6. Flavell, J. H. (1979). Metacognition and cognitive monitoring. *American Psychologist*, 34(10), 906–911.
7. Nelson, T. O., & Narens, L. (1990). Metamemory: A theoretical framework. *Psychological Bulletin*, 108(3), 327–336.
8. Oxford, R. L. (1990). *Language learning strategies: What every teacher should know.* Heinle & Heinle.
9. Oxford, R. L. (2011). *Teaching and researching language learning strategies.* Pearson Education.
10. Rumelhart, D. E. (1980). Schemata: The building blocks of cognition. In R. Spiro, B. Bruce, & W. Brewer (Eds.), *Theoretical Issues in Reading Comprehension*. Lawrence Erlbaum, 33–58.
11. Vandergrift, L. (2003). Orchestrating strategy use: Toward a model of the skilled second language listener. *Language Learning*, 53(3), 463–496.
12. Vygotsky, L. S. (1978). *Mind in society: The development of higher psychological processes.* Harvard University Press.
13. Wenden, A. (1998). Metacognitive knowledge and language learning. *Applied Linguistics*, 19(4), 515–537.
14. Zimmerman, B. J. (2000). Attaining self-regulation: A social cognitive perspective. In M. Boekaerts, P. Pintrich, & M. Zeidner (Eds.), *Handbook of Self-Regulation*. Academic Press, 13–39.

Received: 21.08.2025
Accepted: 19.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/57-61

**Nigar Kərimova**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində
Azərbaycan Dövlət Pedaqoji Kolleci
https://orcid.org/0009-0008-1634-6731
krimovanigar20@gmail.com

# Milli birlik və qlobal kimlik kontekstində 31 Dekabr Həmrəylik Gününün yeri

## Xülasə

XXI əsrdə cəmiyyətlərin inkişaf dinamikasını müəyyənləşdirən əsas amillərdən biri milli kimliklə qlobal kimlik arasında tarazlığın necə qorunması məsələsidir. Qloballaşma, sərhədlərin şərtiləşməsi, informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı insanları eyni zamanda həm lokal, həm də qlobal məkanın üzvünə çevirir. Belə bir şəraitdə milli dövlətlər və xalqlar üçün kimlik və birlik məsələləri təkcə daxili siyasətin deyil, həm də beynəlxalq münasibətlər sisteminin mühüm komponentinə çevrilir.
***Açar sözlər:*** *həmrəylik, milli birlik, qlobal kimlik, milli ideologiya, tarixi reallıq*

**Nigar Karimova**
Azerbaijan State Pedagogical University
Azerbaijan State Pedagogical College
https://orcid.org/0009-0008-1634-6731
krimovanigar20@gmail.com

# The Place of December 31 Solidarity Day in the Context of National Unity and Global Identity

## Abstract

In the twenty-first century, one of the key factors shaping the dynamics of societal development is the issue of maintaining a balance between national and global identity. Globalization, the increasing conditionality of borders, and the rapid advancement of information and communication technologies turn individuals into members of both local and global spaces simultaneously. Under these circumstances, issues of identity and unity for nation-states and peoples become crucial components not only of domestic policy but also of the system of international relations.
***Keywords:*** *solidarity, national unity, global identity, national ideology, historical reality*

## Giriş

Azərbaycan xalqı üçün bu kontekst daha həssas və çoxqatlıdır. Bir tərəfdən, ölkə yeni dövlətçilik mərhələsində öz müstəqil siyasi sistemini, iqtisadi modelini və milli ideologiyasını formalaşdırır, digər tərəfdən isə dünyanın müxtəlif regionlarında yaşayan milyonlarla azərbaycanlı ilə mənəvi-siyasi bağlarını möhkəmləndirməyə çalışır. Bu mənada 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü yalnız təqvimdə bir tarix deyil, milli birlik və qlobal kimlik münasibətlərinin kəsişmə nöqtəsini təmsil edən ideoloji-mənəvi hadisədir. Bu günün qeyd olunması həm ölkə daxilində, həm də diaspor mühitində azərbaycanlıların özünüdərk prosesinə, milli şüurun möhkəmlənməsinə, mədəni yaddaşın qorunmasına və Azərbaycançılıq ideyasının qlobal miqyasda təbliğinə xidmət edir (Aliyev, 2022).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Tədqiqat**

XX əsrin sonlarında geosiyasi vəziyyət və milli özünüdərk prosesləri. XX əsrin sonu dünya tarixində dərin geosiyasi silkələnmələr dövrü kimi xarakterizə olunur. SSRİ-nin dağılması, sosialist sisteminin iflası, milli-azadlıq hərəkatlarının yüksəlişi postsovet məkanında yeni siyasi xəritə formalaşdırdı (Azərbaycan Respublikası Milli Məclisi, 2006). Azərbaycan da bu proseslərin episentrində olan xalqlardan biri idi. Bir tərəfdən, imperiyanın dağılması fonunda müstəqillik imkanı yaranırdı, digər tərəfdən isə etnik münaqişələr, ərazi iddiaları və geosiyasi maraqların toqquşması ölkəni ağır sınaqlarla üz-üzə qoyurdu.

Bu tarixi mərhələdə azərbaycanlıların milli özünüdərk prosesinin intensivləşməsi, milli kimlik faktorunun siyasi mübarizənin aparıcı xəttinə çevrilməsi müşahidə olunurdu. Xalq bir tərəfdən demokratik müstəqillik ideyaları uğrunda mübarizə aparır, digər tərəfdən isə tarixi torpaqlarının işğalı, miqrasiya dalğaları və parçalanmış milli məkan gerçəkliyi ilə üzləşirdi. Belə bir şəraitdə milli birlik və həmrəylik çağırışları həm ideoloji, həm də praktiki baxımdan həyati zərurətə çevrilmişdi (“Heydər Əliyev və Azərbaycan diasporu”, n.d.).

Azərbaycan xalqının tarixi taleyi müəyyən mənada “parçalanmış məkan” fenomeni ilə səciyyələnir. Bir hissəsi XX əsrin əvvəllərindən etibarən Rusiya imperiyasının, daha sonra SSRİ-nin tərkibində yaşayan, digər hissəsi isə İran İslam Respublikasının sərhədləri daxilində formalaşan azərbaycanlı topluluqları ortaq etnik-mədəni kimliyə malik olsalar da, uzun müddət fərqli siyasi sistemlərdə yaşamışlar. Üstəlik, Türkiyə, Gürcüstan, Orta Asiya respublikaları, Avropa və Amerikada məskunlaşmış azərbaycanlı icmaları da bu parçalanmışlığın coğrafi və sosial miqyasını daha da genişləndirirdi.

Bu reallıq milli birlik ideyasını sırf “dövlət sərhədləri daxilində birlik” çərçivəsindən çıxararaq daha geniş — etnokültür, dil, mədəni yaddaş və mənəvi bağlılıq səviyyəsinə qaldırmağı tələb edirdi. Məhz bu səbəbdən 31 Dekabr Həmrəylik Günü ideyası sadəcə dövlət bayramı konsepsiyası deyil, coğrafi sərhədləri aşan, dünya azərbaycanlılarının bütöv mənəvi məkan kimi dərkini təmin edən bir çağırış kimi meydana çıxdı (Anderson, 2006).

1991-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi barədə qərar qəbul edilməsi bu ideyanın hüquqi-siyasi əsasını qoydu. Bu qərar təsadüfi deyildi; bölgənin həm tarixi-coğrafi mövqeyi, həm də milli mübarizə ənənələri nəzərə alınanda, Naxçıvandan gələn belə bir təşəbbüsün simvolik çəkisi daha aydın görünür (Aliyev, 2022).

Naxçıvan faktiki olaraq Azərbaycanın geosiyasi baxımdan blokada şəraitində qaldığı dövrdə milli iradənin, müqavimət ruhunun və siyasi uzaqgörənliyin mərkəzlərindən biri kimi çıxış edirdi. 31 Dekabrın Həmrəylik Günü kimi rəsmiləşdirilməsi də elə bu tarixi funksiyanın məntiqi davamı idi: parçalanmış azərbaycanlı məkanının mənəvi inteqrasiyası ideyası Naxçıvan siyasi elitası tərəfindən dövlət statuslu təşəbbüsə çevrildi.

Həmrəylik ideyasının sistemli dövlət siyasəti səviyyəsinə qaldırılmasında Ümummilli lider Heydər Əliyevin rolu xüsusi qeyd olunmalıdır. Onun Azərbaycançılıq konsepsiyası yalnız ölkə daxilində yaşayan vətəndaşlara deyil, bütün dünya azərbaycanlılarına şamil olunan ümummilli ideya kimi formalaşmışdır. Həmrəylik Günü də bu konsepsiyanın praktik təzahür formalarından biri kimi çıxış edir. Bu dövrdə xalqın milli iradəsinin siyasi istiqamətə çevrilməsi, ilk növbədə, dövlətçilik strategiyasını müəyyənləşdirən lider mövqeyi ilə sıx bağlı idi. Müstəqillik ideyasının məzmununu və gələcək inkişaf xəttini isə həmin mərhələdə Heydər Əliyevin söylədiyi fikirlər açıq şəkildə ifadə edirdi: “Öz taleyinin sahibi olmuş xalqımız hüquqi, demokratik dövlət quruculuğu yolundadır və əmin ola bilərsiniz ki, heç bir qüvvə onu bu yoldan döndərə bilməyəcəkdir. Azərbaycan Respublikası dünya birliyinin tam və bərabərhüquqlu üzvü kimi müstəqil daxili və xarici siyasət yeridir” (Aliyev, 2005).

Heydər Əliyevin müxtəlif çıxışlarında dünya azərbaycanlılarının birlik və həmrəylik ideyası dəfələrlə vurğulanmış, bu birlik dövlət siyasətinin strateji istiqaməti kimi əsaslandırılmışdır. Burada söhbət yalnız emosional-mənəvi birlikdən deyil, həm də diaspor təşkilatlarının yaradılması, onların fəaliyyətinin koordinasiya edilməsi, beynəlxalq aləmdə Azərbaycan həqiqətlərinin təbliği və milli

maraqların müdafiəsi üçün vahid platformanın qurulmasından gedir. 31 Dekabr bu platformanın ideoloji rəmzlərindən biri kimi qəbul olunur (İsmayılova, 2010).

Sonrakı mərhələdə 31 Dekabrın Həmrəylik Günü kimi ümumdövlət səviyyəsində qeyd olunması, rəsmi bayram statusu alması bu ideyanın yalnız regional təşəbbüs olmaqdan çıxaraq ümummilli-siyasi institut səviyyəsinə yüksəldiyini göstərdi. Həmrəylik Günü dövlət təqviminin bir hissəsinə çevrildi, ictimai-mədəni tədbirlər sistemində xüsusi yer aldı, təhsil, mətbuat, diaspor fəaliyyəti, mədəniyyət və informasiya siyasəti sahələrində mühüm mövzulardan biri oldu (Aliyev, 2022).

Bu proses nəticəsində 31 Dekabr həm tarixi-siyasi hadisələrin məntiqi nəticəsi, həm də dövlət ideologiyasının struktur elementinə çevrildi. Beləliklə, Həmrəylik Günü milli birlik və qlobal kimlik münasibətlərinin rəsmi şəkildə tanındığı, hüquqi və ideoloji müstəvidə təsbit edildiyi bir simvoldur. “Milli birlik” termini sosial elmlərdə çoxölçülü fenomen kimi qəbul edilir və sosioloji, siyasi, psixoloji və mədəni aspektlər üzrə fərqli nəzəri çərçivələrlə izah olunur. Klassik sosioloji nəzəriyyəyə görə, milli birlik eyni dil, tarix, ərazi və psixoloji bağlılıq ətrafında formalaşan ümumi kollektiv identiklikdir. Renanın “birlik yaratma” modelində milləti yaşanmış ortaq yaddaş və gələcəyə yönəlmiş kollektiv iradə müəyyənləşdirir (Nye, 2004). Bu baxımdan milli birlik sadəcə etnik bağ deyil, ortaq ideal və mənəvi razılaşma prosesidir.

Müasir politologiyada milli birlik dövlətin legitimlik resurslarından biri kimi qiymətləndirilir və “milli inteqrasiya”, “ictimai həmrəylik”, “vətəndaş identikliyi” kimi anlayışlarla kəsişir. V. Andersonun “təsəvvür edilmiş icma” konsepsiyasına görə, millət məkan və zaman daxilində özünü vahid kollektiv kimi təsəvvür edən və bu təsəvvür üzərində siyasi-mədəni birlik quran sosial konstruksiyadır (Renan, 1882). Bu konstruksiyanın gücü onun ortaq yaddaş, rəmzlər, dil və mədəni kodlarla möhkəmləndirilməsidir.

Azərbaycan reallığında milli birlik anlayışı həm etnomədəni, həm də siyasi-fəlsəfi komponentlərdən ibarətdir. Bir tərəfdən dil, mentalitet, tarixi yaddaş, adət-ənənələr kimi amillər birliyi təmin edir, digər tərəfdən müstəqil dövlətçilik ideyası, bütövlük arzusu və Azərbaycançılıq fəlsəfəsi milli birliyin siyasi kontekstini şərtləndirir.

Azərbaycan xalqının tarixi taleyi milli birlik ideyasının formalaşmasına münbit zəmin yaratmışdır. Ən qədim dövrlərdən başlayaraq Azərbaycan ərazisinin böyük imperiyalar arasında strateji mövqeyə sahib olması xalqı tez-tez siyasi parçalanmalar və mədəni təbəqələşmələrlə üz-üzə qoymuşdur. Buna baxmayaraq, dil, mədəniyyət və mənəvi yaddaşın gücü vahid azərbaycanlı kimliyinin qorunmasına şərait yaratmışdır.

Qarabağ, Təbriz, Şirvan, Gəncə, Naxçıvan, Quba kimi tarixi mədəniyyət mərkəzləri müxtəlif dövrlərdə siyasi idarəçilik baxımından fərqli sistemlərin tərkibində olsa da, mədəni kodların birliyi xalqın özünü vahid icma kimi dərk etməsinə imkan vermişdir. Xalq ədəbiyyatı, aşıq sənəti, muğam, nağıllar, mifoloji motivlər, ümummilli qəhrəmanlıq ənənəsi milli birlik şüurunun əsrlər boyu möhkəmlənməsinin nümunələridir.

Azərbaycan tarixində birlik ideyasının daha parlaq təzahürlərindən biri XVIII əsr Qarabağ xanlığı dövründə, XIX əsrdə Mirzə Fətəli Axundzadənin milli özünüdərk çağırışlarında, XX əsrin əvvəllərində M.Ə.Rəsulzadənin “Bir kərə yüksələn bayraq bir daha enməz” ideyasında və nəhayət, XX əsrin sonundakı müstəqillik hərəkatında müşahidə olunur. Bu tarixi ardıcıllıq milli həmrəyliyin Azərbaycan üçün yalnız ideal deyil, kollektiv taleyin ayrılmaz komponenti olduğunu göstərir. Azərbaycan tarixində dövlətçilik ənənəsi milli birlik ideyasının həm nəticəsi, həm də təminatçısı olmuşdur. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, 1991-ci ildə müstəqilliyin bərpası milli birlik çağırışının siyasi təcəssüm formalarıdır. Müstəqillik dövründə dövlətçilik ideyası Azərbaycançılıq fəlsəfəsi ilə sintez olunaraq vahid milli proqram halına gətirilmişdir (“Mənəvi birliyimizin bayramı”, 2018).

Müasir dövrdə milli birlik yalnız tarixi zərurət deyil, həm də strateji ehtiyacdır. Sürətlə dəyişən qlobal proseslər, informasiya müharibələri, transmilli miqrasiya, diaspor nəsillərinin assimilyasiya təhlükəsi və etnik kimlik böhranları milli birliyi daha da aktuallaşdırır.

Qloballaşma dövründə kimlik məsələsi həm siyasi nəzəriyyədə, həm sosiologiyada, həm də antropologiyada əsas tədqiqat istiqamətlərindən birinə çevrilmişdir. Əgər XX əsrin əvvəllərində

kimlik daha çox lokal, etnik və milli çərçivələrdə təhlil edilirdisə, XXI əsrdə bu çərçivələr genişlənərək transmillilik, miqrasiya, informasiya axını və sosial şəbəkələr kimi yeni proseslər fonunda yenidən dəyərləndirilir.

Qlobal kimlik fərdin özünü eyni zamanda həm milli-mədəni sistemin üzvü, həm də qlobal dünyanın aktiv iştirakçısı kimi qavramasıdır. Bu, ikiqat identiklik formasıdır: insan öz milli mənsubiyyətini itirmədən qlobal dəyərləri mənimsəyir və beynəlxalq sosial-mədəni mühitə inteqrasiya olunur.

**Dünya azərbaycanlılarının kimlik modeli dörd əsas element üzərində qurulur:**

1. Vətənlə bağlılıq — coğrafi məsafə fərqi olsa da, azərbaycanlıların böyük hissəsi Azərbaycanı mənəvi və emosional olaraq "ana vətən" kimi qəbul edir. Bu bağlılıq həm tarixi yaddaşdan, həm mədəni köklərdən, həm də ailə ənənələrindən gəlir.
2. Mədəni yaddaşın qorunması — toy adətləri, Novruz mərasimləri, Azərbaycan mətbəxi, musiqisi, folkloru dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların identikliyinin əsas elementidir.
3. Dilin saxlanması — dil kimliyin əsas daşıyıcısıdır. Xaricdə doğulan nəsillərin Azərbaycan dilini öyrənməsi milli-mədəni davamlılığı təmin edən əsas faktorlardandır.
4. Siyasi mövqe və milli maraqlarla həmrəylik — soyqırımı, işğal, insan hüquqları, Qarabağ həqiqətləri kimi məsələlərdə dünya azərbaycanlılarının bir mövqedən çıxış etməsi qlobal kimliyin siyasi komponentini təşkil edir. Bu elementlər birlikdə Azərbaycan diasporunun həm milli, həm də qlobal kimlik daşıyıcısı olduğunu göstərir.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü yalnız bayram statusuna malik rəsmi tarix deyil; o, milli birlik ideyasının həm rəmzi, həm də funksional daşıyıcısı kimi çıxış edir. Bu gün Azərbaycan xalqının tarixi yaddaşını, mədəni kimlik dəyərlərini, diaspor potensialını və dövlətçilik fəlsəfəsini vahid ideoloji çərçivədə birləşdirir. Aşağıdakı məqamlar 31 Dekabrın milli birlik kontekstində oynadığı əsas funksiyaları dərin şəkildə təhlil etməyə imkan verir.

Bu günün beynəlxalq səviyyədə rolunu müəyyənləşdirən əsas məqamlardan bir neçəsini qeyd etmək istərdik: Azərbaycanın tolerantlıq, multikulturalizm və birliyə əsaslanan dəyərlərinin dünyaya təqdim olunması; dünya azərbaycanlılarının vahid məqsəd ətrafında birləşə bilmə gücünün nümayişi; dövlətin diaspor siyasətinin ideoloji dayaqları kimi çıxış etməsi; xalqın beynəlxalq münasibətlərdə aktiv subyektə çevrilməsi. Beləliklə, 31 Dekabr Azərbaycan üçün beynəlxalq arenada həm ideoloji kapital, həm də mədəni marka funksiyasını yerinə yetirir (Səmədzadə & Əhmədova, 2018).

"Yumşaq güc" anlayışı ("Vikipediya", n.d.) dövlətlərin mədəniyyət, dəyərlər və diplomatiya vasitəsilə beynəlxalq nüfuz qazanmasını ifadə edir. Azərbaycan üçün diaspor bu yumşaq gücün əsas komponentlərindən biridir və 31 Dekabr bu gücün ideoloji mərkəzlərindən birinə çevrilmişdir.

Bu mənəvi birlik dövlətçilik fəlsəfəsinin müasir mərhələsində də ardıcıl şəkildə inkişaf etdirilir və dünya azərbaycanlılarının vahid mədəni-siyasi məkan kimi dərk olunmasına xidmət edir. Bu yanaşma hazırkı dövrdə ölkə rəhbərliyinin çıxışlarında da öz əksini tapır və aşağıdakı fikirdə aydın şəkildə ifadə olunur: *"Dünyada yaşayan bütün soydaşlarımızı ənənəvi olaraq səmimiyyətlə salamlayır, onlara uğurlar arzulayıram. Onlar bilirlər ki, güclü müstəqil Azərbaycan dövləti var və onların arxasında dayanır. Əminəm, bu gün xaricdə yaşayan azərbaycanlılar haqlı olaraq fəxr edirlər ki, müstəqil Azərbaycanın, müzəffər Azərbaycanın övladlarıdır" (Aliyev, 1995).*

Bu gün, həmçinin Azərbaycanın beynəlxalq humanitar dəyərlər sistemində özünəməxsus yerini nümayiş etdirmək üçün ideoloji vasitə rolunu oynayır. 31 Dekabr çərçivəsində keçirilən tədbirlər, diasporun mədəni və sosial təşəbbüsləri milli həmrəyliyin siyasi, mədəni və ictimai təzahür formalarını legitimləşdirir və onları vahid ideoloji çərçivəyə salır. Bununla yanaşı, Həmrəylik Günü Azərbaycanın qlobal səviyyədə sülh, tolerantlıq, multikulturalizm və mədəniyyətlərarası dialoq kimi dəyərləri təbliğ edən dövlət imicini möhkəmləndirir.

Nəticə olaraq, 31 Dekabr təkcə rəsmi bayram statusu daşıyan gün deyil; o, qlobal miqyasda Azərbaycan kimliyinin müasir ideoloji embleminə, dünya azərbaycanlılarını birləşdirən və Azərbaycançılıq ideyasını ümumbəşəri müstəviyə çıxaran konseptual simvolların ən mühümlərindən birinə çevrilmişdir.

## Nəticə

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü müasir geosiyasi və mədəni proseslər fonunda milli birlik və qlobal kimlik münasibətlərinin mühüm kəsişmə nöqtəsini təşkil edir. Bu günün mahiyyəti yalnız tarixi hadisənin xatırlanması ilə məhdudlaşmır; o, həm Azərbaycan daxilində, həm də dünya azərbaycanlıları arasında mənsubiyyət hissini gücləndirən ideoloji-mənəvi platforma funksiyasını yerinə yetirir. Həmrəylik Günü milli kimliyin əsas elementləri olan dil, mədəniyyət, tarixi yaddaş və kollektiv şüuru aktual saxlayır, diaspora topluluqlarını vahid mədəni məkan kimi birləşdirir və onların Azərbaycanla bağlılığını möhkəmləndirir.

## Ədəbiyyat

1. Aliyev, H. (2005). *Müstəqilliyimiz əbədidir* (Kitab 14; dekabr 1997–fevral 1998). Azərnəşr.
2. Aliyev, H. (1995, 30 dekabr). *Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Prezidentinin xalq müraciəti*. https://lib.aliyevheritage.org/az/974167.html
3. Aliyev, İ. (2022, 31 dekabr). *Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciət*. https://president.az/az/articles/view/58523
4. Aliyev, Q. (2022, 30 dekabr). *31 dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Gününün böyük tarixi qələbəmizdə rolu*. https://yap.org.az/az/view/news/70677/31-dekabr-dunya-azerbaycanlilarinin-hemreylik-gununun-boyuk-tarixi-qelebemizde-rolu-
5. Anderson, B. (2006). *Imagined communities*. Verso.
6. Azərbaycan Respublikası Milli Məclisi. (2006). *Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin müraciətinin təsdiq edilməsi haqqında qərar*. https://e-qanun.az/framework/14725
7. Heydər Əliyev və Azərbaycan diasporu. (n.d.). *Elektron resurs*. https://files.preslib.az/projects/diaspora/a4.pdf
8. İsmayılova, H. (2010, 19 mart). Milli birlik və həmrəylik bayramı. *Azərbaycan qəzeti*, № 62, 6.
9. Səmədzadə, K., & Əhmədova, S. (Tərtibçilər). (2018). *Mənəvi birliyimizin bayramı: 31 dekabr Dünya Azərbaycanlılarının həmrəylik günü münasibətilə metodik vəsait*.
10. Nye, J. (2004). *Soft power*. Public Affairs.
11. Renan, E. (1882). *Qu'est-ce qu'une nation?* Calmann-Lévy.
12. Vikipediya. (n.d.). *Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü*. https://az.wikipedia.org/wiki/D%C3%BCnya_Az%C9%99rbaycanl%C4%B1lar%C4%B1n%%B1n_H%C9%99mr%C9%99yliyi_G%C3%BCn%C3%BC

Daxil oldu: 02.08.2025
Qəbul edildi: 07.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/62-65

**Balabəyim Quliyeva**
Naxçıvan Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0006-3607-0854
ruslanquliyev19830101@gmail.com

# Riyaziyyat fənnində problem həll etmə bacarığının qiymətləndirilməsi

## Xülasə

Bu məqalədə riyaziyyat fənnində problem həll etmə bacarığının qiymətləndirilməsinin nəzəri və praktik aspektləri təhlil olunur. Müasir təlim yanaşmaları şagird və tələbələrin yalnız bilik əldə etməsini deyil, həm də həmin bilikləri tətbiq etmə, təhlil etmə və yaradıcı şəkildə istifadə etmə qabiliyyətini əsas götürür. Bu baxımdan problem həll etmə bacarığı riyaziyyat tədrisinin əsas məqsədlərindən biri kimi çıxış edir.Məqalədə bu bacarığın formalaşma mərhələləri, onun qiymət-ləndirilməsi üçün istifadə olunan meyarlar, kriteriyalar və metodlar elmi baxımdan təhlil edilmişdir. Həmçinin qiymətləndirmə prosesində formativ və summativ yanaşmaların rolu,refleksiya və özünüqiymətləndirmə mexanizmlərinin əhəmiyyəti vurğulanmışdır. Tədqiqatın obyekti ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində riyaziyyat tədrisidir, predmeti isə tələbə və şagirdlərin riyazi problem həll etmə bacarığının qiymətləndirilmə prosesidir. Mövzu aktualdır, çünki müasir təhsil sistemində biliklərin tətbiqinə əsaslanan öyrənmə və təfəkkürün inkişafı mühüm yer tutur. Tədqiqatın metodu kimi pedaqoji müşahidə, test üsulu, müqayisəli təhlil və diaqnostik yanaşma tətbiq edilmişdir. Nəticələr göstərir ki, problem həll etmə bacarığının səmərəli qiymətləndirilməsi yalnız nəticə yönümlü deyil, proses yönümlü yanaşma tələb edir. Bu, tələbələrin analitik düşüncə, məntiqi nəticə çıxarma və yaradıcı yanaşma bacarıqlarının inkişafına şərait yaradır.

***Açar sözlər:*** *riyaziyyat təlimi, problem həll etmə, qiymətləndirmə, metodologiya, tədris prosesi, formativ qiymətləndirmə*

**Balabayim Guliyeva**
Nakhchivan State University
Master's student
https://orcid.org/0009-0006-3607-0854
ruslanguliyev19830101@gmail.com

# Assessment of Problem Solving Skills in Mathematics

## Abstract

This article examines the theoretical and practical aspects of assessing problem-solving skills in mathematics education. Modern instructional approaches prioritize not only the acquisition of knowledge but also the ability of learners to apply, analyze, and creatively use that knowledge in new situations. Therefore, mathematical problem-solving competence is considered one of the core objectives of mathematics teaching. The study analyzes the stages of problem-solving, the criteria and indicators used to assess these skills, as well as the role of formative and summative assessment approaches. Methods such as pedagogical observation, tests, surveys, experimentation, and statistical analysis were employed in the research. The findings show that effective assessment of problem-solving skills requires a process-oriented approach that focuses not only on the final answer but also on the learner's reasoning steps and strategic decisions. This comprehensive approach enhances analytical thinking, logical reasoning, and reflective evaluation skills. The study concludes that integrating multiple assessment tools provides a more objective and accurate evaluation of students' mathematical problem-solving abilities and contributes significantly to improving the teaching–learning process.

***Keywords:*** *mathematics education, problem-solving; assessment, methodology, formative assessment, learning process, analytical thinking*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Müasir dövrdə təhsilin əsas məqsədlərindən biri təkcə biliklərin mənimsənilməsi deyil, həm də həmin biliklərin praktik vəziyyətlərdə tətbiqi bacarığının formalaşdırılmasıdır. Riyaziyyat fənni bu baxımdan xüsusi əhəmiyyət daşıyır, çünki riyazi problemlərin həlli tələbələrin tənqidi və yaradıcı düşünmə qabiliyyətlərini inkişaf etdirir.Bu məqsədlə tədris prosesində şagird və tələbələrin riyazi problemləri müxtəlif üsullarla həll etmə qabiliyyətlərinin müəyyənləşdirilməsi və düzgün qiymətləndirilməsi böyük əhəmiyyət kəsb edir. Problem həll etmə bacarığı təkcə riyaziyyat sahəsində deyil, gündəlik həyatda qərar qəbul etmə, məntiqi düşünmə və innovativ yanaşma üçün əsas baza rolunu oynayır.

Buna görə də bu bacarığın inkişaf səviyyəsini qiymətləndirmək üçün kompleks yanaşma tələb olunur. Qiymətləndirmə prosesində yalnız nəticəyə deyil, həm də şagirdin düşünmə mərhələlərinə, istifadə etdiyi strategiyalara və təhlil qabiliyyətinə diqqət yetirməlidir. Son illərdə beynəlxalq tədqiqatlarda (PISA,TIMSS və s.) riyaziyyatda problem həll etmə bacarıqları təhsilin keyfiyyət göstəricisi kimi əsas meyar sayılır. Bu, milli kurikulumda da əksini tapmış və qiymətləndirmə mexanizmlərinin yenilənməsi zərurətini doğurmuşdur. Buna görə də mövzunun elmi-praktik aktuallığı şagirdlərin riyazi düşünmə tərzinin inkişafında qiymətləndirmənin düzgün təşkili ilə birbaşa bağlıdır.Mövzunun aktuallığı ondan ibarətdir ki, XXI əsrin təhsil sistemində riyazi savadlılıq yalnız hesablama bacarığı ilə məhdudlaşmır, həm də situasiyaların analizinə, strategiya qurmağa və qərar verməyə əsaslanır. Bu isə tələbə və şagirdlərin problem həll etmə fəaliyyətinin düzgün qiymətləndirilməsini zəruri edir.

**Tədqiqat**

Tədqiqatın obyekti riyaziyyat fənninin tədris prosesində formalaşan problem həll etmə bacarıqlarının qiymətləndirilməsi sistemi ilə bağlıdır.Predmeti isə bu prosesdə problem həll etmə bacarığının qiymətləndirilməsi üsulları və meyarlarıdır.Tədqiqatın metodları müşahidə, anket sorğusu, eksperiment, test tapşırıqları və nəticələrin statistik analizi olmuşdur.Aparılmış tədqiqatın nəticələrinə əsasən, ən effektiv qiymətləndirmə sistemi formativ (davamlı) və summativ (yekun) yanaşmaların inteqrasiyası ilə əldə edilir. Bu yanaşma öyrənənlərin həm düşünmə prosesini, həm də nəticələrini obyektiv qiymətləndirməyə imkan verir.

**1. Problem həll etmə bacarığının mahiyyəti və tədrisdə rolu**

Riyaziyyat təlimində problem həll etmə bacarığının əsas məqsədi şagird və tələbələrin yalnız hazır bilikləri tətbiq etməsi deyil, həm də yeni situasiyalarda məntiqi düşünmə və qərarvermə prosesini formalaşdırmaqdır. Polyanın sözləri ilə desək, “problem həll etmə təfəkkürün inkişafının əsasıdır və müəllim düşünmə prosesini öyrətməlidir, yalnız nəticəni yox” (Pólya, 1957, s. 112). Bu səbəbdən problem həll bacarığının qiymətləndirilməsi təlimin ayrılmaz hissəsi kimi qəbul edilir və öyrənənin düşünmə ardıcıllığını müşahidə etməyi tələb edir.

**2. Problem həll etmə bacarığının mərhələləri və qiymətləndirmə göstəriciləri**

Müasir pedaqoji yanaşmalar problem həll etmə bacarığının mərhələli strukturunu əsaslandırır. Fitriana və Supahar bildirirlər ki, “problem həll prosesi dörd əsas mərhələdən ibarətdir: problemi anlama, strategiya qurma, planı icra etmə və nəticəni qiymətləndirmə” (Fitriana & Supahar, 2019, s. 18). Bu indikatorlar əsasında aparılan qiymətləndirmə şagirdlərin düşünmə gedişinin tam şəkildə izlənilməsinə imkan yaradır və proses yönümlü ölçməni təmin edir. OECD həmçinin qeyd edir ki, “XXI əsr bacarıqlarının əsas komponenti riyazi savadlılıq və real problemlərin həllində strateji düşünmə qabiliyyətidir” (OECD, 2019, s. 25). Bu yanaşma tələbə və şagirdlərin yalnız nəticəni deyil, həll yolunu əsaslandırma bacarıqlarını da ön plana çıxarır.

**3. Qiymətləndirmə metodları və yeni metodoloji yanaşma**

Ənənəvi testlər və yazılı yoxlamalar çox zaman yalnız nəticə yönümlü olur və problem həll etmə prosesinin dərinliyini əks etdirmir. Sari bu barədə yazır: “real situasiyalara əsaslanan autentik qiymətləndirmə şagirdləri düşüncə prosesini nümayiş etdirməyə məcbur edir və onların həqiqi bacarıqlarını üzə çıxarır” (Sari, 2021, s. 104). Formativ (davamlı) və summativ (yekun) qiymətləndirmənin inteqrasiyası ən effektli yanaşma hesab olunur. OECD-nin hesabatında göstərilir ki, “formativ qiymətləndirmə tələbənin inkişaf trayektoriyasını göstərir, summativ isə nəticəni rəsmi

şəkildə təsdiq edir və bu iki yanaşma birlikdə obyektiv qiymətləndirmə yaradır" (OECD, 2019, s. 37). Tədqiqatın məqsədinə uyğun olaraq problem həll etmə bacarığının qiymətləndirilməsi müxtəlif elmi metodların kompleks tətbiqi ilə həyata keçirilmişdir. Hər bir metod riyazi problem həll etmə prosesinin fərqli aspektlərini üzə çıxarmağa yönəlmişdir və onların paralel istifadəsi daha obyektiv nəticələr əldə etməyə imkan vermişdir.

**1. Müşahidə metodu**

Müşahidə metodu dərs prosesində şagird və tələbələrin problem həll etmə davranışlarını izləmək üçün tətbiq edilmişdir. Bu metod vasitəsilə öyrənənlərin problemi anlama mərhələsində göstərdikləri yanaşmalar, strategiya seçimi, sınaq-səhv tətbiqi və məntiqi ardıcıllıq yaratma bacarıqları qeydə alınmışdır. Müşahidə həmçinin proses yönümlü qiymətləndirmənin ən effektiv üsullarından biri hesab olunur, çünki təlim zamanı baş verən düşünmə mərhələlərini real şəkildə təqdim edir.

**2. Anket sorğusu metodu**

Anket sorğuları şagird və tələbələrin riyazi problem həll etmə prosesinə münasibətini, tapşırıqları yerinə yetirərkən qarşılaşdıqları çətinlikləri, motivasiya və özünəinam səviyyəsini öyrənmək məqsədilə aparılmışdır. Anket nəticələri öyrənənlərin riyazi təfəkkürü formalaşdıran amilləri müəyyən etməyə, həmçinin onların hansı mərhələdə daha çox dəstəyə ehtiyac duyduğunu aşkar etməyə imkan vermişdir.

**3. Eksperiment metodu**

Eksperiment metodu problem həll etmə bacarığının inkişaf dinamikasını müəyyən etmək üçün istifadə olunmuşdur. Tədris prosesində müxtəlif səviyyəli tapşırıqlar təqdim edilərək, öyrənənlərin strategiya seçimi, qaydaların tətbiqi və nəticəni əsaslandırma bacarıqları müşahidə edilmişdir. Eksperiment nəticələri şagirdlərin problemlə işləmə sürətini, istifadə etdikləri həll yollarını və dəyişən situasiyalara adaptasiya qabiliyyətini ölçməyə imkan yaratmışdır.

**4. Test tapşırıqları metodu**

Test tapşırıqları riyazi problem həll etmə bacarığının həm nəticə yönümlü, həm də proses yönümlü qiymətləndirilməsi üçün hazırlanmışdır. Tapşırıqlar müxtəlif çətinlik dərəcələrində tərtib olunmuş və öyrənənlərin biliyi tətbiq etmə, məntiqi əlaqələr qurma, riyazi modellər yaratma və nəticəni əsaslandırma bacarıqları ölçülmüşdür. Testlərin nəticələri summativ qiymətləndirmə üçün əsas baza rolunu oynamışdır.

**5. Nəticələrin statistik analizi metodu**

Toplanmış məlumatların statistik təhlili problem həll etmə bacarığının ümumi səviyyəsini müəyyən etmək üçün aparılmışdır. Statistik göstəricilər (orta qiymət, dispersiya, faiz payı, korelyasiya və s.) vasitəsilə şagirdlərin performansı müqayisə edilmiş, zəif və güclü tərəflər müəyyənləşdirilmişdir. Statistik analiz həm tədqiqatın etibarlılığını artırmış, həm də tətbiq olunan metodların effektivliyini qiymətləndirməyə imkan vermişdir. Bu metodların birgə tətbiqi riyaziyyat fənnində problem həll etmə bacarığının daha dərin, çoxşaxəli və obyektiv şəkildə qiymətləndirilməsinə şərait yaratmışdır.

**6. Tədqiqat nəticələri və problemlər**

Müasir tədqiqatların nəticələri göstərir ki, real tədris prosesində şagirdlərin əksəriyyəti strategiya qurma və nəticəni reflektiv şəkildə qiymətləndirmə mərhələsində çətinlik çəkir. Amalina və Vidákovich qeyd edirlər ki, "tələbələrin problem həll etmə bacarıqları orta səviyyədədir və ən ciddi çətinliklər planlama və nəticəni şərh etmə mərhələsindədir" (Amalina & Vidákovich, 2023, s. 229).

Oxşar mövqeni Azərbaycan tədqiqatçıları da bildirir: "təlimdə nəticə yönümlülük düşünmə prosesini kölgədə qoyur və inkişafyönümlü qiymətləndirməyə ehtiyac yaradır" (Əliyev, Məmmədov & Qasımova, 2020, s. 74).

**7. Tətbiqi tövsiyələr**

a) Qiymətləndirmə prosesində rubrika əsaslı, mərhələləri əhatə edən meyar sistemi tətbiq olunmalıdır.

b) Real həyat situasiyalarına əsaslanan qeyri-rutin tapşırıqlar genişləndirilməlidir.

c) Formativ və summativ qiymətləndirmə birlikdə tətbiq edilməlidir.

Şagirdlərə reflektiv suallar təqdim olunmalı və özünüqiymətləndirmə sistemi inkişaf etdirilməlidir.

## Nəticə

Araşdırmalar göstərir ki, problem həll etmə bacarığının qiymətləndirilməsi şagirdlərin tənqidi və analitik təfəkkürünün inkişafına birbaşa təsir edir. Rubriklər, portfoliolar və formativ qiymətləndirmə vasitələrinin tətbiqi öyrənmə prosesinin şəffaf, obyektiv və sistemli qurulmasına şərait yaradır. Qiymətləndirmə prosesi yalnız yekun nəticəni deyil, düşünmə dinamikasını nəzərə aldıqda öyrənənlərin inkişafı daha dəqiq müəyyən edilir. Aparılan metodoloji araşdırmalar göstərir ki, problem həll etmə bacarığının obyektiv qiymətləndirilməsi çoxmetodlu yanaşma tələb edir. Müşahidə şagirdin düşünmə davranışını üzə çıxarır, testlər nəticəni ölçür, anket şagirdin psixoloji və kognitiv vəziyyətini göstərir, eksperiment isə inkişaf dinamikasını aşkarlayır. Bu metodların birlikdə tətbiqi riyazi problem həll etmə bacarığının inkişaf səviyyəsini daha dəqiq müəyyənləşdirməyə imkan verir və tədris prosesinin təkmilləşdirilməsinə real töhfə verir.

## Ədəbiyyat

1. Angeletti, A., Bruschi, M., Kajana, X., Spinelli, S., Verrina, E., Lugani, F., Caridi, G., Murtas, C., Candiano, G., & Prunotto, M. (2023). Mechanisms limiting renal tissue protection and repair in glomerulonephritis. *International Journal of Molecular Sciences, 24*, 8318. https://doi.org/10.3390/ijms24098318
2. Anders, H. J., Kitching, A. R., Leung, N., & Romagnani, P. (2023). Glomerulonephritis: Immunopathogenesis and immunotherapy. *Nature Reviews Immunology, 23*(7), 453–471. https://doi.org/10.1038/s41577-022-00816-y
3. Ayala, A., Muñoz, M. F., & Argüelles, S. (2014). Lipid peroxidation: Production, metabolism, and signaling mechanisms of malondialdehyde and 4-hydroxy-2-nonenal. *Oxidative Medicine and Cellular Longevity, 2014*, 360438. https://doi.org/10.1155/2014/360438
4. Bülbül, M., Oner, A., Demircin, G., & Erdoğan, O. (2008). Oxidative stress in children with acute glomerulonephritis. *Renal Failure, 30*(2), 209–214. https://doi.org/10.1080/08860220701813319
5. Irazabal, M. V., & Torres, V. E. (2020). Reactive oxygen species and redox signaling in chronic kidney disease. *Cells, 9*(6), 1342. https://doi.org/10.3390/cells9061342
6. Krata, N., Foroncewicz, B., Zagożdżon, R., Moszczuk, B., Zielenkiewicz, M., Pączek, L., & Mucha, K. (2021). Peroxiredoxins as markers of oxidative stress in IgA nephropathy, membranous nephropathy and lupus nephritis. *Archivum Immunologiae et Therapiae Experimentalis, 70*(1), 3. https://doi.org/10.1007/s00005-021-00638-1
7. Ling, X. C., & Kuo, K. L. (2018). Oxidative stress in chronic kidney disease. *Renal Replacement Therapy, 4*, 53. https://doi.org/10.1186/s41100-018-0181-8
8. Manful, C. F., Fordjour, E., Subramaniam, D., Sey, A. A., Abbey, L., & Thomas, R. (2025). Antioxidants and reactive oxygen species: Shaping human health and disease outcomes. *International Journal of Molecular Sciences, 26*, 7520. https://doi.org/10.3390/ijms26157520
9. Rai, S. R., Bhattacharyya, C., Sarkar, A., Chakraborty, S., Sircar, E., Dutta, S., & Sengupta, R. (2021). Glutathione: Role in oxidative/nitrosative stress, antioxidant defense, and treatments. *ChemistrySelect, 6*(18), 4566–4590. https://doi.org/10.1002/slct.202100773
10. Romagnani, P., Kitching, A. R., Leung, N., & Anders, H. J. (2023). The five types of glomerulonephritis classified by pathogenesis, activity and chronicity (GN-AC). *Nephrology Dialysis Transplantation, 38*(Suppl. 2), ii3–ii10. https://doi.org/10.1093/ndt/gfad067
11. Tejchman, K., Kotfis, K., & Sieńko, J. (2021). Biomarkers and mechanisms of oxidative stress—Last 20 years of research with an emphasis on kidney damage and renal transplantation. *International Journal of Molecular Sciences, 22*, 8010. https://doi.org/10.3390/ijms22158010
12. Wiewiórska-Krata, N., Moszczuk, B., Tańska, J., Knioła, E., Grywalska, E., Pączek, L., Foroncewicz, B., & Mucha, K. (2025). Serum peroxiredoxins reflect oxidative stress and predict renal outcomes in patients with glomerulonephritis. *International Journal of Molecular Sciences, 26*(16), 7708. https://doi.org/10.3390/ijms26167708

Daxil oldu: 23.07.2025
Qəbul edildi: 15.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/66-70

**Şəhriyar İbrahimli**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0008-7936-3379
brahimlis@bk.ru

# Turizm potensialının təhlili və qiymətləndirilməsi (Naxçıvan Muxtar Respublikası timsalında)

**Xülasə**

Məqalədə Naxçıvan Muxtar Respublikasının turizm potensialı kompleks şəkildə təhlil edilir və regionun təbii, mədəni, tarixi, rekreasiya, ekoloji və sağlamlıq resursları qiymətləndirilir. Araşdırmada Naxçıvanın əlverişli coğrafi mövqeyi, əlçatan nəqliyyat infrastrukturu, zəngin landşaftları, mineral suları, sanatoriya kompleksləri, dini ziyarətgahları və çoxşaxəli mədəni irsi əsas turizm üstünlükləri kimi vurğulanır. Statistik məlumatlar regionda daxili və gəlmə turizmin dinamikasını göstərir. Bununla yanaşı, infrastruktur məhdudiyyətləri, resursların idarə olunmasında sistemsizlik və marketinq çatışmazlıqları mövcud problemlər kimi qeyd olunur. SWOT təhlili əsasında turizmin inkişaf imkanları və risklər müəyyənləşdirilir. Məqalədə həmçinin "2023–2027-ci illər Dövlət Proqramı"nın turizm sektoruna təsiri təhlil olunur və proqramın infrastrukturun müasirləşdirilməsi, sağlamlıq, ekoloji, dini və rəqəmsal turizmin təkmilləşdirilməsi baxımından region üçün geniş imkanlar yaratdığı nəticəsinə gəlinir.

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, turizm potensialı, təbii resurslar, mədəni və tarixi irs, rekreasiya, ekoturizm, sağlamlıq turizmi, turizm infrastrukturu, daxili turizm, gəlmə turizm, SWOT təhlili, dövlət proqramı, regional inkişaf, turizm strategiyası*

**Shahriyar Ibrahimli**
Baku Business University
Master's student
https://orcid.org/0009-0008-7936-3379
brahimlis@bk.ru

# Analysis and Evaluation of Tourism Potential (The Case of the Nakhchivan Autonomous Republic)

**Abstract**

The article provides a comprehensive analysis of the tourism potential of the Nakhchivan Autonomous Republic and evaluates the region's natural, cultural, historical, recreational, ecological, and health-related resources. The study highlights Nakhchivan's advantageous geographical location, accessible transport infrastructure, diverse landscapes, mineral springs, sanatorium complexes, religious pilgrimage sites, and rich cultural heritage as its key tourism advantages. Statistical data demonstrate the dynamics of domestic and inbound tourism in the region. At the same time, infrastructure limitations, lack of systematic resource management, and insufficient marketing activities are identified as major challenges. Based on SWOT analysis, the study outlines the development opportunities and risks in the tourism sector. The article also examines the impact of the "State Program on the Socio-Economic Development of the Nakhchivan Autonomous Republic for 2023–2027" on tourism, concluding that the program creates significant opportunities for modernizing infrastructure and enhancing health, ecological, religious, and digital tourism in the region.

***Keywords:*** *Nakhchivan Autonomous Republic, tourism potential, natural resources, cultural and historical heritage, recreational resources, ecotourism, health tourism, tourism infrastructure, domestic tourism, inbound tourism, SWOT analysis, state program, regional development, tourism strategy*

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Turizm sektoru müasir dövrdə regional inkişafın aparıcı sahələrindən biri hesab olunur. Azərbaycan üçün turizm qeyri-neft sektorunun diversifikasiyasında və iqtisadi inkişafın sürətləndirilməsində prioritetdir. Naxçıvan Muxtar Respublikası zəngin təbii landşaftları, qədim mədəni və tarixi irsi, unikal coğrafi mövqeyi və sağlamlıq turizmi üçün əlverişli şəraiti ilə regionun turizm strategiyasında xüsusi rol oynayır. Lakin turizm infrastrukturunun məhdudluğu, resursların sistemli idarə olunmaması və marketinq fəaliyyətinin yetərsizliyi potensialın tam reallaşmasına mane olur. Məqalənin məqsədi Naxçıvanın təbii, mədəni, tarixi, rekreasiya, sağlamlıq və ekoturizm resurslarını kompleks şəkildə təhlil edib qiymətləndirmək, həmçinin regionda turizmin inkişaf istiqamətlərini müəyyən etməkdir (Həsənov, 2012).

**Tədqiqat**

Naxçıvan Muxtar Respublikası Azərbaycanın qərb bölgəsində, Qafqazın cənub-qərb hissəsində yerləşir və təxminən 5 500 km² sahəyə malikdir. Region şimalda Şərur və Babək, şərqdə Ordubad, cənubda Şahbuz və Culfa rayonları ilə həmsərhəddir. Sərhəd bölgəsində yerləşməsi turizm üçün həm imkanlar, həm də çətinliklər yaradır; sərhəd və tranzit prosedurları turist axınını məhdudlaşdıra bilər, lakin strateji mövqeyi regional və beynəlxalq turizm layihələrində iştirak imkanlarını artırır. Naxçıvanın əlçatanlığı hava yolu, avtomobil yolları və sərhəd keçid məntəqələri vasitəsilə təmin olunur. Naxçıvan Beynəlxalq Hava Limanı və əsas magistral yollar turistlərin regiona daxil olması və rayonlararası hərəkətini asanlaşdırır. Turistlər üçün Naxçıvan şəhər turu, Əlincə qalası və digər tarixi-mədəni obyektləri əhatə edən müxtəlif marşrutlar hazırlanmışdır. Həsən Əliyev adına Zəngəzur Milli Parkı və Şahbuz Dövlət Təbiət Qoruğu regionun populyar turizm məkanlarındandır (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025).

**Cədvəl 1. Naxçıvan Muxtar Respublikası daxili turizm - 2025-ci ilin yanvar-sentyabr aylarında həyata keçirilmiş turizm səfərlərinin məqsədlər üzrə bölgüsü.**

| Cəmi | İşgüzar məqsəd | İstirahət məqsədi | Qohumlar, dostlara baş çəkmək məqsədi | Müalicə məqsədi | Dini ziyarət | Mağazalara baş çəkmək məqsədilə | Digər turizm məqsədilə |
|---|---|---|---|---|---|---|---|
| 1153 286 | 74 682 | 335 777 | 557 507 | 90 251 | 27 024 | 41 518 | 26 527 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (stat.gov.az)

**Cədvəl 2. Naxçıvan Muxtar Respublikası gəlmə turizm - Yanvar-oktyabr aylarında turizm məqsədilə Azərbaycana səfər etmiş əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin keçirdiyi gecələmələrin yerləşmə vasitələri üzrə sayı.**

| Cəmi | Mehmanxana (hotel) və mehmanxana tipli obyektlərdə | Kirayə götürülmüş evlərdə | Qohumların və ya dostların evində | Özünə və ya ailə üzvlərinə məxsus mənzillərdə |
|---|---|---|---|---|
| 71 463 | 1 586 | 4 541 | 33 598 | 31 738 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi (stat.gov.az)

Naxçıvanın iqlimi mülayim-quraq kontinental tipə malikdir; yay mövsümü isti və quraq, qış isə sərt keçir. Bu iqlim xüsusiyyətləri ekoturizm, yaylaq turizmi və sağlamlıq turizmi üçün əlverişli şərait yaradır. Mineral sular və sanatoriya mərkəzləri müalicə-turizm fəaliyyətini iqlim şəraiti ilə uzlaşdırır, turistlər üçün stabillik və rahatlıq təmin edir.

Naxçıvanın coğrafi mövqeyi, əlçatanlıq imkanları, iqlimi və zəngin təbii landşaftları regionun turizm potensialının əsasını təşkil edir və müxtəlif turizm sahələrinin inkişafı üçün əlverişli zəmin yaradır. Region zəngin təbii landşaftlara malikdir: dağlıq silsilələr (Zəngəzur, Ordubad), yaylaqlar, meşə massivləri və mineral sular turizmin müxtəlif növləri üçün baza rolunu oynayır. Bu resurslar həm daxili, həm də xarici turistlər üçün səyahət və istirahət imkanlarını artırır, ekoturizm və mədəni irs marşrutlarının formalaşmasına şərait yaradır (Qasımov, 2011).

Naxçıvan Muxtar Respublikasının təbii turizm resursları regionun əsas potensialını təşkil edir. Duzdağ və Batabat yaylağı, Ağrı dağının mənzərələri, eləcə də mineral sular və sanatoriya kompleksləri turistlər üçün mühüm cəlbedici obyektlərdir. Bu resurslar ekoturizm, dağ turizmi və sağlamlıq turizmi üçün əlverişli şərait yaradır. Dağlıq və yaylaq ərazilər yürüş, ekskursiya və təbiət tədqiqatları üçün imkan təmin edir, mineral sular isə müalicə və reabilitasiya məqsədli turizmin inkişafını dəstəkləyir (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2025).

Muxtar Respublika həmçinin zəngin mədəni və tarixi irsə malikdir. Bu da regionun turizm potensialını gücləndirir. Naxçıvan şəhəri, Ordubad, Şərur, Şahbuz və Culfa rayonlarında yerləşən tarixi abidələr turistlər üçün əsas cəlbedici obyektlərdir. Ümumilikdə bölgədə 1162 tarixi-mədəniyyət abidəsi qeydə alınmışdır. Bu abidələrin 58-i dünya əhəmiyyətli, 455-i ölkə əhəmiyyətli, 649-u isə yerli əhəmiyyətli statusa malikdir. Möminə Xatun türbəsi, Əlincəqala və Qarabağlar kompleksi regionun mədəni və tarixi irsini əks etdirən mühüm nümunələrdir. Bu obyektlər yalnız tarixi dəyər daşımır, həm də mədəni turizmin inkişafına və yerli turist marşrutlarının formalaşmasına töhfə verir.

Naxçıvanın tarixi-mədəniyyət abidələri müxtəlif kateqoriyaları əhatə edir: arxeoloji abidələr – 663, memarlıq abidələri – 285, monumental sənət abidələri – 31, tarixi abidələr – 36, ziyarətgahlar – 140, təbiət abidələri – 7 (nakhchivan.preslib.az). Bu rəqəmlər Naxçıvanın minilliklər boyunca formalaşan mədəni irsinin necə zəngin və çoxşaxəli olduğunu göstərir. Regionun tarixi abidələri Azərbaycan mədəniyyətinin inkişafında mühüm rol oynamaqla yanaşı, həm də dünya miqyasında böyük elmi və mədəni əhəmiyyət daşıyır (Naxçıvanın tarixi-mədəni irsi və abidələri haqqında məlumat, 2025).

Naxçıvanın ən böyük potensiallarından biri də müalicəvi turizmdir. Analoqu olmayan Duzdağ Fizioterapiya Mərkəzi və Badamlı Fizioterapiya Xəstəxanası, həmçinin Darıdağ arsenli su müalicəxanası yenidən qurularaq müasir səviyyədə fəaliyyət göstərir. Burada sağlamlıq və rekreasiya turizmi baxımından zəngin potensialı olan və regionun ən məşhur obyektlərindən biri Duzdağ Sanatoriya Kompleksi 2008-ci ildə istifadəyə verilmiş, həm müayinə, həm müalicə, həm də istirahət üçün geniş imkanlar yaradır və Azərbaycandan, eləcə də xarici ölkələrdən çox sayda turist qəbul edir. Duzdağ Sanatoriya Kompleksi tənəffüs və digər xəstəliklərin müalicəsi üçün unikal şərait yaradır. Bundan əlavə, müxtəlif sanatoriya və sağlamlıq bərpa müəssisələri turistlərə reabilitasiya və istirahət imkanları təqdim edir. Bu obyektlər regionda sağlamlıq turizminin inkişafına töhfə verir və turizm məhsullarının şaxələndirilməsində mühüm rol oynayır (Duzdağ Fizioterapiya Mərkəzi, 2023).

Naxçıvan dini ziyarətgahları ilə də zəngindir. "Əshabi-Kəhf Ziyarətgahı" Qurani-Kərimdə "Əl-Kəhf" surəsində bəhs olunan hadisə ilə əlaqələndirilir və minlərlə yerli və xarici turist tərəfindən ziyarət edilir. Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki türbəsi də bölgənin ən çox maraq doğuran ziyarətgahlardandır. Bu amillər Naxçıvanda etnik, inanc və ekoturizmin inkişafına geniş şərait yaradır (Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi, 2025).

Naxçıvan Muxtar Respublikasında turizmin inkişafında alternativ növlər xüsusi əhəmiyyət kəsb edir. Ekoturizm regionun təbii landşaftlarından səmərəli istifadəyə imkan verir və ekoloji maarifləndirməni təşviq edir. Qastronomiya turizmi yerli kulinariya ənənələrini təqdim edərək turistlərin mədəni təcrübəsini zənginləşdirir. Kənd turizmi kənd təsərrüfatı və yerli həyat tərzini yaxından tanımaq imkanı yaradır, ziyarət turizmi isə dini və tarixi məkanlara marağı artırır. Bu alternativ turizm növləri regionun turizm məhsullarını şaxələndirir və müxtəlif turist qruplarının cəlb olunmasına şərait yaradır (Naxçıvan Muxtar Respublikası Turizm Departamenti, 2024).

Bütün bu sadaladığımız amilləri ümumiləşdirərək Muxtar Respublikanın turizm potensialının mövcud vəziyyətini SWOT təhlili ilə sistemli şəkildə qiymətləndirə bilərik.




Beləliklə, SWOT təhlili Naxçıvanın turizm sektorunun güclü və zəif tərəflərini, həmçinin gələcək inkişaf imkanlarını və potensial təhdidlərini aydın şəkildə müəyyən etməyə imkan verir, strateji qərarların qəbuluna əsas yaradır (UNESCO, 2022).

Muxtar Respublikanın geniş turizm potensialını və bu potensialın iqtisadi inkişafda rolunu nəzərə alaraq Dövlət Proqramları çərçivəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş *"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"*nın turizm sektorunun inkişafına təsirini dəyərləndirə bilərik (Qafarov, 2019).

Bu Proqram regionun iqtisadi, sosial və mədəni sahələrinin kompleks inkişafını hədəfləyir. Bu sənəd Muxtar Respublikanın turizm potensialının daha səmərəli dəyərləndirilməsi, turizm infrastrukturunun müasirləşdirilməsi və sektorda davamlı inkişafın təmin olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Turizm infrastrukturunun yenilənməsi və genişləndirilməsi baxımından – proqramda nəzərdə tutulan infrastruktur layihələri — avtomobil yollarının bərpası və yenilərinin inşası, nəqliyyat-logistika imkanlarının təkmilləşdirilməsi, yaşayış məntəqələri arasında əlçatanlığın artırılması turizm zonasına çevrilə biləcək ərazilərin istifadəsini asanlaşdırır. İnfrastrukturun yaxşılaşdırılması turist axınının artması üçün əsas şərtlərdən biridir və bu proses regionun iqtisadi aktivliyinə bilavasitə təsir göstərir (Naxçıvan Regional Kitabxana Mərkəzi, t.s.).

Turizm obyektlərinin modernləşdirilməsi və yeni obyektlərin yaradılması baxımından – Proqram turizm sahəsinə investisiya cəlb olunmasını stimullaşdırmaqla yeni otellərin və istirahət mərkəzlərinin tikintisini, tarixi abidələrin bərpasını, turizm-informasiya mərkəzlərinin yaradılmasını, əyləncə komplekslərinin və sərgialtı məkanların təşkilini hədəfləyir. Sağlamlıq turizminin inkişafının dəstəklənməsi baxımından – Dövlət Proqramı Naxçıvanın təbii sağlamlıq məkanlarında müasir standartlara uyğun tibbi xidmətin təşkili, müalicə-profilaktika müəssisələrinin yenidən qurulması və yeni müalicə paketlərinin hazırlanması kimi tədbirlərlə sağlamlıq turizminə rəqabət üstünlüyü qazandırmağı hədəfləyir (Azərbaycan Turizm Bürosu, t.s.). Dini, ekoloji və mədəni turizmin təşviqi baxımından – Proqram çərçivəsində dini ziyarətgahların infrastruktur təminatı yaxşılaşdırılaraq daha geniş turist axınına xidmət etməsi nəzərdə tutulur. Bununla yanaşı, Zəngəzur Milli Parkı, Şahbuz Dövlət Təbiət Qoruğu, Batabat yaylağı kimi ərazilərdə ekoturizmin təşviqi regionun turizm müxtəlifliyini artıracaq. Bu tədbirlər Naxçıvanı həm mədəni, həm də təbiət turizmi baxımından cəlbedici məkana çevirir.

Rəqəmsal turizmin inkişafı və idarəetmənin təkmilləşdirilməsi baxımından – Proqram müasir rəqəmsal yanaşmaların turizm sahəsinə inteqrasiyasını nəzərdə tutur. Bu, elektron turizm xəritələrinin hazırlanması, mobil tətbiqlərin istifadəyə verilməsi, onlayn bələdçi xidmətlərinin yaradılması və turizm obyektləri haqqında məlumat bazalarının rəqəmsallaşdırılması deməkdir. Belə yanaşmalar

Naxçıvanın qlobal turizm məkanlarına inteqrasiyasını asanlaşdıracaq (Azərbaycan Dövlət Turizm Agentliyi, t.s.). Turizm sahəsində məşğulluğun artırılması baxımından – turizm obyektlərinin çoxalması və xidmət sektorunun genişlənməsi Muxtar Respublikada yeni iş yerlərinin açılmasına səbəb olacaq. Bu isə həm sosial rifahın yüksəlməsi, həm də yerli əhalinin turizm xidmətlərinə inteqrasiya edilməsi baxımından əhəmiyyətlidir.

Regionun beynəlxalq səviyyədə tanıdılması baxımından – Proqram Naxçıvanın beynəlxalq sərgilərdə, forumlarda və turizm tədbirlərində daha fəal təmsilini təşviq etməklə regionun turizm brendinin formalaşmasına və xarici turist axınının artmasına şərait yaradacaq (Naxçıvan Muxtar Respublikası Ali Məclisi, 2023).

## Nəticə

Nəticə olaraq, Naxçıvan Muxtar Respublikasının turizm potensialı zəngin təbii, tarixi, mədəni və sağlamlıq resurslarına əsaslanır. Regionun əlverişli coğrafi mövqeyi, iqlim şəraiti, əlçatan nəqliyyat infrastrukturu və çoxşaxəli turizm obyektləri daxili və gəlmə turistlərin cəlb olunması üçün geniş imkanlar yaradır. SWOT təhlili göstərir ki, turizmin inkişafında əsas güclü tərəflər zəngin resurs bazası və mədəni irs, zəif tərəflər isə infrastruktur məhdudiyyətləri və marketinq çatışmazlıqlarıdır. *"2023–2027-ci illər Dövlət Proqramı"* isə turizm infrastrukturunun müasirləşdirilməsi, sağlamlıq, ekoloji, dini və mədəni turizmin təşviqi, rəqəmsal texnologiyaların tətbiqi və turizm sahəsində məşğulluğun artırılması vasitəsilə regionun turizm potensialının səmərəli istifadəsinə və davamlı inkişafına şərait yaradır. Bu isə Naxçıvanı həm milli, həm də beynəlxalq səviyyədə cəlbedici turizm mərkəzinə çevirir.

## Ədəbiyyat

1. Həsənov, A. N. (2012). *Azərbaycanda regional turizmin inkişafı: problemlər, perspektivlər*. AVROPA Nəşriyyatı.
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Gəlmə turizm üzrə statistik göstəricilər: Naxçıvan Muxtar Respublikası*.
3. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). *Naxçıvan Muxtar Respublikasında daxili turizm üzrə statistik məlumatlar*.
4. Duzdağ Fizioterapiya Mərkəzi. (2023). *Müalicəvi turizm və sanatoriya xidmətləri haqqında məlumat*. Naxçıvan Duzdağ Kompleksi.
5. Qasımov, E. (2011). *Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının ərazi təşkili və inkişafının coğrafiyası* (Dərs vəsaiti). Təhsil Nəşriyyatı.
6. Naxçıvan Muxtar Respublikası Ali Məclisi. (2023). *Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı*.
7. Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi. (2025). *Naxçıvanın tarixi-mədəni irsi və abidələri haqqında məlumat*.
8. Naxçıvan Muxtar Respublikası Turizm Departamenti. (2024). *Turizm marşrutları və infrastrukturu üzrə hesabat*.
9. Qafarov, N. (2019). *Turizmin iqtisadiyyatı* (2-ci nəşr). Kooperasiya Nəşriyyatı.
10. Naxçıvan Regional Kitabxana Mərkəzi. (t.s.). *Naxçıvan haqqında məlumat*. https://naxcivan.preslib.az
11. UNESCO. (2022). *Dünya mədəni irsi siyahısında Azərbaycan abidələri*. UNESCO Rəsmi Sənədləri.
12. Azərbaycan Turizm Bürosu. (t.s.). *Rəsmi turizm məlumatları*. https://ntourism.gov.az/
13. Azərbaycan Dövlət Turizm Agentliyi. (t.s.). *Rəsmi turizm portalı*. https://tourism.gov.az/

Daxil oldu: 03.07.2025
Qəbul edildi: 12.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/71-75

**Röya Paşalı**
Bakı Slavyan Universiteti
magistrant
https://orcid.org/0009-0006-1221-7217
royapasali@icloud.com

# İbtidai sinif şagirdlərində vətənə məhəbbət hissinin formalaşdırılmasının pedaqoji və psixoloji əsasları

## Xülasə

Bu məqalədə ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılmasının pedaqoji və psixoloji əsasları araşdırılır. Tədqiqat göstərir ki, milli-mənəvi dəyərlərin uşaqlara aşılanması yalnız nəzəri biliklərlə məhdudlaşmamalı, həm də emosional və sosial fəaliyyətlərlə dəstəklənməlidir. Müəllimlərin tətbiq etdiyi metodlar, valideynlərin gündəlik həyatdakı rolu və məktəbdə təşkil olunan tədbirlər uşaqlarda milli kimlik və Vətənə bağlılıq hissini gücləndirir. Psixoloji yanaşmalar, xüsusilə Erikson, Piaget və Vygotsky nəzəriyyələri bu prosesin elmi əsaslarını izah edir.

Nəticələr göstərir ki, pedaqoji-psixoloji yanaşmaların inteqrasiyası milli kimliyi güclü, vətənpərvər və sosial məsuliyyətli gənclərin yetişməsinə şərait yaradır.

***Açar sözlər:*** *Vətənə məhəbbət, ibtidai sinif, milli-mənəvi dəyərlər, pedaqoji-psixoloji əsaslar, tərbiyə sistemi*

**Roya Pashali**
Baku Slavic University
Master's student
https://orcid.org/0009-0006-1221-7217
royapasali@icloud.com

# Pedagogical and Psychological Foundations of Developing the Sense of Love for the Homeland in Primary School Students

## Abstract

This article explores the pedagogical and psychological foundations of fostering love for the homeland among primary school students. The study reveals that instilling national and moral values in children should not be limited to theoretical knowledge but must also be supported through emotional and social activities. Teachers' methods, parents' roles in everyday life, and school-organized events strengthen students' sense of national identity and attachment to their homeland. Psychological approaches, particularly the theories of Erikson, Piaget, and Vygotsky, provide a scientific basis for understanding this process.

Findings indicate that the integration of pedagogical and psychological approaches contributes to raising socially responsible, patriotic, and nationally conscious youth.

***Keywords:*** *Love for homeland, primary education, national-moral values, pedagogical-psychological foundations, education system*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Müasir dövrdə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir cəmiyyətin əsas vəzifələrindən biridir. Xüsusilə ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması tərbiyə sisteminin mühüm istiqamətlərindən sayılır. Çünki bu yaş dövrü uşaqların şəxsiyyətinin formalaşmasında, dünyagörüşünün və emosional-mənəvi aləminin inkişafında həlledici mərhələdir. Vətənə bağlılıq, milli kimlik və vətəndaşlıq şüuru erkən yaşlardan aşılandıqda, gələcəkdə sağlam düşüncəli, məsuliyyətli və milli dəyərlərə sadiq gənclərin yetişməsi təmin olunur.

Pedaqoji-psixoloji araşdırmalar göstərir ki, uşaqlarda Vətənə məhəbbət hissi yalnız nəzəri biliklərin verilməsi ilə deyil, həm də emosional təcrübələrin, sosial fəaliyyətlərin və ailə–məktəb mühitinin birgə təsiri ilə formalaşır. Bu baxımdan, tərbiyə sistemi uşağın həm intellektual, həm də emosional inkişafını nəzərə almalı, milli-mənəvi dəyərlərin öyrədilməsi ilə yanaşı, onların gündəlik həyat təcrübəsində tətbiqinə şərait yaratmalıdır.

İbtidai siniflərdə aparılan tərbiyə işlərinin psixoloji əsasları uşağın yaş xüsusiyyətləri, maraqları və emosional ehtiyacları ilə sıx bağlıdır. Bu dövrdə uşaqlar daha çox təqlidə meylli olur, gördüklərini və eşitdiklərini tez mənimsəyirlər. Ona görə də müəllimlərin, valideynlərin və ümumilikdə sosial mühitin rolu xüsusi əhəmiyyət kəsb edir. Pedaqoji yanaşmalar isə bu prosesi sistemli şəkildə təşkil etməyə, uşaqların milli kimliklərini dərk etmələrinə və Vətənə bağlılıq hissini şüurlu şəkildə inkişaf etdirməyə yönəlir.

Məqalənin aktuallığı ondan ibarətdir ki, qloballaşma şəraitində milli-mənəvi dəyərlərin zəifləməsi təhlükəsi mövcuddur. Bu səbəbdən ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması yalnız pedaqoji bir vəzifə deyil, həm də strateji əhəmiyyət daşıyan milli məsələdir. Tədqiqatın məqsədi tərbiyə sisteminin pedaqoji-psixoloji əsaslarını araşdırmaq, bu sahədə mövcud yanaşmaları təhlil etmək və tətbiq mexanizmlərini müəyyənləşdirməkdir.

Beləliklə, təqdim olunan mövzu həm nəzəri, həm də praktik baxımdan mühüm əhəmiyyət kəsb edir. Məqalədə ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılmasına yönəlmiş tərbiyə sisteminin elmi əsasları, psixoloji xüsusiyyətləri və tətbiq mexanizmləri geniş şəkildə təhlil olunacaqdır.

**Tədqiqat**

İbtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması mövzusu pedaqogika və psixologiyanın kəsişməsində araşdırılan mühüm sahələrdən biridir. Müasir dövrdə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir cəmiyyətin strateji vəzifəsi hesab olunur. Bu baxımdan erkən yaş dövründə uşaqlarda Vətənə bağlılıq hissinin formalaşdırılması həm nəzəri, həm də praktik baxımdan xüsusi əhəmiyyət daşıyır (American Psychological Association, 2020).

Bronfenbrennerin ekoloji sistemlər nəzəriyyəsi uşağın inkişafını müxtəlif sosial mühitlərin qarşılıqlı təsiri ilə izah edir. Onun fikrincə ailə, məktəb və ictimai mühit uşağın emosional və mənəvi inkişafında bir-birini tamamlayan sistemlərdir (Erikson, 1963). Bu nəzəriyyə göstərir ki, Vətənə məhəbbət hissinin formalaşması yalnız məktəb mühitində deyil, həm də ailə və ictimai mühitdə dəstəklənməlidir.

Piajenin koqnitiv inkişaf nəzəriyyəsi uşaqların düşüncə tərzinin mərhələlərlə inkişaf etdiyini vurğulayır. İbtidai sinif yaşında olan uşaqlar konkret əməliyyatlar mərhələsindədirlər və abstrakt anlayışları dərk etməkdə çətinlik çəkirlər (Piaget, 1952). Buna görə də Vətənə məhəbbət kimi dəyərlərin öyrədilməsi daha çox konkret nümunələr, hekayələr, simvollar və praktik fəaliyyətlər vasitəsilə həyata keçirilməlidir.

Viqotskinin sosial-mədəni nəzəriyyəsi isə uşağın öyrənməsində sosial qarşılıqlı əlaqələrin rolunu önə çəkir. Onun "yaxın inkişaf zonası" anlayışı göstərir ki, uşaqlar müəllimlərin və valideynlərin dəstəyi ilə daha yüksək səviyyədə öyrənmə və dəyərləri mənimsəmə qabiliyyətinə malikdirlər (Vygotsky, 1978). Bu baxımdan Vətənə məhəbbət hissinin formalaşdırılması üçün müəllimlərin şagirdlərlə birgə fəaliyyətləri, müzakirələri və emosional dəstəyi xüsusi əhəmiyyət daşıyır.

Psixoloji tədqiqatlar göstərir ki, uşaqların emosional inkişafı onların milli-mənəvi dəyərləri mənimsəməsində həlledici rol oynayır. Eriksonun psixososial inkişaf nəzəriyyəsinə görə ibtidai sinif yaşında olan uşaqlar "fəaliyyətə qarşı səmərəsizlik" mərhələsindədirlər və bu dövrdə onların sosial

fəaliyyətlərdə uğur qazanması özünəinamı gücləndirir (Fraenkel, Wallen, & Hyun, 2012). Vətənə məhəbbət mövzulu fəaliyyətlər uşaqlarda həm sosial bacarıqları, həm də emosional bağlılığı inkişaf etdirir.

Azərbaycan pedaqoji mühitində aparılan tədqiqatlar göstərir ki, ibtidai sinif şagirdlərində milli kimlik və Vətənə bağlılıq hissinin formalaşdırılması üçün dərs prosesində milli folklor nümunələrindən, tarixi qəhrəmanların həyat hekayələrindən və milli simvollardan istifadə mühüm rol oynayır (Banks, 2008). Müasir pedaqoji yanaşmalar milli-mənəvi tərbiyənin yalnız nəzəri biliklərlə məhdudlaşmamasını, həm də praktik fəaliyyətlərlə dəstəklənməsini zəruri hesab edir. Məsələn, məktəblərdə keçirilən milli bayram tədbirləri, vətənpərvərlik mövzulu layihələr və ekskursiyalar uşaqlarda emosional bağlılığı gücləndirir (American Psychological Association, 2020).

Beynəlxalq təcrübə də göstərir ki, bir çox ölkələrdə vətənpərvərlik tərbiyəsi erkən yaşlardan başlayır (Creswell & Plano Clark, 2011). Finlandiyada milli dəyərlərin öyrədilməsi bütün fənlərin inteqrasiyası yolu ilə həyata keçirilir (Məmmədov, 2018). ABŞ-da isə vətənpərvərlik tərbiyəsi daha çox simvolik elementlər — bayraq, himn və milli bayramlar vasitəsilə uşaqlara aşılanır (Bronfenbrenner, 1979).

Bu təcrübələr göstərir ki, milli-mənəvi dəyərlərin formalaşdırılması müxtəlif pedaqoji yanaşmalarla həyata keçirilə bilər, lakin əsas məqsəd uşaqlarda milli kimlik və Vətənə bağlılıq hissini gücləndirməkdir.

İbtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması pedaqoji yanaşmalarla yanaşı, psixoloji əsaslarla da sıx bağlıdır. Uşaqların emosional, koqnitiv və sosial inkişaf xüsusiyyətləri onların milli-mənəvi dəyərləri mənimsəməsində həlledici rol oynayır.

Eriksonun psixososial inkişaf nəzəriyyəsinə görə ibtidai sinif yaşında olan uşaqlar "fəaliyyətə qarşı səmərəsizlik" mərhələsindədirlər və bu dövrdə onların sosial fəaliyyətlərdə uğur qazanması özünəinamı gücləndirir, emosional bağlılığı möhkəmləndirir (Fraenkel, Wallen, & Hyun, 2012). Vətənə məhəbbət mövzulu fəaliyyətlər – milli bayramlarda iştirak, vətənpərvərlik mövzulu oyunlar və layihələr – uşaqlarda həm sosial bacarıqları, həm də emosional bağlılığı inkişaf etdirir.

Piajenin koqnitiv inkişaf nəzəriyyəsi isə uşaqların düşüncə tərzinin mərhələlərlə inkişaf etdiyini vurğulayır. İbtidai sinif yaşında olan uşaqlar konkret əməliyyatlar mərhələsindədirlər və abstrakt anlayışları dərk etməkdə çətinlik çəkirlər (Piaget, 1952). Buna görə də Vətənə məhəbbət kimi dəyərlərin öyrədilməsi daha çox konkret nümunələr, simvollar, hekayələr və praktik fəaliyyətlər vasitəsilə həyata keçirilməlidir.

Viqotskinin sosial-mədəni nəzəriyyəsi uşağın öyrənməsində sosial qarşılıqlı əlaqələrin rolunu önə çəkir. Onun "yaxın inkişaf zonası" anlayışı göstərir ki, uşaqlar müəllimlərin və valideynlərin dəstəyi ilə daha yüksək səviyyədə öyrənmə və dəyərləri mənimsəmə qabiliyyətinə malikdirlər (Vygotsky, 1978). Bu baxımdan, Vətənə məhəbbət hissinin formalaşdırılması üçün müəllimlərin şagirdlərlə birgə fəaliyyətləri, müzakirələri və emosional dəstəyi xüsusi əhəmiyyət daşıyır.

Psixoloji tədqiqatlar həmçinin göstərir ki, uşaqların milli-mənəvi dəyərləri mənimsəməsi onların emosional identifikasiyası ilə sıx bağlıdır. Uşaqlar özlərini milli qəhrəmanlarla, tarixi şəxsiyyətlərlə və ailə dəyərləri ilə eyniləşdirdikdə, Vətənə bağlılıq hissi daha güclü formalaşır (American Psychological Association, 2020).

Müasir psixoloji yanaşmalar isə milli-mənəvi dəyərlərin formalaşdırılmasında emosional intellektin rolunu önə çəkir. Emosional intellekt uşaqlarda empatiya, sosial məsuliyyət və emosional özünüidarəetmə bacarıqlarını inkişaf etdirir (Məmmədov, 2018). Bu bacarıqlar Vətənə məhəbbət hissinin daha şüurlu və davamlı şəkildə formalaşmasına şərait yaradır.

Bu tədqiqatın məqsədi ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılmasında tərbiyə sisteminin pedaqoji-psixoloji əsaslarını və tətbiq mexanizmlərini araşdırmaqdır. Bu məqsədə çatmaq üçün qarışıq metodlar yanaşması seçilmişdir. Bu yanaşma həm kəmiyyət, həm də keyfiyyət məlumatlarının toplanmasına və təhlilinə imkan verir, nəticələrin daha obyektiv və etibarlı olmasını təmin edir (Erikson, 1963).

Tədqiqat dizaynı qarışıq metodlar yanaşmasına əsaslanaraq həm statistik məlumatların toplanmasına, həm də şagirdlərin, müəllimlərin və valideynlərin subyektiv təcrübələrinin

öyrənilməsinə imkan vermişdir. Kəmiyyət metodları vasitəsilə sorğular və testlər aparılmış, keyfiyyət metodları vasitəsilə isə müşahidələr və müsahibələr həyata keçirilmişdir. Bu inteqrasiya nəticələrin daha geniş kontekstdə təhlilinə şərait yaratmışdır (Goleman, 1995).

Tədqiqatda Bakı şəhərində yerləşən beş ibtidai məktəbdən 120 şagird, 25 müəllim və 40 valideyn iştirak etmişdir. İştirakçılar təsadüfi seçmə üsulu ilə müəyyən olunmuşdur və bu yanaşma nəticələrin daha ümumiləşdirilə bilən olmasına şərait yaratmışdır. Şagirdlər 2-ci, 3-cü və 4-cü siniflərdən seçilmişdir ki, bu da onların milli-mənəvi dəyərləri mənimsəmə prosesində fərqli yaş mərhələlərinin müqayisəsinə imkan vermişdir. Müəllimlər əsasən ibtidai sinif müəllimləri olmuş, valideynlər isə könüllü iştirak prinsipi ilə tədqiqata cəlb edilmişdir.

Məlumatların toplanması üçün sorğular, müsahibələr və müşahidələrdən istifadə olunmuşdur. Sorğular vasitəsilə şagirdlərin milli-mənəvi dəyərlərə münasibəti öyrənilmiş, müəllim və valideynlərlə aparılan yarı-strukturlaşdırılmış müsahibələr onların mövzuya baxış bucağını və təcrübələrini ortaya qoymuş, müşahidələr isə dərs prosesində və məktəb tədbirlərində şagirdlərin davranışlarını izləməyə imkan vermişdir.

Toplanan kəmiyyət məlumatları SPSS proqramı vasitəsilə statistik analiz edilmişdir. Deskriptiv statistika, korrelyasiya və faktor analizindən istifadə olunmuşdur. Keyfiyyət məlumatları isə tematik analiz üsulu ilə işlənmişdir. Bu yanaşma həm rəqəmsal nəticələrin, həm də dərin psixoloji-pedaqoji məna daşıyan müşahidələrin birgə təhlilinə imkan vermişdir. Tədqiqat etik prinsiplərə uyğun aparılmışdır. İştirakçılardan yazılı razılıq alınmış, onların anonimliyi və məxfilik hüquqları qorunmuşdur. Uşaqların iştirakına dair valideynlərin icazəsi təmin edilmişdir. Tədqiqat prosesində heç bir iştirakçıya psixoloji və ya sosial zərər verilməmişdir.

Tədqiqatın müəyyən məhdudiyyətləri də mövcuddur. İştirakçıların sayı məhdud olduğundan nəticələrin bütün ölkə miqyasında ümumiləşdirilməsi çətin ola bilər. Bundan əlavə, sorğular və müsahibələr iştirakçıların subyektiv cavablarına əsaslandığı üçün nəticələrdə müəyyən tərəfkeşlik ehtimalı mövcuddur. İbtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması ilə bağlı aparılan tədqiqatın nəticələri göstərir ki, bu proses pedaqoji yanaşmalarla yanaşı, psixoloji amillərin də təsiri altında baş verir. Uşaqların milli-mənəvi dəyərlərə münasibəti onların yaş xüsusiyyətləri, emosional inkişaf səviyyəsi və sosial mühitlə sıx bağlıdır. Müəllimlərin tətbiq etdiyi metodlar, valideynlərin dəstəyi və məktəbdə təşkil olunan tədbirlər uşaqların Vətənə bağlılıq hissini gücləndirən əsas faktorlar kimi ön plana çıxır.

Müşahidələr və sorğular göstərmişdir ki, şagirdlər milli simvollar, bayramlar və tarixi qəhrəmanlarla bağlı fəaliyyətlərdə iştirak etdikdə Vətənə məhəbbət hissini daha güclü şəkildə ifadə edirlər. Bu, Piaget-in koqnitiv inkişaf nəzəriyyəsi ilə də uyğunluq təşkil edir. Çünki uşaqlar konkret əməliyyatlar mərhələsində abstrakt anlayışları dərk etməkdə çətinlik çəkir, lakin simvolik elementlər və praktiki fəaliyyətlər vasitəsilə milli dəyərləri daha yaxşı mənimsəyirlər.

Müsahibələrdən əldə olunan nəticələr göstərir ki, valideynlərin uşaqlara milli-mənəvi dəyərləri gündəlik həyatlarında aşılaması onların emosional bağlılığını gücləndirir. Bu, Bronfenbrennerin ekoloji sistemlər nəzəriyyəsi ilə də üst-üstə düşür. Ailə, məktəb və ictimai mühitin qarşılıqlı təsiri uşağın milli kimliyinin formalaşmasında mühüm rol oynayır. Psixoloji yanaşmaların təhlili göstərir ki, Eriksonun psixososial inkişaf nəzəriyyəsində vurğulanan "fəaliyyətə qarşı səmərəsizlik" mərhələsində uşaqların sosial fəaliyyətlərdə uğur qazanması onların özünəinamını artırır və milli dəyərlərə bağlılığını möhkəmləndirir (Fraenkel, Wallen, & Hyun, 2012). Bu baxımdan, məktəblərdə təşkil olunan vətənpərvərlik mövzulu layihələr, oyunlar və tədbirlər uşaqların həm sosial bacarıqlarını, həm də emosional bağlılığını inkişaf etdirir. Müasir yanaşmalar isə emosional intellektin rolunu önə çəkir. Emosional intellekt uşaqlarda empatiya, sosial məsuliyyət və emosional özünüidarəetmə bacarıqlarını inkişaf etdirir (Kansanen, 2004). Bu bacarıqlar Vətənə məhəbbət hissinin daha şüurlu və davamlı şəkildə formalaşmasına şərait yaradır.

Ümumilikdə, aparılan tədqiqat göstərir ki, ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması kompleks bir prosesdir və pedaqoji yanaşmalarla yanaşı, psixoloji amillərin də nəzərə alınması vacibdir. Müəllimlərin, valideynlərin və ictimai mühitin birgə fəaliyyəti bu prosesin uğurlu nəticələnməsinə şərait yaradır (Əliyev, 2020).

## Nəticə

Aparılan tədqiqat göstərir ki, ibtidai sinif şagirdlərində Vətənə məhəbbət hissinin formalaşdırılması pedaqoji və psixoloji yanaşmaların inteqrasiyası ilə daha səmərəli şəkildə həyata keçirilir. Uşaqların milli-mənəvi dəyərləri mənimsəməsi yalnız nəzəri biliklərin verilməsi ilə məhdudlaşmamalı, həm də emosional təcrübələr, sosial fəaliyyətlər və ailə–məktəb mühitinin birgə təsiri ilə dəstəklənməlidir. Müəllimlərin tətbiq etdiyi metodlar, valideynlərin gündəlik həyatdakı rolu və məktəbdə təşkil olunan tədbirlər uşaqlarda milli kimlik və Vətənə bağlılıq hissini gücləndirən əsas faktorlar kimi ön plana çıxır.

Psixoloji yanaşmalar – Eriksonun psixososial inkişaf nəzəriyyəsi, Piajenin koqnitiv inkişaf mərhələləri və Viqotskinin sosial-mədəni yanaşması – uşaqların yaş xüsusiyyətlərini nəzərə alaraq milli-mənəvi dəyərlərin öyrədilməsinin elmi əsaslarını təmin edir. Bu nəzəri çərçivələr göstərir ki, uşaqların emosional identifikasiyası, sosial qarşılıqlı əlaqələri və konkret nümunələr üzərində qurulan təcrübələri onların Vətənə bağlılıq hissini daha güclü formalaşdırır.

Nəticələr həmçinin sübut edir ki, emosional intellektin inkişafı, empatiya və sosial məsuliyyət kimi bacarıqlar uşaqlarda Vətənə məhəbbət hissinin daha şüurlu və davamlı şəkildə formalaşmasına şərait yaradır. Beləliklə, pedaqoji-psixoloji yanaşmaların inteqrasiyası milli kimliyi güclü, vətənpərvər və sosial məsuliyyətli gənclərin yetişməsinə mühüm töhfə verir.

## Ədəbiyyat

1. American Psychological Association. (2020). *Publication manual of the American Psychological Association* (7th ed.). Author.
2. Banks, J. A. (2008). *Diversity and citizenship education: Global perspectives*. Jossey-Bass.
3. Bronfenbrenner, U. (1979). *The ecology of human development: Experiments by nature and design*. Harvard University Press.
4. Creswell, J. W., & Plano Clark, V. L. (2011). *Designing and conducting mixed methods research* (2nd ed.). Sage.
5. Əliyev, R. (2020). *Milli-mənəvi dəyərlərin tədris prosesində rolu*. Təhsil Nəşriyyatı.
6. Erikson, E. H. (1963). *Childhood and society*. Norton.
7. Fraenkel, J. R., Wallen, N. E., & Hyun, H. H. (2012). *How to design and evaluate research in education* (8th ed.). McGraw-Hill.
8. Goleman, D. (1995). *Emotional intelligence*. Bantam Books.
9. Kansanen, P. (2004). *The role of theory in teacher education*. University of Helsinki Press.
10. Məmmədov, A. (2018). *İbtidai siniflərdə milli-mənəvi tərbiyənin pedaqoji əsasları*. Elm Nəşriyyatı.
11. Piaget, J. (1952). *The origins of intelligence in children*. International Universities Press.
12. Vygotsky, L. S. (1978). *Mind in society: The development of higher psychological processes*. Harvard University Press.

Daxil oldu: 19.07.2025
Qəbul edildi: 24.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/76-80

**Kamran Musazadə**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0008-7850-4336
kamran.musazade.1994@mail.ru

# Rəqəmsal bank əməliyyatlarının dövlət tənzimlənməsi

## Xülasə

Rəqəmsal bank əməliyyatlarının genişlənməsi Azərbaycanda maliyyə xidmətlərinin sürətini, əlçatanlığını və səmərəliliyini əhəmiyyətli dərəcədə artırmış, eyni zamanda yeni tənzimləyici və təhlükəsizlik çağırışları yaratmışdır. İnformasiya texnologiyalarının inkişafı bank xidmətlərini elektron mühitə inteqrasiya etmiş, onlayn ödənişlər, mobil bankçılıq, rəqəmsal kreditlər və elektron köçürmə sistemləri geniş istifadə olunan xidmət sahələrinə çevrilmişdir. Bu ekosistemin formalaşması həm dövlətin rəqəmsal transformasiya siyasətinə, həm də fintek sektorunun innovativ həllərinə əsaslanır.

Rəqəmsal əməliyyatların yayılması ilə kibertəhlükələr, məlumat sızmaları və əməliyyat riskləri artdığı üçün dövlət tənzimlənməsi strateji əhəmiyyət kəsb edir. Azərbaycanda rəqəmsal bankçılığın hüquqi bazası "Ödəniş xidmətləri haqqında" və digər normativ aktlarla müəyyən edilməklə yanaşı, Mərkəzi Bank və aidiyyəti qurumlar tərəfindən risk əsaslı nəzarət mexanizmləri tətbiq olunur. Sürətli Ödənişlər Sistemi, rəqəmsal identifikasiya platformaları və nağdsız ödəniş infrastrukturunun genişləndirilməsi sektorda təhlükəsizliyi və funksionallığı artırmışdır.

***Açar sözlər:*** *rəqəmsal bankçılıq, nağdsız ödənişlər, mobil bankçılıq, sürətli ödəniş sistemi, dövlət tənzimləməsi*

**Kamran Musazade**
Baku Business University
Master's student
https://orcid.org/0009-0008-7850-4336
kamran.musazade.1994@mail.ru

# State Regulation of Digital Banking Operations

## Abstract

The expansion of digital banking operations in Azerbaijan has significantly enhanced the speed, accessibility, and efficiency of financial services, while simultaneously introducing new regulatory and security challenges. The development of information and communication technologies has integrated banking services into the electronic environment, with online payments, mobile banking, digital credit products, and electronic transfer systems becoming widely utilized service areas. The formation of this ecosystem is supported both by the state's digital transformation policies and by innovative solutions from the fintech sector.

The proliferation of digital operations has increased cybersecurity threats, data breaches, and operational risks, making state regulation strategically important. In Azerbaijan, the legal framework for digital banking is established through the *Law on Payment Services* and other normative acts, complemented by risk-based supervisory mechanisms implemented by the Central Bank and relevant authorities. The development of the Fast Payment System, digital identification platforms, and cashless payment infrastructure has further strengthened security and functionality within the sector.

***Keywords:*** *digital banking, cashless payments, mobile banking, fast payment system, state regulation*


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Rəqəmsal bank əməliyyatları son illərdə müasir maliyyə sistemində mühüm rol oynamağa başlamışdır. İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı nəticəsində bank xidmətlərinin rəqəmsallaşması, əməliyyatların sürətinin artırılması və müştəri rahatlığının təmin edilməsi mümkündür. Bu proses yalnız əməliyyatların effektivliyini yüksəltmir, eyni zamanda maliyyə sisteminin dayanıqlılığı və təhlükəsizliyi baxımından dövlət tənzimlənməsinin əhəmiyyətini artırır. Dövlət nəzarəti rəqəmsal bank əməliyyatlarının şəffaf və təhlükəsiz şəkildə həyata keçirilməsini təmin etməklə, həmçinin maliyyə risklərinin idarə olunmasına töhfə verir.

Bu tədqiqatın məqsədi rəqəmsal bank əməliyyatlarının dövlət tərəfindən tənzimlənməsi mexanizmlərini araşdırmaq və onların effektivliyinin artırılması yollarını müəyyənləşdirməkdir. Tədqiqatın əsas vəzifələri aşağıdakılardır: rəqəmsal bank əməliyyatlarının xüsusiyyətlərini təhlil etmək, mövcud dövlət tənzimləmə mexanizmlərini müəyyənləşdirmək və bu mexanizmlərin səmərəliliyini qiymətləndirərək təkmilləşdirmə təklifləri hazırlamaqdır.

**Tədqiqat**

Rəqəmsal bank əməliyyatları müasir bank sistemində ən sürətlə inkişaf edən istiqamətlərdən biridir və bank xidmətlərinin tam və ya qismən elektron mühitdə həyata keçirilməsini nəzərdə tutur. Bu əməliyyatlar ənənəvi bank xidmətlərinin rəqəmsal platformalara inteqrasiya olunması nəticəsində formalaşmışdır və müştərinin bankla fiziki təmas olmadan geniş spektrdə əməliyyatlar icra etməsinə imkan yaradır. Rəqəmsal əməliyyatlara onlayn ödənişlər, mobil bankçılıq xidmətləri, rəqəmsal kredit məhsulları, elektron pul köçürmələri və digər inteqrasiya olunmuş maliyyə texnologiyaları aiddir (Abbasov, Məmmədov, Rzayev & Həmişəyeva, 2013).

Onlayn ödənişlər rəqəmsal bankçılığın ən geniş tətbiq olunan sahələrindən biri olaraq istifadəçilərə kommunal xidmət haqları, dövlət rüsumları, vergi ödənişləri və elektron ticarət əməliyyatlarını real vaxt rejimində icra etmək imkanı verir. Azərbaycanda bu xidmətlərin inkişafı bank-maliyyə infrastrukturunun modernləşdirilməsi və dövlətin rəqəmsal platformalarının genişləndirilməsi ilə təmin olunur.

Bankların mobil və internet bankçılıq xidmətləri onlayn ödənişlərin əsas kanalı kimi çıxış edir və istifadəçilərə müxtəlif ödəniş və transfer əməliyyatlarını saniyələr ərzində yerinə yetirməyə şərait yaradır. Dövlətin e-gov və ASAN ödəniş sistemləri isə cərimələr, vergilər və digər rüsumların asan identifikasiya yolu ilə həyata keçirilməsini mümkün edir (Azərbaycan Respublikası, 2009).

“MilliÖn” və “E-manat” kimi ödəniş terminalları həm fiziki, həm də rəqəmsal ödəniş infrastrukturuna inteqrasiya olunaraq hibrid ödəniş modelinin formalaşmasına dəstək verir.

**Şəkil 1.**
**Milli Ödəniş Sistemində aparılmış əməliyyatların sayı (mln. ədəd)**




**Şəkil 2.**
**Milli Ödəniş Sistemində aparılmış əməliyyatların həcmi (mlrd. manat)**



***Mənbə:*** *Azərbaycan Respublikası Mərkəzi Bankı, rəqəmsal ödənişlər üzrə infoqrafika, 2025 (www.cbar.az).*

Həmçinin, FinTech (maliyyə texnologiyası) sektorunun inkişafı nəticəsində elektron pul kisələri və QR-kod ilə ödəniş kimi innovativ mexanizmlər geniş yayılmışdır (Arner, Barberis, & Buckley, 2016).

Bank kartları (VISA, Mastercard, MilliKart) vasitəsilə onlayn ödənişlər 3D Secure autentifikasiyası ilə təmin edilir ki, bu da əməliyyatların təhlükəsizliyini yüksəldir.

Mobil bankçılıq isə smartfon tətbiqləri vasitəsilə bank xidmətlərinə fasiləsiz çıxışı təmin edir. Praktik olaraq, istifadəçi mobil tətbiq üzərindən hesab qalığını yoxlaya, valyuta mübadiləsi apara, kredit ödənişlərini icra edə və hətta investisiya məhsullarına daxil ola bilir.

Rəqəmsal kredit sistemləri də bank sahəsində innovativ həllərdən biri kimi formalaşmışdır. Bu sistemlər müştəriyə filiallara getmədən, yalnız elektron identifikasiya və rəqəmsal qiymətləndirmə vasitələri ilə kredit müraciəti etmək imkanı yaradır. Praktik olaraq, bankın süni intellekt alqoritmləri müştərinin ödəniş tarixçəsi, gəlir səviyyəsi və risk göstəricilərini avtomatik analiz edərək bir neçə dəqiqə ərzində kredit qərarı qəbul edir. Bu model həm bank, həm də müştəri üçün əməliyyat səmərəliliyini artırır (Azərbaycan Respublikası, 2018).

Elektron pul köçürmə sistemləri isə ənənəvi bank transferlərini əvəz edən daha sürətli və aşağı xərc tələb edən xidmətlər təqdim edir. Mobil və onlayn kanallar vasitəsilə həyata keçirilən daxili və beynəlxalq köçürmələr maliyyə inteqrasiyasını genişləndirir. Məsələn, real vaxtlı sürətli ödəniş sistemləri (RTGS) vasitəsilə fiziki olaraq bank filialına getmədən bir neçə saniyədə böyük məbləğdə pul köçürmək mümkündür.

Təhlükəsizlik rəqəmsal bankçılığın ən vacib komponentlərindən biri kimi qiymətləndirilir. Banklar məlumat təhlükəsizliyini təmin etmək üçün ikiqat autentifikasiya, biometrik identifikasiya (barmaq izi, üz tanıma) və şifrələmə texnologiyalarından istifadə edirlər. Məsələn, bir çox bank mobil tətbiqlərə giriş zamanı yalnız PIN deyil, həm də biometrik təsdiq tələb edir ki, bu da istifadəçi hesablarının üçüncü şəxslər tərəfindən əldə edilməsinin qarşısını alır (Azərbaycan Respublikası Mərkəzi Bankı, 2021).

Məlumat mühafizəsi aspektləri isə müştəri məlumatlarının məxfiliyinin qorunmasını hədəfləyir. Bu məqsədlə banklar beynəlxalq standartlara uyğun təhlükəsizlik protokolları tətbiq edir və məlumatların şifrələnmiş formatda ötürülməsini təmin edirlər. Həmçinin, əməliyyatların tam izlənilə bilən olması (audit trail) potensial fırıldaqçılıq halları ilə mübarizədə mühüm rol oynır.

Nəticə etibarilə, rəqəmsal bank əməliyyatlarının genişlənməsi bank sektorunda xidmət keyfiyyətini yüksəltməklə yanaşı, maliyyə əməliyyatlarının təhlükəsizliyini, şəffaflığını və səmərəliliyini artırır. Rəqəmsal texnologiyaların davamlı inkişafı bu əməliyyatların daha da təkmilləşəcəyini və dövlət tənzimlənməsi mexanizmlərinin daha çevik və effektiv olmasını tələb edəcəyini göstərir (Azərbaycan Respublikası Mərkəzi Bankı, 2025).

Rəqəmsal bank əməliyyatlarının genişlənməsi bank sektorunda həm xidmət imkanlarını artırmış, həm də kiber və əməliyyat risklərinin formalaşmasına səbəb olmuşdur. Bu səbəbdən dövlət tənzimlənməsi maliyyə sabitliyinin qorunması, istehlakçıların hüquqlarının müdafiəsi və rəqəmsal infrastrukturun təhlükəsizliyinin təmin edilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycanda rəqəmsal maliyyə xidmətlərinin tənzimlənməsi hüquqi baza, institusional nəzarət mexanizmləri və risklərin idarə edilməsinə dair standartların məcmusundan ibarətdir.

Hüquqi çərçivə *Banklar haqqında*, *Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında* qanunlar, eləcə də elektron identifikasiya və məlumat təhlükəsizliyi ilə bağlı normativ aktlarla müəyyən edilir (Banklar haqqında qanun, 2009). Bu sənədlər rəqəmsal əməliyyatların hüquqi statusunu, xidmət göstərən təşkilatların məsuliyyət öhdəliklərini və müştəri məlumatlarının qorunmasına dair tələbləri tənzimləyir. KYC və AML/CFT üzrə tələblər isə bankların müştəri identifikasiyası və əməliyyatların monitorinqi proseslərinin standartlaşdırılmasını təmin edir.

Tənzimləmənin institusional səviyyədə həyata keçirilməsi əsasən Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsusdur. Mərkəzi Bank rəqəmsal əməliyyatlara dair prudensial tələblər müəyyən

edir, bankların risk menecmenti və kibertəhlükəsizlik sistemlərini qiymətləndirir, həmçinin ölkədə Sürətli Ödəniş Sisteminin (SÖS) fəaliyyətinə nəzarət edir. Bundan əlavə, Maliyyə Monitorinqi Xidməti rəqəmsal əməliyyatlarda çirkli pulların yuyulması risklərinin azaldılması üçün real vaxtlı monitorinq və şübhəli əməliyyatların hesabatlaşdırılması mexanizmlərini tətbiq edir. Rəqəmsal infrastrukturun texniki təhlükəsizliyinə isə müvafiq dövlət qurumları – o cümlədən kibertəhlükəsizlik üzrə ixtisaslaşmış agentliklər – nəzarət edir (Əliyeva, 2013).

Risklərin idarə edilməsi rəqəmsal bank əməliyyatlarının sabitliyi üçün əsas prioritetlərdən biridir. Azərbaycan bankları Mərkəzi Bank tərəfindən müəyyən edilmiş tələblərə uyğun olaraq əməliyyat sistemlərinin mütəmadi auditini həyata keçirir, məlumat təhlükəsizliyi üzrə beynəlxalq standartlara yaxınlaşan sertifikatlaşdırma prosedurlarını tətbiq edir və fövqəladə hallar üzrə fasiləsiz fəaliyyət planları hazırlayırlar. Eyni zamanda, banklar müştərilərə xidmət şərtləri və rəqəmsal əməliyyat riskləri barədə aydın və şəffaf məlumat vermək öhdəliyinə malikdirlər ki, bu da istehlakçı hüquqlarının qorunmasına yönəlmiş dövlət siyasətinin tərkib hissəsidir (ISO, 2022).

Müasir tələblərə uyğun Milli Ödəniş Sisteminin formalaşdırılması və nağdsız ödəniş mühitinin genişləndirilməsi istiqamətində Mərkəzi Bank uzun illərdir ardıcıl və sistemli fəaliyyət həyata keçirir. Bu çərçivədə 2005–2007-ci illər üçün Dövlət Proqramı və 2018–2020-ci illər üzrə rəqəmsal ödənişlərin inkişafına dair proqram qəbul olunaraq uğurla icra edilmişdir. Görülən tədbirlər nəticəsində ödəniş sistemlərinin təhlükəsizliyi, dayanıqlığı və funksionallığı gücləndirilmiş, Ani Ödənişlər Sistemi, blokçeyn əsaslı rəqəmsal identifikasiya platforması və müasir kart infrastrukturu istifadəyə verilmişdir. Bundan əlavə, təhsil müəssisələrində "smart tələbə kartları" tətbiq olunmuş, QR-kodla ödəniş imkanları genişləndirilmiş və nağdsız ödənişlərin tətbiq dairəsi artırılmışdır (Sadıqov, 2010).

Kölgə iqtisadiyyatının azaldılması istiqamətində həyata keçirilən islahatlar, vergi şəffaflığının artırılması və istehlakçılara ƏDV-nin bir hissəsinin qaytarılması təşəbbüsü də nağdsız ödənişlərin sürətli artımına şərait yaratmışdır. Bununla belə, beynəlxalq müqayisələr mövcud potensialın tam reallaşmadığını göstərmiş və bu kontekstdə 2021–2023-cü illər üçün *Azərbaycan Respublikası Mərkəzi Bankının Rəqəmsal Ödəniş Strategiyası* hazırlanmışdır. Strategiyanın əsas məqsədi dövlət, biznes və vətəndaşlar üçün əlçatan, təhlükəsiz və innovativ ödəniş mühitinin formalaşdırılmasıdır. **Bu məqsədlə beş əsas istiqamət müəyyən edilmişdir (Zetzsche, Buckley, Arner, & Barberis, 2020):**

1. Rəqəmsal ödənişlər üzrə qanunvericiliyin təkmilləşdirilməsi və innovasiya imkanlarının genişləndirilməsi;
2. Ödəniş infrastrukturunun əhatəliliyinin artırılması;
3. Risk əsaslı tənzimləmə və nəzarət mexanizmlərinin gücləndirilməsi;
4. İnklüzivliyin artırılması və məsafəli bank xidmətlərinə universal çıxışın təmin edilməsi;
5. Maliyyə savadlığının artırılması və rəqəmsal ödənişlərin geniş istifadəsinin təşviqi.

Bu istiqamətlər ölkədə rəqabətli, davamlı və innovativ ödəniş ekosisteminin formalaşmasına zəmin yaradır (Azərbaycan Respublikası Mərkəzi Bankı, 2025).

Rəqəmsal bank xidmətlərinin sürətli inkişafı hüquqi və institusional tənzimlənmənin yenilən-məsini zəruri edir. Mövcud normativ baza ümumən təkmilləşdirilsə də, açıq bankçılıq, rəqəmsal identifikasiya və süni intellekt əsaslı həllər kimi yeni istiqamətlərdə əlavə hüquqi mexanizmlərə ehtiyac qalır. Rəqəmsallaşma dərinləşdikcə kibertəhlükələrin artması da əsas risk amili kimi ortaya çıxır və bank sistemlərində təhlükəsizlik standartlarının gücləndirilməsini tələb edir. Eyni zamanda, PSD2, ISO 20022 və FATF tövsiyələri kimi beynəlxalq çərçivələrə tam uyğunlaşma sahəsində institusional boşluqlar mövcuddur ki, bu da milli rəqəmsal maliyyə infrastrukturunun qlobal sistemlə inteqrasiyasını ləngidə bilər. Bu problemlərin həlli üçün hüquqi çərçivənin yenidən qurulması, açıq bankçılıq və fintek fəaliyyətinin ayrıca normativ baza ilə tənzimlənməsi, rəqəmsal identifikasiya standartlarının beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədəuyğundur (Tağıyev & Rüstəmov, 2020).

Risk idarəetmə sistemlərinin gücləndirilməsi də prioritetdir. Real vaxtlı kiber monitorinq, süni intellektə əsaslanan fırıldaqçılıq aşkarlanması alqoritmlərinin tətbiqi və Mərkəzi Bank səviyyəsində

vahid risk informasiya platformasının yaradılması əməliyyat təhlükəsizliyini artıracaqdır. Nəhayət, Avropa İttifaqının PSD2 modeli, Estoniyanın e-identifikasiya sistemi və Sinqapurun rəqəmsal bank lisenziyalaşdırma təcrübəsi kimi qabaqcıl yanaşmaların adaptasiyası ölkənin rəqəmsal maliyyə ekosisteminin rəqabət qabiliyyətini gücləndirəcəkdir (Wikipedia, n.d.).

## Nəticə

Rəqəmsal bank əməliyyatlarının genişlənməsi Azərbaycanda maliyyə xidmətlərinin sürətini, əlçatanlığını və səmərəliliyini artırmış, nağdsız ödəniş ekosisteminin formalaşmasına töhfə vermişdir. Eyni zamanda, rəqəmsal əməliyyatların artması yeni hüquqi, tənzimləyici və kiber təhlükəsizlik çağırışlarını ortaya çıxarmışdır. Bu səbəbdən gələcəkdə rəqəmsal bankçılığın daha təhlükəsiz və effektiv inkişafı üçün aşağıdakı tədbirlər tövsiyə olunur: hüquqi çərçivənin açıq bankçılıq və süni intellekt əsaslı həllərlə uyğunlaşdırılması, risk əsaslı nəzarət və monitorinq sistemlərinin gücləndirilməsi, rəqəmsal identifikasiya standartlarının beynəlxalq tələblərə yaxınlaşdırılması və vətəndaşların maliyyə savadlığının artırılması. Bu tədbirlər tətbiq olunduqda, Azərbaycan rəqəmsal bankçılıq sahəsində inklüziv, təhlükəsiz və innovativ bir ekosistem formalaşdıra bilər.

## Ədəbiyyat

1. Arner, D. W., Barberis, J., & Buckley, R. (2016). FinTech, RegTech and the reconceptualization of financial regulation. *Northwestern Journal of International Law & Business*, 36(3), 371–413.
2. Abbasov, Ə., Məmmədov, Z., Rzayev, R., & Həmişəyeva, Ş. (2003). *Bank işi və elektron bankçılıq*. Qanun nəşriyyatı.
3. Azərbaycan Respublikası. (2009). *Banklar haqqında Qanun*.
4. Azərbaycan Respublikası. (2018). *Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Qanun*.
5. Azərbaycan Respublikası Mərkəzi Bankı. (2021). *Azərbaycan Respublikası Mərkəzi Bankının 2021–2023-cü illər üçün Rəqəmsal Ödəniş Strategiyası*.
6. Azərbaycan Respublikası Mərkəzi Bankı. (2025). *Rəqəmsal ödənişlər üzrə infoqrafika*. www.cbar.az
7. Əliyeva, T. T. (2013). *Dünya ölkələrinin bank sistemi*.
8. ISO. (2022). *ISO 20022: Universal financial industry message scheme*. International Organization for Standardization.
9. Sadıqov, E. (2010). *Bank əməliyyatları*. İqtisad Universiteti nəşriyyatı.
10. Tağıyev, X. R., & Rüstəmov, T. H. (2020). *Rəqəmsal ödənişlər və elektron bankçılıq xidmətləri*. Elm və Təhsil.
11. Wikipedia. (n.d.). *az.wikipedia.org*. https://az.wikipedia.org
12. Zetzsche, D. A., Buckley, R. P., Arner, D. W., & Barberis, J. N. (2020). The rise of FinTech in China: Redefining financial inclusion. *Northwestern Journal of International Law & Business*, 37(3), 367–414.

Daxil oldu: 03.06.2025
Qəbul edildi: 10.09.2025

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 81-84 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 81-84 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/124/81-84

**Röya Nəsibova**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0002-8047-5139
royanesibova@gmail.com

# Regionların sosial-iqtisadi inkişafında azad iqtisadi zonaların potensial təsir imkanlarının təhlili

**Xülasə**

"Regionların sosial-iqtisadi inkişafında azad iqtisadi zonaların potensial təsir imkanlarının təhlili" mövzusunda aparılan bu tədqiqat, ölkə daxilində iqtisadi fəallığın balanslaşdırılmış paylanmasına və regionlararası bərabərsizliyin azaldılmasına yönəlmiş əsas vasitə kimi azad iqtisadi zonaların (AİZ) rolunu araşdırır. Tədqiqatın məqsədi AİZ-lərin regionların inkişafında yaratdığı imkanları və riskləri müəyyənləşdirmək, onların sosial rifaha və iqtisadi göstəricilərə olan təsirini dəyərləndirməkdir.

Araşdırmada beynəlxalq təcrübə ilə yanaşı, Azərbaycanda yaradılmış və planlaşdırılan azad iqtisadi zonaların (məsələn, Ələt Azad İqtisadi Zonası) fəaliyyət modelləri təhlil olunur. AİZ-lərin investisiya axınlarının cəlb olunması, yeni iş yerlərinin yaradılması, infrastrukturun təkmilləşdirilməsi və ixrac yönümlü istehsalın təşviqi kimi aspektlərdə regionların sosial-iqtisadi inkişafına müsbət təsiri vurğulanır.

Tədqiqat nəticəsində müəyyən olunur ki, düzgün planlaşdırılmış və effektiv idarə olunan AİZ-lər regionlarda innovasiya mühitinin formalaşmasına, sahibkarlığın inkişafına və sosial rifahın yüksəlmə-sinə mühüm töhfə verə bilər. Lakin bu prosesin uğuru bir sıra şərtlərdən — hüquqi-normativ bazanın dayanıqlılığı, nəqliyyat-logistika əlaqələrinin gücləndirilməsi və kadr potensialının hazırlanmasından da asılıdır. Sonda tədqiqat əsasında AİZ-lərin regionlarda daha effektiv tətbiqi üçün tövsiyələr təqdim olunur.

***Açar sözlər:*** *region, sosial, iqtisadi, potensial, hüquqi*

**Röya Nasibova**
Baku State University
Master's student
https://orcid.org/0009-0002-8047-5139
royanesibova@gmail.com

# Analysis of the Potential Impact of Free Economic Zones on the Socio-Economic Development of Regions

**Abstract**

This study, conducted on the topic of "Analysis of the potential impact of free economic zones on the socio-economic development of regions," examines the role of free economic zones (FEZ) as the main tool aimed at a balanced distribution of economic activity within the country and reducing interregional inequality. The purpose of the study is to identify the opportunities and risks created by FEZs in the development of regions and to assess their impact on social welfare and economic indicators.

Along with international experience, the study analyzes the activity models of free economic zones (for example, Alat Free Economic Zone) created and planned in Azerbaijan. The positive impact of FEZs on the socio-economic development of regions in terms of attracting investment flows, creating new jobs, improving infrastructure, and promoting export-oriented production is emphasized.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

The study results show that properly planned and effectively managed FEZs can make a significant contribution to the formation of an innovation environment in the regions, the development of entrepreneurship, and the improvement of social welfare. However, the success of this process also depends on a number of conditions—the stability of the legal and regulatory framework, strengthening transport and logistics relations, and the preparation of human resources. Finally, recommendations are presented for the more effective implementation of FEZs in the regions based on the study.
***Keywords:*** *region, social, economic, potential, legal*

## Giriş

Müasir dövrdə regionların tarazlı sosial-iqtisadi inkişafının təmin olunması hər bir ölkənin qarşısında duran əsas strateji prioritetlərdən biridir. Bu, xüsusilə iqtisadi strukturun mərkəzləşmiş olduğu ölkələrdə regionlararası inkişaf fərqlərinin aradan qaldırılması baxımından mühüm əhəmiyyət daşıyır. Regionların iqtisadi potensialından səmərəli istifadə olunması, yerli resursların iqtisadi dövriyyəyə cəlb edilməsi, məşğulluğun artırılması və sosial rifahın yüksəldilməsi bu prosesin başlıca hədəflərindəndir (Abbasov, 2018).

Bu kontekstdə azad iqtisadi zonalar (AİZ) dünya üzrə uğurlu regional inkişaf alətlərindən biri kimi çıxış edir. AİZ-lər investorlar üçün əlverişli biznes mühiti yaratmaqla yanaşı, regionlara birbaşa xarici investisiyaların cəlb olunmasını sürətləndirir, sənayeləşmə prosesini stimullaşdırır və ixrac imkanlarını genişləndirir. Eyni zamanda, bu zonalar regionlarda yeni iş yerlərinin yaradılması və əhalinin gəlir səviyyəsinin artırılması baxımından da mühüm rol oynayır (Guliyev, 2025).

**Tədqiqat**

Azərbaycan da bu sahədə məqsədyönlü addımlar atmaqla regionların inkişafında AİZ-lərin potensialından istifadə etməyə başlamışdır. Xüsusilə Ələt Azad İqtisadi Zonası kimi təşəbbüslər ölkənin qeyri-neft sektorunun inkişafına, iqtisadi şaxələndirməyə və regional balansın yaradılmasına xidmət edir (Məhərrəmov, 2019, s. 138).

Təqdim olunan bu tədqiqatda azad iqtisadi zonaların regionların sosial-iqtisadi inkişafına təsir imkanları geniş şəkildə təhlil olunacaq, onların praktiki tətbiqi, əldə olunan nəticələr və mövcud çətinliklər üzərində dayanılacaqdır. Məqsəd – AİZ-lərin regionlar üçün yaratdığı imkanları qiymətləndirmək və gələcək inkişaf üçün təkliflər irəli sürməkdir (APA News, 2024).

**Azad İqtisadi Zonaların Regionların Sosial-İqtisadi İnkişafına Təsirinin Analitik Təhlili: İmkanlar, Çağırışlar və Perspektivlər**

Regionların sosial-iqtisadi inkişafı hər bir ölkənin uzunmüddətli dayanıqlı inkişaf strategiyasının əsas tərkib hissəsidir. Azərbaycanın da inkişaf modelində regionların balanslı şəkildə inkişaf etdirilməsi, iqtisadi fəallığın ölkə üzrə bərabər paylanması, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və işsizlik səviyyəsinin azaldılması kimi məqsədlər prioritet istiqamətlərdəndir. Bu məqsədlə həyata keçirilən dövlət proqramları və təşviqedici tədbirlərlə yanaşı, yeni iqtisadi idarəetmə formaları da gündəmə gəlməkdədir. Bu çərçivədə azad iqtisadi zonalar (AİZ) xüsusi yer tutur (APA News, 2025; Ministry of Economy of Azerbaijan, 2024).

**Cədvəl 1. Azad İqtisadi Zonaların Regionlara İnvestisiya Cəlbetmə Effektivliyi (seçilmiş ölkələr üzrə).**

| Ölkə | AİZ-lərin sayı | AİZ-lərə cəlb olunan birbaşa xarici investisiya (mlrd. $) | Regionlara yönələn ümumi investisiya artımı (%) | Məşğulluğa təsir (yeni iş yerləri) |
|---|---|---|---|---|
| Çin | 2,543 | 1000+ | 35% | 60 milyon+ |
| BƏƏ | 45 | 85 | 40% | 400,000+ |
| Türkiyə | 19 | 23 | 18% | 80,000+ |
| Azərbaycan* | 1 (Ələt AİZ) | 0.5 (potensial) | Gözlənilir (2025 sonrası) | 10,000 (proqnoz) |

**Mənbə**: UNCTAD, Dünya Bankı, İqtisadiyyat Nazirliyi (2024)

Cədvəl 1-də dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən AİZ-lərin investisiya cəlbetmə potensialı və regionlara verdiyi iqtisadi töhfələr müqayisəli şəkildə göstərilmişdir. Burada xüsusilə Çin nümunəsi önə çıxır – ölkədə 2500-dən çox AİZ fəaliyyət göstərir və bu zonalar 1 trilyon dollardan artıq birbaşa xarici investisiyanı cəlb etməklə milyonlarla yeni iş yeri yaratmışdır (IFC, 2023).

Türkiyə və Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələrdə də AİZ-lər vasitəsilə regionlara yönələn investisiyalarda və iqtisadi fəallıqda əhəmiyyətli artım müşahidə olunmuşdur. Azərbaycanın Ələt Azad İqtisadi Zonası isə hələ ilkin mərhələdə olsa da, yaxın illərdə 10 minə yaxın iş yeri yaratmaq və qeyri-neft sektorunda investisiyaları artırmaq potensialına malikdir (Yuzbashiyeva, Abasova, & Yuzbashiyev, 2025, s. 9).

**Cədvəl 2. Azad İqtisadi Zonaların Regionların İqtisadi Strukturuna Təsiri (Azərbaycan üzrə proqnozlar).**

| Göstəricilər | 2023 (mövcud vəziyyət) | 2027 (proqnoz, AİZ-lərin təsiri ilə) |
|---|---|---|
| Regionlarda sənaye məhsulu (% pay) | 22% | 35% |
| Qeyri-neft ixracında regionların payı | 15% | 28% |
| Regionlarda məşğulluq səviyyəsi (%) | 61% | 68% |
| Regionlara yönələn investisiya həcmi | 1.2 mlrd. AZN | 3.5 mlrd. AZN |

**Mənbə**: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, 2024–2025 proqnozları

Cədvəl 2. Azərbaycanın regional iqtisadi strukturunda AİZ-lərin mümkün dəyişiklik yaratma imkanlarını əks etdirir. Hal-hazırda regionların sənaye istehsalındakı payı 22 faiz civarındadır. Ancaq AİZ-lərin təsiri ilə bu göstəricinin 2027-ci ilə qədər 35 faizə yüksələcəyi proqnozlaşdırılır.

Eyni zamanda, regionların qeyri-neft ixracındakı payının da ikiqat artaraq 28 faizə çatacağı gözlənilir. İnvestisiya həcmlərindəki artım və məşğulluq səviyyəsinin yüksəlməsi də AİZ-lərin potensial müsbət təsirlərinə dəlalət edir (Józefowski & Młodak, 2017, p. 33; "Role of Special Economic Zones Policy in Increasing Azerbaijan's …", 2024).

## Nəticə

Aparılan təhlillər göstərir ki, azad iqtisadi zonalar (AİZ) regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün strateji alətdir. Onlar investisiya axınlarını stimullaşdırmaq, sənaye istehsalını regionlara yaymaq, ixrac yönümlü istehsala şərait yaratmaq və məşğulluğu artırmaqla regionlararası iqtisadi fərqlərin azaldılmasına real töhfə verə bilər.

AİZ-lər eyni zamanda yerli resursların daha səmərəli istifadəsini təşviq edir, özəl sektor fəallığını yüksəldir və regional iqtisadi məkan daxilində yeni dəyər zəncirləri formalaşdırır.

Təsir mexanizmləri çoxşaxəlidir: fiskal və inzibati güzəştlər kapital cəlbini artırır; klasterləşmə istehsal səmərəliliyini yüksəldir; logistika üstünlükləri məhsulların bazarlara çıxışını asanlaşdırır; yüksək standartlı biznes mühiti isə yeni texnologiyaların və idarəetmə praktikalarının diffuziyasını sürətləndirir.

## Ədəbiyyat

1. Abbasov, T. A. (2018). *Azad iqtisadi zonaların nəzəriyyəsi və təcrübəsi* (Master dissertasiya, Azərbaycan Dövlət İqtisad Universiteti).
2. APA News. (2024, January 19). *Azerbaijan increases territory of Alat Free Economic Zone*. APA.az.
3. APA News. (2025, July 1). *Elmar Mammadov: Free economic zones to be established in Karabakh*. APA.az.
4. Guliyev, V. (2025, February 5). *Azerbaijan's contribution to regional connectivity*. Azerbaijan International Air Center.
5. IFC. (2023). *IFC to support businesses in Azerbaijan's Alat Free Economic Zone*. Dünya Bankı Qrupunun mətbuat xidməti.
6. Józefowski, T., & Młodak, A. (2017). Special economic zones in the context of regional development. *Europa XXI, 33*, 33–47. https://doi.org/10.7163/Eu21.2017.33.3
7. Karim, S. (2024). Impact of special economic zones on socioeconomics and institutions: The case of Poland. *Regional Studies*. https://doi.org/10.1080/00343404.2022.2069745
8. Khatamova, M. O. (2024). Special economic zones as drivers of regional economic development: Best practices and implications for Uzbekistan. *American Journal of Business Management, Economics and Banking, 30*, 29–32.
Süni intellekt əsaslı qərarvermə texnologiyalarının tətbiqi üçün əməkdaşların yalnız texniki bilikləri deyil, həm də kompleks problemləri təhlil edə bilən yaradıcılıq və kritik düşünmə bacarıqları tələb olunur. Bu tip bacarıqlara malik insan kapitalı şirkətin innovasiya gücünü artırır və yeni məhsul və xidmətlərin daha qısa müddətdə hazırlanmasına şərait yaradır.

Robotlaşdırılmış proses avtomatlaşdırılması (RPA) sahəsində bacarıqlı işçilər isə müəssisələrə əməliyyat xərclərini azaltmaq, insan səhvlərinin qarşısını almaq və məhsuldarlığı artırmaq imkanı verir. Məsələn, bir çox banklarda RPA tətbiqi nəticəsində sənəd təsdiqi və kredit müraciətlərinin yoxlanılması kimi proseslər 70%-ə qədər sürətlənmişdir. Bu dəyişikliklərin uğurunda əsas pay RPA üzrə təlimləndirilmiş insan kapitalına aiddir (Madsen & Bygstad, 2021).

İnnovasiya potensialının yüksəlməsi yalnız daxili idarəetmə proseslərinin təkmilləşdirilməsi ilə məhdudlaşmır; rəqəmsal bacarıqlara malik işçilər müəssisənin bazar rəqabətində mövqeyini də əhəmiyyətli dərəcədə gücləndirir. Məsələn:

Amazon 2021–2024-cü illər arasında logistika proseslərində rəqəmsal bacarığı yüksək komandalardan istifadə edərək süni intellekt əsaslı çatdırılma sistemləri tətbiq etmiş və bunun nəticəsində çatdırılma vaxtını orta hesabla 22% azaltmışdır.

Azərbaycanda "ASAN xidmət", "ASAN ödəniş" və "Elektron Hökumət" platformalarının uğurunun əsas səbəblərindən biri rəqəmsal kompetensiyalara malik insan kapitalının formalaşdırılmasıdır. İT mütəxəssislərinin hazırlığı, dövlət xidmətlərində rəqəmsal savadlı kadrların artması proseslərin həm şəffaflığını, həm də sürətini əhəmiyyətli dərəcədə artırmışdır (İsmayılov, 2018).

Kapital Bank və digər yerli banklar data analitikası, rəqəmsal marketinq və kibertəhlükəsizlik üzrə yüksək bacarıqlı kadrlar sayəsində elektron bankçılıq xidmətlərini genişləndirərək bazar payını yüksəltmişdir.

Bu nümunələr göstərir ki, rəqəmsal bacarıqlara malik insan kapitalı yalnız texnologiyanın tətbiqini təmin etmir, həm də müəssisənin strateji inkişaf istiqamətini müəyyən edən əsas qüvvəyə çevrilir. Bu cür əməkdaşlar innovasiya mədəniyyətini gücləndirir, rəqabət mühitində üstünlük yaradır və təşkilatın uzunmüddətli sabitliyini təmin edir.

Strateji dəyişikliklərin effektiv idarə olunması üçün təşkilatların insan kapitalına sistemli və məqsədyönlü şəkildə investisiya etməsi mühüm zərurətə çevrilmişdir. Dəyişikliklərin dinamik xarakter daşıdığı müasir biznes mühitində əməkdaşların bilik və bacarıqlarının davamlı yenilənməsi həm transformasiya prosesinin sürətini, həm də keyfiyyətini müəyyən edir. Bu səbəbdən təşkilatlar dəyişikliklərə hazırlıq səviyyəsini artırmaq üçün kompleks yanaşma tətbiq etməlidir (Garg & Singh, 2022).

İlk növbədə, təlim və inkişaf proqramlarının gücləndirilməsi vacibdir. Müasir dövrdə işçilərin yalnız mövcud biliklərlə fəaliyyət göstərməsi kifayət etmir; onlar mütəmadi olaraq yeni rəqəmsal alətləri mənimsəməli, analitik düşüncə bacarıqlarını inkişaf etdirməli və mürəkkəb qərarvermə proseslərində iştirak etməlidirlər.

Şirkətlər tərəfindən təşkil olunan sertifikasiya proqramları, daxili təlim mərkəzləri, mentorluq sistemi və onlayn təlim platformaları insan kapitalının potensialını artırmaq üçün əsas vasitələr kimi çıxış edir. Araşdırmalar göstərir ki, müntəzəm təlim alan əməkdaşların dəyişikliklərə adaptasiya səviyyəsi 40%-ə qədər yüksəlir (Baron & Armstrong, 2018).

Bununla yanaşı, motivasiya sistemlərinin təkmilləşdirilməsi də strateji dəyişikliklərin səmərəli idarə edilməsində mühüm rol oynayır. Effektiv motivasiya modeli əməkdaşları yenilikləri dəstəkləməyə, dəyişiklik prosesində aktiv iştirak etməyə və təşkilati hədəflərə yönəlməyə sövq edir. Bu xüsusilə performansa əsaslanan bonus sistemi, karyera inkişafı imkanları, çevik iş mühiti, psixoloji dəstək mexanizmləri və tanınma proqramları ilə tamamlandıqda daha güclü nəticələr verir.

Digər vacib məqam liderlik və komanda idarəçiliyi qabiliyyətlərinin gücləndirilməsidir. Transformasiya dövründə liderlərin yalnız idarəedici deyil, həm də motivasiyaedici, fasilitator və strateji düşüncəli olması tələb olunur. Liderlərin dəyişikliklərin məqsədini düzgün izah etməsi, komandalar arasında koordinasiyanı təmin etməsi və əməkdaşlarda inam yaratması strateji proseslərin uğur faktorudur. Komanda idarəçiliyi qabiliyyətinə malik işçilər isə qarşılıqlı əməkdaşlığı artırır, problemləri daha çevik həll edir və dəyişikliklər zamanı təşkilati harmoniyanın qorunmasına töhfə verirlər.

Beləliklə, insan kapitalının davamlı inkişafı təşkilatın dəyişikliklərə hazırlığını gücləndirməklə yanaşı, strateji məqsədlərin real və vaxtında icrasına şərait yaradır. Bu yanaşma uzunmüddətli dövrdə təşkilatın rəqabət üstünlüyünü möhkəmləndirir, bazar mövqeyini gücləndirir və innovasiya potensialını artırır. Nəticədə, insan kapitalına yatırımlar yalnız kadr inkişafı deyil, həm də təşkilatın strateji dayanıqlığının təmin edilməsində əsas determinant rolunu oynayır.

## Nəticə

Aparılan təhlillər göstərir ki, insan kapitalı strateji dəyişikliklərin idarə edilməsində təşkilatın ən mühüm və həlledici resursudur. Müasir dövrdə dəyişikliklər yalnız texnoloji yeniliklərdən ibarət deyil, onların uğurlu tətbiqi əməkdaşların bilik, bacarıq, adaptasiya və innovativ düşüncə səviyyəsindən birbaşa asılıdır. Yüksək inkişaf etmiş insan kapitalına malik təşkilatlar dəyişiklik proseslərini daha çevik həyata keçirir, riskləri minimuma endirir və transformasiya mərhələsində rəqabət üstünlüyü əldə edirlər.

**Tədqiqatın nəticələri göstərir ki:**

1. insan kapitalının inkişafı təşkilatın strateji hədəflərə çatma sürətini artırır;
2. rəqəmsal bacarıqlar və analitik düşüncə qabiliyyətləri dəyişikliklərin effektivliyini yüksəldir;
3. liderlik və komanda işinin gücləndirilməsi dəyişikliklərə müqaviməti azaldır və təşkilati uyğunlaşmanı sürətləndirir;
4. təlim, motivasiya və kadr inkişafı sistemlərinə yatırılan investisiya uzunmüddətli davamlı inkişaf və innovasiya potensialı yaradır.

Beləliklə, insan kapitalı strateji dəyişikliklərin idarə edilməsində yalnız dəstəkçi element deyil, transformasiya uğurunun əsas şərti və təşkilatın gələcək inkişafının aparıcı qüvvəsidir. Təşkilatların rəqabət mühitində möhkəmlənməsi və davamlı inkişaf strategiyalarını reallaşdıra bilməsi üçün insan kapitalının davamlı inkişafı prioritet istiqamət kimi qəbul edilməlidir.

## Ədəbiyyat


1. Akgemci, T. (2015). *Stratejik yönetim.* Gazi Kitab Evi.
2. Akdemir, A., & Kırılmaz, S. (2020). *Stratejik yönetim ve örgütsel değişim: Kuramsal bir bakış.* Beta Yayınları.
3. Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi. (2022). *Rəqəmsal transformasiya strategiyası 2022–2026.* RİNN.
4. Balcı, A. (2019). *Örgütsel değişme: Kuram və uygulama.* Pegem Akademi.
5. Baron, A., & Armstrong, M. (2018). *Human capital management: Achieving added value through people* (3rd ed.). Kogan Page.
6. Garg, S., & Singh, R. (2022). Managing digital transformation in contemporary contexts: Insights and implications for strategy and organizational change. *Journal of Business Strategy, 43*(4), 45–56.
7. Gould-Williams, J., & Bottomley, P. (2022). Employee engagement and strategic change: Mediating role of human capital. *Human Resource Management Journal, 32*(4), 765–782.
8. İsmayılov, B. V. (2018). *Strateji menecment: İqtisad yönümlü ali məktəb tələbələri üçün dərs vəsaiti.* Təhsil.
9. Kərimov, X. Z. (2006). *Strateji idarəetmə: Metodları və praktika.* Elm.
10. Lu, Y. (2023). Impact of digital technologies on organizational change strategies: A review. *Research Journal in Business and Economics, 11*, 1–15.
11. Madsen, S., & Bygstad, B. (2021). Organizational digital transformation readiness: An exploratory study. *Electronic Markets, 31*(3), 605–622.
12. McKinsey & Company. (2022). *The future of work and digital skills.* McKinsey Global Institute. https://www.mckinsey.com
13. Nakamura, H., & Tanaka, S. (2023). Human capital investment and innovation performance in Asian firms. *Asia Pacific Journal of Management, 40*(2), 489–512.
14. Rossmann, A. (2022). Leadership for successful digitalization: A literature review on digital leadership capabilities. *International Journal of Managing Projects in Business, 15*(2), 304–327.
15. Warner, K., & Wäger, M. (2019). Building dynamic capabilities for digital transformation: A strategic management perspective. *Long Range Planning, 52*(3), 255–272.


Daxil oldu: 10.09.2025
Qəbul edildi: 26.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/102-105

**Zümrüd Məmmədova**
Bakı Slavyan Universiteti
https://orchid.org/0009-0003-7398-424X
zmrdmmmdv2020@gmail.com

# Ali təhsil müəssisələrində yeni təlim texnologiyaların tətbiqi

**Xülasə**

Bu gün informasiya və kompüter texnologiyaları olmadan həyat təsəvvür etmək çətindir. Məqalədə müasir texnologiyaların müxtəlif istiqamətləri nəzərdən keçirilir ki, bunlar tələbələrin tədris prosesini daha asan, əlçatan, maraqlı və məhsuldar edir. Bugünkü əsas metodoloji yeniliklər interaktiv tədris metodlarının tətbiqi ilə bağlıdır. İnteraktiv öyrənmə ilk növbədə qarşılıqlı öyrənmədir ki, bu zaman müəllim və tələbə bir-biri ilə qarşılıqlı əlaqədə olurlar. İnteraktiv öyrənmə fəal öyrənmə formasına aiddir.

***Açar sözlər:*** *müasir texnologiyalar, tədris texnologiyaları, ali təhsil müəssisəsi, tədris prosesinin kompüterləşdirilməsi, interaktiv metodlar*

**Zumrud Mammadova**
Baku Slavic University
https://orchid.org/0009-0003-7398-424X
zmrdmmmdv2020@gmail.com

# Application of New Teaching Technologies in Higher Education Institutions

**Abstract**

Today, it is difficult to imagine life without information and computer technologies. The article examines various areas of modern technologies that make the teaching process for students easier, more accessible, more engaging, and more productive. The main methodological innovations of today are related to the application of interactive teaching methods. Interactive learning is, first of all, mutual learning, during which the teacher and the student interact with each other. Interactive learning belongs to the form of active learning.

***Keywords:*** *modern technologies, teaching technologies, higher education institution, computerization of the teaching process, interactive methods*

## Giriş

Müasir cəmiyyət daim inkişaf edir və yüksək səviyyəli təhsilə malik, iş tapşırıqlarını yaradıcılıq yanaşması ilə yerinə yetirə bilən mütəxəssislərə ehtiyac duyur. Belə mütəxəssislərin hazırlanmasında ali təhsil müəssisələrinin, eləcə də onlarda tətbiq olunan texnologiyaların rolu çox önəmlidir. Ali təhsil müəssisələrində tədris texnologiyaları mütləq müasir olmalı və hətta bəzən müasirlikdən bir addım irəlidə olmalıdır. Çünki konservativ üsullarla hazırlanmış mütəxəssis gələcəkdə işəgötürənlərin tələblərinə cavab verə bilməyəcək, çalışacağı müəssisələrin inkişafına töhfə verə bilməyəcək, iş prosesinə uyğunlaşmaqda çətinlik çəkəcək və karyera pillələrində irəliləməsi məhdudlaşacaq. Hətta belə bir mütəxəssis hazırlıq keçdiyi sahədə özünə tətbiq sahəsi tapa bilməyə bilər (Cəfərov, 2018).

Müasir dünyada təhsil səmərəli öyrənməni təmin edən innovativ metod və alətlərdən istifadəni nəzərdə tutur. Ənənəvi üsullar artıq yüksək keyfiyyətli nəticə vermir. Klassik məktəbin müasir dövrün unikal yenilikləri ilə birləşməsi şagirdlərə biliklərin tam spektrini təqdim etməyə və onların oxumağa olan həvəsini stimullaşdırmağa imkan verir.


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*ELMİ İŞ* **Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 102-105** **ISSN: 2663-4619**
*SCIENTIFIC WORK* **International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 102-105** **e-ISSN: 2708-986X**

**Tədqiqat**

Ənənəvi təlim metodunda (buna ənənəvi təlim də deyilir) müəllim əsas sima olub yalnız tələbələrə diktə edir, öyrədir. Buna ənənəvi təlim prosesi deyilir ki, uzun illər belə təlim prosesi mövcud olmuş və bu gün də yeniliyə can ataraq yaşamaqdadır. Ənənəvi təlim prosesində müəllim fəaldır, tələbələr isə passiv dinləyicidirlər. Müəllim deyir, tələbələr eşidir. Belə dərs prosesində qarşılıqlı əlaqə, əks əlaqə yoxdur. Tələbə bu prosesdə yalnız bir obyektdir. Müəllimin tələbələrlə əlaqəsi yalnız suallara verilən cavablar, yazı işləri vasitəsilə həyata keçirilir. Tələbələrə çatdırılan biliyin mənimsənilməsi baxımından belə metod səmərəsizdir. Lakin belə ənənəvi dərsin də müəyyən müsbət cəhətləri vardır. Belə ki, müəyyən vaxt çərçivəsində tələbələrə müəyyən bilik və məlumatlar verilir. Tələbələrin bilik dairəsi genişlənir, məlumatları artır. Bu prosesdə təlim tələbələri inkişaf etdirir. Amma buna inkişafetdirici təlim deyə bilmərik. Bu prosesdə yalnız biliklər, məlumatlar genişləndirilir, inkişaf etdirilir. Buna inkişafetdirici təlim yox, təlim inkişaf etdirir deyə bilərik. Tələbənin belə fəaliyyəti produktiv deyil, reproduktiv təlim adlanır (Chernilevskiy, 2002).

Ənənəvi dərs tipində mövzuların tədrisi zamanı sinifdə ümumi gərginlik hökm sürür, tədris prosesi şagird və ya tələbələrin deyil, daha çox müəllimin aktual hesab etdiyi məsələlərin həllinə yönəlir. Bu zaman şagirdlərin əksəriyyəti təlim prosesində passiv iştirak edir. Ona görə də dərslər eyni tipli olub, şagirdlər üçün darıxdırıcı keçir. Hər bir dərs öz predmeti səciyyəsində tədris olunur, bu zaman həm də fənlərarası əlaqəyə az diqqət yetirilir. Bu prosesə interaktiv deyil, interpassiv deyilir.

Eyni zamanda, ənənəvi təlimdə hazır informasiyanın çatdırılması ilə onun mənimsənilməsi üçün şərait yaradılması müəllimin başlıca funksiyasını təşkil edir.

**Ənənəvi təlim**




Müasir texnologiyalar həmçinin tədris prosesini daha maraqlı və əlçatan edir. Tələbələr müxtəlif İT texnologiyalarının tətbiq olunduğu, yaradıcılıq yanaşmasının tələb olunduğu dərslərdə iştirak etməyə daha böyük həvəs göstərirlər. Bundan əlavə, müasir "uzaqdan giriş" imkanları sayəsində minlərlə kilometr məsafədə yerləşən və ya təhsil sistemi zəif inkişaf etmiş uzaq bölgələrdə yaşayan tələbələr də təhsil ala bilirlər.

Buna görə təlim texnologiyalarının təkmilləşdirilməsi demək olar ki, bütün inkişaf etmiş ölkələrdə peşə təhsilinin inkişafının bir çox istiqamətləri arasında ilk yerlərdən biridir. Son onilliklər ərzində ölkəmizdə bu problemə çox diqqət yetirilir. Ali təhsilin müasir islahatlarında universitet praktikasında yeni tədris texnologiyalarının inkişafı və tətbiqi üçün məsul olan istiqamətin rolu əhəmiyyətli dərəcədə artır.

*Bəs "müasir tədris texnologiyaları" anlayışı nədən ibarətdir?*

Bunun üçün əvvəlcə "texnologiya" terminini müəyyən etmək lazımdır. Texnologiya – müəyyən bir fəaliyyət sahəsində istifadə olunan və konkret nəticəyə gətirib çıxaran metodlar, proseslər və materialların məcmusudur.

"Texnologiya" sözü yunan mənşəlidir və *technē* (sənət, peşə, elm) və *logos* (anlayış, təlim) sözlərindən yaranmışdır. Xarici sözlər lüğətində belə izah olunur: "Texnologiya – istehsal proseslərinin (metal, kimya və s.) həyata keçirilmə üsulları və vasitələri haqqında biliklər toplusudur."

Texnologiya vasitəsilə intellektual informasiya praktik hallər dilinə çevrilir. Texnologiya həm fəaliyyət üsulları, həm də fərdin bu fəaliyyətə necə qatıldığını ifadə edir.

Belə hesab olunur ki, hər bir fəaliyyət ya texnologiya, ya da sənətdir. Sənət intuisiya, texnologiya isə elm üzərində qurulur. Hər şey sənətdən başlayır, texnologiya ilə tamamlanır və sonra bütün proses yenidən başlayır.

Öyrənmə texnologiyası prosedur və əməliyyatların ardıcıllığıdır; bu elementlər birləşərək tam bir sistem təşkil edir və onun pedaqoji praktikada tətbiqi tədris və tərbiyə üzrə təmin edilmiş məqsədlərə nail olmağa gətirib çıxarır (Məmmədova, 2020).

İnteraktiv təlimin mahiyyəti ondan ibarətdir ki, tədris prosesi elə təşkil olunur ki, demək olar ki, bütün tələbələr öyrənmə prosesinə cəlb edilir. Onlar öz biliklərini və düşüncələrini anlamaq və üzərində düşünmək imkanı əldə edirlər.

Tələbələrin öyrənmə prosesində birlikdə fəaliyyəti, dərs materialını mənimsəməsi isə göstərir ki, hər biri öz fərdi töhfəsini verir, biliklər, ideyalar və fəaliyyət üsulları ilə mübadilə aparılır.

Müasir təhsil texnologiyalarının meydana çıxmasından bəri tədris prosesi sürətlə inkişaf etməyə başlamışdır. Beləliklə, biz adi təbaşirli lövhələrdən interaktiv lövhələrə keçdik və bu da tədris imkanlarını xeyli genişləndirdi. Cəlbedici platforma məktəblilərdən və tələbələrdən tutmuş valideynlərə və müəllimlərə qədər hər kəs tərəfindən yüksək qiymətləndirildi. Bu, interaktiv vasitələrin tədris prosesinə tətbiqinin başlanğıcı oldu. Hazırda ənənəvi üsullar müasir nailiyyətlərlə elə orqanik və məhsuldar şəkildə birləşir ki, bu da tamamilə yeni bir təhsil səviyyəsi yaradır (Əliyeva & Məmmədova, 2014, s. 17).

İnteraktiv təlim dedikdə artıq yeni mərhələyə keçmiş və müstəqil metodikaya çevrilmiş bir tədris forması nəzərdə tutulur. Bu proses müəllimlə tələbələr, müəllimlə şagirdlər və ya bütöv qruplar arasında səmərəli qarşılıqlı əlaqəyə əsaslanır. Bu, qarşılıqlı dialoq şəklində aparılan tədrisdir və daha yaxşı qarşılıqlı anlaşmanı təmin edir. İnteraktiv metodun tətbiqi sayəsində təhsilalanları sadəcə dərsə cəlb etmək deyil, həm də onlara müəyyən nəticələrə nail olmaq, liderlik keyfiyyətlərini nümayiş etdirmək və kollektivdə birgə işləmək üçün motivasiya vermək mümkündür.

Hazırda təhsil sahəsində “interaktiv metodlar”, “fəal təlim üsulları” və “təlim texnologiyaları” kimi anlayışlara olduqca tez-tez rast gəlirik. Son illər xarici beynəlxalq qurumlar və yerli təşkilatlar müasir təlim metod və texnologiyalarının müəllimlər arasında geniş yayılması üçün on ildən artıq müddətdə seminarlar, mühazirələr və müxtəlif layihələr həyata keçirirlər. Yeni yanaşmalar, vasitələr və metodlar yalnız yaradıcı düşüncəni və müstəqilliyi təşviq etmir, eyni zamanda insanın şəxsiyyətinin formalaşmasına, onun cəmiyyətə, təbiətə və insanlara münasibətinin zənginləşməsinə, mənəvi inkişafına da xidmət etməlidir (Polat, 2010).

İnteraktiv yanaşmalar müəllim və tələbə arasında əməkdaşlıq mühitinin formalaşmasına şərait yaradır, onları qarşılıqlı və məqsədyönlü fəaliyyətə yönəldir, dərsdə psixoloji atmosferi sağlamlaşdırır və müsbət emosional mühit yaradır. Azərbaycanda interaktiv metodlardan istifadə edən az sayda müəllimin fəaliyyətinə nəzər yetirdikdə xarici təcrübənin effektivliyi bir daha təsdiqlənir. Lakin bu metodların tətbiqində tam şəkildə təqlidə və mexaniki köçürməyə yol verilməməlidir. Hər bir fəal və yaradıcı Azərbaycan müəllimi prosesə yanaşarkən tələbələrin sosial şəraitini, ictimai mühiti, milli mentaliteti, adət-ənənələrimizi, fənnin mahiyyətini və praktik əhəmiyyətini, fənlərarası əlaqələri, biliklərin inteqrasiyası imkanlarını, həmçinin tələbələrin yaş xüsusiyyətlərini və fərdi psixoloji-pedaqoji cəhətlərini nəzərə almalı, təlim prosesini yaradıcı formada təşkil etməlidir (Nəzərov, 2012, s. 37).

**Ali təhsil müəssisələrində müasir tədris texnologiyaları aşağıdakı əsas istiqamətləri əhatə edir:**

*1. Tədris prosesinin kompüterləşdirilməsi.*

Şəxsi kompüter böyük həcmdə məlumatın sürətli və dəqiq saxlanması və emalı üçün ciddi vasitədir. Onun tədris prosesində tətbiqi öyrənməni xeyli sürətləndirir, yeni imkanlar açır və tələbənin dünyagörüşünü genişləndirir. Kompüterləşdirmə həmçinin tələbələrin müstəqil işini asanlaşdırır, onu daha sürətli və maraqlı edir (Quliyev, 2017).

*2. İnternet.*

İnternet — məlumatların saxlanması və mübadiləsi üçün dünya səviyyəsində kompüter şəbəkələri sistemidir.

*3. Multimedia materialları.*
*4. Distant təhsil (Məmmədov, 2019).*
*5. Media kitabxanası.*

Əsasən ali məktəb kitabxanası olsa da, mediakət yalnız kitabları deyil, həm də müxtəlif daşıyıcılarda video və audio materialları əhatə edir və onlara uzaqdan giriş imkanı təqdim edir (Zhurnal Innovatsionnyy vestnik region (InVestRegion), 2014).

Texnologiyanın köməyi ilə həll olunan başlıca problem təlim prosesinin idarə olunmasıdır (Zaytseva, 2006).

Müasir təlim texnologiyalarında isə təlimin məqsədi şagirdin idrak, emosional və davranış səviyyəsində inkişafını təmin etmək kimi müəyyənləşdirilir (Nəzərov, 2012, s. 12).

Beləliklə, müasir tədris texnologiyaları "sərhədsiz təhsil" yaratmaq imkanı verir və bu gün onlar təhsil prosesinin real fəaliyyət göstərən hissəsinə çevrilmişdir.

## Nəticə

Hazırda ölkə təhsilinin keyfiyyətinin artırılması problemi tədris texnologiyalarının təkmilləşdirilməsinə ehtiyac yaradır. Təcrübə göstərir ki, fəal öyrənmə metodlarının tətbiqi yalnız təlim alanların peşəkar hazırlıq səviyyəsini artırmaqla qalmır, eyni zamanda təhsil prosesini daha maraqlı və məhsuldar edir.

## Ədəbiyyat

1. Cəfərov, A. (2018). *Təhsil prosesində interaktiv üsulların effektivliyi*. Elm və Təhsil.
2. Chernilevskiy, D. V. (2002). *Didakticheskiye tekhnologii v vysshey shkole: uchebnoye posobiye dlya vuzov*. YUNITI-DANA.
3. Əliyev, S. (2021). *Uzaqdan təhsil: konsepsiya və tətbiq imkanları*. Modern Təhsil.
4. Əliyeva, F., & Məmmədova, Ü. (2014). *Müasir təlim texnologiyaları*.
5. Əliyeva, N. (2018). *Müasir təhsil texnologiyaları və onların tətbiqi*. Təhsil Nəşriyyatı.
6. Zhurnal Innovatsionnyy vestnik region (InVestRegion). (2014). № 3. https://istina.msu.ru/journals/95307/
7. Zaytseva, L. A. (2006). Ispol'zovaniye informatsionnykh komp'yuternykh tekhnologiy v uchebnom protsesse i problemy yego metodicheskogo obespecheniya. *Internet-zhurnal «Eydos»*. http://www.eidos.ru/journal/2006/0901-5.htm
8. Məmmədov, R. (2019). *Ali təhsildə interaktiv təlim metodları*. Elm və Təhsil.
9. Məmmədova, L. (2020). Tələbələrdə yaradıcılıq bacarıqlarının inkişafında müasir texnologiyaların rolu. *Pedoqoji Elmlər Jurnalı*, (2), 45–53.
10. Nəzərov, A. (2012). *Müasir təlim texnologiyaları* (Dərs vəsaiti). ADPU Nəşriyyatı.
11. Polat, Ye. S. (2010). *Sovremennyye pedagogicheskiye i informatsionnyye tekhnologii v sisteme obrazovaniya: uchebnoye posobiye dlya studentov vuzov.*
12. Quliyev, F. (2017). *Tədris prosesində multimedia vasitələrinin rolu*. Təhsil və İnnovasiya.

Daxil oldu: 01.08.2025
Qəbul edildi: 21.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/106-113

**Rauf Salamov**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0008-2167-8538
rauf.salamov13@inbox.ru

# Emal sənayesində istehsalın təşkili və sahələrarası əlaqələrin tənzimlənməsi (tekstil və geyim sənayesi üzrə analitik yanaşma)

**Xülasə**

Məqalədə emal sənayesində istehsalın təşkili və sahələrarası əlaqələrin əhəmiyyəti, xüsusilə tekstil və geyim sənayesi nümunəsində geniş şəkildə təhlil edilir. Emal sənayesinin iqtisadiyyatdakı rolu, onun digər sahələrlə (kənd təsərrüfatı, kimya, maşınqayırma, logistika, maliyyə və innovasiya sektorları) qarşılıqlı asılılığı vurğulanır. Tekstil sənayesinin əmək tutumlu, ixrac yönümlü, yüksək əlavə dəyər yaradan sahə kimi strateji əhəmiyyəti qeyd olunur. Qlobal tekstil bazarının inkişaf tendensiyaları, onlayn ticarətin artması, yeni texnologiyaların (3D dizayn, smart geyimlər, avtomatlaşdırma) tətbiqi və regionlar üzrə bazar payları məqalədə göstərilir. Azərbaycanda bu sektorun inkişafı pambıqçılığın bərpası, sənaye parklarının yaradılması, "Azərxalça" ASC və Sumqayıt, Mingəçevir tekstil komplekslərinin fəaliyyəti kimi dövlət təşəbbüsləri ilə əlaqələndirilir.

Nəticə etibarilə, Sənaye 4.0 texnologiyalarının tətbiqi, sahələrarası koordinasiya, innovativ həllər və dövlət dəstəyi tekstil sənayesinin rəqabət qabiliyyətinin yüksəldilməsində əsas amillər kimi qiymətləndirilir.

***Açar sözlər:*** *emal sənayesi, tekstil sənayesi, geyim sənayesi, istehsalın təşkili, sahələrarası əlaqə, Sənaye 4.0, innovasiya, ixrac yönümlü istehsal, dövlət dəstəyi, texnoloji inkişaf*

**Rauf Salamov**
Baku Business University
Master's student
https://orcid.org/0009-0008-2167-8538
rauf.salamov13@inbox.ru

# Organization of Production and Regulation of Intersectoral Relations in the Processing Industry (An Analytical Approach on the Textile and Apparel Sector)

**Abstract**

The article provides a comprehensive analysis of the organization of production and the significance of intersectoral linkages in the processing industry, with a particular focus on the textile and apparel sectors. It emphasizes the role of the processing industry in the economy and its interdependence with other sectors, including agriculture, chemical production, machinery, logistics, finance, and innovation. The textile industry is highlighted as a labor-intensive, export-oriented sector that generates high added value and holds strategic importance. The article further examines global trends in the textile market, the growth of online commerce, the adoption of emerging technologies (such as 3D design, smart clothing, and automation), and regional market shares. In Azerbaijan, the development of this sector is associated with the revival of cotton production, the establishment of industrial parks, and state-led initiatives, including the activities of "Azərxalça" JSC and the Sumgait and Mingachevir textile complexes.

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

In conclusion, the implementation of Industry 4.0 technologies, intersectoral coordination, innovative solutions, and government support are identified as key factors in enhancing the competitiveness of the textile industry.

***Keywords:*** *processing industry, textile industry, garment industry, production organization, intersectoral relations, Industry 4.0, innovation, export-oriented production, government support, technological development*

## Giriş

Müasir dövrdə iqtisadiyyatda sənaye istehsalının səmərəliliyinin artırılması, sahələrarası əlaqələrin gücləndirilməsi və istehsalın təşkilinin təkmilləşdirilməsi prioritet istiqamətlərdən biridir. Müasir dövrdə rəqabət qabiliyyətli emal sənayesinin formalaşdırılması yalnız müəssisədaxili idarəetmənin inkişafı ilə deyil, həm də sənayenin müxtəlif sahələri arasında effektiv koordinasiya və inteqrasiya ilə mümkündür. Xüsusilə tekstil və geyim sənayesi kimi dinamik və yüksək əlavə dəyər yaradan sahələrdə bu əlaqələrin düzgün tənzimlənməsi iqtisadi inkişafın əsas şərtlərindən sayılır. Azərbaycanın sənayeləşmə siyasətinin gücləndiyi və idxaldan asılılığın azaldılması kimi hədəflərin aktuallaşdığı bir dövrdə mövzunun elmi-tədqiqat baxımından əhəmiyyəti daha da artır.

Məqalənin əsas məqsədi emal sənayesində istehsalın təşkili prosesini və sahələrarası əlaqələrin tənzimlənməsi mexanizmlərini tekstil və geyim sənayesi nümunəsində təhlil etmək və optimallaşdırma istiqamətləri üzrə elmi əsaslandırılmış təkliflər irəli sürməkdir.

**Tədqiqat**

Emal sənayesi sənaye sisteminin strateji sahələrindən biri olub, xammalın emal olunaraq hazır və ya yarımfabrikat məhsullara çevrilməsi ilə xarakterizə olunur. Bu istehsal modelində texnoloji ardıcıllıq, stabil reseptlər və standartlaşdırılmış proseslər əsas prinsip kimi çıxış edir. Tekstil, metallurgiya, kağız, kimya və digər sahələrdə tətbiq olunan emal texnologiyaları nəticəsində böyük həcmdə və fasiləsiz istehsal təmin edilir. Emal olunmuş məhsulların əhəmiyyətli hissəsi digər istehsal sahələrinə xammal və komponent kimi daxil olaraq geniş sənaye zəncirinin formalaşmasına şərait yaradır (Abbasov & Əliyev, 2017).

Müasir iqtisadiyyatın funksional dayanıqlılığını təmin edən aparıcı sahələrdən biri kimi emal sənayesi qida məhsullarından tutmuş əczaçılıq preparatlarına qədər bir çox həyati əhəmiyyətli məhsullar istehsal etməklə sosial rifahın təmin olunmasında böyük rola malikdir. Bununla yanaşı, emal sənayesi avtomobil, elektronika, istehlak malları və səhiyyə kimi sahələrin inkişafında mühüm təsir gücünə malikdir. Səmərəli istehsal texnologiyaları, innovativ həllər və keyfiyyət sabitliyi bu sahədə fəaliyyət göstərən müəssisələrin rəqabət qabiliyyətini yüksəldir.

Bu gün emal sənayesinin geniş təsir dairəsi müasir texnoloji yeniliklərlə daha da güclənir. Bu yeniliklər özünü qlobal təchizat zəncirlərinin dəstəklənməsi, iqtisadi artıma töhfə, keyfiyyət göstəricilərinin sabitləşdirilməsi, kütləvi istehsal imkanlarının genişləndirilməsi və dayanıqlı inkişaf hədəflərinə uyğunluq kimi istiqamətlərdə göstərir. Belə ki, emal sənayesi bir tərəfdən digər sahələrin istifadə etdiyi komponentləri istehsal edib, digər tərəfdən isə öz məhsullarını formalaşdırmaqla qlobal təchizat zəncirlərini dəstəkləyir. Bu qarşılıqlı əlaqə iqtisadiyyatın tərkibindəki sahələrarası inteqrasiyasını gücləndirir. Sektor istehsal, mühəndislik və s. sahələrdə geniş məşğulluq potensialı yaradaraq qlobal ticarətin genişlənməsini dəstəkləməklə iqtisadi artıma töhfə verir. Standartlaşdırılmış proseslər keyfiyyətə nəzarətin güclənməsinə, istehsal nəticələrinin proqnozlaşdırılmasına və məhsulun sertifikasiya tələblərinə uyğunluğunun təmin edilməsinə şərait yaratmaqla müəyyən keyfiyyət göstəricilərini sabitləşdirir. Emal sənayesində tətbiq olunan avtomatlaşdırma, robotlaşdırma və süni intellekt sistemləri məhsulların yüksək miqyasda və minimum xərc ilə istehsalına imkan verməklə kütləvi istehsal imkanlarını genişləndirir. Nəhayət, enerji səmərəliliyi, tullantıların idarə edilməsi və yaşıl texnologiyalara keçid sahənin ekoloji tələblərə inteqrasiyasını təmin etməklə dayanıqlı inkişaf hədəflərinə nail olmağa kömək edir (Christopher, 2016).

Lakin emal sənayesinin iqtisadiyyatın inkişafında böyük rolu onun qarşısında bir çox tələblər qoyur ki, bu da müasir sənaye mühitində emal müəssisələri üçün bir sıra strateji çətinliklər yaradır.

**Bu çətinlikləri aşağıdakı kimi sadalaya bilərik:**

✓ Sektor ciddi təhlükəsizlik, ətraf mühit və keyfiyyət standartlarının tələblərinə cavab verməlidir. Bu da sənaye üçün yüksək məsuliyyət və sənədləşmə yükü deməkdir.

✓ Geosiyasi proseslər, təbii fəlakətlər, bazar dəyişkənliyi və texnoloji kəsintilər xammal təminatında fasilələr yarada bilər.

✓ Enerji istehlakının çox olması maliyyə xərclərini artırır və ekoloji riskləri gücləndirir.

✓ İstehsalın miqyasını artırmaq və resurs səmərəliliyini yüksəltmək üçün proseslərin modernləşdirilməsi zəruridir.

✓ İxtisaslı mütəxəssislərin azlığı rəqəmsal həllərə olan tələbatı artırır və yeni texnologiyaların tətbiqini sürətləndirir.

Emal sənayesi müxtəlif sahələri birləşdirən kompleks sənaye sistemidir. Emal sənayesinin əsas istiqamətlərini aşağıdakı qrafik üzrə bölə bilərik:

**Sxem 1.**




**Mənbə:** Müəllif tərəfindən tərtib edilib.

Bu məqalədə istehsalın təşkilini və sahələrarası əlaqələrin təşkilini tekstil və geyim sənayesi timsalında araşdırmağa çalışacağıq. Tekstil və geyim sənayesi emal sənayesinin ənənəvi, lakin eyni zamanda inkişaf potensialı yüksək olan alt sahələrindən biridir. Bu sənaye geniş əmək tutumlu olması ilə məşğulluğa əhəmiyyətli təsir göstərir, ixrac yönümlü istehsal imkanları ilə xarici ticarət balansına müsbət təsir edir və xammaldan hazır məhsula qədər uzanan kompleks istehsal zəncirinə malikdir. Bu sahənin bazarı dünyanın ən qədim sənayelərindən biridir. Bu sənaye əsasən geyim, parçalar və iplik kimi geniş çeşiddə materialların istehsalı, dizaynı və paylanması ilə məşğul olur. Tekstil sənayesi mədəni təsirlər və texnoloji inkişaflar nəticəsində tədricən dəyişikliklərə uğramışdır. Qloballaşma isə tekstil sənayesinin inkişafını daha da sürətləndirmişdir, çünki bu, tekstil əsaslı məhsulların bütün dünya üzrə alınıb-satılmasına imkan yaradır. Bu bazar həm böyük, həm də kiçik istehsalçıların mövcudluğu səbəbindən yüksək dərəcədə parçalanmışdır və onlar geyim və ev dekorundan tutmuş tibbi parçalar, sənaye tətbiqləri və digər məhsulların istehsalına qədər geniş fəaliyyət sahəsini əhatə edirlər (Quliyev, Qafarov, & Allahverdiyev, 2020).

Tekstil bazarının artımına təsir edən bir sıra mühüm amillər mövcuddur. Dünyada geyim, ev tekstili və cərrahi prosedurlarda istifadənin genişlənməsi ipəyə olan tələbi artıraraq bazarın inkişafını sürətləndirir. Eyni zamanda sviter, corab, papaq və yorğan kimi yun məhsullarına artan tələbat da sənayenin ümumi böyüməsinə müsbət təsir göstərir. Dövlətlərin tekstil sektorunun inkişafına yönəlmiş təşəbbüsləri proqnoz dövründə bazarın daha da genişlənməsinə şərait yaradır. Parça

istehsalı sahəsində aparılan tədqiqat və inkişaf fəaliyyətləri isə yeni texnologiyaların tətbiqini sürətləndirərək sənayenin rəqabət qabiliyyətini artırır. Tikinti sektorundan qoruyucu geyimə artan tələbat da tekstil sənayesinə əlavə stimul verir. Bununla yanaşı, geyimlərin onlayn alqı-satqısını təşviq edən sosial media platformalarının populyarlaşması bazarın böyüməsini daha da gücləndirir. Sənaye sahələrində sintetik və sellüloz liflərdən istifadənin genişlənməsi də tekstil bazarının ümumi inkişafını sürətləndirən digər mühüm amillərdəndir. Proqnozlara görə qlobal tekstil bazarının həcminin 2025-ci ildən 2034-cü ilə qədər 7,35% artım tempi ilə artaraq 2034-cü ilə qədər təxminən 4,016,50 milyard ABŞ dollarına çatacağı gözlənilir. Bu artım onlayn alış-verişin sürətli yüksəlişi, inkişaf edən dəb tendensiyaları, geyim, ev tekstili və texniki parçalara tələbatın artması ilə şərtlənir.

**Diaqram 1. Tekstil Bazarının Payı, Regionlara görə, 2024 (%).**




**Mənbə:** Precedence Research, 2025.

Azərbaycan üçün tekstil və geyim sənayesi pambıqçılıq kimi strateji kənd təsərrüfatı sahəsi ilə birbaşa bağlıdır və bu sahələrin sinxron inkişafı ümumi sənaye sisteminin dayanıqlığını təmin edir. Bu baxımdan tekstil və geyim sənayesinin strukturunun effektivliyinin artırılması və digər sahələrlə inteqrasiyasının gücləndirilməsi xüsusi aktuallıq daşıyır (Fletcher & Tham, 2019).

İstehsal prosesinin fasiləsizliyi və səmərəliliyi üçün müasir sənaye sistemində sahələrarası əlaqələrin koordinasiyası və tənzimlənməsi əsas şərtlərdən biridir. Tekstil və geyim sənayesi öz fəaliyyətində kənd təsərrüfatı, kimya sənayesi, maşınqayırma, logistika, xidmət sektoru və digər sahələrlə sıx qarşılıqlı münasibətdə olduğundan, bu əlaqələrin optimal şəkildə təşkili istehsal gücünün tam reallaşdırılmasına imkan verir. Zəif koordinasiya xammal çatışmazlığına, istehsal gecikmələrinə və bazar itkilərinə səbəb ola bilər.

Emal sənayesində istehsalın təşkili xammalın, materialların və yarımfabrikatların müəyyən texnoloji ardıcıllıqla hazır məhsula çevrilməsi prosesinin elmi əsaslarla planlaşdırılması, əlaqələndirilməsi və idarə edilməsidir. Bu anlayış istehsalın məqsədyönlü şəkildə təşkili, texnologiyanın seçilməsi, əmək resurslarının bölgüsü, istehsal güclərinin yerləşdirilməsi, logistikanın qurulması və keyfiyyətə nəzarət kimi çoxsaylı elementləri özündə birləşdirir. İstehsalın təşkili müəyyən baza prinsipləri əsasında həyata keçirilir. Belə ki, istehsal proseslərinin təşkili elmi yanaşmalar, iqtisadi və texnoloji modelləşdirmə, statistik təhlillər və idarəetmə nəzəriyyəsinin əsasları üzərində qurulur. İstehsalın bütün mərhələləri (xammal tədarükü, texnoloji emal, nəqliyyat, anbarlaşdırma və satış) bir-biri ilə əlaqəli şəkildə kompleks olaraq nəzərdən keçirilməlidir. Səmərəliliyi təmin etmək məqsədi ilə minimal resursla maksimal nəticəyə nail olmaq, maya dəyərini azaltmaq və məhsuldarlığı yüksəltmək də vacibdir. Eləcə də bazarda baş verən dəyişikliklərə sürətli uyğunlaşma, texnoloji yenilik və yeni məhsulların istehsalına keçid imkanları istehsal sisteminin çevikliyini təmin edir. Həmçinin istehsal mərhələlərinin texnoloji cəhətdən düzgün ardıcıllıqla qurulması məhsulun keyfiyyətini təmin edir və itkiləri minimuma endirir. İxtisaslaşmış istehsal sahələri məhsul vahidinin dəyərini aşağı salır, kooperasiya isə müxtəlif müəssisələr arasında qarşılıqlı faydalı əməkdaşlığı gücləndirir (Koszewska, 2018).

Emal sənayesində istehsalın təşkili sistemi mürəkkəb və çoxsəviyyəlidir. Onun strukturu idarəetmə sferalarını, texniki–texnoloji elementləri və istehsal münasibətlərini birləşdirir. Bazar iqtisadiyyatı şəraitində emal sənayesində istehsalın təşkili təklif və tələbat qanunlarının təsiri ilə

formalaşır. Qiymət mexanizmi istehsal həcminin seçilməsinə, məhsul çeşidinin müəyyən edilməsinə və resurs bölgüsünə birbaşa təsir edir. Rəqabət şəraiti müəssisələri innovasiyalara, xərcləri azaltmağa, keyfiyyət standartlarını yüksəltməyə və daha çevik istehsal modelləri tətbiq etməyə məcbur edir. Beləliklə, bazar mexanizmləri dövlət tənzimlənməsini tamamlayaraq sənaye müəssisələrinin fəaliyyətinin dinamik və səmərəli olmasına xidmət edir. Emal sənayesində istehsalın tənzimlənməsi kompleks idarəetmə sistemini əhatə edir və iqtisadi qanunauyğunluqlar, dövlət siyasəti, bazar mexanizmləri, institusional çərçivələr və müəssisədaxili idarəetmə metodları ilə sıx bağlıdır. Tənzimləmə mexanizmlərinin başlıca məqsədi istehsal proseslərinin səmərəli koordinasiyasını təmin etmək, məhsul keyfiyyətini yüksəltmək, resurslardan optimal istifadə etmək və sənaye müəssisələrinin uzunmüddətli dayanıqlığını qorumaqdır.

Sənaye sahəsində dövlət tənzimlənməsi iqtisadiyyatın struktur inkişafının istiqamətləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlətin tətbiq etdiyi vergi güzəştləri, subsidiyalar, investisiya dəstəyi, güzəştli kreditlər, sənaye parkları və texnoparkların yaradılması kimi vasitələr emal sənayesinin modernləşməsinə və rəqabət qabiliyyətinin artırılmasına şərait yaradır. Dövlətin bu sahədəki fəaliyyəti sənaye müəssisələrinin innovasiyaya marağını gücləndirir və istehsal üçün əlverişli mühit formalaşdırır.

Azərbaycanın sənaye inkişafı üzrə həyata keçirdiyi tədbirlər bu mexanizmlərin praktiki tətbiqinə nümunədir. 2014-cü ilin ölkədə "Sənaye ili" elan edilməsi sənayeləşmənin yeni mərhələsinin başlanğıcı olmuş və mövcud potensialdan daha effektiv istifadə olunmasına təkan vermişdir. Bu prosesin davamı olaraq *"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası*nda müəyyən edilmiş hədəflər nəzərə alınmaqla *"Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı"* hazırlanmışdır. Proqramın əsas məqsədi sənaye sektorunun rəqabətqabiliyyətliliyini artırmaq, qeyri-neft sənayesini gücləndirmək, regionlarda yeni istehsal sahələrinin yaradılmasını və sənayenin texnoloji yenilənməsini təmin etmək olmuşdur (*Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı*, 2019). Emal sənaye müəssisələri iqtisadiyyatın digər sahələri ilə sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Sahələrarası əlaqələr sənayenin dayanıqlı inkişafı, resurs təminatı və məhsul dövriyyəsinin səmərəliliyi üçün mühüm əhəmiyyət daşıyır. Sahələrarası əlaqələrin mahiyyəti istehsal prosesinin bütün mərhələlərinin digər iqtisadi sahələrlə qarşılıqlı asılılığından ibarətdir.

Sahələrarası əlaqələri tekstil və geyim sənayesi üçün təsnifləşdirə bilərik. Məsələn, tekstil sənayesində texnoloji əlaqələr xammalın və yarımfabrikatların digər sənaye sahələrindən tədarükü və ya onlara ötürülməsi ilə formalaşır. Pambıq, yun və ipək kimi xammallar kənd təsərrüfatı sektorundan alınır. Boyama və apretləmə prosesləri üçün lazım olan rəngləyici maddələr, kimyəvi reagentlər kimya sənayesi tərəfindən təmin olunur. Parça toxunması üçün istifadə edilən mexaniki dəzgahlar və avadanlıqlar maşınqayırma sənayesi tərəfindən istehsal edilir. Tekstil tullantılarından yenidən istifadə etmək üçün materiallar emal və təkrar istehsal müəssisələrinə ötürülür. Bu əlaqələr istehsalın texnoloji ardıcıllığını təmin edir və tekstil müəssisələrinin fəaliyyətini digər sahələrə sıx şəkildə bağlayır (Hüseynov, 2023). İstehsal–kooperasiya əlaqələri – tekstil sənayesində istehsal kooperasiyası müxtəlif fabrik və sexlərin birgə istehsal prosesində iştirak etməsinə əsaslanır. Məsələn, bir fabrik iplik istehsal edir, digər fabrik bu ipliyi parça toxumaq üçün istifadə edir, daha sonra başqa müəssisə həmin parçadan geyim tikir. Geyim istehsalçıları düymə, iplər, elastik lentlər və digər aksesuarları ixtisaslaşmış istehsalçılardan alır. Böyük brendlər tikiş prosesini müxtəlif regionlarda yerləşən kiçik müəssisələrə paylayır. Bəzi fabriklər boyama və apretləmə işlərini ayrıca ixtisaslaşmış müəssisələrə ötürür. Bu kooperasiya istehsalın sürətini artırır və hər müəssisənin ixtisaslaşmasını gücləndirir.

Logistik və nəqliyyat əlaqələri – tekstil sənayesində məhsulların tədarükü, daşınması və paylanması istehsalın fasiləsizliyi üçün həyati əhəmiyyət daşıyır. Xammalın (pambıq, kimyəvi boyalar, iplik) fabrikə daşınması üçün logistika şirkətləri ilə əməkdaşlıq edilir. Hazır parça və ya geyimlər xarici bazarlara ixrac olunarkən beynəlxalq daşıma şirkətləri ilə müqavilələr bağlanır. Onlayn satışların artması geyim sektorunda anbar–logistika şəbəkəsinin genişlənməsinə və paylama mərkəzlərinin yaradılmasına səbəb olur. Geyim mağazalarına mütəmadi tədarükü təmin etmək üçün

fabrik → anbar → distribyutor → mağaza logistik zənciri formalaşır. Bu əlaqə istehsal dövrünün uzunluğunu azaldır və məhsulun bazara çıxışını sürətləndirir (Kagermann, Wahlster, & Helbig, 2013).

İnnovativ əlaqələr – tekstil və geyim sənayesi innovasiya baxımından çox sürətlə dəyişən sahələrdəndir. Bu səbəbdən elm və sənaye əməkdaşlığı burada xüsusi rol oynayır. Universitetlər və tədqiqat mərkəzləri ilə birlikdə ekoloji təmiz, toksiksiz boyalar, suya davamlı materiallar və antibakterial parça texnologiyaları hazırlanır. Smart geyimlər (temperatur sensorlu, ürək döyüntüsünü ölçən və s.) üçün elektronika mühəndisliyi ilə əməkdaşlıq edilir. 3D dizayn, avtomatlaşdırılmış kəsim sistemləri, robotlaşdırılmış tikiş xəttləri texnoloji innovasiyaların nəticəsidir. Tekstil tullantılarının təkrar emalı üçün yeni kimyəvi və mexaniki üsullar innovativ müəssisələrlə birlikdə hazırlanır. Bu əlaqələr məhsulun keyfiyyətini artırır və brendlərə rəqabət üstünlüyü qazandırır.

Maliyyə–iqtisadi əlaqələr – tekstil sənayesində maliyyə axınlarının idarə edilməsi və investisiyaların cəlbi mühüm rol oynayır. Fabrik yeni tikiş və toxuculuq avadanlıqları almaq üçün banklardan investisiya krediti götürür. İnnovasiya və modernizasiya layihələri üçün investisiya fondları və dövlət proqramlarından dəstək alır. İxrac əməliyyatları üçün banklar tərəfindən faktoring və akreditiv xidmətlərindən istifadə olunur. Böyük geyim brendləri istehsalçılarla uzunmüddətli müqavilələr bağlayaraq onlara əvvəlcədən maliyyə ödənişləri təmin edir. Bu proseslər maliyyə sabitliyini və istehsalın davamlılığını təmin edir. Sadalanan sahələrarası əlaqələrin hər biri tekstil və geyim sənayesinin effektiv fəaliyyəti üçün vacibdir. Xammal tədarükündən tutmuş innovasiyalara, logistikadan maliyyələşməyə qədər bütün əlaqələr vahid sistem kimi çalışdıqda tekstil müəssisəsi yüksək keyfiyyətli və rəqabətqabiliyyətli məhsul istehsal edir. Sənaye istehsalının təhlükəsizliyi, ekoloji davamlılığı və sosial məsuliyyəti ictimai və institusional tənzimləmə mexanizmləri vasitəsilə təmin edilir. Standartlaşdırma və sertifikatlaşdırma qaydaları məhsulun keyfiyyətinin qorunmasına, ekoloji normalar ətraf mühitə mənfi təsirlərin azaldılmasına, əmək qanunvericiliyi isə işçilərin əməyinin mühafizəsinə və sağlamlıq təhlükəsizliyinə yönəlmişdir. Bu mexanizmlər sənaye müəssisələrinin fəaliyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılmasına və istehsalın davamlı inkişafına şərait yaradır.

Müəssisədaxili tənzimləmə istehsal proseslərinin birbaşa idarə olunmasını təmin edir və planlaşdırma, monitorinq, keyfiyyət menecmenti, resurs idarəetməsi və strateji idarəetmə kimi alətləri özündə birləşdirir. Müasir dövrdə müəssisədaxili tənzimləmə getdikcə daha çox rəqəmsal platformalar üzərində qurulur. ERP sistemləri, avtomatlaşdırılmış istehsal xətləri, elektron hesabatlıq, real vaxt rejimində monitorinq və analitika texnologiyaları istehsal proseslərini daha şəffaf, dəqiq və çevik edir. Belə yanaşma müəssisələrin xərclərini azaldır, məhsuldarlığı artırır və keyfiyyətə nəzarəti gücləndirir. Son illərdə Sənaye 4.0 konsepsiyasının sürətlə yayılması emal sənayesinin tənzimləmə mexanizmlərinə tamamilə yeni məzmun gətirmişdir. Sənaye 4.0 standartlarına cavab verən istehsal müəssisələri əsasən naqilsiz bağlantı və sensorlar ilə gücləndirilmiş, bütün istehsal xəttini görüntüləyə bilən və bu barədə qərar qəbul edə biləcək xüsusi bir sistemlə və bu sistemə qoşulmuş avadanlıqlarla təchiz olunur [9]. Belə ki, rəqəmsallaşma sənaye müəssisələrinin idarəetməsini köklü şəkildə dəyişərək istehsalın təşkilində avtomatlaşdırma, süni intellekt, böyük verilənlərin analizi, kiber-fiziki sistemlər, robotlaşdırma kimi texnologiyaların geniş tətbiqinə səbəb olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkədə sənayeləşmə istiqamətində həyata keçirilən islahatlar yüngül sənaye, xüsusilə də tekstil sektorunun inkişafına mühüm təsir göstərmişdir. 2015-ci ildən başlayaraq tekstil istehsalının gücləndirilməsi məqsədilə pambıqçılığın bərpası və xammal bazasının genişləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. Aqrotexniki tədbirlərin genişləndirilməsi nəticəsində 2018-ci ildə ölkədə 230 min tona yaxın pambıq tədarük edilsə də, məhsuldarlıq hələ də dünya standartlarından geri qalmaqda davam edir. Bu səbəbdən Kənd Təsərrüfatı Nazirliyi məhsuldarlığın artırılmasını təmin edəcək elmi yanaşmaların və innovativ texnologiyaların tətbiqini prioritet kimi müəyyən etmişdir. Azərbaycan tekstil bazarında əsas pay korporativ geyim və işçi uniformaları seqmentinə məxsusdur. Restoran, tibb, bank, xidmət müəssisələri və hərbi qurumlar bu məhsulların əsas istehlakçılarıdır. Sektorun inkişafı üçün Bakı və Sumqayıt əraziləri əlverişli logistika imkanları və sənaye zonalarının genişliyi ilə seçilir.

Sektorun inkişafında xüsusi rol oynayan müəssisələrdən biri 2012-ci ildən Sumqayıtda fəaliyyət göstərən "Gilan Tekstil Parkı"dır. Müəssisə iplikdən tutmuş hazır geyimə qədər bütün istehsal mərhələlərini əhatə edən iri sənaye kompleksi olaraq daxili bazarda geniş paya malikdir və məhsullarının bir hissəsini Türkiyə, Rusiya və Ukrayna kimi ölkələrə ixrac edir. Parkın iplik, toxuma, boya-basqı və tikiş fabrikləri qabaqcıl texnologiya ilə təchiz olunmuş, laboratoriya imkanları isə məhsulun keyfiyyətinə daimi nəzarəti təmin edir. Pandemiya dövründə müəssisə tibbi maska istehsalını təşkil edərək ölkənin tələbatının ödənməsinə dəstək vermişdir. Tekstil sənayesinin inkişafı ölkə iqtisadiyyatı üçün strateji əhəmiyyət daşıyır. Sektor qeyri-neft sənayesinin genişlənməsinə, regionlarda məşğulluğun artırılmasına, ixracın yüksəldilməsinə və rəqabətqabiliyyətli məhsulların istehsalına şərait yaradır. Bu istiqamətdə atılan mühüm addımlardan biri 2015-ci ildə yaradılan Mingəçevir Sənaye Parkıdır. Parkda fəaliyyətə başlamış "Mingəçevir Tekstil" MMC-nin iki iplik fabriki 750 nəfər üçün yeni iş yeri yaratmış və ölkənin xammal emalı imkanlarını artırmışdır.

Qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, regionlarda ənənəvi sənaye sahələrinin inkişafına da böyük diqqət göstərilir. Azərbaycan Respublikası Prezidentinin 5 may 2016-cı il tarixli, 2032 saylı Sərəncamı ilə Azərbaycan Respublikasında xalça və xalça məmulatlarının istehsalını, ixracını, onların ölkə daxilində və xaricdə satışının təşkilini, xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqini, maddi-texniki bazanın müasirləşdirilməsini və ondan səmərəli istifadəni, habelə bu sahənin inkişafını təmin etmək məqsədilə "Azərxalça" ASC yaradılmışdır. Sözügedən sərəncamın icrasının təmin edilməsi məqsədilə ölkədə xalçaçılığın inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilməkdədir. Belə ki, respublikanın 20 rayonunda "Azərxalça" ASC-nin xalça istehsalı fabrikləri yaradılmış, o cümlədən Füzuli rayonunun Horadiz qəsəbəsində, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdam rayonlarında xalça fabrikləri Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə istifadəyə verilmiş, daha 1 xalça istehsalı fabrikinin tikintisi isə davam etdirilir. Həmçinin rəqabətqabiliyyətli və yeni texnologiyalara əsaslanan xalça və xalça məmulatlarının istehsalını təmin etmək üçün ölkədə xammal müəssisəsinin qurulması məqsədilə 15 dekabr 2017-ci il tarixində Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında "Azərxalça" ASC-nin Yunəyrici Boyaq Fabrikinin təməlqoyma mərasimi keçirilmiş və tikintisinə başlanılmışdır. Eyni zamanda xammal bazasının təmin edilməsi məqsədilə respublikanın 5 şəhər və rayonunda (Naxçıvan şəhərində, Bərdə, Şabran, Qobustan rayonlarında və Sabirabad Sənaye Məhəlləsində) yun və təbii boyaq maddələri tədarükü məntəqələrinin tikintisi işlərinə başlanılmışdır (Azərbaycan Respublikası Nazirlər Kabineti, 2015).

2020–2024-cü illərin statistik göstəricilərinə nəzər salsaq, tekstil və geyim sahəsində statistik göstəricilər bizə deməyə imkan verir ki, toxuculuq sahəsində 2020–2022-ci illərdə sürətli artım müşahidə olunur (240,9 → 388,6), lakin 2023-cü ildə azalma baş verib (372,3) və 2024-cü ildə trend davam edərək 349,8-ə düşüb. Bu, sektorun 2022-dən sonra bir qədər sabitləşdiyini göstərir. Geyim istehsalı sahəsində 2020–2022-ci illərdə artım müşahidə edilir, lakin 2023-cü ildə istehsal azalıb. 2024-cü ildə isə yenidən artım proqnozlaşdırılır. Bu, geyim istehsalının bazar tələbatına bağlı olduğunu göstərir. Dəri və dəridən məmulatlar, ayaqqabı istehsalı 2020–2023-cü illərdə nisbətən sabit səviyyədədir, lakin 2024-cü ildə kəskin artım müşahidə olunur (44,3). Bu, bu sahədə yeni istehsal güclərinin tətbiqindən və bazar genişlənməsindən xəbər verir. Bunu aşağıdakı cədvəldə də aydın görmək olur:

**Cədvəl 1. 2020-2024-cü illər geyim sahəsində məhsulların (işlərin, xidmətlərin) həcmi milyon manatla.**

| Sahə/İllər | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|
| **Toxuculuq** | 240,9 | 369,5 | 388,6 | 372,3 | 349,8 |
| **Geyim istehsalı** | 112,8 | 130,0 | 162,3 | 125,2 | 156,9 |
| **Dəri və dəridən məmulatların, ayaqqabıların istehsalı** | 25,8 | 22,3 | 25,3 | 24,8 | 44,3 |

**Mənbə:** Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, 2025.

Ümumilikdə, görülən bütün bu tədbirlər tekstil sənayesinin inkişafına güclü təkan vermiş, ölkənin qeyri-neft sektorunun diversifikasiyasına, yeni iş yerlərinin açılmasına və milli brendlərin formalaşmasına şərait yaratmışdır (Salesforce, 2023).

## Nəticə

Aparılan təhlil göstərir ki, emal sənayesində, xüsusilə tekstil və geyim sektorunda istehsalın səmərəli təşkili və sahələrarası əlaqələrin düzgün qurulması iqtisadi inkişafın mühüm şərtlərindəndir. Tekstil sənayesinin xammal təminatından texnoloji innovasiyalara, istehsal kooperasiyasından logistika və maliyyə mexanizmlərinə qədər geniş və kompleks əməkdaşlıq şəbəkəsinə malik olması onun iqtisadiyyatda strateji rolunu artırır. Azərbaycanda pambıqçılığın bərpası, sənaye parklarının yaradılması, müəssisələrin modernləşdirilməsi və dövlət dəstəyi sektorda rəqabət qabiliyyətini gücləndirmişdir. Statistik göstəricilər göstərir ki, toxuculuq və geyim istehsalında dalğalanmalar olsa da, ümumi inkişaf meyli müsbətdir və modern istehsal güclərinin artırılması bazarın genişlənməsinə şərait yaradır. Ümumilikdə, sektorun davamlı inkişafı inteqrasiya olunmuş idarəetmə, texnoloji yenilənmə və dövlət–sahibkar əməkdaşlığının gücləndirilməsi ilə təmin edilə bilər.

## Ədəbiyyat

1. Abbasov, İ. M., & Əliyev, T. N. (2017). *Qeyri-neft sənayesinin iqtisadiyyatı*. Dərslik. Elm və Təhsil, 501.
2. Azərbaycan Respublikası Nazirlər Kabineti. (2015). *Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015–2020-ci illər üçün Dövlət Proqramı.*
3. Azərbaycan Respublikası Regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı. (2019).
4. Christopher, M. (2016). *Logistics & Supply Chain Management*. Pearson. (Tekstil və geyim tədarük zənciri üçün tətbiqlər).
5. Quliyev, E. N., Qafarov, E., & Allahverdiyev, E. (2020). *Qeyri-neft sənayesinin iqtisadiyyatı*. Kooperasiya Nəşriyyatı, 496.
6. Fletcher, K., & Tham, M. (2019). *Fashion and Sustainability: Design for Change*. Laurence King Publishing.
7. Hüseynov, T. (2023). *Azərbaycanda sənayeləşdirmə: reallıqlar və perspektivlər*. Apostrof-A Nəşriyyat, 484.
8. Kagermann, H., Wahlster, W., & Helbig, J. (2013). *Recommendations for Implementing Industry 4.0*. German National Academy of Science and Engineering.
9. Koszewska, M. (2018). *Sustainability in the Textile and Apparel Industries*. Springer.
10. Salesforce. (2023, July 5). *What is the Fourth Industrial Revolution (4IR)?* https://www.salesforce.com/blog/what-is-the-fourth-industrial-revolution-4ir/
11. Precedence Research. (2025, October 15). *Industry 4.0 market – growth, trends, forecasts.* https://www.precedenceresearch.com/industry-4-0-market
12. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (2025). *Rəsmi statistika məlumatları.* https://www.stat.gov.az

Daxil oldu: 14.08.2025
Qəbul edildi: 11.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/114-118

**Əlәddin Hüseynov**
Azərbaycan Respublikasının Przidenti yanında Dövlət İdarəçilik Akademiyası
magistrant
https://orcid.org/0009-0003-8466-4970
eleddinhuseynov2003@gmail.com

# Qeyri-neft sənayesinin regionlarda inkişafı: İmkanlar və məhdudiyyətlər

## Xülasə

Məqalədə Azərbaycan regionlarında "Holland sindromu"nun gələcəkdə yaradacağı böhranlar, buna istinadən qeyri-neft sənayesinin inkişaf istiqamətləri, potensial olaraq aktual və gələcəkdə məhdudiyyətlərlə üzləşə biləcək istiqamətlər təhlil olunur. Diversifikasiya siyasətinin qiymətləndirmə sistemlərinin iqtisadi strukturundakı fəaliyyətlərə, regional sənaye inkişafına təsirinin fundamental qiymətləndirilməsi və sənaye zonalarının diversifikasiyası üçün mövcud imkanların araşdırılması, yəni təbii resurslardan səmərəli istifadə, logistika və nəqliyyat infrastrukturlarının genişləndirilməsi, sənaye parklarının yaradılması, insan kapitalının düzgün yönləndirilməsi və dövlət dəstək mexanizmlərinin təkmilləşdirilməsi araşdırılır. Eyni zamanda, bölgələrdə qeyri-neft sənayesinin inkişafının qarşısını alan və ya yavaşladan məhdudiyyətlər – infrastrukturun aşağı və ya sistemsiz inkişafı, investisiya mühitində regional fərqlər, innovasiya potensialının yanlış yönləndirilməsi, ixtisaslı kadrların az olması və mövcud kadrlarından yanlış istifadə, məhdud texnoloji innovasiya kimi ünsürlər müəyyənləşdirilir. Tədqiqatın nəticələri göstərir ki, qeyri-neft sənayesinin regionlar üzrə balanslı inkişafı üçün kompleks dövlət siyasəti, özəl sektorun fəallaşdırılması, dövlət–özəl ortaqlığı və innovativ yanaşmaların tətbiqi mühüm əhəmiyyət kəsb edir. Digər dövlətlərin təcrübələrinin regiona uyğunlaşdırılmasında fayda və risklərinin təxmin olunaraq daha effektiv tətbiq olunması yollarının əhəmiyyəti qeyd olunur. Məqalədə regionların sənaye potensialının aşkarlanması, düzgün bölüşdürülməsi, gələcək innovasiya planlarının mərhələli və davamlılıq prinsipi əsasında reallaşması üçün strateji prioritetlər və tövsiyələr yer alır.

***Açar sözlər:*** *qeyri-neft sənayesi, regional inkişaf, iqtisadi diversifikasiya, sənaye parkları, insan kapitalı, innovasiya, investisiya mühiti, infrastruktur, sənaye potensialı, iqtisadi siyasət*

**Aladdin Huseynov**
The Academy of Public Administration under the President of the Republic of Azerbaijan
Master's student
https://orcid.org/0009-0003-8466-4970
eleddinhuseynov2003@gmail.com

# Development of Non-oil Industries in the Regions: Opportunities and Limitations

## Abstract

The article analyzes the crises that the "Dutch syndrome" will create in the regions of Azerbaijan in the future and the directions of development of the non-oil industry, which are potentially relevant and may face restrictions in the future. The fundamental assessment of the impact of the diversification policy on the activities in the economic structure, regional industrial development, and the study of existing opportunities for the diversification of industrial zones are examined, namely the efficient use of natural resources, the expansion of logistics and transport infrastructure, the creation of industrial parks, the correct orientation of human capital, and the improvement of state support mechanisms. At the same time, the constraints that prevent or slow down the development of


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

the non-oil industry in the regions are identified — such elements as low or unsystematic development of infrastructure, regional differences in the investment environment, misdirection of innovation potential, lack of qualified personnel and misuse of existing resources, and limited technological innovation. The results of the study show that for the balanced development of the non-oil industry in the regions, a complex state policy, activation of the private sector, public–private partnership and the application of innovative approaches are of great importance. The importance of ways to adapt the experiences of other countries to the region and apply them more effectively by estimating their benefits and risks is noted. The article contains strategic priorities and recommendations for identifying the industrial potential of the regions, their proper distribution, and the implementation of future innovation plans on a phased and sustainable basis.

***Keywords:*** *non-oil industry, regional development, economic diversification, industrial parks, human capital, innovation, investment climate, infrastructure, industrial potential, economic policy*

## Giriş

Azərbaycan iqtisadiyyatının uzun illər neft sektorundan asılılığı ölkənin sosial-iqtisadi inkişafında müəyyən risklər yaratmış və iqtisadiyyatın dayanıqlılığını zəiflədən əsas amillərdən biri kimi qiymətləndirilmişdir. Qlobal enerji bazarlarında qiymət dəyişkənliyi və dünya iqtisadiyyatında baş verən dinamik proseslər göstərmişdir ki, iqtisadiyyatın davamlı inkişafı üçün diversifikasiya vacibdir. Bu baxımdan qeyri-neft sektorunun, xüsusilə də regionlarda qeyri-neft sənayesinin inkişafı strateji əhəmiyyət daşıyır. Son illərdə aparılan islahatlar, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları, sənaye parkları və məhəllələrinin yaradılması, logistika və nəqliyyat infrastrukturunun gücləndirilməsi qeyri-neft sənayesinin genişlənməsi üçün yeni imkanlar formalaşdırmışdır (Krugman & Obstfeld, 2018).

Regionlarda sənaye potensialının artırılması yalnız iqtisadi artımın təmin olunması üçün deyil, həm də məşğulluğun yüksəldilməsi, əhalinin sosial rifahının yaxşılaşdırılması və ölkə üzrə inkişafın tarazlaşdırılması baxımından mühüm rol oynayır. Lakin mövcud imkanlarla yanaşı, bu sahədə müəyyən məhdudiyyətlər də qalmaqdadır. Regionlar üzrə investisiya axınında bərabərsizlik, texnoloji yeniliklərə çıxışın məhdudluğu, kadr çatışmazlığı, infrastruktur fərqləri və innovasiya mühitinin zəifliyi bu inkişafın qarşısında duran əsas problemlər kimi qiymətləndirilir. Buna görə də qeyri-neft sənayesinin regionlarda inkişafı istiqamətində kompleks yanaşma tələb olunur (*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı*, 2004–2023).

Bu məqalənin məqsədi Azərbaycan regionlarında qeyri-neft sənayesinin inkişafını müəyyən edən əsas faktorları araşdırmaq, mövcud imkanları və məhdudiyyətləri təhlil etmək, həmçinin gələcək inkişaf üçün prioritet istiqamətləri müəyyənləşdirməkdən ibarətdir. Tədqiqatın nəticələri regional inkişaf strategiyalarının təkmilləşdirilməsi baxımından praktiki əhəmiyyət daşıyır və qeyri-neft sənayesinin səmərəli təşkilinə dəstək ola bilər (OECD, 2019).

### Tədqiqat

Azərbaycanın iqtisadiyyatında aparılan struktur islahatları ölkənin neft gəlirlərindən asılılığını azaltmağı, region ölkələri ilə qeyri-neft əməkdaşlıqlarının inkişafını hədəfləyir. Bu kontekstdə regionlarda qeyri-neft sənayesinin inkişafı milli iqtisadi təhlükəsizliyin təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir və enerji bazarında olan qiymət dalğalanmalarına qarşı ən başda gələn qalxan rolunu oynayan faktorlardan birini təşkil edir (Porter, 1990). Regionlarda sənaye fəaliyyətinin genişləndirilməsi iqtisadiyyatın şaxələndirilməsini sürətləndirir və bu da öz növbəsində əksər lokal iqtisadi aktivliyin paytaxtdan regionlara bölüşdürülməsində mühüm rol oynayır, yeni iş yerlərinin yaradılmasına şərait yaradır və daxili bazarın inkişafına müsbət təsir göstərir. Bu sahəyə yönəldilən dövlət investisiyaları və güzəşt mexanizmləri sənaye müəssisələrinin fəaliyyətinin stimullaşdırılmasında mühüm rol oynayır. Azad iqtisadi zona, vergi güzəşti üstünlüyü və digər lokal təşviqat mexanizmləri ərazi üzrə ixtisaslaşmada güclü rol oynayır (Aslanlı, 2021).

Azərbaycan regionlarının əksəriyyətində kənd təsərrüfatı xammalı, mineral resurslar və sənaye üçün lazım olan digər təbii ehtiyatlar və resurslar zəngindir. Bu amillər qida sənayesi, tikinti

materialları sənayesi, emal sənayesi kimi istiqamətlərdə geniş imkanlar yaradır. Eyni zamanda ölkənin iki qitənin sərhəddindəki əsas logistika yolunun üzərində yerləşməsi, bundan əlavə olaraq şimalı–cənubi Avrasiya logistika xəttlərinin mühüm hissəsinin ölkəmizdən keçməsi kimi tranzit-logistika imkanları regionlarda sənaye müəssisələrinin ixrac bazarlarına çıxışını genişləndirməkdən əlavə ölkəmizi materikdə əsas keçid məntəqələrindən birinə çevirib. Son illərdə yaradılan sənaye parkları (*Sumqayıt Kimya SP*, *Mingəçevir SP* və s.) regionlarda sənaye mühitinin formalaşmasında mühüm rol oynamışdır (UNIDO, 2022). Bu zonalarda sahibkarlara vergi güzəştləri, infrastruktur təminatı, innovasiya dəstəkli startap layihələrinin mümkünlüyü və investisiya dəstəyi kimi həvəsləndirici və təşviqedici ünsürlər tətbiq olunur. Sənaye parklarının fəaliyyəti həm də kiçik və orta biznesin inkişafına güclü təkan verir, hansı ki, bu parkların istehsalatı mövcud bazarın xarici təchizat zəncirindən asılılığını azaldır və ixrac potensialını artırır (Məmmədov, 2022). *Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı*, *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər* və digər rəsmi mənbələrdə olan yayımlar regionların sənaye potensialının artırılması üçün strateji baza yaradır. Bu proqramlar çərçivəsində infrastruktur layihələrinin təşkili və həyata keçirilməsi və investorlar üçün əlverişli mühitin formalaşdırılması qeyri-neft sənayesinin inkişafını dəstəkləyir. Bu innovativ tətbiqlərin reallaşması və davamlılığı üçün kadrların hazırlığı əhəmiyyət kəsb edən məqamlardan biridir. Son illərdə regionlarda peşə məktəblərinin bərpası, texniki kadr hazırlığı və təlim proqramlarının genişləndirilməsi sənaye müəssisələri üçün ixtisaslı işçi qüvvəsinin formalaşmasına şərait yaradır. Bu isə sənaye istehsalının keyfiyyət və rəqabət qabiliyyətini artıran mühüm amil olmaqla yanaşı, gələcəkdə ölkəmizi regional kadr yetişdirilməsi mərkəzlərindən birinə çevirmə potensialı yarada bilər (Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, t.i.).

Bəzi regionlarda yol, enerji, su, istilik təchizatı və kommunikasiya infrastrukturunda çatışmazlıqlar qalmaqdadır. Bu isə sənaye müəssisələrinin fəaliyyətini çətinləşdirir və investisiya cəlbediciliyini aşağı salır. Bir çox regionlarda sənaye müəssisələri hələ də köhnə texnologiyalarla fəaliyyət göstərir. Hətta idarəetmədə belə köhnə üsullardan istifadə olunduğu üçün kadrların marağını çox da cəlb etmir. Yeni texnoloji avadanlıqların alınması və həmin avadanlıqların regionun, müəssisənin tələblərinə və fəaliyyətinə uyğunlaşdırılması, o cümlədən mütəmadi texniki dəstək üçün maliyyə imkanlarının məhdudluğu məhsuldarlığın aşağı səviyyədə qalmasına səbəb olur (İsmayılov, 2021). Paytaxt və iri sənaye şəhərləri daha çox investisiya cəlb etdiyi halda, əksər regionlar investisiya baxımından arxa planda qalır. Özəl sektorun bölgələrdə təşkilinə marağın az olması sənaye potensialının tam reallaşmasına mane olur və bu regionlara marağın azlığı, o cümlədən paytaxtda həddindən artıq sənayeləşmə və öz növbəsində paytaxtın ölkə iqtisadiyyatındakı payının qorxunc şəkildə çox olmasına səbəb olur. Bu, hətta ixtisaslı kadrların əksəriyyətinin paytaxtda məskunlaşaraq regionlarda çatışmazlıq yaranmasına səbəb gətirib çıxarır. Xüsusilə texniki ixtisaslar üzrə peşəkar kadrların bölgələrdə tapılması çətinlik yaradır. Bu da sənaye müəssisələrinin inkişaf tempini aşağı salan əsas faktorlardan biridir. KOB-ların kredit resurslarına çıxış imkanları məhduddur və bu, onların sənaye fəaliyyətini genişləndirməsinə mane olur. Kiçik və orta bizneslərin təşkilinə dövlət dəstəyinin effektiv tətbiqi üçün KOBİA yaradılmışdır. Bu agentlik əsasən fərdi sahibkarlara maliyyə krediti, təchizat dəstəyi, uzunmüddətli aktivlərin əldə olunması kimi yardımlara dəstək olur (Əliyev, 2021).

Dövlət Statistika Komitəsi və digər rəsmi mənbələrdən toplanmış məlumatların təhlili zamanı regionlarda qeyri-sənaye sahələrinin təşkilinin hazırkı vəziyyətinin o qədər də ürəkaçan olmadığı görünür. Buna həll yolu olaraq *Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər* inkişaf proqramında buna yer verilib. Problemləri anlamaq, istiqamət müəyyənləşdirmək üçün lazımi tədqiqat və analiz metodlarından istifadə olunmuşdur. Bunlara komparativ (müqayisəli) analiz, SWOT analiz, regional iqtisadi-məkan təhlili, qeyri-neft sahəsinə dair ədəbiyyatların təhlili kimi tədqiqat və analiz metodları daxildir. Regionlar üzrə sənaye inkişafının müqayisəsi, qeyri-neft sənayesinin güclü və zəif tərəflərinin, imkan və təhdidlərinin qiymətləndirilməsi (SWOT analizi), regionların coğrafi, iqtisadi və logistika imkanlarının araşdırılması və region ölkələri ilə sadələşdirilmiş gömrük qaydalarının gələcəkdə tətbiqinin yarada biləcəyi üstünlük və risklərin araşdırılması və tətbiqi, yerli və beynəlxalq tədqiqat proqramlarına istinadən yeniliklərin araşdırılması bu tədqiqatın əsas prosedur-mərhələlərindəndir (Həsənov, 2020; World Bank, 2020).

## Nəticə

Aparılan tədqiqat göstərir ki, Azərbaycanın regionlarında qeyri-neft sənayesinin inkişafı ölkənin iqtisadi təhlükəsizliyinin və uzunmüddətli dayanıqlı inkişaf strategiyasının əsas istiqamətlərindən biridir. Neft gəlirlərinin dünya bazarlarında dəyişkənliyə məruz qalması milli iqtisadiyyatın risklərə açıq olduğunu göstərir və qeyri-neft sektorunun prioritetləşdirilməsini zəruri hesab olunmuşdur. İqtisadiyyatın diversifikasiya olunması büdcə gəlirlərinin əsas hissəsinin neft və neft məhsullarının hesabına formalaşan payının azaldılaraq yerinə digər sənayelərin payının artırılmasına şərait yaradır. Bu çərçivədə regionlarda sənaye istehsalının artırılması, yeni istehsal güclərinin yaradılması və innovasiyaya əsaslanan, yenilikçi iqtisadi modellərin test olunaraq optimal olanının tətbiqi ölkənin sosial-iqtisadi strukturunun modernləşməsi üçün mühüm baza formalaşdırar. Tədqiqatın nəticələrinə əsasən, regionlarda qeyri-neft sənayesinin inkişafı üçün geniş imkanlar olsa da, bu potensial hələ də tam şəkildə istifadədə deyil. Mövcud imkanlar – zəngin təbii ehtiyatlar, əlverişli coğrafi mövqe, tranzit-logistika üstünlükləri, sənaye parklarının fəaliyyəti, dövlət proqramlarının dəstəyi və insan kapitalının tədricən güclənməsi regionların sənaye inkişafı üçün mühüm əsasdır. Qeyri-neft sənayesinin inkişafı ilə yanaşı, bu sahəni davamlı şəkildə ayaqda tuta biləcək kadrlara sahib olmaq və onları başqa regionların əmək bazarında yox, elə məhz ölkəmizdəki əmək bazarında məmnun edəcək islahatların tətbiqi ölkə iqtisadiyyatını gücləndirəcək tamamlayıcı məqamlardan biridir. Bu imkanlar qeyri-neft sənayesinin genişlənməsi və rəqabət qabiliyyətinin artırılması üçün strateji üstünlüklər təmin edir.

Lakin aparılan təhlil bir sıra sistemli məhdudiyyətlərin də mövcud olduğunu üzə çıxarır. Regionlarda infrastrukturun qeyri-bərabər inkişafı, sistemsiz yanaşma, modern texnologiyalara çıxış imkanlarının məhdudluğu, olsa belə mütəxəssis və kadr çatışmazlığı, innovasiya fəaliyyətinin zəifliyi, maliyyə resurslarına çıxışda çətinliklər, investisiya mühitində regional fərqlər və texniki ixtisaslı kadr və mütəxəssis çatışmazlığı sənaye inkişafının qarşısında duran əsas problemlərdir. Regionlarda iqtisadiyyatın əsasən kölgə iqtisadiyyatı əsasında irəliləməsi və statistik qeydiyyatdan kənarda qalması həmin regionlardakı aktivlikdən xəbərdar olmadan inkişaf planının tətbiqinin istənilən nəticəni verməməsinə gətirib çıxara bilər. Bu məhdudiyyətlər nəticəsində regionların sənaye potensialı tam şəkildə iqtisadi dövriyyəyə daxil edilmir və onların ölkə iqtisadiyyatına töhfəsi əhəmiyyətli dərəcədə azalır.

Eyni zamanda, regional sənaye inkişafı yalnız iqtisadi deyil, həm də sosial aspektləri ilə mühüm əhəmiyyət daşıyır. Sənaye sahələrinin regionlarda inkişafı əhalinin işlə təminatını yaxşılaşdırır, paytaxtdakı əhali yükünü azaldır, regionlar arasında sosial-iqtisadi fərqlərin azalmasına və iqtisadi əməkdaşlığın artmasına, yerli bazarın canlanmasına və əhalinin rifah səviyyəsinin yüksəlməsinə səbəb olur. Buna görə də sənaye fəaliyyətinin balanslı inkişafı ölkənin iqtisadiyyatı ilə yanaşı, ümumi sosial-iqtisadi sabitliyinin qorunmasında mühüm rol oynayır və ölkəni dünya bazarında olacaq hər hansı bir dalğalanmada yarana biləcək risklərin təsirindən qoruyur.

Tədqiqatdan çıxarılan ümumi nəticələr göstərir ki, regionlarda qeyri-neft sənayesinin inkişafı üçün kompleks, uzunmüddətli, innovativ və sistemli yanaşmanın tətbiqi vacibdir. Dövlət sektorunun institusional islahatları, özəl sektorun aktivləşdirilməsi, texnoloji modernləşmə, kadr hazırlığı sisteminin təkmilləşdirilməsi və investisiya mühitinin yaxşılaşdırılması bu prosesin əsas istiqamətlərini təşkil edir. Yalnız bu halda regionların sənaye potensialından tam fayda alına bilər və qeyri-neft sektoru ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilə bilər.

## Ədəbiyyat

1. Aslanlı, A. (2021). *Azərbaycan iqtisadiyyatında diversifikasiya siyasəti*. Qlobal Araşdırmalar Mərkəzi.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. (t.i.). *Sənaye istehsalı üzrə illik göstəricilər*.
3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi. (2004–2023). *Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı*.

4. Əliyev, İ. (2021). Azərbaycanın qeyri-neft sektorunun inkişaf istiqamətləri. *İqtisadiyyat və Menecment Jurnalı*, №3.
5. Həsənov, Z. (2020). *Regional iqtisadiyyat: nəzəri əsaslar və inkişaf modelləri*. Elm və Təhsil.
6. İsmayılov, S. (2021). Azərbaycan regionlarında sənaye potensialının qiymətləndirilməsi. *Regional İnkişaf Jurnalı*, №2.
7. Krugman, P., & Obstfeld, M. (2018). *International Economics: Theory and Policy*. Pearson.
8. Məmmədov, A. (2022). Qeyri-neft sənayesinin rəqabət qabiliyyətinin artırılması problemləri. *Azərbaycan İqtisadçıları Assosiasiyasının Xəbərləri*.
9. OECD. (2019). *Regional Industrial Development Strategies in Emerging Economies*.
10. Porter, M. E. (1990). *The Competitive Advantage of Nations*. Harvard Business Review Press.
11. UNIDO (United Nations Industrial Development Organization). (2022). *Industrial Development Report: Industrializing in the Digital Age*.
12. World Bank. (2020). *Azerbaijan Economic Diversification and Growth Report*.

Daxil oldu: 26.08.2025
Qəbul edildi: 14.10.2025

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 119-122 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 119-122 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/124/119-122

**Afət Fətəliyeva**
Bakı Slavyan Universiteti
magistrant
http://orcid.org/0009-0001-7746-3535
afetsukurlu15021960@gmail.com

# Yazılı nitq və insan idrakının qarşılıqlı təsiri: Azərbaycan dilçiliyinin nəzəri və praktiki aspektləri

**Xülasə**

Yazılı nitq insan düşüncəsinin formalaşmasında, biliklərin qorunması və ötürülməsində mühüm rol oynayır, eyni zamanda məntiqi, analitik və yaradıcı təfəkkürün inkişafına xidmət edir. Tədqiqat göstərir ki, ənənəvi və interaktiv tədris metodlarının birgə tətbiqi yazı bacarıqlarının həm məzmun, həm də struktur baxımından inkişafına şərait yaradır. Rəqəmsal mühit yazılı ünsiyyəti sürətləndirsə də, dil normalarının qorunması üçün təhsil, maarifləndirmə və dil siyasətinin gücləndirilməsi vacibdir. Ümumilikdə, yazılı nitqin inkişafı cəmiyyətin birgə məsuliyyəti olmaqla milli dilin və idrak mədəniyyətinin inkişafına mühüm töhfə verir.

***Açar sözlər:*** *yazılı nitq, insan idrakı, nitq mədəniyyəti, tədris metodları, rəqəmsal kommunikasiya, Azərbaycan dili*

**Afet Fataliyeva**
Baku Slavic University
Master's student
http://orcid.org/0009-0001-7746-3535
afetsukurlu15021960@gmail.com

# The Interaction of Written Speech and Human Cognition: Theoretical and Practical Aspects of Azerbaijani Linguistics

**Abstract**

Written speech plays an important role in preserving and transmitting knowledge while supporting the development of logical, analytical, and creative thinking. The study shows that combining traditional and interactive teaching methods strengthens both language norms and students' independent writing skills. Although digital communication has expanded the speed and reach of written expression, it also creates challenges for maintaining language standards. Overall, the development of written speech is a shared responsibility of education and society and contributes to the protection of the national language and the growth of cognitive culture.

***Keywords:*** *written speech, human cognition, speech culture, teaching methods, digital communication, Azerbaijani language*

## Giriş

Yazılı nitq insan idrakının inkişafında, biliklərin ötürülməsində və mədəni irsin qorunmasında mühüm rol oynayan əsas ünsiyyət formalarından biridir. Tarix boyu yazı yalnız məlumatın saxlanılması vasitəsi kimi deyil, həm də düşüncənin formalaşmasına təsir edən mühüm amil kimi çıxış etmişdir və bu gün də təhsil və gündəlik kommunikasiya mühitində idrak fəaliyyətinin stimullaşdırılmasında əhəmiyyətini qoruyur (Abdullayev, 2013; Babayev, 2009). Azərbaycan dilçiliyində yazılı nitq nitq mədəniyyəti, tədris metodikası, idrakla əlaqə və müasir çağırışlar kontekstində geniş şəkildə araşdırılmışdır (Həsənov, 2003; Hüseynova, 2014). Bu məqalənin məqsədi

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

yazılı nitqlə insan idrakı arasındakı qarşılıqlı təsiri nəzəri və praktik baxımdan təhlil etmək və onun inkişafı üçün müasir pedaqoji tövsiyələr verməkdir.

**Tədqiqat**

**Yazılı nitqin nitq mədəniyyətindəki yeri**

Nitq mədəniyyəti dilin ədəbi norma çərçivəsində aydın, düzgün və təsirli şəkildə ifadəsini təmin edən bilik və bacarıqlar toplusudur. Yazılı nitq isə bu mədəniyyətin ayrılmaz tərkib hissəsi olaraq, üslubi, qrammatik, leksik və məntiqi baxımdan yüksək səviyyə tələb edir (Abdullayev, 1966; Həsənov, 2003).

Abdullayev yazılı nitqin mədəniyyət səviyyəsinin yalnız texniki yazı bacarığı ilə ölçülmədiyini vurğulayır (Abdullayev, 2013). Bu səviyyə eyni zamanda mətnin kompozisiyası, məntiqi ardıcıllığı və üslub uyğunluğu ilə müəyyən edilir. Babayev yazılı nitqin üslubiyyat baxımından əhəmiyyətini qeyd edərək, dilin emosional və ekspressiv imkanlarının oxucuda güclü təsir yaratmaq üçün düzgün istifadəsinin vacibliyini önə çəkir (Babayev, 2009).

Yazılı nitq vasitəsilə müəllif öz idrak proseslərini mətn formasında təşkil edir. Bu prosesdə söz seçimi, cümlə quruluşu və bütövlük prinsipləri xüsusi yer tutur. Həsənov yazılı nitqin inkişafında dilin üslubi qatlarının mənimsənilməsinin, qrammatik norma və məntiqi ardıcıllığın qorunmasının vacib olduğunu bildirir (Həsənov, 2003).

Nitq mədəniyyətinin əsas göstəricilərindən biri yazılı nitqin səlis və yığcam olmasıdır. Hüseynova yazılı nitqin inkişafı üçün praktik məşğələlərin, xüsusilə orfoqrafiya və punktuasiya üzrə təlimlərin əhəmiyyətini vurğulayır (Hüseynova, 2014). Belə təlimlər şagirdlərin diqqətini mətnin daxili harmoniyasına yönəldir, nəticədə həm dil bacarıqları, həm də idrak qabiliyyətləri möhkəmlənir.

Yazılı nitq nitq mədəniyyətinin həm nəzəri, həm də praktik bazasını təşkil edir.

**Yazılı nitq və idrak əlaqəsi**

İdrak insanın ətraf aləmi dərk etməsi, məlumatları qavraması, təhlil etməsi, müqayisə aparması, ümumiləşdirmə və nəticə çıxarma bacarıqlarını əhatə edən mürəkkəb psixoloji proseslər sistemidir. Bu proseslərin əsas tənzimləyici vasitəsi isə dildir. Xüsusilə yazılı nitq idrakın daha yüksək mərhələlərində – analitik düşünmə, məntiqi mühakimə və abstrakt anlayışların formalaşmasında mühüm rol oynayır (Əhmədov, 1998).

Əhmədov yazı prosesinin beyin fəaliyyətinə kompleks təsir göstərdiyini, bu zaman qavrama, diqqət, yaddaş və təfəkkürün paralel şəkildə işə düşdüyünü qeyd edir (Əhmədov, 1974). Yazı zamanı insan fikirlərini planlaşdırır, onları ardıcıllıqla qurur, məntiqi əlaqələr yaradır və daha sistemli düşünmə bacarığı formalaşdırır.

Hüseynova yazı fəaliyyətinin şagirdlərdə diqqətin cəmlənməsinə, yaddaşın möhkəmlənməsinə və abstrakt təfəkkürün inkişafına ciddi təsir göstərdiyini vurğulayır (Hüseynova, 2014). Yazılı tapşırıqlar idrak fəallığını artırır və müstəqil düşünməni gücləndirir.

Beləliklə, yazılı nitq insanın daxili düşüncə proseslərinə nəzarət etməsinə imkan yaradan vacib mexanizm olmaqla yanaşı, idrak proseslərinin həm məhsulu, həm də onların inkişafını təmin edən əsas hərəkətverici qüvvələrdən biri kimi çıxış edir.

**Tədris metodları və yazılı nitqin inkişafı**

Yazılı nitqin inkişafı yalnız qrammatik normaların və lüğət ehtiyatının mənimsənilməsi ilə məhdudlaşmır. Bu proses şagirdlərin yaradıcı və tənqidi düşünmə bacarıqlarının, sistemli fikir ifadə etmə vərdişlərinin formalaşdırılmasını da əhatə edir (Balıyev, 1992).

Müasir pedaqogikada yazılı nitqin inkişafı üçün ənənəvi və interaktiv metodların birlikdə tətbiqi mühüm əhəmiyyət kəsb edir. Balıyev və Balıyev bu metodların şagirdlərdə həm düzgün yazı bacarığı, həm də sərbəst fikir ifadəsi yaratdığını qeyd edirlər (Balıyev & Balıyev, 2014).

Kazımov və Osmanova interaktiv üsulların şagirdlərin sərbəst yazı bacarığını gücləndirdiyini vurğulayırlar (Kazımov & Osmanova, 2011). Qrup işləri, diskussiyalar, esse və layihələr yazılı ifadəni zənginləşdirir və yaradıcı təfəkkürün inkişafına şərait yaradır.

Metodların düzgün seçimi və məqsədyönlü tətbiqi yazılı nitqin səmərəli inkişafına birbaşa təsir göstərir.

**1. Yazılı nitqin müasir çağırışları**

XXI əsrdə yazılı nitqin inkişafına mühüm təsir göstərən əsas amillərdən biri rəqəmsal kommunikasiya mühitidir. Rəqəmsal texnologiyalar yazılı ünsiyyəti sürətləndirsə də, eyni zamanda ədəbi dil normalarının pozulması riskini də artırır (Həsənov, 2003; Kazımov & Osmanova, 2011).

Azərbaycan dilçiliyində yazının məntiqi ardıcıllıq və dərin təhlil imkanları xüsusi vurğulanır (Abdullayev, 2013; Babayev, 2009). Bu baxımdan yazılı nitqin düzgün və məqsədyönlü inkişafı müasir dövrdə daha böyük əhəmiyyət kəsb edir.

Ali təhsil müəssisələrində akademik yazı, ümumtəhsil məktəblərində isə yaradıcı yazı məşğələlərinin tətbiqi geniş vüsət almışdır. Bu məşğələlər tələbələrdə və şagirdlərdə mənbə ilə işləmə, sitat gətirmə və arqument qurma bacarıqlarını formalaşdırır. Həsənov bu tip məşğələlərin nitq mədəniyyətinin əsas dayaqlarından biri olduğunu qeyd edir (Həsənov, 2003).

**2. Akademik yazı və idrakın inkişafı**

Akademik yazı yazılı nitqin daha yüksək mərhələsi olmaqla, insanın idrak potensialının dərinləşməsində və elmi düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Akademik yazı yalnız məlumatın ötürülməsi məqsədi daşımır, eyni zamanda yazanın analitik təfəkkürünü, məntiqi yanaşmasını və arqumentasiya bacarığını sistemləşdirir. Bu yazı növü tələbələrdə səbəb-nəticə əlaqələri qurmaq, faktları müqayisə etmək, ümumiləşdirmə aparmaq və elmi nəticələr çıxarmaq bacarıqlarını gücləndirir.

Abdullayev akademik yazının nitq mədəniyyətinin yüksək mərhələsi olduğunu və onun məntiqi ardıcıllıq, üslub dəqiqliyi və terminoloji düzgünlük kimi xüsusiyyətlər üzərində formalaşdığını qeyd edir (Abdullayev, 2013). Babayev isə akademik yazının idrakın analitik mərhələsinin məhsulu olduğunu və elmi təfəkkürün əsas göstəricilərindən biri sayıldığını vurğulayır (Babayev, 2009).

Akademik yazı prosesində tələbələr mənbələrlə işləmə, sitat gətirmə, elmi etikaya riayət etmə və arqumentli mövqe formalaşdırma bacarıqları qazanırlar. Həsənovun fikrincə, akademik yazı nitq mədəniyyətinin məntiqi davamı olmaqla elmi idrakın strukturlaşmasına xidmət edir (Həsənov, 2003). Bu baxımdan akademik yazı yalnız dil bacarığı deyil, həm də idrakın sistemli şəkildə inkişaf etdirilməsi vasitəsi kimi qiymətləndirilməlidir.

Müasir ali təhsil sistemində esse, referat, kurs işi və məqalə yazıları tələbələrin müstəqil düşünmə, təhlil aparma və arqument qurma bacarıqlarının inkişafında mühüm rol oynayır. Bu proseslərin nəticəsində tələbələrin elmi dünyagörüşü formalaşır, tənqidi və yaradıcı düşünmə qabiliyyəti möhkəmlənir.

**3. Yazılı nitqin mərhələli inkişaf modeli**

Yazılı nitqin inkişafı mərhələli xarakter daşıyır və insanın yaş xüsusiyyətlərinə, idrak səviyyəsinə və dil təcrübəsinə uyğun olaraq tədricən formalaşır. Bu inkişaf ibtidai mərhələdən başlayaraq sistemli şəkildə orta və yüksək mərhələlərə doğru irəliləyir.

Əhmədov yazılı nitqin ilkin mərhələdə əsasən mexaniki yazı bacarıqları üzərində qurulduğunu, sonrakı mərhələlərdə isə məntiqi ardıcıllıq və məzmun zənginliyinin ön plana keçdiyini bildirir (Əhmədov, 1974). Məktəbin ibtidai siniflərində yazılı nitqin inkişafı əsasən düzgün yazı vərdişlərinin, orfoqrafiya və punktuasiya qaydalarının formalaşdırılmasına yönəlir. Bu mərhələdə şagirdlərin diqqəti daha çox texniki düzgünlüyə istiqamətlənir.

Orta pillədə şagirdlər artıq mətni plan əsasında qurmağı, fikri ardıcıllıqla ifadə etməyi, sadə təhlil və ümumiləşdirmələr aparmağı bacarırlar. Hüseynova bu mərhələdə yerinə yetirilən yazılı tapşırıqların şagirdlərin idrak fəallığını artırdığını vurğulayır (Hüseynova, 2014).

Ali təhsil mərhələsində isə yazılı nitq daha yüksək səviyyədə — akademik və elmi yazı formasında özünü göstərir. Bu mərhələdə tələbələr sərbəst mövqe bildirmək, elmi terminlərdən düzgün istifadə etmək və kompleks mətn qurmaq bacarıqlarına yiyələnirlər. Balıyev yazılı nitqin mərhələli inkişafının tədris metodikasında əsas prinsip kimi nəzərə alınmasının vacibliyini xüsusi qeyd edir (Balıyev, 1992).

Beləliklə, yazılı nitqin inkişafı mərhələli proses olmaqla, hər mərhələdə fərqli məqsədlər və metodlarla tənzimlənməli, idrak imkanlarının ardıcıl şəkildə genişlənməsinə xidmət etməlidir.

### 4. Yazılı nitqin qiymətləndirilmə meyarları

Yazılı nitqin obyektiv və elmi əsaslarla qiymətləndirilməsi onun düzgün istiqamətdə inkişafının təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Qiymətləndirmə yalnız nəticəni deyil, həm də şagird və tələbənin idrak səviyyəsini, düşüncə tərzini və dil bacarıqlarını üzə çıxarır.

Həsənov yazılı nitqin qiymətləndirilməsində əsas meyarlar kimi məntiqi ardıcıllıq, leksik zənginlik, qrammatik düzgünlük, üslub uyğunluğu, orfoqrafiya və punktuasiya qaydalarına riayət olunmasını göstərir (Həsənov, 2003). Bu göstəricilər yazılı nitqin həm formaca, həm də məzmunca keyfiyyət səviyyəsini müəyyənləşdirir.

Hüseynova qiymətləndirmə prosesinin yalnız səhvlərin aşkara çıxarılmasına deyil, eyni zamanda yazı bacarığının inkişafına xidmət etməli olduğunu bildirir (Hüseynova, 2014). Bu baxımdan qiymətləndirmə şagirdin motivasiyasını zəiflədən deyil, onu yazıya daha çox həvəsləndirən istiqamətdə aparılmalıdır.

Kazımov və Osmanova yazılı nitqin qiymətləndirilməsində interaktiv yoxlama üsullarının — qarşılıqlı rəy, qrup müzakirəsi və şagirdin özünüqiymətləndirməsinin əhəmiyyətini xüsusi vurğulayırlar (Kazımov & Osmanova, 2011). Bu üsullar yazının daha şüurlu şəkildə inkişafına şərait yaradır.

Beləliklə, yazılı nitqin qiymətləndirilməsi yalnız nəticə yönümlü deyil, proses yönümlü xarakter daşımalı, şagird və tələbələrin idrak inkişafını dəstəkləyən əsas mexanizmlərdən birinə çevrilməlidir.

## Nəticə

Yazılı nitq insanın düşüncə və idrakının inkişafında mühüm rol oynayır, çünki o, məntiqi ardıcıllığın qurulmasına, analitik və yaradıcı təfəkkürün formalaşmasına kömək edir. Yazı prosesi insanın fikrini planlaşdırmasına, səbəb-nəticə əlaqələrini düzgün qurmasına və daha əsaslı mühakimələr formalaşdırmasına imkan yaradır. Yazılı nitqin inkişafı idrak imkanlarını və müstəqil düşünmə bacarığını gücləndirdiyi üçün təhsil sistemində onun daim diqqət mərkəzində saxlanılması vacibdir.

## Ədəbiyyat

1. Abdullayev, A. (1966). *Müəllimin nitq mədəniyyəti*. Maarif.
2. Abdullayev, A. (1966). *Nitq mədəniyyəti və natiqlik məharəti haqqında*. Maarif.
3. Abdullayev, N. Ə. (2013). *Nitq mədəniyyətinin əsasları*. AMEA.
4. Babayev, A. (2009). *Azərbaycan dili və nitq mədəniyyəti*. Elm.
5. Balıyev, H. (1992). *Azərbaycan dilinin tədrisi metodikasına dair praktik işlər*. Maarif.
6. Balıyev, A., & Balıyev, H. (2014). *Azərbaycan dilinin tədrisi metodikası*. Qismət.
7. Əhmədov, B. (1998). *Azərbaycan dili dərslərində şagirdlərin nitqini inkişaf etdirmək yolları*. Maarif.
8. Əhmədov, B. A. (1974). *Azərbaycan dili təliminin qanunları, prinsipləri və metodları*. Maarif.
9. Həsənov, H. (2003). *Nitq mədəniyyəti və üslubiyyatın əsasları*. Elm.
10. Hüseynova, H. (2014). *Nitqin inkişafına dair praktik məşğələlər*. Elm və Təhsil.
11. Hüseynov, R., & Qaracayeva, E. (2016). *Azərbaycan dili və nitq mədəniyyəti*. Elm və Təhsil.
12. Kazımov, A., & Osmanova, T. (2011). *Azərbaycan dili dərslərində interaktiv təlim metodları*. Elm və Təhsil.
13. Məmmədov, O. (2013). Təlimdə interaktiv metod və formaların tətbiqi. *Azərbaycan məktəbi: Elmi-nəzəri, pedaqoji jurnal*, №3, 56–58.
14. Nəbiyeva, Ş. (2010). *Ana dili tədrisi metodikasının aktual problemləri*. Elm və Təhsil.
15. Nəbiyeva, Ş. (2010). *Ana dili dərslərində şagirdləri fəallaşdıran tapşırıqlar*. Elm və Təhsil.
16. Rəhimov, A. (1997). *Ana dilinin tədrisi metodikası*. Maarif.

Daxil oldu: 13.08.2025
Qəbul edildi: 19.11.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/123-128

**Ülkər Kərimova**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0002-0426-5340
kerimovaulkr@gmail.com

# Turizm sənayesində infrastruktur aktivlərinin qiymətləndirilməsi

## Xülasə

Məqalədə turizm sənayesində infrastruktur aktivlərinin qiymətləndirilməsi və bu prosesin uçotla əlaqəsi geniş şəkildə təhlil edilir. Turizmin qlobal iqtisadiyyatda artan rolu və turizm axınlarının sürətlə yüksəlməsi fonunda infrastrukturun keyfiyyətinin strateji əhəmiyyəti vurğulanır. İnfrastruktur aktivləri olan otellər, istirahət mərkəzləri, nəqliyyat obyektləri, rekreasiya və xidmət infrastrukturlarının real dəyərinin müəyyənləşdirilməsi həm investisiya qərarlarının verilməsi, həm də dövlət–özəl sektor inkişaf strategiyalarının hazırlanması baxımından mühüm əhəmiyyət daşıyır.

Məqalədə aktivlərin maliyyə hesabatlarında tanınması, ölçülməsi, amortizasiyası və dəyərsizləşməsi IFRS tələbləri əsasında izah olunur. Qiymətləndirmə prosesində istifadə olunan əsas metodlar – dəyər, gəlir və bazar yanaşmaları müqayisəli şəkildə təqdim edilir və otellər, hava limanları, istirahət kompleksləri kimi obyektlər üzrə praktiki tətbiqlər verilir.

Məqalədə həmçinin turizm aktivlərinin qiymətləndirilməsində müasir çağırışlar və innovativ texnologiyaların rolu, eləcə də GIS, Big Data, süni intellekt və rəqəmsal monitorinq sistemləri araşdırılır. Sonda infrastruktur aktivlərinin effektiv auditinin aparılması, standartlaşdırılmış qiymətləndirmə metodologiyasının tətbiqi və dövlət–özəl sektor əməkdaşlığının gücləndirilməsi ilə bağlı tövsiyələr təqdim edilir.

Ümumilikdə məqalə göstərir ki, turizm infrastrukturunun düzgün qiymətləndirilməsi sektorda şəffaflığı artırır, investisiya cəlbediciliyini gücləndirir və turizmin davamlı inkişafı üçün strateji əsas yaradır.

***Açar sözlər:*** *turizm infrastrukturu, infrastruktur aktivlərinin qiymətləndirilməsi, aktivlərin uçotu, IFRS (Beynəlxalq Maliyyə Hesabatları Standartları), amortizasiya, GIS və Big Data*

**Ulkar Karimova**
Baku Business University
Master's student
https://orcid.org/0009-0002-0426-5340
kerimovaulkr@gmail.com

# Valuation of Infrastructure Assets in the Tourism Industry

## Abstract

The article provides an extensive analysis of the valuation of infrastructure assets in the tourism industry and its connection with accounting practices. Against the backdrop of the growing role of tourism in the global economy and the rapid increase in tourism flows, the strategic importance of infrastructure quality is emphasized. Determining the real value of infrastructure assets such as hotels, recreation centers, transport facilities, and recreational and service infrastructure is of critical significance for investment decision-making as well as for developing public–private sector cooperation strategies.

The article explains the recognition, measurement, depreciation, and impairment of assets in financial statements in accordance with IFRS requirements. The main valuation approaches used in

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

the assessment process—cost, income, and market approaches—are presented comparatively, accompanied by practical applications for objects such as hotels, airports, and leisure complexes.

The article further explores contemporary challenges in the valuation of tourism assets and the role of innovative technologies, including GIS, Big Data, artificial intelligence, and digital monitoring systems. It concludes with recommendations regarding the effective auditing of infrastructure assets, the implementation of standardized valuation methodologies, and the strengthening of public–private sector collaboration.

Overall, the article demonstrates that the proper valuation of tourism infrastructure enhances transparency in the sector, increases investment attractiveness, and establishes a strategic foundation for the sustainable development of tourism.

***Keywords:*** *tourism infrastructure, valuation of infrastructure assets, asset accounting, IFRS (International Financial Reporting Standards), depreciation, GIS and Big Data*

## Giriş

Turizm sektoru müasir qlobal iqtisadiyyatın ən sürətlə inkişaf edən sahələrindən biri olaraq ölkələrin sosial-iqtisadi inkişafında mühüm rol oynayır və infrastruktura olan tələbatı artırır. Turizm infrastrukturunun səviyyəsi turist məmnuniyyətini və regionların cazibədarlığını müəyyən edən əsas amillərdəndir. Bu səbəbdən turizm infrastrukturuna aid aktivlərin düzgün qiymətləndirilməsi investisiya qərarları, risklərin idarə edilməsi və inkişaf strategiyalarının hazırlanması üçün xüsusi əhəmiyyət kəsb edir.

Məqalənin əsas məqsədi turizm aktivlərinin qiymətləndirilməsi metodlarını, bu prosesə təsir edən faktorları və infrastrukturun turizmin davamlı inkişafındakı rolunu təhlil etməkdir. Mövzunun aktuallığı çağdaş iqtisadi mühitdə artan qeyri-müəyyənliklər fonunda turizmin strateji əhəmiyyətinin yüksəlməsi ilə bağlıdır (Hüseynov & Əfəndiyeva, 2007).

**Tədqiqat**

Son onillikdə turizm axınlarının artması və xidmət sektorunun genişlənməsi turizmi qlobal iqtisadiyyatın aparıcı sahələrindən birinə çevirib. 2025-ci il BMT-nin Dünya Turizm Barometrinə görə, ilin ilk üç ayında 300 milyondan çox beynəlxalq turist səfər edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 5% çox və pandemiyadan əvvəlki dövrə nisbətən 3% yüksəkdir (Statistika Komitəsi, n.d.).

**Cədvəl 1. Beynəlxalq turist səfərlərinin dinamikası (milyon).**

| İl | Beynəlxalq turist səfərləri (milyon) |
|---|---|
| 2019 | 291 |
| 2024 | 286 |
| 2025 | 300 |

**Mənbə:** Statista, n.d.

Sektorun belə güclü nəticələr əldə etməsinə baxmayaraq, turizm sahəsi müxtəlif geosiyasi və ticarət gərginlikləri, eləcə də səyahət və turizm xidmətlərində yüksək inflyasiya ilə üzləşməyə davam etmişdir (Hossain & Chon, 2020):

**Şəkil 1. Beynəlxalq turist səfərlərinin dinamikası.**

2019-cu illə müqayisədə dəyişiklik (%)




**Mənbə:** (UN Tourism (UNTourism, n.d.)

Turizm sektorundan gəlirlərə gəlincə 2025-ci ilin əvvəlində bir çox istiqamətlərdə gəlirlərdə güclü artım müşahidə olunmuşdur:

**Şəkil 2. Beynəlxalq turizm gəlirlərin dinamikası (% ).**

2019-cu illə müqayisədə dəyişiklik (%)




**Mənbə:** (UN Tourism (UNTourism, n.d.)

Yuxarıda qeyd olunan göstəricilər turizmin son dövrlərdə iqtisadiyyatın canlanmasında əhəmiyyətini vurğulayır və getdikcə ölkələrin ÜDM-də payını artırır. Buna görə də turizm infrastrukturunun genişlənməsi və müasir artan tələblərə cavab verəcək şəkildə inkişafı öz əhəmiyyətini ön plana çəkir (UN Tourism [UNTourism], n.d.).

Turizm sənayesində infrastruktur aktivlərinin qiymətləndirilməsinin əsas mərhələlərindən biri onların düzgün uçotunun aparılmasıdır. Dəqiq və tam uçot məlumatları olmadan aktivlərin dəyərini müəyyənləşdirmək mümkün deyil. Uçot prosesinə obyektlərin fiziki vəziyyəti, istismar müddəti, texniki göstəriciləri, amortizasiya dərəcəsi, gəlirlilik potensialı və bərpa xərcləri haqqında məlumatların toplanması daxildir. Məsələn, otel və hava limanları kimi obyektlərdə yalnız ilkin dəyər

deyil, həm də xidmət səviyyəsi, doluluq göstəriciləri və yenilənmə ehtiyacları nəzərə alınmalıdır (Azərbaycan Respublikası, 2016).

Turizm infrastrukturunun qiymətləndirilməsi uçot və auditlə sıx bağlıdır və bu proseslər düzgün aparılmadıqda nəticələrin etibarlılığı azalır. Aktivlərin maliyyə hesabatlarında dəqiq əks etdirilməsi normativ tələblərə əməl olunması və real maliyyə vəziyyətinin şəffaf göstərilməsi baxımından vacibdir. Aktivlərin tanınması, ölçülməsi və amortizasiyası IFRS və milli uçot standartlarına uyğun həyata keçirilməlidir (*IAS 16 – Property, Plant and Equipment*).

Turizm infrastruktur aktivləri maliyyə hesabatlarında əsas vasitələr kimi tanınır və yalnız gələcək iqtisadi fayda gətirdikdə və dəyəri etibarlı ölçüldükdə balansda əks olunur. Aktivlər ilkin olaraq alış qiyməti və istifadə üçün hazırlanma xərclərini əhatə edən ilkin dəyəri ilə tanınır. Sonrakı dövrlərdə müəssisələr tarixi dəyər və ya yenidən qiymətləndirmə modellərindən birini seçə bilər. Premium otellər və strateji turizm obyektləri daha çox yenidən qiymətləndirmədən istifadə edir.

Aktivlər fiziki və funksional köhnəlməyə məruz qaldığından amortizasiya tətbiq edilir; ən çox düz xətt üsulu seçilir. Turizm obyektləri mövsümi dəyişikliklər və iqtisadi risklər səbəbindən dəyərsizləşə bilər və IFRS-ə uyğun olaraq bu zərərlər tanınmalıdır. Maliyyə hesabatlarında aktivlərin kateqoriyaları, amortizasiya qaydaları, yenidən qiymətləndirmə nəticələri və dəyərsizləşmə barədə məlumatlar açıqlanmalıdır (Cabbarov, 2015).

Bəzi aktivlər — brend, lisenziyalar, ekoturizm obyektləri və torpaq — xüsusi uçot yanaşması tələb edir. Ümumilikdə, turizm aktivlərinin qiymətləndirilməsində üç əsas metoddan istifadə olunur və seçim aktivin növü və dəyər məqsədi ilə müəyyən edilir (*IAS 36 – Impairment of Assets*).

**Cədvəl 2. Turizm aktivlərinin qiymətləndirilməsi metodları.**

| **Metod** | **Təsviri** | **Turizm Sektorunda Üstünlükləri** | **Məhdudiyyətləri** | **Uyğun Aktiv Nümunələri** |
|---|---|---|---|---|
| **Dəyər (Cost-Based)** | Aktivin alış və ya tikinti xərcləri əsasında qiymətləndirilməsi, amortizasiya nəzərə alınır | Sadə və praktik, yeni tikilmiş obyektlər üçün əlverişlidir | Bazar dəyişiklikləri və gəlir potensialını nəzərə almır | Yeni tikilmiş hotellər, restoranlar |
| **Gəlir (Income-Based)** | Aktivdən əldə ediləcək gəlirin diskontlaşdırılmış dəyəri | Aktivin iqtisadi səmərəliliyini əks etdirir, investorlar üçün maliyyə göstəricisi verir | Gəlir proqnozlarının subyektivliyi və diskont dərəcəsinin seçimi qiymətləndirməni təsir edə bilər | Mövcud otel və istirahət kompleksləri |
| **Bazar (Market-Based)** | Oxşar aktivlərin bazar qiymətləri ilə müqayisə | Real bazar şərtlərini əks etdirir, investorlar üçün asan anlaşılandır | Oxşar obyektlərin olmaması və bazar dəyişkənliyi problemlidir | Tarixi və mədəni əhəmiyyətli turizm obyektləri |

**Mənbə:** İFRS 13- Fair Value Measurement

Turizm aktivlərinin qiymətləndirilməsində yeni tikililər üçün dəyər, mövcud komplekslər üçün gəlir, tarixi və mədəni obyektlər üçün isə bazar yanaşması tətbiq olunur. Daha dəqiq nəticə əldə etmək üçün metodlar çox zaman birləşdirilir.

Praktik qiymətləndirmədə obyektin real göstəriciləri və regional xüsusiyyətlər nəzərə alınır. Otellər və istirahət mərkəzləri üçün əsasən gəlir və dəyər yanaşmaları istifadə edilir. Bu zaman otaqların doluluq faizi, orta günlük qiymət (ADR), gəlir göstəriciləri (RevPAR), əməliyyat və təmir xərcləri, avadanlıqların köhnəlməsi, əlavə xidmət gəlirləri, həmçinin bazar şərtləri və mövsümsallıq kimi amillər qiymətləndirməyə daxil edilir (Turizm Nazirliyi, n.d.).

Məsələn, Bakıda yüksək sinif otellərin qiymətləndirilməsində gəlir yanaşması üstünlük təşkil edir, çünki bu otellərdən əldə edilən gəlir bazar dəyərinə əsaslanır. Qəbələ və Quba kimi regionlarda isə dəyər yanaşması, tikinti və binaların fiziki xərcləri əsasında qiymətləndirmə daha çox tətbiq olunur (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, n.d.).

**Cədvəl 3. Turizm aktivlərinin qiymətinin regionlar üzrə fərqləndirilməsi.**

| Region | Qiymətləndirmə Yanaşması | Əsas Təsir Göstəriciləri | Misal Obyektlər |
|---|---|---|---|
| Bakı | Gəlir və bazar yanaşması | Turist axını, otel doluluğu, xidmət səviyyəsi | 5 ulduzlu otellər, konfrans mərkəzləri |
| Qəbələ | Dəyər və gəlir yanaşması | Tikinti xərcləri, təbii sərvətlər, mövsümsallıq | Dağ turizmi otelləri, istirahət kompleksləri |
| Quba | Dəyər yanaşması | Fiziki vəziyyət, region turizmi tələbi | Kiçik otellər, kənd turizmi obyektləri |

**Mənbə:** Dövlət Turizm Agentliyinin regionların turizm potensialı barədə analitik məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

Bu gün turizm sənayesində infrastruktur aktivlərinin qiymətləndirilməsi getdikcə daha mürəkkəb xarakter alır və həm dəqiqliyin artırılması, həm də maliyyə hesabatlarında şəffaflığın təmin olunması məqsədilə çoxşaxəli yanaşma tələb edir. Bu çərçivədə ilk vacib addım aktivlərin davamlı şəkildə izlənməsi və mütəmadi auditidir. Turizm obyektlərinin dəyəri zaman keçdikcə müxtəlif iqtisadi, texniki və bazar amillərinə bağlı olaraq dəyişdiyi üçün müəssisələr ildə heç olmasa bir dəfə aktivlərinin texniki vəziyyətini və iqtisadi dəyərini yenidən qiymətləndirməlidir. Müstəqil auditorların prosesə cəlb olunması, aparılan yoxlamaların nəticələrinin maliyyə hesabatlarında tam açıqlanması və monitorinq zamanı aktivin amortizasiya sürəti, gəlirlilik səviyyəsi və bazardakı müqayisəli dəyərinin izlənməsi real dəyərin müəyyən edilməsini xeyli dəqiqləşdirir və potensial maliyyə risklərinin qarşısını alır (UNWTO, 2019).

Rəqəmsallaşma turizm aktivlərinin qiymətləndirilməsinə yeni imkanlar açır və bu prosesin analitik əsaslı, dəqiq və operativ şəkildə həyata keçirilməsinə şərait yaradır.

– GIS texnologiyaları turizm obyektlərinin yerləşmə üstünlüklərini qiymətləndirmək, ətraf mühit və infrastruktur amillərini təhlil etmək üçün geniş istifadə olunur.

– Big Data analitikası turist axınları, mövsümi dəyişikliklər, otel doluluq səviyyələri və qiymət tendensiyalarına dair böyük həcmli məlumatların emalını mümkün edir.

– Süni intellekt və maşın öyrənməsi vasitəsilə turizm tələbi daha dəqiq proqnozlaşdırılır və qiymətləndirmə üçün optimal modellər qurulur.

Bu texnologiyaların tətbiqi qiymətləndirmə prosesində subyektivliyi azaldır, insan səhvlərini minimuma endirir və obyektiv nəticələr əldə etməyə imkan verir.

Paralel olaraq, turizm infrastrukturunun davamlı inkişafı üçün dövlət və özəl sektorun koordinasiyalı fəaliyyəti mühüm əhəmiyyət kəsb edir. Dövlət investisiya təşviqləri, vergi güzəştləri və normativ-hüquqi mexanizmlərlə özəl sektorun qarşısında sabit və əlverişli mühit yaratmalıdır. Özəl sektor isə öz növbəsində müasir standartlara uyğun infrastruktur yaratmaq, innovativ həlləri tətbiq etmək və şəffaf maliyyə hesabatlığına riayət etməklə sektora töhfə verməlidir. Həmçinin dövlət və özəl sektorun birgə şəkildə vahid qiymətləndirmə metodologiyası hazırlaması turizm layihələrinin dəyərinin daha düzgün və obyektiv müəyyən olunmasına şərait yaradar. Bu əməkdaşlıq nəticə etibarilə turizm sənayesində rəqabətliliyi gücləndirir, investisiya cəlbediciliyini artırır və uzunmüddətli, dayanıqlı inkişaf üçün etibarlı baza formalaşdırır (IFRS 13 – *Fair Value Measurement*).

## Nəticə

Aparılan araşdırmalar göstərir ki, turizm sənayesində infrastruktur aktivlərinin düzgün qiymətləndirilməsi iqtisadi qərarların, investisiya strategiyalarının və turizm siyasətinin formalaşması üçün əsas şərtdir. İnfrastrukturun keyfiyyəti turist axınına və regional inkişaf tempinə birbaşa təsir etdiyindən, qiymətləndirmə həm maliyyə, həm də strateji əhəmiyyət kəsb edir. Məqalədə IFRS tələblərinə uyğun aktivlərin tanınması, ölçülməsi və dəyərsizləşməsi izah edilir, dəyər, gəlir və bazar yanaşmalarının obyektin xüsusiyyətlərinə uyğun seçilməsinin vacibliyi vurğulanır. Bakı, Qəbələ və Quba üzrə müqayisələr göstərir ki, regional fərqliliklər qiymətləndirmə nəticələrinə ciddi təsir göstərir. Nəticə olaraq, rəqəmsal texnologiyaların tətbiqi, vahid standartların yaradılması və audit mexanizmlərinin gücləndirilməsi turizm infrastrukturunun effektiv idarə edilməsinə və investisiya mühitinin yaxşılaşdırılmasına mühüm töhfə verir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası. (2016). *İxtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi.*
2. Cabbarov, Ə. (2015). *Turizmin iqtisadi əsasları.* ADPV Nəşriyyatı.
3. Hossain, A., & Chon, K. (2020). *Tourism infrastructure development and management.* Routledge.
4. Hüseynov, İ., & Əfəndiyeva, N. (2007). *Turizmin əsasları.* Mars-Print.
5. IAS 16 – Property, plant and equipment.
6. IAS 36 – Impairment of assets.
7. IFRS 13 – Fair value measurement.
8. Statistika Komitəsi. (n.d.). *Turizm məlumatları.* https://www.stat.gov.az/source/tourism/
9. Statista. (n.d.). https://www.statista.com
10. Turizm Nazirliyi. (n.d.). https://www.tourism.gov.az
11. UN Tourism (UNTourism). (n.d.). https://www.untourism.int
12. UNWTO. (2019). *Tourism satellite account: Recommended methodological framework.* UN Publications.
13. UNWTO. (2024/2025). *International tourism highlights.*

Daxil oldu: 08.08.2025
Qəbul edildi: 21.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/129-134

**Alim Allahverdiyev**
Bakı Dövlət Universiteti
magistrant
https://orcid.org/0009-0003-9610-7012
aallahverdilii@gmail.com

# COP29 və Azərbaycan: Qlobal ekoloji davamlılıq təşəbbüslərinin milli siyasətə təsiri

## Xülasə

Məqalədə COP29 kimi qlobal ekoloji konfransların Azərbaycan Respublikasının milli ekoloji siyasətinə təsiri kompleks şəkildə təhlil edilir. Xüsusilə, ölkənin bu konfrans çərçivəsində qəbul etdiyi iqlim öhdəliklərinin hüquqi və institusional səviyyədə hansı dəyişikliklərə səbəb olduğu araşdırılır. İşğaldan azad olunmuş ərazilərin ekoturizm potensialı, dövlət proqramlarında ekoloji təşəbbüslərin rolu, xüsusi iqtisadi zonaların hüquqi rejimi və yerli-xarici maraqların balansı kimi məsələlər elmi əsaslarla təhlil olunmuşdur. Məqalədə həmçinin Azərbaycan qanunvericiliyinin beynəlxalq ekoloji normalarla uyğunlaşdırılması, idarəetmədə koordinasiyanın gücləndirilməsi, ekoloji məsuliyyət və maliyyə stimulları kimi mexanizmlər də qiymətləndirilmişdir. Nəticədə, COP29-un təsiri ilə Azərbaycan üçün yeni bir yaşıl hüquqi mühitin formalaşması istiqamətində praktiki və strateji təkliflər irəli sürülmüşdür.

COP29-un Azərbaycanda keçirilməsi, ölkənin ekoloji siyasətinə qlobal ekoloji idarəetmə sisteminin struktur elementlərini daxil etməsi üçün konkret imkanlar yaratmışdır. Bu konfrans çərçivəsində əldə olunan beynəlxalq razılaşmalar və tövsiyələr yalnız iqlim dəyişiklikləri ilə mübarizədə deyil, həm də milli qanunvericiliyin transformasiyası və institusional islahatların sürətləndirilməsi baxımından strateji əhəmiyyət daşıyır. Həmçinin, Azərbaycanın yaşıl maliyyə alətlərinə çıxış imkanları genişlənmiş, bu da post-COP dövründə investisiya yönümlü ekoloji təşəbbüslərin həyata keçirilməsi üçün münbit zəmin yaratmışdır.

***Açar sözlər:*** *COP29, ekoloji siyasət, iqlim dəyişiklikləri, Azərbaycan, yaşıl iqtisadiyyat, ekoturizm, beynəlxalq öhdəliklər, hüquqi tənzimləmə, azad iqtisadi zonalar*

**Alim Allahverdiyev**
Baku State University
Master's student
https://orcid.org/0009-0003-9610-7012
aallahverdilii@gmail.com

# COP29 and Azerbaijan: The Impact of Global Environmental Sustainability Initiatives on National Policy

## Abstract

This article provides a comprehensive analysis of the impact of global environmental summits, particularly COP29, on Azerbaijan's national environmental policy. It explores how the climate commitments undertaken by Azerbaijan within the COP29 framework have influenced both legal and institutional changes in the country. Special attention is given to the environmental potential of the liberated territories, the integration of ecological initiatives in state programs, the legal status of special economic zones, and the balance between local and foreign interests. The paper also evaluates the alignment of Azerbaijani environmental legislation with international standards, enhancement of governance coordination, and the role of ecological liability and financial incentives. Ultimately, the

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

study proposes strategic and practical recommendations for establishing a green legal framework in Azerbaijan in the post-COP29 period.

The hosting of COP29 in Azerbaijan has created concrete opportunities for incorporating structural elements of global environmental governance into the country's ecological policy. The international agreements and recommendations reached during the conference hold strategic significance not only in combating climate change but also in accelerating the transformation of national legislation and institutional reforms. Moreover, Azerbaijan has expanded its access to green financial instruments, which has laid a fertile foundation for the implementation of investment-oriented ecological initiatives in the post-COP period.

***Keywords:*** *COP29, environmental policy, climate change, Azerbaijan, green economy, ecotourism, international commitments, legal regulation, special economic zones*

## Giriş

Qlobal miqyasda ekoloji davamlılıq məsələləri son onillikdə beynəlxalq hüquq və iqtisadi siyasətin əsas istiqamətlərindən birinə çevrilmişdir. İqlim dəyişikliklərinin fəsadları və təbii ehtiyatların tükənməsi kontekstində dünya dövlətləri arasında ekoloji məsuliyyətin paylaşılması və iqlim öhdəliklərinin həyata keçirilməsi üçün beynəlxalq forumlar getdikcə daha önəmli rol oynamaqdadır. Bu baxımdan, Birləşmiş Millətlər Təşkilatının təşkil etdiyi COP (Conference of the Parties) konfransları qlobal ekoloji idarəetmənin əsas platforması olaraq çıxış edir.

COP29 tədbirinin Azərbaycan Respublikasında keçirilməsi ölkə üçün yalnız beynəlxalq nüfuz baxımından deyil, həm də daxili ekoloji siyasətin transformasiyası üçün yeni imkanlar yaratmışdır. Konfrans çərçivəsində ölkənin üzərinə götürdüyü öhdəliklər, “yaşıl enerji” texnologiyalarının tətbiqi, karbon emissiyalarının azaldılması, ətraf mühitin qorunması və dayanıqlı inkişaf prinsiplərinin hüquqi və institusional bazaya inteqrasiyası məsələləri bu məqalənin əsas tədqiqat obyektidir. Azərbaycan Respublikasının iqlim dəyişikliyi ilə bağlı qəbul etdiyi öhdəliklər — xüsusilə 2050-ci ilə qədər “net-zero” (xalis sıfır emissiya) hədəfi və alternativ enerji üzrə Milli Prioritetlərin müəyyən olunması — ölkə daxilində ekoloji hüququn, ətraf mühit siyasətinin və iqtisadi inkişaf strategiyalarının bir-biri ilə sinxronlaşdırılmasını zəruri edir (Alışanov, 2013).

**Tədqiqat**

Məqalədə COP29-un verdiyi siyasi və hüquqi impulsun işğaldan azad edilmiş ərazilərin ekoloji idarə olunması, xüsusi iqtisadi zonalarda yaşıl standartların tətbiqi və beynəlxalq sərmayələrin cəlb olunması kontekstində təhlili məqsəd qoyulmuşdur. Eyni zamanda, qlobal çağırışların milli hüquq sisteminə təsiri və ekoloji sabitliyin qorunması üçün təklif olunan hüquqi mexanizmlər də nəzərdən keçirilmişdir (Bayramov, 2018).

**Azərbaycan Respublikasının COP29 çərçivəsində götürdüyü öhdəliklər və onların hüquqi xarakteri**

Azərbaycan Respublikasının COP29 tədbirində iştirakı ölkənin qlobal iqlim gündəliyinə daha fəal inteqrasiya etməsi baxımından mühüm əhəmiyyət kəsb edir. 2024-cü ildə Bakının COP29-a ev sahibliyi etməsi Azərbaycanın beynəlxalq iqlim dəyişiklikləri ilə mübarizədə öz rolunu genişləndirmək və milli siyasətini bu sahədə təkmilləşdirmək niyyətini nümayiş etdirmişdir.

Paris Sazişi çərçivəsində götürülən öhdəliklərin yenilənməsi Azərbaycan üçün əsas prioritetlərdən biri olmuşdur. COP29 tədbiri zamanı Azərbaycan yeni Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələrini (NDC – Nationally Determined Contributions) təqdim etmişdir. Bu sənəddə karbon emissiyasının 2030-cu ilə qədər 35%-dən 40%-ə qədər azaldılması və 2050-ci ilə qədər iqlim neytrallığına çatmaq əsas strateji hədəf kimi müəyyən olunmuşdur.

Azərbaycanın bu öhdəlikləri hüquqi müstəvidə normativ hüquqi aktlar vasitəsilə formalaşdırılır. Buraya *Ekoloji Təhlükəsizlik haqqında* Qanun, *Ətraf Mühitin Mühafizəsi haqqında* Qanun və enerji səmərəliliyi, bərpa olunan enerji mənbələri haqqında qanunvericilik aktları daxildir. COP29 öhdəliklərinin icrası məqsədilə bu sənədlərə bir sıra dəyişikliklər və əlavələr edilməkdədir (Crystal, 2010).

Digər tərəfdən, Konstitusiyanın 39-cu maddəsi ətraf mühitin mühafizəsini və sağlam ekoloji şəraitdə yaşamaq hüququnu təmin edən əsas hüquqi baza rolunu oynayır. Azərbaycan dövlətinin beynəlxalq ekoloji öhdəlikləri Konstitusiyanın 151-ci maddəsinə əsasən beynəlxalq müqavilələrin üstün hüquqi qüvvəsi kontekstində tətbiq edilir.

Bu istiqamətdə əlaqələndirici dövlət orqanları – İqtisadiyyat Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi və Dövlət Şəhərsalma və Arxitektura Komitəsi – COP29 sonrası tədbirlərin icrası üçün yeni normativ hüquqi baza, fəaliyyət planları və monitorinq mexanizmləri hazırlayırlar (İsmayılova, 2019).

Bununla yanaşı, "Azərbaycanın İqlim Strategiyası – 2030" sənədinin hazırlanması da bu hüquqi öhdəliklərin daxili hüquq sisteminə tam inteqrasiyasını təmin etmək məqsədi daşıyır.




Yuxarıdakı qrafikdə Azərbaycanın karbon emissiyalarını azaltma üzrə 2010–2050-ci illər üçün qoyduğu hədəflər göstərilmişdir. COP29 çərçivəsində Azərbaycan 2030-cu ilə qədər 2010-cu illə müqayisədə 40% azalma, 2050-ci ilə qədər isə tam iqlim neytrallığı hədəfləyir. Qrafik bu məqsədlərin vizual izahını verir.

**2. Milli qanunvericiliyin COP29 öhdəliklərinə uyğunlaşdırılması və hüquqi islahatlar**

COP29 konfransı ilə birlikdə Azərbaycan öz iqlim öhdəliklərini daha da gücləndirmiş, 2030-cu ilə qədər istixana qazı emissiyalarının azaldılması üzrə konkret hədəflər götürmüşdür. Bu öhdəliklərin yerinə yetirilməsi üçün hüquqi bazanın müasirləşdirilməsi əsas şərtdir (Johnson, 2008).

**2.1. Mövcud qanunvericiliyin nəzərdən keçirilməsi**

Hazırda *Ətraf mühitin mühafizəsi haqqında*, *Atmosfer havasının mühafizəsi haqqında*, *Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında* qanunlar və digər normativ aktlar ekoloji hüquq sisteminin əsasını təşkil edir. Lakin bu aktlar çox zaman karbon emissiyası, iqlim dəyişikliyi və bərpa olunan enerji kimi spesifik iqlim məsələlərini əhatə etmir.

**2.2. Tənzimləmə boşluqları və uyğunsuzluqlar**

Bir çox beynəlxalq müqavilələrə qoşulsa da (məs., Paris Sazişi, Kyoto Protokolu), bu sənədlərin tələbləri milli hüquq sisteminə tam inteqrasiya edilməyib. Emissiya kvotaları, karbon bazarları və yaşıl sertifikatlaşdırma kimi sahələrdə hüquqi mexanizmlər ya zəifdir, ya da ümumiyyətlə mövcud deyil (Karimov (tərtibçi), 2015).

**2.3. Hüquqi islahatların istiqamətləri**

• İqlim Qanununun qəbul edilməsi (climate act) – strateji və institusional çərçivəni müəyyən edən əsas hüquqi sənəd olmalıdır.

• Emissiya kvotalarının hüquqi təsbiti və ticarəti ilə bağlı hüquqi rejimin formalaşdırılması.

• Yaşıl investisiya təşviqlərinin vergi və müqavilə hüququ vasitəsilə tənzimlənməsi.

• İqlim maliyyəsinin və beynəlxalq donor strukturlarından istifadənin hüquqi mexanizmlərinin hazırlanması.

**2.4. İnstitusional mexanizmlərin gücləndirilməsi**

İqlim siyasətinin effektiv həyata keçirilməsi üçün dövlət orqanları arasında səlahiyyət bölgüsünün aydınlaşdırılması və "Azərbaycan Yaşıl Maliyyə Agentliyi" və ya oxşar bir qurumun yaradılması təklif edilə bilər (Abdullayeva, 2021).

**3. Azərbaycanın enerji və sənaye siyasətinə təsir: Bərpa olunan enerji və yaşıl texnologiyalar sahəsində təşəbbüslər**

COP29 və iqlim dəyişikliyi ilə mübarizə təşəbbüsləri Azərbaycanın iqtisadiyyatında əsas yer tutan enerji və sənaye sektorlarını da əhatə edən struktur dəyişikliklərini zəruri edir. Bu istiqamətdə atılan addımlar həm qlobal öhdəliklərin yerinə yetirilməsi, həm də iqtisadi dayanıqlığın təmin olunması baxımından önəmlidir (Ismayilov, 2020).

**3.1. Bərpa olunan enerji siyasətinin gücləndirilməsi**

Azərbaycan hökuməti artıq 2030-cu ilə qədər istehsal gücünün 30%-ni bərpa olunan enerji mənbələri – günəş və külək enerjisi – ilə təmin etməyi qarşısına məqsəd qoyub. COP29 çərçivəsində bu hədəf daha dəqiq planlaşdırılmalı və investisiyalarla dəstəklənməlidir.

**Mühüm layihələr:**

• Qarabağ və Şərqi Zəngəzurda günəş enerjisi zonalarının yaradılması

• Səudiyyə Ərəbistanının ACWA Power və Birləşmiş Ərəb Əmirliklərinin Masdar şirkətləri ilə imzalanan müqavilələr

• Yaşıl enerji ixracı üçün "Xəzər–Avropa enerji koridoru"nun təşkili

**3.2. Yaşıl texnologiyaların tətbiqi və sənayedə transformasiya**

Sənaye sektorunda aşağı karbon texnologiyalarına keçid üçün texnoloji modernizasiya və vergi təşviqləri zəruridir. COP29 platformasında sənaye müəssisələrinin karbon ayıq (carbon-neutral) statusuna keçidi üçün yeni texnologiyaların və innovasiyaların dəstəklənməsi vacib olaraq vurğulanır (Məhərrəmova, 2021).

**Təklif olunan tədbirlər:**

• Enerji səmərəliliyinin artırılması üçün texnoloji subsidiyalar

• Karbon izi hesabatlılığı üzrə hüquqi çərçivənin tətbiqi

• Yaşıl sertifikatlaşdırma və karbon ticarəti platformalarının yaradılması

**3.3. Yaşıl investisiyaların cəlbi**

Enerji transformasiyasının reallaşması üçün beynəlxalq maliyyə qurumlarının (məs., Dünya Bankı, ADB, AIIB) yaşıl fondlarından istifadə, "Green Bond" və "Sustainable Finance" mexanizmlərinin Azərbaycanda tətbiqi gündəmdədir (Mehdiyev, 2022).

**4. Milli qanunvericiliyin uyğunlaşdırılması və ekoloji idarəetmənin gücləndirilməsi**

COP29 çərçivəsində götürülən öhdəliklərin effektiv icrası üçün yalnız iqtisadi və texnoloji deyil, hüquqi və institusional mexanizmlərin də gücləndirilməsi əsas prioritetlərdəndir. Azərbaycanın milli ekoloji siyasətində beynəlxalq normalarla uyğunluğun artırılması bu mərhələdə əsas şərtlərdəndir.

**4.1. Ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin yenilənməsi**

Azərbaycanın mövcud ekoloji qanunvericiliyi bir çox hallarda köhnə metodoloji yanaşmalar əsasında qurulub. COP29-un nəticələri bu qanunvericiliyin aşağıdakı istiqamətlərdə təkmilləşdirilməsini zəruri edir (Smith, 2019):

• Karbon emissiyalarının hüquqi tənzimlənməsi

• Yaşıl maliyyə mexanizmlərinin normativ çərçivəsinin yaradılması

• Ekoloji məlumatların açıqlığı və hesabatlılıq tələbləri

**4.2. İdarəetmə institutlarının koordinasiyasının artırılması**

COP29-un təcrübəsi göstərir ki, effektiv ekoloji islahatlar yalnız hüquqi baza ilə deyil, eyni zamanda güclü koordinasiya olunmuş idarəetmə mexanizmləri ilə həyata keçirilə bilər. Bu baxımdan, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə digər dövlət qurumları arasında sektorlararası əməkdaşlıq və monitorinq–informasiya platformalarının inteqrasiyası vacibdir (Williams, 2022).

**4.3. Hüquqi və maliyyə məsuliyyət mexanizmlərinin tətbiqi**

• İqlim öhdəliklərini yerinə yetirməyən subyektlər üçün sanksiya mexanizmlərinin formalaşdırılması

• Bərpa olunan enerji istifadə edən sahibkarlıq subyektləri üçün vergi güzəştləri və subsidiyalar

• Davamlı inkişaf məqsədlərinə uyğun ətraf mühit təsiri qiymətləndirməsi (ƏMTQ) prosedurlarının sərtləşdirilməsi

Bu da COP29-un hüquqi və institusional səviyyədə hansı islahatlara təkan verə biləcəyini və bu dəyişikliklərin Azərbaycan üçün uzunmüddətli ekoloji idarəetmə strukturuna necə təsir edə biləcəyini əhatə edir (Ivanov, 2017).

## Nəticə

COP29 kimi beynəlxalq iqlim konfransları yalnız qlobal iqlim dəyişikliyi ilə mübarizədə deyil, həm də milli siyasətlərin transformasiyasında mühüm rol oynayır. Azərbaycanın bu konfrans çərçivəsində götürdüyü öhdəliklər ölkənin ekoloji siyasətində həm normativ-hüquqi, həm də institusional səviyyədə dərin dəyişikliklərə zəmin yaradır.

**Aparılan təhlillər göstərdi ki:**

• İşğaldan azad edilmiş ərazilərin ekoturizm və yaşıl enerji baxımından dəyərləndirilməsi regional inkişaf strategiyalarında mühüm yer tutur;

• Dövlət proqramlarında ekoloji hədəflərin spesifikləşdirilməsi, idarəetmədə şəffaflıq və nəticəyönümlülüyün artırılmasını tələb edir;

• Azad iqtisadi zonalar və turizm klasterlərinin ekoloji hüquqi rejimlə tənzimlənməsi yaşıl iqtisadiyyat prinsiplərinin tətbiqini stimullaşdıra bilər;

• Hüquqi sistemin beynəlxalq normalarla uyğunlaşdırılması və ekoloji məsuliyyət mexanizmlərinin gücləndirilməsi Azərbaycanın COP29 sonrası dövr üçün strateji prioritetlərindəndir.

Məqalədə təhlillər göstərdi ki, COP29 konfransı Azərbaycanın ekoloji idarəetmə sisteminin modernləşdirilməsi və beynəlxalq hüquqi öhdəliklərin yerinə yetirilməsi baxımından strateji imkanlar yaratmışdır. Konfransın verdiyi siyasi və hüquqi siqnallar, xüsusilə alternativ enerji sektoruna yönələn investisiyaların stimullaşdırılması, ekoloji infrastrukturların təkmilləşdirilməsi və "yaşıl iqtisadiyyat" konsepsiyasının tətbiqi istiqamətində ciddi addımlar atmağı zəruri edir.

Bununla yanaşı, Azərbaycanın ekoloji qanunvericiliyində mövcud olan bəzi institusional boşluqların, qeyri-müəyyən hüquqi normaların və tətbiq mexanizmlərindəki səmərəsizliklərin COP29-un irəli sürdüyü beynəlxalq standartlarla tam uzlaşdırılması üçün əlavə islahatlara ehtiyac vardır. Post-COP29 dövründə "Net-Zero" strategiyalarının hüquqi baza üzərində qurulması, yaşıl enerji sahəsində vergi və güzəşt siyasətinin təkmilləşdirilməsi, habelə ətraf mühitlə bağlı ictimai iştirak və maarifləndirmənin artırılması xüsusi əhəmiyyət kəsb edir.

Nəticə etibarilə, COP29 yalnız beynəlxalq əməkdaşlıq üçün bir platforma deyil, həm də Azərbaycan üçün ekoloji idarəetmədə yeni bir mərhələnin başlanğıcıdır. Bu mərhələnin uğurla reallaşması üçün qanunvericilik, institusional idarəetmə və praktiki mexanizmlər səviyyəsində vahid və səmərəli siyasət yanaşmaları tələb olunur.

## Ədəbiyyat

1. Alışanov, Ş. (2013). *Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi*. Elm.
2. Bayramov, R. (2018). *Azərbaycan dilində semantik inkişaflar*. Təhsil.
3. Crystal, D. (2010). *The Cambridge Encyclopedia of Language*. Cambridge University Press.
4. İsmayılova, G. (2019). *Müasir Azərbaycan dilinin sintaksisi*. Nurlar.
5. Johnson, M. (2008). *Language, Meaning, and Cognition*. Oxford University Press.

6. Karimov, A. (tərtibçi). (2015). *Azərbaycan filologiyası üzrə seçilmiş məqalələr*. Şərq-Qərb.
7. Abdullayeva, L. (2021). Azərbaycan dilində sinonimlər sisteminin semantik xüsusiyyətləri. *Dil və Ədəbiyyat*, 32(4), 55–63. https://doi.org/10.32545/dae.2021.324
8. Ismayilov, T. (2020). Cognitive perspectives on metaphor in modern English. *Journal of Linguistic Studies*, 14(2), 88–97. https://doi.org/10.21445/jls.2020.142
9. Mehdiyev, S. (2022). Azərbaycan dilinin morfoloji strukturu haqqında yeni yanaşmalar. *Filologiya Araşdırmaları*, 11(3), 120–129.
10. Smith, R. (2019). Pragmatic shifts in contemporary English communication. *Language Research Review*, 27(1), 14–25. https://doi.org/10.1186/lrr.2019.2714
11. Məhərrəmova, X. (2021, 20 mart). *Ümumi dilçilik və Azərbaycan dilçiliyində üslub və üslubiyyat məsələləri*. Aem.az. https://aem.az?newsid=1264
12. Novruzova, A. (2023, 10 iyun). *Azərbaycan dilində dialektlərin təsnifatı*. Azedu.az. https://azedu.az/dialektler2023
13. Williams, T. (2022, 15 sentyabr). *New directions in applied linguistics*. LinguisticsToday.com. https://lingtoday.com/new-directions
14. Ivanov, P. (2017). *Sravnitel'naya grammatika tyurkskix yazykov*. Nauka. (transliterasiya: Ivanov, P. (2017). *Sravnitel'naya grammatika tyurkskix yazykov*. Nauka.)

Daxil oldu: 03.07.2025
Qəbul edildi: 27.09.2025

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 135-141 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 135-141 e-ISSN: 2708-986X

DOI: https://doi.org/10.36719/2663-4619/124/135-141

**Tamara Səfərova**
Bakı Biznes Universiteti
magistrant
https://orcid.org/0009-0007-8994-951X
tamarasafar9@gmail.com

# Maliyyə nəticələrinin uçotunun normativ-hüquqi bazası və tətbiqi mexanizmləri haqqında

## Xülasə

Məqalədə müəssisələrdə maliyyə nəticələrinin uçotu çoxşaxəli yanaşma əsasında araşdırılır və bu prosesin mahiyyəti, funksiyaları, normativ-hüquqi tələbləri və tətbiqi mexanizmləri geniş şəkildə təhlil edilir. Tədqiqat göstərir ki, maliyyə nəticələrinin düzgün və şəffaf uçotu müəssisələrin maliyyə sabitliyinin qiymətləndirilməsi, idarəetmə qərarlarının qəbul edilməsi və dövlətə hesabatlılıq baxımından əsas əhəmiyyət daşıyır. “Mühasibat uçotu haqqında” Qanun, Vergi Məcəlləsi, Milli Mühasibat Uçotu Standartları və beynəlxalq maliyyə hesabatları standartları maliyyə nəticələrinin tanınması və hesabatlarda əks etdirilməsi üçün hüquqi baza yaradır. Bununla yanaşı, qanunvericilikdəki uyğunsuzluqlar, bəzi maddələrin qeyri-müəyyənliyi, müəssisələrdə köhnəlmiş uçot sistemlərinin istifadəsi və mütəxəssis çatışmazlığı uçotun keyfiyyətinə mənfi təsir göstərən əsas problemlər kimi qiymətləndirilir. Məqalədə maliyyə nəticələrinin tətbiqi mexanizmləri gəlir və xərclərin tanınması, mənfəət və zərər hesabatının hazırlanması, vergi uçotu ilə uyğunlaşdırma, audit və rəqəmsal texnologiyaların tətbiqi detallı şəkildə izah edilir. Nəticə olaraq vurğulanır ki, müasir tələblərə uyğun uçot sistemi üçün normativ bazanın təkmilləşdirilməsi, rəqəmsallaşma, peşəkar kadr hazırlığı və beynəlxalq standartlarla inteqrasiya zəruridir.

***Açar sözlər:*** *maliyyə nəticələri, gəlir və xərc, normativ hüquqi baza, mühasibat uçotu, mənfəət və zərər*

**Tamara Safarova**
Baku Business University
Master’s student
https://orcid.org/0009-0007-8994-951X
tamarasafar9@gmail.com

# Accounting of Financial Results: Legal Framework and Implementation Mechanisms

## Abstract

The article examines the accounting of financial results in enterprises from a multifaceted approach, analyzing in detail the essence, functions, regulatory requirements, and application mechanisms of this process. The research shows that accurate and transparent accounting of financial results is of fundamental importance for assessing the financial stability of enterprises, making management decisions, and ensuring accountability to the state. The Law “On Accounting”, the Tax Code, National Accounting Standards, and International Financial Reporting Standards provide the legal basis for recognizing financial results and reflecting them in reports. At the same time, inconsistencies in legislation, the ambiguity of certain provisions, the use of outdated accounting systems in enterprises, and the shortage of specialists are identified as the main problems negatively affecting the quality of accounting. The article also explains in detail the mechanisms for applying financial results, recognition of income and expenses, preparation of profit and loss statements, alignment with tax accounting, auditing, and the implementation of digital technologies. In

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

conclusion, it emphasizes that for an accounting system to meet modern requirements, it is necessary to improve the regulatory framework, promote digitalization, train professional personnel, and integrate with international standards.

**Keywords:** *financial results, income and expenses, legal framework, accounting, profit and loss*

## Giriş

Maliyyə nəticələrinin uçotu müəssisələrin iqtisadi fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsində və maliyyə sabitliyinin təmin edilməsində mühüm rol oynayan əsas mexanizmdir. Bu sahə həm mühasibatlıq, həm idarəetmə, həm də dövlət nəzarəti üçün vacibdir. Son illərdə iqtisadi şəraitin dəyişməsi, beynəlxalq maliyyə tələblərinin artması və rəqəmsal texnologiyaların tətbiqi maliyyə nəticələrinin uçotunun aktuallığını daha da artırmışdır. Müəssisələr üçün maliyyə nəticələrinin dəqiq və şəffaf uçotu onların strateji qərarlarının əsasını təşkil edir və vergi öhdəlik-lərinin düzgün hesablanmasına zəmin yaradır (Abbasov, 2015).

**Tədqiqat**

Tədqiqatın məqsədi maliyyə nəticələrinin uçotunun normativ-hüquqi bazasını, tətbiqi mexanizmlərini, mövcud problemlərini və inkişaf istiqamətlərini araşdırmaqdır.

**Tədqiqatın vəzifələri aşağıdakılardır:**

1. Maliyyə nəticələrinin uçotunun mahiyyətini və funksiyalarını müəyyən etmək;
2. Normativ-hüquqi bazanı və beynəlxalq standartlarla uyğunluğunu təhlil etmək;
3. Maliyyə nəticələrinin uçotunda tətbiqi mexanizmləri və praktik çətinlikləri araşdırmaq;
4. Problemlərin həlli və təkmilləşdirmə istiqamətlərini müəyyən etmək.

Tədqiqatın metodologiyası əsasən analitik, müqayisəli və sistemli yanaşmaya əsaslanır. Analitik metod vasitəsilə normativ sənədlərin və hesabat məlumatlarının təhlili aparılmış, müqayisəli metodla milli və beynəlxalq standartlar arasında əlaqələr qiymətləndirilmişdir. Sistemli yanaşma isə maliyyə nəticələrinin uçotunun bütün mərhələlərini, gəlir və xərclərin tanınmasından hesabatların formalaşdırılmasına qədər, əhatə etməyə imkan vermişdir (Alexander, Britton, & Yorissen, 2010).

Tədqiqatın məhdudiyyətləri əsasən mövcud normativ-hüquqi sənədlərin və açıqlanmış maliyyə hesabatlarının məlumatları ilə məhdudlaşır. Həmçinin bəzi müəssisələrdə uçot praktikasının tam açıqlanmaması araşdırmanın nəticələrinə müəyyən təsir göstərmişdir.

Tədqiqat zamanı əsasən Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu, Vergi Məcəlləsi, Milli Mühasibat Uçotu Standartları, Maliyyə Nazirliyinin normativ aktları, eləcə də beynəlxalq maliyyə hesabatları standartları və müasir elmi ədəbiyyat istinad edilmişdir.

Tədqiqat nəticəsində maliyyə nəticələrinin uçotunun normativ-hüquqi bazasının əhəmiyyəti, tətbiqi mexanizmlərin funksionallığı, mövcud problemlərin mahiyyəti və inkişaf istiqamətləri müəyyən edilmişdir. Məqalədə göstərilmişdir ki, maliyyə nəticələrinin uçotunun təkmilləşdirilməsi normativ bazanın yenilənməsi, rəqəmsal texnologiyaların tətbiqi, kadr hazırlığının gücləndirilməsi və beynəlxalq standartlarla uyğunluğun artırılması ilə mümkün olacaqdır (Alexander & Nobes, 2013).

**Maliyyə nəticələrinin uçotunun mahiyyəti və funksiyaları**

Maliyyə nəticəsi dedikdə mənfəət formasında özünü göstərən müəssisənin, təşkilatın təsərrüfat fəaliyyətinin yekunu başa düşülür. Mənfəət təşkilatın bütün fəaliyyətini xarakterizə edən mühüm göstəricidir. Maliyyə nəticəsi əsasən iki göstərici — gəlirlər və xərclər arasında yaranan fərqi ifadə edir. Gəlirlər müəssisənin fəaliyyətindən əldə etdiyi iqtisadi faydanı, xərclər isə həmin faydanın əldə olunması üçün istifadə edilən resursları əks etdirir. Müəssisənin gəlirlərinin və xərclərinin uçotu Mühasibat uçotu üzrə qaydalara əsasən aparılır. Qaydalara əsasən müəssisənin gəlirləri və xərcləri xarakterlərinə, alınma şərtlərinə və fəaliyyət növlərinə görə təsnifləşdirilir. Sxemdən göründüyü kimi, müəssisənin gəlirləri adi fəaliyyət növlərindən əldə edilən gəlirlərə və sair gəlirlərə bölünür.

*ELMİ İŞ* Beynəlxalq Elmi Jurnal. 2025 / Cild: 19 Sayı: 12 / 135-141 ISSN: 2663-4619
*SCIENTIFIC WORK* International Scientific Journal. 2025 / Volume: 19 Issue: 12 / 135-141 e-ISSN: 2708-986X




Mühasibat uçotunun prinsiplərinə uyğun olaraq maliyyə nəticələri yalnız faktiki pul axınlarını deyil, həm də müəssisənin iqtisadi fəaliyyətinin bütün aspektlərini — borcları, aktivləri, amortizasiyanı, qeyri-pul əməliyyatlarını və s. özündə əhatə edir. Buna görə də maliyyə nəticələrinin uçotu müəssisənin real vəziyyəti haqqında obyektiv təsəvvür formalaşdırmağa imkan verir (Azərbaycan Respublikasının Vergi Məcəlləsi, 2000).

Maliyyə nəticələrinin uçotunun əsas mahiyyəti ondan ibarətdir ki, müəssisənin gəlir və xərclərlə bağlı bütün məlumatları sistemləşdirilir, düzgün tanınır və müvafiq hesabat dövründə əks etdirilir. Bu prosesdə uyğunlaşdırma prinsipi mühüm rol oynayır: yəni gəlir hansı fəaliyyətin nəticəsində yaranıbsa, həmin gəlirin əldə olunması üçün çəkilmiş xərclər də eyni dövrdə tanınmalıdır. Bu prinsipə əsasən maliyyə nəticələri daha dəqiq müəyyən olunur və hesabatların etibarlılığı artır.

Maliyyə nəticələrinin uçotunun funksiyaları geniş aspektləri əhatə edir. Birinci və ən əsas funksiyası informasiya təminatıdır. İnformasiyanı qəbul edən şəxslər daxili istifadəçilər və xarici istifadəçilər olmaqla iki yerə bölünür. Müəssisənin rəhbərliyi, investorlar, kreditorlar, dövlət orqanları və digər maraqlı tərəflər qərar qəbul edərkən məhz bu uçotun nəticələrinə əsaslanırlar. Məsələn, müəssisənin mənfəətliliyi, gələcək dövr üçün gözlənilən mənfəət, xərclərin strukturu və dinamika haqqında məlumatlar idarəetmə qərarlarının əsasını təşkil edir (Sadıqov, 2012).

İkinci mühüm funksiya nəzarət və analiz funksiyasıdır. Maliyyə nəticələrinin uçotu vasitəsilə müəssisə öz fəaliyyətini təhlil edir, planlaşdırılan nəticələrlə faktiki nəticələri müqayisə edir, xərclərin artması və ya gəlirlərin azalması kimi riskli tendensiyaları vaxtında müəyyənləşdirir. Bu nəzarət mexanizmi müəssisənin sağlam maliyyə idarəçiliyini formalaşdırmasına və mümkün problemlərin qarşısını vaxtında almasına şərait yaradır (Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu, 2018).

Üçüncü funksiya proqnozlaşdırma və planlaşdırma ilə bağlıdır. Maliyyə nəticələrinin analizi əsasında müəssisə gələcək dövrlər üçün proqnozlar hazırlaya, xərclərin səmərəlilik dərəcəsini ölçə, investisiya qərarlarına uyğun strateji planlar tərtib edə bilər. Dəqiq uçot məlumatları müəssisəyə resursların optimal bölüşdürülməsinə, fəaliyyətin genişləndirilməsi və ya daraldılması haqqında qərarların əsaslandırılmasına kömək edir.

Maliyyə nəticələrinin uçotunun digər önəmli funksiyası vergilərin hesablanması və dövlətə hesabatlılıq funksiyasıdır. Müəssisənin mənfəəti bilavasitə onun vergi öhdəliklərinə təsir etdiyindən, maliyyə nəticələrinin düzgün uçotu vergi hesablamalarının şəffaf və qanunauyğun aparılmasını təmin edir. Dövlət orqanları üçün təqdim edilən maliyyə hesabatlarının keyfiyyəti və dürüstlüyü müəssisənin hüquqi məsuliyyəti baxımından xüsusi əhəmiyyət daşıyır (IFRS Foundation, 2023).

Nəhayət, maliyyə nəticələrinin uçotu müəssisənin maliyyə sabitliyinin qiymətləndirilməsi funksiyasını da yerinə yetirir. Mənfəət əldə edən müəssisə öz fəaliyyətini genişləndirə, investisiya qoya və müsbət reputasiya formalaşdıra bilir. Əks halda, davamlı zərər hallarında müəssisənin maliyyə davamlılığının zəifləməsi, borclanmanın artması və fəaliyyət risklərinin yüksəlməsi kimi problemlər ortaya çıxır. Buna görə də maliyyə nəticələrinin uçotu müəssisənin uzunmüddətli inkişaf strategiyasının formalaşdırılmasında həlledici rol oynayır.

**Maliyyə nəticələrinin uçotunun normativ-hüquqi bazası**

Maliyyə nəticələrinin uçotu müəssisənin fəaliyyətinin obyektiv qiymətləndirilməsi, vergi öhdəliklərinin müəyyən edilməsi və dövlətə hesabatlılıq baxımından ciddi normativ-hüquqi tənzimlənməyə malikdir. Azərbaycan Respublikasında bu sahə bir neçə əsas normativ sənəd əsasında

formalaşır və hər bir sənəd maliyyə nəticələrinin tanınması, ölçülməsi, qiymətləndirilməsi və hesabatlarda təqdim edilməsi ilə bağlı konkret tələblər müəyyənləşdirir.

Maliyyə nəticələrinin uçotu Azərbaycan Respublikasında əsasən "Mühasibat uçotu haqqında" Qanun və Milli Mühasibat Uçotu Standartları (MMUS) ilə tənzimlənir (Mühasibat uçotu haqqında Qanun, 2004; MMUS, 2019). Bu normativ sənədlər gəlir və xərclərin tanınması, mənfəət və zərərin müəyyənləşdirilməsi, aktiv və öhdəliklərin qiymətləndirilməsi və hesabatlarda əks etdirilməsi qaydalarını müəyyən edir (Abbasov, 2017; Sadıqov və b., 2012).

Maliyyə nəticələrinin uçotuna təsir edən ən vacib hüquqi sənədlərdən biri də Vergi Məcəlləsidir. Məcəllədə gəlirlərin vergi məqsədləri üçün tanınması, çıxıla bilən və çıxıla bilməyən xərclərin siyahısı, amortizasiya normaları, mənfəət vergisinin dərəcəsi və hesablanma qaydaları müəyyən olunmuşdur. Bir çox hallarda mühasibat uçotu ilə vergi uçotu arasında fərqlər yaranır. Məsələn, bəzi xərclər mühasibat uçotunda tanınsa da, vergi uçotunda çıxılan xərc kimi qəbul edilmir. Bu kimi fərqlər müəssisənin vergi öhdəliklərinə təsir edir və uçotun düzgün aparılması üçün hüquqi biliklərin zəruriliyini artırır (Səbzəliyev & Quliyev, 2014).

Normativ-hüquqi bazanın mühüm hissəsini Milli Mühasibat Uçotu Standartları (MMUS) təşkil edir. Bu standartlar gəlirlərin və xərclərin tanınması, aktivlərin və öhdəliklərin ölçülməsi, dəyərsizləşmə, yenidən qiymətləndirmə, ehtiyatların yaradılması və digər maliyyə nəticələrinə təsir edən mühüm məsələləri əhatə edir. Standartların məqsədi ölkədə mühasibat uçotunun beynəlxalq tələblərə uyğunlaşdırılması, hesabatların şəffaflığının artırılması və müxtəlif müəssisələrin maliyyə informasiyalarının müqayisə oluna bilməsini təmin etməkdir (Mehdiyev, 2014).

Maliyyə nəticələrinin uçotunun hüquqi tənzimlənməsində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinin qərar və təlimatları da xüsusi əhəmiyyət daşıyır. Nazirlik müəssisələr üçün maliyyə hesabatlarının formalarını, onların tərtib edilmə qaydalarını, gəlir və xərclərin uçotuna dair metodiki göstərişləri müəyyən edir. Bu təlimatlar praktik uçotun vahid şəkildə aparılmasına, səhvlərin və fərqli yanaşmaların qarşısının alınmasına xidmət edir.

Beləliklə, maliyyə nəticələrinin uçotunun normativ-hüquqi bazası çoxşaxəlidir və müəssisələrdən bütün bu tələblərə uyğun, dəqiq və ardıcıl uçot aparılmasını tələb edir. Bu çərçivə uçot proseslərinin vahidləşdirilməsinə, maliyyə hesabatlarının şəffaf və müqayisəolunan olmasına, həmçinin dövlətin iqtisadi nəzarət mexanizmlərinin səmərəli fəaliyyət göstərməsinə xidmət edir.

**Maliyyə nəticələrinin tətbiqi mexanizmləri**

Maliyyə uçotu 41 Beynəlxalq və 37 Milli Mühasibat Uçotu Standartlarına əsasən tərtib edilir. Sözügedən maliyyə uçotu müəssisə və təşkilatlarda öz işini müstəqil struktur kimi quran mühasibatlıq tərəfindən aparılır. Maliyyə uçotu 2004-cü ildə qəbul edilmiş "Mühasibat uçotu haqqında" Qanunla tənzimlənir.

**Sözügedən Qanun maliyyə uçotunun əsas vəzifələrini aşağıdakı kimi müəyyən edir (Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası, 2018–2019):**

1. Müəssisənin fəaliyyəti və onun daxili istifadəçiləri, təsisçisi, iştirakçısı, təşkilatın əmlakının mülkiyyətçisi, investorları, kreditorları və maliyyə hesabatının digər istifadəçiləri haqqında tam və dəqiq informasiya formalaşdırmaq;
2. Azərbaycan Respublikasının qanunvericiliyinə nəzarətin aparılması üçün maliyyə hesabatından daxili və xarici istifadəçilərə lazım olan informasiyaları təqdim etmək;
3. Müəssisənin təsərrüfat fəaliyyətinin mənfi nəticələrinin qarşısını alıb onun maliyyə sabitliyini təmin etmək üçün daxili resursları müəyyən etmək;
4. Müəssisənin maliyyə-təsərrüfat fəaliyyətində baş verə biləcək mənfi halları vaxtlı-vaxtında xəbərdar etmək, təşkilatda cari və perspektiv dövrlərdə olan təsərrüfatdaxili ehtiyatları müəyyən edib təsərrüfat fəaliyyətinin zəruri bölmələrinə yönəltmək;
5. Bazarda maksimum mənfəət əldə etmək məqsədilə rəqabət qabiliyyətinə kömək və təsir göstərmək.

Bu vəzifələri qanunun tələblərinə uyğun yerinə yetirmək üçün maliyyə uçotu istənilən fəaliyyəti konkret baza prinsiplərinə və peşəkar cəmiyyət tərəfindən tanınan əsasnamələrə əsaslanaraq həyata keçirir. Maliyyə nəticələrinin uçotu müəssisələrdə müxtəlif mexanizmlər vasitəsilə həyata keçirilir və

bu mexanizmlər həm gəlir və xərclərin düzgün tanınmasını, həm də mənfəət və zərərin dəqiq hesablanmasını təmin edir (Mühasibat uçotu haqqında Qanun, 2004).

Maliyyə nəticələrinin tətbiqində ilk və əsas mexanizm uçotun təşkilində mühasibin funksiyalarının düzgün qurulmasıdır. Mühasib gəlir və xərclərin tanınmasını qanunvericiliyə uyğun şəkildə həyata keçirməli, bütün maliyyə əməliyyatlarını uçot siyasəti çərçivəsində sənədləşdirməli və hesabat dövrünün sonunda nəticələri dəqiq şəkildə formalaşdırmalıdır. İkinci mühüm mexanizm "Mənfəət və zərər haqqında hesabat"ın formalaşdırılmasıdır. Hesabatda əməliyyat və qeyri-əməliyyat gəlirləri, satış və idarəetmə xərcləri, maliyyə xərcləri, amortizasiya, vergilər və digər göstəricilər ayrı-ayrılıqda göstərilir.

Tətbiqi mexanizmlərin mühüm istiqamətlərindən biri mühasibat uçotu ilə vergi uçotu arasındakı fərqlərin uzlaşdırılmasıdır. Mühasibat uçotunda Azərbaycan Respublikasında da Beynəlxalq Mühasibat Uçotu Standartlarına keçmək məqsədilə Milli Mühasibat Uçotu Standartlarının 2003–2007-ci illərdə hazırlanması və tətbiqi üzrə "Proqram"da 2003-cü ildə "Hesablama metodu ilə gəlir və xərclərin uçotu" və "Kassa metodu ilə gəlir və xərclərin uçotu" adlı normativ sənədlərin hazırlanması və ölkənin təsərrüfat subyektlərində tətbiqi nəzərdə tutulmuşdur. Vergi uçotu ilə uzlaşdırma mexanizmi həm də müəssisənin gələcək dövrlərdə qarşılaşa biləcəyi vergi risklərinin qiymətləndirilməsində mühüm rol oynayır.

Növbəti tətbiqi mexanizm audit və nəzarət sisteminin fəaliyyətidir. Maliyyə nəticələrinin auditdən keçirilməsi müəssisənin hesabatlarının obyektivliyini, qanunvericiliyə uyğunluğunu və məlumatların doğruluğunu təsdiq edir. Maliyyə nəticələrinin tətbiqi mexanizmlərində müasir dövrdə xüsusi yer tutan istiqamət rəqəmsal mühasibat sistemlərinin tətbiqidir. Mühasibat proqramları, ERP sistemləri, bulud əsaslı hesabat platformaları və elektron sənəd dövriyyəsi uçot proseslərini avtomatlaşdırır, insan səhvlərinin və vaxt itkisinin qarşısını alır, hesabatların daha dəqiq hazırlanmasına şərait yaradır (Quliyev, Fətullayev, & Kərimov, 2011).

Nəticədə, maliyyə nəticələrinin tətbiqi mexanizmləri uçot məlumatlarının praktiki istifadəsini təmin edən çoxşaxəli sistemdir. Bu mexanizmlərin düzgün qurulması müəssisənin maliyyə sabitliyinə, vergi öhdəliklərinin düzgün hesablanmasına, hesabatların şəffaflığına və ümumilikdə idarəetmənin səmərəliliyinə birbaşa təsir göstərir.

**Maliyyə nəticələrinin uçotunda mövcud problemlər və inkişaf istiqamətləri**

Maliyyə nəticələrinin uçotu müəssisələrin fəaliyyətinin şəffaflığını və hesabatlılığını təmin edən əsas mexanizmdir. Lakin praktiki tətbiqdə bir sıra problemlər və çatışmazlıqlar mövcuddur ki, bu da uçotun keyfiyyətinə təsir göstərir. Qanunvericilikdəki boşluqlar bu sahədə əsas çətinliklərdən biridir. Müxtəlif normativ sənədlər arasında — "Mühasibat uçotu haqqında" Qanun, Vergi Məcəlləsi və milli mühasibat standartları arasında — tam uyğunluğun olmaması müəssisələrdə uçot prosesində qarışıqlığa səbəb olur. Bəzi müddəalar kifayət qədər konkret olmadığından, onların tətbiqi müəssisədən müəssisəyə fərqli ola bilər və nəticədə hesabatlar müqayisəolunan olmur. Bundan əlavə, normativ sənədlərin gec yenilənməsi, yeni iqtisadi əməliyyatların, məsələn, rəqəmsal aktivlər və elektron ticarət əməliyyatlarının uçotu ilə bağlı hüquqi tənzimləmələrin gecikməsi praktik çətinliklər yaradır.

Müəssisələrdə də maliyyə nəticələrinin uçotunun tətbiqi bir sıra çətinliklərlə müşayiət olunur. Bir çox müəssisələrdə köhnəlmiş və avtomatlaşdırılmamış mühasibat sistemləri hələ də geniş istifadə olunur ki, bu isə səhvlərin artmasına və məlumatların gec təqdim edilməsinə səbəb olur. Bundan əlavə, mühasiblərin beynəlxalq standartlar üzrə biliklərinin kifayət qədər olmaması gəlir və xərclərin düzgün tanınmamasına, uçot siyasətinin reallıqla uyğun gəlməməsinə və hesabatlarda uyğunsuzluqlara gətirib çıxarır. Daxili nəzarət mexanizmlərinin zəif olması da maliyyə nəticələrinin etibarlılığına mənfi təsir göstərir; əməliyyatların düzgün sənədləşdirilməməsi, xərclərin sistemsiz uçota alınması və inventarizasiyanın vaxtında aparılmaması uçot məlumatlarının dəqiqliyini azaldır.

Beynəlxalq təcrübənin tətbiqi isə bu problemlərin aradan qaldırılmasında mühüm rol oynayır. Beynəlxalq Maliyyə Hesabatları Standartları (IFRS) gəlir və xərclərin tanınması, aktiv və öhdəliklərin qiymətləndirilməsi və maliyyə nəticələrinin açıqlanması sahəsində şəffaf və müqayisəolunan yanaşmalar təklif edir. Beynəlxalq təcrübənin üstünlükləri arasında maliyyə hesabatlarının

qlobal bazarlara uyğun olması, xarici investorların cəlb edilməsinin asanlaşması və müəssisələrin rəqabət qabiliyyətinin artırılması qeyd olunur. Bununla yanaşı, beynəlxalq standartların tətbiqi üçün mühasiblərin peşəkar hazırlığı, texniki imkanların və rəqəmsal infrastrukturun gücləndirilməsi vacib şərtlərdən biridir.

Nəticə etibarilə maliyyə nəticələrinin uçotunda mövcud problemlər qanunvericilik boşluqları, müəssisələrdə tətbiq çətinlikləri və beynəlxalq standartların tam tətbiq edilməməsi ilə bağlıdır. Eyni zamanda, inkişaf istiqamətləri — normativ bazanın təkmilləşdirilməsi, rəqəmsal texnologiyaların tətbiqi, mühasiblərin peşəkar hazırlığının artırılması və beynəlxalq təcrübənin inteqrasiyası — maliyyə nəticələrinin uçotunun keyfiyyətini yüksəltməyə və müəssisələrin maliyyə sabitliyini gücləndirməyə imkan verir.

## Nəticə

Məqalə çərçivəsində maliyyə nəticələrinin uçotunun mahiyyəti, funksiyaları, normativ-hüquqi bazası, tətbiqi mexanizmləri və mövcud problemləri sistemli şəkildə araşdırılmışdır. Tədqiqat göstərir ki, maliyyə nəticələrinin düzgün uçotu müəssisələrin fəaliyyətinin şəffaflığı, maliyyə sabitliyi və idarəetmə qərarlarının əsaslandırılması baxımından həlledici rol oynayır. Normativ-hüquqi baza — "Mühasibat uçotu haqqında" Qanun, Vergi Məcəlləsi, Milli Mühasibat Uçotu Standartları və beynəlxalq maliyyə hesabatları standartları — maliyyə nəticələrinin tanınması, ölçülməsi və hesabatlarda əks etdirilməsi üçün hüquqi zəmin təmin edir. Eyni zamanda, tədqiqat müəyyən etmişdir ki, qanunvericilik boşluqları, müəssisələrdə tətbiq problemləri, köhnəlmiş mühasibat sistemləri və kadr çatışmazlığı uçotun keyfiyyətinə mənfi təsir göstərir. Maliyyə nəticələrinin tətbiqi mexanizmləri — mühasibin funksiyaları, mənfəət və zərər hesabatının hazırlanması, vergi uçotu ilə uzlaşdırma, daxili audit və rəqəmsal texnologiyaların istifadəsi — müəssisələrin maliyyə hesabatlarının dəqiqliyini və etibarlılığını artırır. Beynəlxalq təcrübənin tətbiqi və rəqəmsal transformasiya isə uçotun şəffaflığını və müqayisəolunanlığını təmin edir. Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, maliyyə nəticələrinin uçotunun təkmilləşdirilməsi normativ-hüquqi bazanın yenilənməsi, rəqəmsal texnologiyaların tətbiqi, peşəkar kadrların hazırlığının artırılması, uçot siyasətinin optimallaşdırılması və beynəlxalq standartlarla uyğunluğun təmin olunması yolu ilə mümkündür. Bu istiqamətlər həyata keçirildikdə, müəssisələrin maliyyə hesabatlarının şəffaflığı, vergi öhdəliklərinin düzgün hesablanması və idarəetmənin səmərəliliyi əhəmiyyətli dərəcədə artacaqdır. Maliyyə nəticələrinin uçotu yalnız mühasibatlıq funksiyası kimi deyil, həm də strateji idarəetmənin, maliyyə planlaşdırmasının və müəssisənin uzunmüddətli inkişafının əsas elementi kimi çıxış edir.

## Ədəbiyyat

1. Abbasov, Q. Ə. (2015). *Mühasibat uçotu* (Dərslik). İqtisad Universiteti Nəşriyyatı.
2. Abbasov, Q. Ə. (2017). *Mühasibat uçotu* (Dərslik və metodik vəsait). Təknur Nəşriyyatı.
3. Alexander, D., Britton, A., & Yorissen, A. (2010). *Maliyyə hesabatının beynəlxalq standartları: nəzəriyyədən praktikaya*. İqtisad Universiteti Nəşriyyatı.
4. Alexander, D., & Nobes, C. (2013). *Financial accounting: An international introduction* (5th ed.). Pearson Education Limited.
5. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu. (2004, sentyabrın 2-də qəbul edilmiş redaksiya).
6. Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu. (2018, mayın 4-də dəyişiklik edilmiş redaksiya).
7. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. (2000).
8. Sadıqov, Ə. A. və b. (2012). *Mühasibat uçotu* (Dərslik). Təhsil İşçiləri Mətbəəsi MMC.
9. IFRS Foundation. (2023). *International Financial Reporting Standards (IFRS)*.
10. Mehdiyev, V. M. (2014). *Milli mühasibat uçotu standartları və kompyüter mühasibatı: mahiyyəti, formalaşdırılması və tətbiq edilməsi problemləri*. Sabah Nəşriyyatı.
11. Milli Mühasibat Uçotu Standartları (MMUS). (2019).

12. Quliyev, V., Fətullayev, R., & Kərimov, A. (2011). *Beynəlxalq uçot və hesabata giriş (GAAP və IFRS əsasında)*. Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi.
13. Səbzəliyev, S. M., & Quliyev, V. M. (2014). *İdarəetmə uçotu* (Dərslik). Elm və Təhsil Nəşriyyatı.
14. Sadıqov, Ə. A. (2015). İqtisad Universiteti Nəşriyyatı, 402–410.
15. Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyası. (2018–2019). *Normativ aktlar və qərarlar*.

Daxil oldu: 30.07.2025
Qəbul edildi: 09.10.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/142-145

**Samir Cəfərov**
Azərbaycan Pedaqoju Universitetinin Şəki filialı
https://orcid.org/0009-0000-6841-7863
samir.ceferov.2026@mail.ru

# Soyuq müharibədən sonra qlobal güc mübarizəsinin yeni mərhələsi (1991–2025)

**Xülasə**

1991-ci ildə SSRİ-nin dağılması ilə başa çatan Soyuq Müharibə beynəlxalq sistemdə dərin struktur dəyişikliklərə yol açaraq qlobal güc mübarizəsinin yeni mərhələsini formalaşdırdı. ABŞ-ın hegemonluğu ilə xarakterizə olunan təkqütblü düzən qısa müddət ərzində beynəlxalq təhlükəsizlik arxitekturasının əsas çərçivəsini təşkil etsə də, 2000-ci illərdən başlayaraq Çinin sürətli iqtisadi yüksəlişi, Rusiyanın regional revanşist ambisiyaları və Avropa İttifaqının geosiyasi kimlik axtarışları güc balansının çoxqütblü istiqamətə doğru dəyişməsinə səbəb oldu. Bu dövrdə qlobal sistemdə rəqabət yalnız hərbi sahədə deyil, həm də iqtisadi, texnoloji, ideoloji və informasiya müstəvilərində genişlənərək kompleks xarakter qazandı.

2008-ci il qlobal maliyyə böhranı ABŞ və Qərbin iqtisadi üstünlüyünün nisbi zəifləməsinə, buna paralel olaraq Çin tərəfindən "Bir Kəmər, Bir Yol" kimi genişmiqyaslı geoiqtisadi layihələrin həyata keçirilməsinə yol açdı. Rusiya isə 2014-cü il Ukrayna böhranı və 2022-ci il hərbi eskalasiyası ilə Avro-Atlantik məkanında güc mübarizəsini kəskinləşdirdi. Eyni zamanda, Yaxın Şərqdə regional güc mərkəzləri — Türkiyə, İran, Səudiyyə Ərəbistanı — qlobal dinamikaya təsir imkanlarını artırdı. Hindistanın yüksələn rolu və Cənubi Asiyada geosiyasi rəqabətin dərinləşməsi də beynəlxalq sistemin çoxqütblü xarakterini gücləndirdi.

***Açar sözlər:*** *soyuq müharibə, qlobal mübarizə, təkqütblü sistem, ABŞ, Çin, Rusiya, rəqabət, geoiqtisadiyyat*

**Samir Jafarov**
Shaki Branch of Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0000-6841-7863
samir.ceferov.2026@mail.ru

# A New Phase of Global Power Struggle after the Cold War (1991–2025)

**Abstract**

The strategic advantages of the electronic tax system play a decisive role in shaping long-term economic governance strategies. Digital tax administration is not merely the automation of administrative procedures; it also represents the application of contemporary analytical methods in decision-making and risk management. The system lays the foundation for the development of intelligent platforms within economic governance (World Bank, 2020).

The primary strategic advantage of the electronic tax system lies in its creation of the basic infrastructure required for the digital economy. The information frameworks of various state institutions—customs, statistics, social protection, employment, business registration, and others—are closely interconnected with the electronic database of the tax system. This integration transforms tax data into a central informational resource for public administration and enables more accurate strategic planning (State Tax Service of the Republic of Azerbaijan, 2023).

Another major strategic advantage is the adoption of a risk-based approach in tax control. Whereas inspections were previously conducted largely through subjective selection, the electronic system automatically identifies risks using a wide range of indicators. The analysis of factors such as turnover dynamics, financial stability, transaction patterns, sector-specific features, and international economic linkages enhances the objectivity of audits and ensures more efficient allocation of administrative resources (Tapdıqov, 2019).

The accessibility of electronic services is also a key component of the system's strategic advantages. Taxpayers can carry out all procedures online, eliminating time losses, reducing costs, and avoiding the need to visit physical service centers. As a result, public trust in government institutions increases, while transparency and citizen satisfaction improve.

In addition, digital analytics enhances the quality of governmental decision-making. The processing of big data, economic modeling, and automated risk assessment tools enable the formulation of more optimal fiscal policies. This, in turn, contributes to strengthening the state's economic security.

**Azerbaijan's Experience and the Development of Digital Tax Administration**

In the Republic of Azerbaijan, the digitalization of the tax system has become one of the central directions of economic reforms in recent years. The expansion of the e-government platform has facilitated the full transition of tax services to a digital environment, leading to the implementation of several fundamental innovations. One of the most significant among these is the electronic declaration system. The submission of declarations in digital form has minimized time and resource losses for taxpayers while substantially improving the accessibility of tax services.

A crucial component in reinforcing Azerbaijan's digital tax administration is the full implementation of the electronic invoicing system. Electronic invoices make it possible to establish a complete digital trace of commercial transactions, enable transparent monitoring of the circulation of goods and services, and enhance the effectiveness of tax control. This approach also plays a vital role in preventing informal economic activities.

Online cash registers—another important component of the electronic tax system—have greatly strengthened transparency in the retail sector. The real-time transmission of data from these devices to the tax authorities has made the concealment of cash transactions considerably more difficult and has helped ensure the completeness of tax accounting.

One of the major achievements of the digital reforms is the creation of the taxpayer's electronic cabinet. The electronic cabinet provides a fast, secure, and transparent communication channel

between taxpayers and government institutions. Through this platform, taxpayers can monitor their obligations, receive electronic notifications, submit declarations, and access their tax histories at any time (World Bank, 2022).

Overall, the outcomes of these reforms show that Azerbaijan is among the countries in the region implementing one of the most advanced digital tax administration models. The continuation of the digitalization process will contribute to enhancing the country's economic competitiveness, strengthening fiscal stability, and aligning public governance with modern international standards.

## Conclusion

The contemporary global economic environment has compelled governments to reconsider traditional approaches to tax administration. Digital transformation extends beyond mere technological modernization and introduces substantial changes to the institutional framework of public governance. As in other areas of state administration, digitalization in the tax system has generated new requirements and increased the need for adaptation. The implementation of an electronic tax system has effectively addressed these demands by enhancing the efficiency of tax administration and ensuring that economic activities are managed in a more transparent, supervised, and analytically grounded manner.

Research demonstrates that the electronic tax system optimizes all stages of tax administration and significantly improves the quality of interactions between the state and business entities. Digitalization of the entire process—from taxpayer identification and registration to declaration submission, payment, monitoring, and audit—ensures transparency, accessibility, and streamlined service delivery. At the same time, electronic information flows enable tax authorities to build extensive data repositories, process this information using analytical tools, and apply risk-based monitoring with higher accuracy. Consequently, tax revenues increase, fiscal stability is strengthened, and the financial risks faced by the state are reduced.

The multifaceted impact of the electronic tax system on the economy further underscores its strategic importance. Digitalized tax oversight plays a critical role in reducing the size of the shadow economy, as the existence of complete digital footprints makes it significantly more difficult to conceal informal activities. This leads to a more equitable distribution of the tax burden, healthier competitive conditions, and broader utilization of formal economic mechanisms by businesses. Moreover, digital analytics, big data processing, and artificial intelligence applications contribute to the development of economic policy on a more scientific basis, enabling precise forecasting of economic processes and facilitating optimal decision-making.

The reforms implemented in the Republic of Azerbaijan in the development of the electronic tax system show that a consistent and targeted approach has made a substantial contribution to the establishment of a modern tax ecosystem in the country. The introduction of electronic declarations, the e-invoice system, online cash registers, the electronic taxpayer portal, and digital audit mechanisms has transformed Azerbaijan's tax administration into one of the leading models in the region. As a result, tax governance has become more transparent, predictable, and business-oriented.

Nevertheless, certain areas require continued attention to ensure the sustainable development of the electronic tax system. Key priorities include strengthening information security, expanding the application of artificial intelligence and big data technologies, improving integration between tax data and other state digital platforms, enhancing taxpayers' digital literacy, and optimizing services through more flexible operational models.

In conclusion, the electronic tax system is an indispensable component of modern economic governance. Beyond increasing tax revenues, it contributes to economic transparency, enhances the efficiency of public administration, and supports the sustainable development of socio-economic systems. As digital transformation continues, the electronic tax system will remain one of the foundational pillars of future economic models and will further reinforce its decisive role in the state's fiscal policy.

## References

1. Aliyev, A. (2020). *The shadow economy and its impact on tax administration: Digital control models*.
2. Deloitte Insights. (2022). *Intelligent tax administration and risk-based auditing systems*.
3. European Commission. (2021). *Digital economy and society index (DESI) report*. Brussels.
4. EY Global. (2020). *How digitalization is reshaping global tax compliance*. EY Publishing.
5. International Monetary Fund (IMF). (2018). *Digitalization and tax administration: Opportunities and challenges*. Washington, D.C.
6. International Monetary Fund (IMF). (2021). *Tax administration diagnostic assessment tool (TADAT): Global assessment report*.
7. INTOSAI. (2020). *Big data and its application in public finance oversight*.
8. INTOSAI. (2022). *Digital audit framework for modern supreme audit institutions*.
9. Mammadova, S. (2021). Digital transformation in the tax system of Azerbaijan: Challenges and solutions. *Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Məqalələr Toplusu*, 45(2), 88–102.
10. Ministry of Digital Development and Transport of the Republic of Azerbaijan. (2021). *Indicators of the development of e-government and digital services*.
11. Ministry of Economy of the Republic of Azerbaijan. (2022). *State strategy for the development of the digital economy*.
12. OECD. (2019). *Tax administration 2019: Comparative information on OECD and other advanced and emerging economies*. OECD Publishing.
13. OECD. (2020). *Electronic tax filing and digital compliance systems*.
14. OECD. (2021). *Digital transformation in tax administration*. OECD Publishing.
15. PwC Global. (2020). *Worldwide tax summaries: Digital tax administration trends*. PwC.
16. Shahbazov, F. (2022). Improving tax services in e-government platforms. *Scientific Research Journal*, 3, 44–52.
17. State Tax Service of the Republic of Azerbaijan. (2023). *Report on the development of electronic tax services and digital transformation*.
18. Tapdıqov, R. (2019). *Application and prospects of digital technologies in tax administration*. Elm və Təhsil.
19. World Bank. (2020). *Global tax program: Modernization of tax systems in emerging economies*. Washington, D.C.
20. World Bank. (2022). *Digital government readiness assessment: Azerbaijan country report*. Washington, D.C.

Received: 21.07.2025
Accepted: 19.10.2025

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

DOI: https://doi.org/10.36719/2663-4619/124/171-176

**Maya Qədirova**
Azərbaycan Tibb Universiteti
magistrant
https://orcid.org/0009-0008-0011-7109
gadirovamaya3@gmail.com
**Firəngiz Quliyeva**
Azərbaycan Tibb Universiteti
biologiya üzrə fəlsəfə doktoru
https://orcid.org/0009-0004-8983-4948
firangiz455@gmail.com

## Qlomerulonefritli xəstələrdə oksidativ stress göstəricilərinin müqayisəli təhlili

**Xülasə**

Qlomerulonefrit zamanı böyrək toxumasının zədələnmə mexanizmlərində oksidativ stressin rolu aktual tədqiqat mövzusudur. Təqdim olunan işin əsas məqsədi qlomerulonefritli xəstələrdə prooksidant və antioksidant sistemlərin arasındakı balansı labaratoriya səviyyəsində qiymətləndirməkdir.

Təqdim edilən işdə böyrək toxumasının zədələnmə dərəcəsini qiymətləndirmək üçün qan nümunələrində lipid peroksidləşməsinin göstəricisi kimi malondialdehid (MDA) və antioksidant müdafiə sisteminin əsas komponenti kimi qlutation (QSH) səviyyələri təyin edilmişdir. Paralel olaraq, böyrəklərin funksional vəziyyətini yoxlamaq üçün qan serumunda kreatinin miqdarı da ölçülmüşdür. Lipilərin peroksidləşməsinin ən son məhsulu olan MDA-nın konsentrasiyasının artması, hüceyrə membranlarının aktiv oksigen formaları (AOF) tərəfindən kəskin zədələnməsinin göstəricisidir.

Eyni zamanda, hüceyrədaxili əsas antioksidantlardan biri olan QSH-ın azalması redoks homeostazını pozur, bu da qlomerulyar hüceyrələrin apaptozuna və funksional itkisinə səbəb olur. Bu pozulmaların nəticəsində qlomerulyar filtrasiya sürətini azalır və böyrək çatışmazlığı müşayiət olunur, bu da qan zərdabında kreatinin səviyyəsinin kəskin artımı ilə özünü göstərir.

Yekun olaraq, əldə edilən nəticələr bizə patoloji proses zamanı orqanizmdə gedən oksidativ dəyişiklikləri və böyrək funksiyasını biokimyəvi cəhətdən analiz etməyə imkan verir.

***Açar sözlər:*** *Qlomerulonefrit (QN), oksidstiv stress (OS), reaktiv oksigen növləri (ROS), malondialdehid(MDA), reduksiya olunmuş qlutation (QSH)*

**Maya Gadirova**
Azerbaijan Medical University
Master's student
https://orcid.org/0009-0008-0011-7109
gadirovamaya3@gmail.com
**Firangiz Guliyeva**
Azerbaijan Medical University
PhD in Biology
https://orcid.org/0009-0004-8983-4948
firangiz455@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

# Comparative Analysis of Oxidative Stress Indicators in Patiens With Glomerulonephrits

## Abstract

The role of oxidative stress in the mechanisms of kidney tissue damage during glomerulonephritis is a topical research topic. The main aim of the presented work is to assess the balance between prooxidant and antioxidant systems in patients with glomerulonnephritis at the labaratory level. In the presented work, the levels of malondialdehyde (MDA) as an indicator of lipid peroxidation and glutathione (GSH) as a main component of the antioxidant defense system were determined in blood samples to assess the degeee of kidney tissue damage. In parallel, the amount of creatinine in blood serum was also measured to check the functional state of the kidneys. As an increase in the concentration of MDA, the end product of lipid peroxidation, is a indicator of acute damage to cell membranes by active oxygen formate (AOF). At the same time, a decrease in GSH, the main intracellular antioxidant, disrupts redox homeostasis, which leads to apoptosis and functional loss of glomerular cells. The consequence of these disturbances is a decrease in glomerular filtration rate and the development of renal failure, which is manifested by a sharp increase in serum creatinine levels. In conclusion, the results obtained allow us to biochemically anlyze the oxidative changes and renal function occuring in the body during the pathological process.

***Keywords:*** *Glomerulonephritis (GN), oxidative stress (OS), reactive oxygen species (ROS), malondialdehyde (MDA), reduced glutathione (GSH), creatinin*

## Giriş

Qlomerulonefrit böyrəklərin nefronlarının qlomerul sahəsində zədələnmə ilə xarakterizə olunur, nisbətən nadir rast gəlinən immun mənşəli xəstəliklər qrupudur. Qlomerulyar filtrasiya baryeri endotel hüceyrələri, bazal membran və podositlərin yarıq membranından təşkil olunmuş mürəkkəb bir sistemdir, suyun və aşağı molekulyar çəkili maddələrin ultrafiltratını yaratmaqla yanaşı, yüksək molekulyar çəkili zülalların və qan hüceyrələrinin damar daxilində saxlanmasında rol oynayır. Yüksək perfuziya təzyiqi altında fəaliyyət göstərən bu anatomik strukturlar immun-vasitəli zədələnmələrə qarşı xüsusilə həssasdır. Patoloji proseslər zamanı, infeksion orqanizmlər onların immunostimullaşdırıcı və ya toksik komponentləri, komplementi aktivləşdirən immunoqlobulinlər, komplement sisteminin spontan aktivləşməsi, neytrofil ekstrasellular tələlər (NET-lər), infiltrasiya edən mieloid hüceyrələr, helper və ya sitotoksik T-hüceyrələri, digər anadangəlmə və adaptiv immun effektorlar qlomerulyar zədələnməyə səbəb ola bilər. Bu zədələnmələr nəticəsində sidiklə albumin və ya digər zərdab zülalları, eritrositlər və leykositlər xaric olunur. Piylənmə, şəkərli diabet, yüksək duzlu pəhriz və hipertoniya filtrasiya təzyiqini daha da artır, bunun nəticəsində qlomerulyar zədələnməni sürətlənir (Anders, Kitching, Leung, & Romagni, 2023).

Təəssüf ki, qlomerulonefrit tez-tez simptomsuz inkişaf edir və ya proteinuriya, eritrosituriya və yaxud hematuriya, ödəm və hipertenziya ilə özünü biruzə verir (Krata və b., 2021). Kəskin qlomerulonefritin klinik mənzərəsi əsasən hipertenziya, proteinuriya, ödəm və hematuriya ilə müşayiət olunur (Bülbül, Öner, Demircin, & Erdoğan, 2008), belə ki, albuminuriya podosit zədələnməsinin, hematuriya isə qlomerulyar bazal membranın tamlığının pozulmasının göstəricisdir (Anders, Kitching, Leung, & Romagni, 2023). Bu simptomlardan hər hansı biri QN-in diaqnostikası üçün spesifik deyil. Diaqnozun təsdiqi üçün, böyrək biopsiyasının histopatoloji qiymətləndirilməsi tələb olunur ki, bu da riskləri olan invaziv bir prosedurdur. Bu səbəbdən qeyri-invaziv diaqnostikanı təkmilləşdirmək üçün alternativ, daha təhlükəsiz, spesifik və təkrarlana bilən metodlara ehtiyac duyulur (Wiewiórska- Krata və b., 2025).

QN-in ənənəvi histopatoloji təsnifatı xəstəliyin fərqli müalicə tələblərini və xəstəliyin müxtəlif mənşəyini əks etdirməkdə məhdudiyyətlər yaradır. Müəlliflər "böyrək mərkəzli" yanaşmanın əvəzinə xəstəliyin əsas səbəbi olan immun mexanizmlərini hədəf alan diaqnostikanın və müalicəsinin

vacibliyini qeyd edirlər. Bu məqsədlə QN-in idarə olunmasını təkmilləşdirmək üçün immunofenotipləməyə və "aktivlik-xroniklik" (QN-AC) dərəcəsinə əsasən yeni təsnifat sistemi təklif edilir (Romagnani, Kitching, Leung, & Anders, 2023). Müasir immunofenotipləmə üsullarının tətbiqi qlomerulonefritləri patofizioloji mexanizmlərinə əsaslanaraq beş əsas kateqoriyaya ayırmağa imkan verir. Birinci kateqoriya orqanizmin infeksiyaya qarşı humoral və hüceyrəvi müdafiə reaksiyaları zəminində yaranan infeksiya mənşəli QN-dir. İkinci kateqoriya olan autoimmun QN, spesifik autoantigenlərə qarşı formalaşan adaptiv immun cavabla xarakterizə olunur. Üçüncü kateqoriya, alloimmun QN böyrək transplantasiyası fonunda inkişaf edən və donor-spesifik immunitetin supressiyasını tələb edir. Monoklonal qammapatiya ilə əlaqəli QN, monoklonal immunoqlobulinlərin yumaqcıqlarda yığılması ilə gedir (Anders, Kitching, Leung, & Romagni, 2023). Böyrək xəstəliklərində həm antioksidantların tükənməsi, həm də reaktiv oksigen növləri (ROS) istehsalının artması səbəbindən oksidativ stressin mövcudluğu qeyd edilmişdir. Böyrək yüksək metabolik orqandır və bu da onu ROS tərəfindən törədilən zədələnmələrə qarşı həssas edir. Buna görə də oksidativ stress (OS) böyrək xəstəliyinin proqressiyasını sürətləndirə bilər (Krata və b., 2021). Bununla əlaqəli olaraq, oksidativ stress iltihab (NF-KB aktivləşməsi), hipertenziya, qlomerulyar filtrasiya baryerinin zədələnməsi və fibroz vasitəsilə böyrək funksiyasının daha da zəifləməsinə səbəb ola bilər. Oksidativ stress zədələnməsi, hemodializ zamanı dializ membranlarının və ya peritoneal dializ zamanı məhlulların biouyğunsuzluğu səbəbindən dializ terapiyasına ehtiyac duyan xəstələrdə daha da ağırlaşır (Ling & Kuo, 2018). Qlomerulonefritin patogenezində aktivləşmiş komplement, immun komplekslərin toplanması və ya sitokinlərin ifrazı kimi müxtəlif stimullar daxili qlomerulyar hüceyrələr və ya infiltrasiya olunmuş leykositlər tərəfindən ROS əmələ gəlməsini induksiya edir (Bülbül, Oner, Demircin, Erdoğan, 2008).

Oksidativ stress- ROS-un istehsalının artması istehsalı və orqanizmin təbii antioksidant müdafiə mexanizmlərinin zəifləməsi ilə yaranan balans pozğunluğudur (Angeletti və b., 2023). ROS-lar lipidlər, zülallar və DNT ilə reaksiyaya girmək qabiliyyətinə malik olduqlarına görə, oksidativ zədələnməyə səbəb olan toksik molekullar kimi qəbul edilirdilər (Irazabal & Torres, 2020). Ancaq mülayim səviyyələrdə hidrogen peroksid çox saylı hüceyrə prosesləri üçün zəruridir, lakin həddindən artıq konsentrasiyalarda o, hüceyrə və toxuma zədələnməsinə səbəb ola bilər (Krata və b., 2021). Hazırda məlumdur ki, ROS-lər həm də hüceyrə siqnallarının ötürülməsində mühüm ikincili messencerlərdir. ROS-un toplanması iltihaba, zədələnməyə və nəticədə hüceyrə ölümünə səbəb olsa da, hüceyrənin sağ qalması siqnalları, hüceyrə proliferasiyası, böyümə və enerji metabolizmi üçün aşağı səviyyədə ROS tələb olunur. Nəticə etibarilə, hüceyrələr zədələnməsi və ölüm baş vermədən normal funksiyanı dəstəkləyən ROS konsentrasiyalarının ciddi tənzimlənməsini həyata keçirirlər. Bu cür hüceyrədaxili redoks homeostazı, ROS-ların əmələ gəlməsi və antioksidant sistemlər tərəfindən neytrallaşdırılması arasındakı dinamik müvazinətlə tənzimlənir (Tejchman, Kotfis, & Sieńko, 2021). ROS iki qrupa bölünə bilər: sərbəst radikallar və qeyri-radikallar. Sərbəst radikallar bir və ya daha çox cütləşməmiş elektrona malik olan molekullardır ki, bu da onlara yüksək reaktivlik qazandırır. Cütləşməmiş elektronlarını paylaşan ROS-lar isə qeyri radikal formalardır. Mühüm kimyəvi fərqliliklərinə baxmayaraq, onlar biomolekul səviyyəsində zədələnmə baxımdan oxşar mexanizmlə təsir göstərirlər (Tejchman, Kotfis, & Sieńko, 2021).

Birinci qrupdan olan və fizioloji əhəmiyyət daşıyan əsas ROS-lara superoksid anionu, hidroksil radikalı və hidroperoksil radikalı aiddir; ikinci qrupa isə hidrogen peroksid daxildir. Bütün oksigen radikalları ROS-dur, lakin bütün ROS-lar oksigen radikalları deyil (Tejchman, Kotfis, & Sieńko, 2021). Adətən qısa yarımparçalanma dövrünə malik hissəciklərdir, lakin buna baxmayaraq, onlar uzun müddətdir ki, mühüm ikili rola malik kimyəvi maddələr kimi qəbul edilirlər. Onlar biomolekullarla reaksiyaya girib hüceyrə zədələnməsinə səbəb olurlar, və eyni zamanda hüceyrə siqnalizasiya vasitəçiləri kimi də fəaliyyət göstərirlər (Tejchman, Kotfis, & Sieńko, 2021).

Lipidlərin peroksidləşməsi dedikdə sərbəst radikalların və ya oksidantların karbon-karbon ikiqat rabitəsi olan lipidlərə, xüsusən də çoxdoymamış piy turşularına (PUFA) hücum edərək hidrogeni qoparması və oksigenin daxil edilməsi ilə gedən zəncirvari proses başa düşülür. Bu biokimyəvi reaksiya ardıcıl olaraq üç əsas mərhələdən ibarətdir: iniasiya, propaqasiya və terminasiya. İniasiya

mərhələsində pro-oksidantlar doymamış yağ turşularından hidrogen atomunu qopararaq karbon mərkəzli lipid radikalını əmələ gətirir. Propaqasiya fazasında bu radikal oksigenlə birləşib lipid peroksi radikalı yaradır və reaksiyanı davam etdirərək ilkin məhsul olan lipid hidroperoksidlərin yaranmasına səbəb olur. Peroksidləşmənin nəticəsində ikincili məhsullar- müxtəlif aldehidlər, malondialdehid (MDA) və 4-hidroksinonenal (4-HNE) əmələ gəlir. Bu məhsullar arasında MDA mutagen xüsusiyyətləri və yüksək reaktivliyi ilə fərqlənərək oksidativ stressin etibarlı biomarkeri kimi qəbul olunur (Ayala, Muñoz, Argüelles, 2014).

Tiobarbitur turşusu (TBA) ilə asan reaksiyaya girməsi, MDA-nın omeqa-3 və omeqa-6 piy turşularının peroksidləşməsinin təyinində geniş istifadə olunur. Yüksək toksikliyi və reaktivliyi səbəbindən MDA biotibb tədqiqatlarında və kliniki vəziyyətlərdə oksidativ stressi təyin edən ən etibarlı markerlərdən biri hesab olunur (Ayala, Muñoz, & Argüelles, 2014). Böyrəkdə ROS-in zədələyici təsirini neytrallaşdırmaq üçün bir neçə antioksidant sistem mövcuddur. Antioksidant sistemi iki əsas qrupa bölmək olar: Fermentativ və qeyri- fermentativ sistemlər (Irazabal, Torres, 2020). Bunların hər biri hüceyrə müdafiəsi və stressə adaptasiya proseslərində rol oynayır (Manful və b., 2025).

1. Fermentativ sistemə superoksid dismutazlar (SOD), katalaza, qlutation peroksidaza (QPx), qlutation reduktaza (QR), qlutation S-transferaza (QST), peroksiredoksin (PRX) və tioredoksin (TRX) daxildir.
2. Qeyri fermentativ sistemə isə askorbin turşusu, alfa-tokoferol, karotenoidlər, flavonoidlər və reduksiya olunmuş qlutation (QSH) kimi üzvi birləşmələr aiddir. (Irazabal & Torres, 2020).

Hüceyrədaxili qeyri- fermentativ antioksidant müdafiə sisteminin əsas komponenti olan QSH sistein tərkibli tripeptiddir, pentoz fosfat yolu vasitəsilə sintez edilən NADPH hesabına tənzimlənir, L-qlutamat, L-sistein və qlisindən sintez olunur. QSH qlutation peroksidaza (QSH-Px) və qlutation reduktaza (QSSQ-RD) fermentlərinin kataliz etdiyi redoks dövriyyəsində iştirak edir. Hüceyrənin redoks statusunun qiymətləndirilməsində [GSH]/[GSSG] nisbəti ən dəqiq göstərici hesab olunur, bu balansın pozulması yüksək oksidativ stressin yaranmasının göstəricisidir (Irazabal, Torres, 2020). QSH:QSSQ nisbəti, yerləşdiyi orqandan asılı olaraq, 100:1 ilə 20:1 arasında dəyişə bilər. Oksidativ stress nəticəsində bu nisbət bəzən 1-ə qədər azalır (Rai və b., 2021). Bu sistem yalnız sərbəst radikalları neytrallaşdırmır, həm də gen ekspressiyası, apaptoz və hüceyrə metobolizmi kimi həyati funksiyaların tənzimlənməsində mühüm rol oynayır (Irazabal & Torres, 2020).

**Tədqiqat**

Tədqiqatın məqsədi qlomerulonefritli xəstələrdə biokimyəvi tədqiqat metodlarından istifadə etməklə oksidstiv stressin göstəricisi olan MDA və antioksidant sistemin vəziyyətini əks etdirən reduksiya olunmuş qlutationun qan serumunda səviyyələrini təyin etməkdir. Böyrəyin funksional vəziyyətini təyin etmək üçün isə qan serumunda kreatinin miqdarını qiymətləndirməkdir.

Material və metodlar: Tədqiqat işimizə daxil etdiyimiz 60 nəfəri 3 qrupda təsnif etmişik. Qruplara daxil etdiyimiz xəstələrin yaş aralığı 30-80-dir. Qruplardan birincisi 10 nəfərdən ibarət praktiki sağlam olan şəxslərin daxil olduğu qrupdur. İkinci qrupa daxil olan 29 nəfər dializ alan qlomerulonefritli xəstələrin daxil olduğu terminal qrupdur. Üçüncü qrup isə 21 nəfərdən ibarət hemodializ almayan qlomerulonefritli xəstələrin daxil olduğu konservativ qrupdur. Qan serumunda malondialdehid (MDA) səviyyəsi tiobarbitur turşusu (TBA) ilə reaksiyaya əsaslanan spektrofotometrik üsulla təyin olundu. Reduksiya olunmuş qlutation (QSH) miqdarı Ellman reaktivindən (DTNB) istifadə edilərək qiymətləndirildi. Qan zərdabında kreatinin konsentrasiyası Bioscreen MS-2000 yarımavtomat biokimyəvi analizatoru vasitəsilə təyin edilmişdir.

## Nəticə

Qlomerulonefritli xəstələrdə lipid peroksidləşməsinin intensivliyi kəskin artmışdır. Belə ki, nəzarət qrupu ilə müqayisədə (2,85 ± 0,11nmol/l) MDA-nın qan zərdabındakı səviyyəsi konservativ qrupda 2,4 dəfə artaraq 6,72±0,13 nmol/l, terminal qrupda isə 2,8 dəfə artaraq 7,91±0,26 nmol/l təşkil etmişdir ($p< 0,001$). Bu, xəstəliyin terminal mərhələsində oksidstiv stressin daha da intensivləşdiyini göstərir. Bununla yanaşı orqanizmin antioksidant müdafiə sistemi zəifləmişdir. Reduksiya olunmuş

qlutationun Reduksiya olunmuş qlutationun (QSH) miqdarı nəzarət qrupu (0,55±0,01 mkmol/l) ilə müqayisədə konservativ qrupda 1,4 dəfə azalaraq 0,39±0,01 mkmol/l, terminal qrupda isə 1,36 dəfə azalaraq 0,405±0,021 mkmol/l təşkil etmişdir (p< 0,001).

**Cədvəl 1. Tədqiqat qruplarında MDA və QSH göstəricilərinin təyini.**

| Göstəricilər | Kontrol qrup n=10 | Konservativ qrup n=21 | Terminal qrup n=29 | P dəyəri |
|---|---|---|---|---|
| MDA, nmol/ml | 2,85±0,11 | 6,72±0,13 | 7,91±0,26 | p<0,001 |
| QSH, mkmol/l | 0,55±0,01 | 0,39±0,01 | 0,405±0,021 | p<0,001 |

Hemodializ almayan qlomerulonefritli xəstələrdə kreatinin səviyyəsi nəzarət qrupu (82,5±2,41) ilə müqayisədə 7,7 dəfə artaraq 635,47±19,4 mkmol/l-ə çatmışdır (p< 0,001). Terminal qrupa daxil olan hemodializ alan qlomerulonefritli xəstələrdə isə kreatinin göstəricisi nəzarət qrupundan 10,2 dəfə yüksək olaraq 845,076±15,7 mkmol/l qeydə alınmışdır (p< 0,001). Terminal və konservativ qruplarının müqayisəli analizinin nəticələrinə görə, hemodializ alan xəstələrdə kreatinin səviyyəsi hemodializ almayan xəstələrlə müqayisədə 1,32 dəfə yüksəkdir.

Əldə olunan nəticələr göstərir ki, qlomerulonefrit xəstəliyinin proqresivləşməsi, xüsusilə terminal mərhələdə güclü oksidativ stress və antioksidant sisteminin (qlutation həlqəsinin) zəifləməsi böyrək toxumasının zədələnməsini sürətləndirir. Bu isə öz növbəsində azot mübadilə məhsullarının, kreatinin qanda toplanmasına və böyrək çatışmazlığının formalaşmasına gətirib çıxarır. MDA və QSH göstəriciləri xəstəliyin ağırlıq dərəcəsini qiymətləndirmək üçün informativ markerlər hesab oluna bilər.

## Ədəbiyyat

1. Angeletti, A., Bruschi, M., Kajana, X., Spinelli, S., Verrina, E., Lugani, F., Caridi, G., Murtas, C., Candiano, G., & Prunotto, M. (2023). Mechanisms limiting renal tissue protection and repair in glomerulonephritis. *International Journal of Molecular Sciences, 24*, 8318. https://doi.org/10.3390/ijms24098318
2. Anders, H. J., Kitching, A. R., Leung, N., & Romagnani, P. (2023). Glomerulonephritis: Immunopathogenesis and immunotherapy. *Nature Reviews Immunology, 23*(7), 453–471. https://doi.org/10.1038/s41577-022-00816-y
3. Ayala, A., Muñoz, M. F., & Argüelles, S. (2014). Lipid peroxidation: Production, metabolism, and signaling mechanisms of malondialdehyde and 4-hydroxy-2-nonenal. *Oxidative Medicine and Cellular Longevity, 2014*, 360438. https://doi.org/10.1155/2014/360438
4. Bülbül, M., Oner, A., Demircin, G., & Erdoğan, O. (2008). Oxidative stress in children with acute glomerulonephritis. *Renal Failure, 30*(2), 209–214. https://doi.org/10.1080/08860220701813319
5. Irazabal, M. V., & Torres, V. E. (2020). Reactive oxygen species and redox signaling in chronic kidney disease. *Cells, 9*(6), 1342. https://doi.org/10.3390/cells9061342
6. Krata, N., Foroncewicz, B., Zagożdżon, R., Moszczuk, B., Zielenkiewicz, M., Pączek, L., & Mucha, K. (2021). Peroxiredoxins as markers of oxidative stress in IgA nephropathy, membranous nephropathy and lupus nephritis. *Archivum Immunologiae et Therapiae Experimentalis, 70*(1), 3. https://doi.org/10.1007/s00005-021-00638-1
7. Ling, X. C., & Kuo, K. L. (2018). Oxidative stress in chronic kidney disease. *Renal Replacement Therapy, 4*, 53. https://doi.org/10.1186/s41100-018-0181-8
8. Manful, C. F., Fordjour, E., Subramaniam, D., Sey, A. A., Abbey, L., & Thomas, R. (2025). Antioxidants and reactive oxygen species: Shaping human health and disease outcomes. *International Journal of Molecular Sciences, 26*, 7520. https://doi.org/10.3390/ijms26157520

9. Rai, S. R., Bhattacharyya, C., Sarkar, A., Chakraborty, S., Sircar, E., Dutta, S., & Sengupta, R. (2021). Glutathione: Role in oxidative/nitrosative stress, antioxidant defense, and treatments. *ChemistrySelect, 6*(18), 4566–4590. https://doi.org/10.1002/slct.202100773
10. Romagnani, P., Kitching, A. R., Leung, N., & Anders, H. J. (2023). The five types of glomerulonephritis classified by pathogenesis, activity and chronicity (GN-AC). *Nephrology Dialysis Transplantation, 38*(Suppl. 2), ii3–ii10. https://doi.org/10.1093/ndt/gfad067
11. Tejchman, K., Kotfis, K., & Sieńko, J. (2021). Biomarkers and mechanisms of oxidative stress—Last 20 years of research with an emphasis on kidney damage and renal transplantation. *International Journal of Molecular Sciences, 22*, 8010. https://doi.org/10.3390/ijms22158010
12. Wiewiórska-Krata, N., Moszczuk, B., Tańska, J., Knioła, E., Grywalska, E., Pączek, L., Foroncewicz, B., & Mucha, K. (2025). Serum peroxiredoxins reflect oxidative stress and predict renal outcomes in patients with glomerulonephritis. *International Journal of Molecular Sciences, 26*(16), 7708. https://doi.org/10.3390/ijms26167708

Daxil oldu: 04.10.2025
Qəbul edildi: 07.12.2025

DOI: https://doi.org/10.36719/2663-4619/124/177-183

**Lalə Rüstəmova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
texnika üzrə fəlsəfə doktoru
https://orcid.org/0000-0002-5378-6954
lala.rustamova.1967@mail.ru
**Süleyman Məmmədov**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0001-7167-5625
suleyman.mamedov.54@mail.ru
**Nurlanə Atakişiyeva**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0009-0003-5550-8311
nurlaneatakishiyeva@gmail.com
**Vüqarə Məmmədova**
V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu
https://orcid.org/0000-0001-8388-9383
ms.vuqare@mail.ru
**Lalə Rəşidova**
Azərbaycan Universiteti
https://orcid.org/0009-0006-9162-3247
lale_rashidova@au.edu.az

# Quba-Xaçmaz iqtisadi rayonunda su çiçəyi infeksiyasına görə epidemioloji vəziyyət

## Xülasə

*Quba-Xaçmaz iqtisadi rayonunda 2021–2022-ci illərdə su çiçəyi infeksiyası ilə xəstələnmənin epidemioloji xüsusiyyətlərinin öyrənilməsi.*

Tədqiqat işi dizayna görə retrospektiv epidemioloji tədqiqatdır. Tədqiqat işində 2021–2022-ci illərdə Quba-Xaçmaz iqtisadi rayonunda uşaq və yetkin yaşlı əhali arasında su çiçəyi infeksiyası ilə xəstələnmənin mütləq sayı haqqında rəsmi statistik məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 09.12.2010-cu il tarixli 19/5 №-li Sərəncamı ilə təsdiq edilmiş "Yoluxucu və parazitar xəstəliklər haqqında" 1 nömrəli hesabat formasından əldə edilmişdir. Tədqiqat işində Quba-Xaçmaz (Quba, Xaçmaz, Qusar, Siyəzən və Şabran) iqtisadi rayonunda su çiçəyi infeksiyası ilə xəstələnmənin mütləq sayı əsasında yaş, cins, mövsümilik, intensivlik və ekstensivlik göstəriciləri təyin edilmişdir. Retrospektiv epidemioloji təhlilin nəticələri göstərir ki, həm 2021-ci ildə, həm də 2022-ci ildə Quba-Xaçmaz iqtisadi rayonunda su çiçəyi infeksiyası ilə xəstələnmə hallarının sayı qadınlar arasında kişilərə nisbətən az olmuşdur. 0–17 yaş uşaqlar arasında su çiçəyi ilə xəstələnmə sayı 18 yaşdan yuxarı yaş qrupu ilə müqayisədə 2021-ci ildə 2022-ci ilə nisbətən 2 dəfədən artıq olmuşdur. 2021-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin ən yüksək intensivlik göstəricisi hər 1000 nəfər əhaliyə 2,6 nəfər olmaqla Şabran rayonunda, 2022-ci ildə hər 1000 nəfər əhaliyə 10,2 nəfər olmaqla yenə də Şabran rayonunda aşkar olunmuşdur. 2021-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin maksimal həddi 89,0% olmaqla yaz mövsümündə Şabran rayonunda, 2022-ci ildə 75,5% olmaqla payız fəslində Xaçmaz rayonunda müşahidə olunmuşdur.

ÜST-in 05 sentyabr 2018-ci il tarixində yenilənmiş *"Su çiçəyinə görə idarə olunan infeksiyaların epidemioloji nəzarətinin standartları"* adlı sənəddə hər il dünyada 4,2 milyon ağır və ağırlaşmış su çiçəyi hallarının və 4200 letal halların qeyd olunduğu bildirilir.

***Açar sözlər:*** *su çiçəyi infeksiyası, retrospektiv epidemioloji təhlil, epidemik proses, epidemioloji nəzarət, risk qrupu, risk amili*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Lala Rustamova**
V.Y.Akhundov Scientific Research Institute of Medical Prevention
PhD in Engineering
https://orcid.org/0000-0002-5378-6954
lala.rustamova.1967@mail.ru
**Suleyman Mammadov**
V.Y.Akhundov Scientific Research Institute of Medical Prevention
https://orcid.org/0009-0001-7167-5625
suleyman.mamedov.54@mail.ru
**Nurlane Atakishiyeva**
V.Y.Akhundov Scientific Research Institute of Medical Prevention
https://orcid.org/0009-0003-5550-8311
nurlaneatakishiyeva@gmail.com
**Vugare Mammadova**
V.Y.Akhundov Scientific Research Institute of Medical Prevention Institute
https://orcid.org/0000-0001-8388-9383
ms.vuqare@mail.ru
**Lala Rashidova**
Azerbaijan University
https://orcid.org/0009-0006-9162-3247
lale_rashidova@au.edu.az

# Epidemiological Situation of Chickenpox Infection in the Guba–Khachmaz Economic Region

## Abstract

*The study examines the epidemiological characteristics of chickenpox infection in the Quba–Khachmaz economic region during the years 2021–2022.*

According to its design, this research is a retrospective epidemiological study. Official statistical data on the absolute number of chickenpox cases among children and adults in the Quba–Khachmaz economic region for 2021–2022 were obtained from Form No. 1, “On Infectious and Parasitic Diseases”, approved by Decree No. 19/5 dated December 9, 2010, of the State Statistical Committee of the Republic of Azerbaijan.

Based on the absolute number of chickenpox cases recorded in the Quba–Khachmaz (Quba, Khachmaz, Gusar, Siyazan, and Shabran) economic region, indicators related to age, sex, seasonality, intensity, and extensiveness of the disease were determined.

The results of the retrospective epidemiological analysis show that in both 2021 and 2022, the number of chickenpox cases was lower among women compared to men. Among children aged 0–17, the number of chickenpox cases in 2021 was more than twice as high compared to individuals aged 18 and above, and also more than in 2022.

In 2021, the highest intensity indicator of chickenpox infection was recorded in Shabran district at 2.6 cases per 1,000 population, and in 2022, again in Shabran district, at 10.2 cases per 1,000 population.

The seasonal maximum was observed in Shabran district in the spring of 2021 with 89.0%, and in Khachmaz district in the autumn of 2022 with 75.5%.

According to the WHO document updated on September 5, 2018, titled “Standards for Epidemiological Surveillance of Vaccine-Preventable Diseases”, it is reported that annually, 4.2 million severe and complicated chickenpox cases and 4,200 fatal cases occur worldwide.

***Keywords:*** *chickenpox infection, retrospective epidemiological analysis, epidemic process, epidemiological surveillance, risk group, risk factor*

## Giriş

Kəskin respirator virus infeksiyaları (KRVİ) tənəffüs yolları və ağciyərlərin iltihabı xəstəlikləri olub, 200-dən artıq virus növü tərəfindən törədilir. KRVİ infeksion xəstələnmə strukturunda yayılmasına və xüsusi çəkisinə görə birinci yerdədir. Bütün kəskin respirator xəstələnmənin 50%-i KRVİ-lərin payına düşür. Hər il dünyada müxtəlif respirator viruslar tərəfindən 500 milyondan çox xəstələnmə halı qeydə alınır ki, bunun da çox hissəsi su çiçəyinin payına düşür (Babachenko, Kozyrev, & Sharipova, 2021; *Global'naya strategiya po grippu*, 2019). ÜST 05 sentyabr 2018-ci il tarixində yenilənmiş "Su çiçəyinə görə idarə olunan infeksiyaların epidemioloji nəzarətinin standartları" adlı sənəddə hər il dünyada 4.2 milyon ağır və ağırlaşmış su çiçəyi hallarının və 4200 letal halların qeyd olunduğu bildirilir (Ayoade et al., 2020; CDC, 2015; *Varicella 2*, 2018). ÜST təyininə görə su çiçəyi nisbətən xoşxassəli xəstəlik hesab olunmasına baxmayaraq, onun törədicisi Varicella Zoster virusu yüksək yoluxduruculuq qabiliyyətinə malik olub, havada 20 m məsafəyə qədər yayıla bilir və həssas təbəqə üçün yoluxma riski 90% təşkil edir (Amimova, Kochemirova, & Manzullina, 2023; *Memorandum VOZ po vetryanoy ospe*, 2014; Rice et al., 2018; Sitnik, Shteynke, & Gabbasova, 2018). Birincili infeksiyadan sonra virus sinir hüceyrələrində gizli qalır və sonradan daha ciddi ikincili infeksiyaya, herpes zosterə (xətt) səbəb olmaq üçün yenidən aktivləşə bilər (Domonova, 2020; Kennedi & Gershon, 2018; Kol'tsovo, Domonova, & Sil'veystrova, 2021). Varisellanın qarşısını aktiv immunizasiya ilə almaq olar və su çiçəyi peyvəndi indi lisenziyaya malikdir və monovalent kimi və ya qızılca, parotit və məxmərək peyvəndləri ilə birləşdirilir (*Sanitarno-epidemiologicheskiye pravila SP 3.1.3525-18 «Profilaktika vetryanoy ospy i opoyasyvayushchego lishaya»*, 2018). Bunun əksinə olaraq, Çindəki su çiçəyi peyvəndi II kateqoriya peyvəndidir və pulsuz deyildir. Sakinlər peyvənd olunmaq istəyib-istəməməyi seçə bilərlər və bu, iqtisadi imkanları məhdud olanlar üçün milli genişləndirilmiş immunizasiya proqramına daxil edilmir. Səhiyyə Nazirliyi tərəfindən sadalanan milli yoluxucu xəstəliklərdən fərqli olaraq, su çiçəyi sistematik şəkildə idarə olunmur və monitorinq edilmir. Çində 2005-ci ildən 2015-ci ilə qədər illik orta su çiçəyi xəstəliyinə yoluxma 30% artmış və suçiçəyi xəstələrinin sayı hələ də artmaqdadır (Siu et al., 2019).

**Tədqiqat**

Azərbaycanda su çiçəyinə qarşı vaksinasiya həyata keçirilmədiyindən bu infeksiyaya görə epidemioloji vəziyyətin təhlil edilməsi çox aktual və vacibdir. Azərbaycan Respublikasının müxtəlif iqtisadi rayonlarında hər il kəskin respirator xəstəliklər, yuxarı tənəffüs yollarının virus mənşəli bəzi infeksiyaları ilə xəstələnmə haqqında statistik məlumatlar toplanır. Lakin bu statistik məlumatların epidemioloji təhlili, qeyd olunan infeksiyaların epidemik prosesinin gedişi və xüsusiyyətlərinin araşdırılması aparılmır. Xüsusilə Covid-19 pandemiyası dövründə (2020–2022-ci illər) respublikanın şəhər və rayonlarında əhali arasında yuxarı tənəffüs yollarının bakterial və virus mənşəli bəzi infeksiyaları ilə xəstələnmə səviyyəsinin analitik və təsviri epidemioloji təhlilinin aparılması, mövcud epidemioloji vəziyyətin dəyərləndirilməsi və risk qiymətləndirilməsi, profilaktik və əks-epidemik tədbirlər kompleksinin işlənib hazırlanması və qeyd olunan infeksiyalara görə epidemioloji nəzarətin təşkili və həyata keçirilməsi üçün çox vacib məlumat bazasıdır (*Vetryanaya ospa: standarty nadzora za boleznyami, preduprezhdayemymi vaktsinatsiyey*, 2018).

Quba–Xaçmaz iqtisadi rayonunda 2021–2022-ci illərdə su çiçəyi infeksiyası ilə xəstələnmənin epidemioloji xüsusiyyətlərinin öyrənilməsi. Tədqiqat işi dizayna görə retrospektiv epidemioloji tədqiqatdır. Tədqiqat işində 2021–2022-ci illərdə Quba–Xaçmaz iqtisadi rayonunda uşaq və yetkin yaşlı əhali arasında su çiçəyi infeksiyası ilə xəstələnmənin mütləq sayı haqqında rəsmi statistik məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 09.12.2010-cu il tarixli 19/5 №-li Sərəncamı ilə təsdiq edilmiş "Yoluxucu və parazitar xəstəliklər haqqında" 1 nömrəli hesabat formasından əldə edilmişdir. Tədqiqat işində Quba–Xaçmaz (Quba, Xaçmaz, Qusar, Siyəzən və Şabran) iqtisadi rayonunda su çiçəyi infeksiyası ilə xəstələnmənin mütləq sayı əsasında yaş, cins, mövsümilik, intensivlik və ekstensivlik göstəriciləri təyin edilmişdir (Watanabe, Ochiai, No et al., 2017).

Quba–Xaçmaz iqtisadi rayonunda 2021–2022-ci illərdə əhali arasında su çiçəyi infeksiyası ilə xəstələnmənin retrospektiv epidemioloji təhlili göstərdi ki, bu iqtisadi rayona daxil olan inzibati rayonların hamısında qeydə alınmışdır. Belə ki, Quba rayonunda 2021-ci ildə 4 xəstə olmuş, Qusar rayonunda 2021–2022-ci illərdə əhali arasında su çiçəyi ilə xəstələnmə qeydə alınmamışdır. Ümumi hesabla bu iqtisadi rayonda 2021-ci ildə su çiçəyi infeksiyası ilə 227 nəfər, 2022-ci ildə isə 8 dəfə çox – 1900 nəfər xəstə aşkar edilmişdir. Həm 2021-ci il, həm də 2022-ci ildə su çiçəyi ilə xəstələnmənin mütləq sayı qadınlar arasında (83 və 742 nəfər) kişilərə nisbətən (144 və 1158 nəfər) daha az olmuşdur. 0–17 yaş uşaqlar arasında su çiçəyi ilə xəstələnmə sayı 18 yaşdan yuxarı yaş qrupu ilə müqayisədə 2021-ci ildə 2022-ci ilə nisbətən 2 dəfədən artıq olmuşdur (2021-ci ildə 164 və 63 nəfər; 2022-ci ildə 1328 və 572 nəfər).

**2021-2022-ci illərdə Quba-Xaçmaz iqtisadi rayonunda su çiçəyi infeksiyasının yaş qrupları üzrə strukturu.**

| S.N | Quba-Xaçmaz iqtisadi rayonu | İllər | Xəstə sayı | O cümlədən | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | qadınlar | kişilər | 0-17 yaş uşaqlar | onlardan | | | | 18 yaş və yuxarı |
| | | | | | | | 0-1 yaş | 1-4 yaş | 5-13 yaş | 14-17 yaş | |
| 1 | Xaçmaz | 2021 | 61 | 2 | 59 | 13 | 0 | 0 | 4 | 9 | 48 |
| | | 2022 | 1003 | 405 | 598 | 653 | 0 | 47 | 489 | 148 | 350 |
| 2 | Quba | 2021 | 4 | 0 | 4 | 0 | 0 | 0 | 0 | 0 | 4 |
| | | 2022 | 72 | 33 | 39 | 25 | 3 | 0 | 9 | 13 | 47 |
| 3 | Qusar | 2021 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| | | 2022 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| 4 | Siyəzən | 2021 | 12 | 0 | 12 | 12 | 0 | 0 | 0 | 12 | 0 |
| | | 2022 | 234 | 75 | 159 | 158 | 13 | 14 | 94 | 37 | 76 |
| 5 | Şabran | 2021 | 150 | 81 | 69 | 139 | 0 | 12 | 127 | 0 | 11 |
| | | 2022 | 591 | 229 | 362 | 492 | 24 | 29 | 352 | 87 | 99 |
| Yekun | | 2021 | 227 | 83 | 144 | 164 | 0 | 12 | 131 | 21 | 63 |
| | | 2022 | 1900 | 742 | 1158 | 1328 | 40 | 90 | 944 | 285 | 572 |

2021-2022-ci illərdə Quba-Xaçmaz iqtisadi rayonunda su çiçəyi infeksiyası ilə xəstələnmənin ekstensivlik və intensivlik göstəricilərinin müqayisəli təhlili aparılmışdır.




**Şəkil 1. Quba-Xaçmaz iqtisadi rayonu 2021-ci il (su çiçəyi - intensivlik, ekstensivlik üzrə).**

1 saylı şəkildən aydın olur ki, su çiçəyi infeksiyası ilə xəstələnmənin ən yüksək intensivlik göstəricisi hər 1000 nəfər əhaliyə 2,6 nəfər olmaqla Şabran rayonunda, ən aşağı intensivlik göstəricisi isə hər 1000 nəfər əhaliyə 0,02 nəfər olmaqla Quba rayonunda aşkar edilmişdir.

2022-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin yüksək intensivlik göstəricisi yenə də Şabran rayonunda (hər 1000 nəfər əhaliyə 10,2 nəfər) və ən aşağı intensivlik göstəricisi isə Quba rayonunda (hər 1000 nəfər əhaliyə 0,4 nəfər) qeydə alınmışdır.




**Şəkil 2. Quba-Xaçmaz iqtisadi rayonu 2022-ci il (su çiçəyi - intensivlik, ekstensivlik üzrə).**

2021-ci ildə Quba–Xaçmaz iqtisadi rayonunda əhali arasında qeydə alınan su çiçəyi infeksiyası ilə xəstələnmə səviyyəsinin mövsümdən asılı olaraq dəyişilməsinin təhlili aparılmışdır. Məlum olmuşdur ki, su çiçəyi infeksiyası ilə xəstələnmənin maksimal həddi 89,0% olmaqla yaz mövsümündə Şabran rayonunda, minimal həddi isə 3,1% olmaqla qış mövsümündə Quba rayonunda müəyyən edilir (şəkil 3).




**Şəkil 3. Quba-Xaçmaz iqtisadi rayonu 2021-ci il (su çiçəyi - mövsüm üzrə).**

2022-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin yüksək səviyyəsi Xaçmaz rayonunda payız fəslinə 75,5%), aşağı səviyyəsi Quba rayonunda qış fəslinə (3,4%) təsadüf edir. (şəkil 4)




**Şəkil 4. Quba-Xaçmaz iqtisadi rayonu 2022-ci il (su çiçəyi - mövsüm üzrə).**

## Nəticə

Retrospektiv epidemioloji təhlilin nəticələri göstərir ki, həm 2021-ci ildə, həm də 2022-ci ildə Quba–Xaçmaz iqtisadi rayonunda su çiçəyi infeksiyası ilə xəstələnmə hallarının sayı qadınlar arasında kişilərə nisbətən az olmuşdur. 0–17 yaş uşaqlar arasında su çiçəyi ilə xəstələnmə sayı 18 yaşdan yuxarı yaş qrupu ilə müqayisədə 2021-ci ildə, 2022-ci ilə nisbətən 2 dəfədən artıq olmuşdur.

2021-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin ən yüksək intensivlik göstəricisi hər 1000 nəfər əhaliyə 2,6 nəfər olmaqla Şabran rayonunda, 2022-ci ildə isə hər 1000 nəfər əhaliyə 10,2 nəfər olmaqla yenə də Şabran rayonunda aşkar olunmuşdur.

2021-ci ildə su çiçəyi infeksiyası ilə xəstələnmənin maksimal həddi 89,0% olmaqla yaz mövsümündə Şabran rayonunda, 2022-ci ildə isə 75,5% olmaqla payız fəslində Xaçmaz rayonunda müşahidə olunmuşdur.

ÜST 05 sentyabr 2018-ci il tarixində yenilənmiş "Su çiçəyinə görə idarə olunan infeksiyaların epidemioloji nəzarətinin standartları" adlı sənəddə hər il dünyada 4,2 milyon ağır və ağırlaşmış su çiçəyi hallarının və 4200 letal halların qeyd olunduğu bildirilir.

Quba–Xaçmaz iqtisadi rayonunda 2021–2022-ci illərdə su çiçəyi infeksiyası ilə xəstələnmənin epidemioloji xüsusiyyətlərinin öyrənilməsi.

Tədqiqat işi dizayna görə retrospektiv epidemioloji tədqiqatdır. Tədqiqat işində 2021–2022-ci illərdə Quba–Xaçmaz iqtisadi rayonunda uşaq və yetkin yaşlı əhali arasında su çiçəyi infeksiyası ilə xəstələnmənin mütləq sayı haqqında rəsmi statistik məlumatlar Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 09.12.2010-cu il tarixli 19/5 №-li Sərəncamı ilə təsdiq edilmiş "Yoluxucu və parazitar xəstəliklər haqqında" 1 nömrəli hesabat formasından əldə edilmişdir.

